AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
akad. H.Ə.ƏLİYEV adına COĞRAFİYA İNSTİTUTU

EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ

# ELİN OĞLU

*Akademik H.Ə.Əliyev haqqında xatirələr*

*(İkinci nəşri)*

Nəşriyyat-Poliqrafiya Müəssisəsi
İsmayıl
2002

MEA-nın Botanika İnstitutunun
KİTABXANASI
İNV. № 22384

Az 2
E 46

Tərtib edənlər:
**BUDAQ BUDAQOV, ZAHİD ƏHMƏDOV**

Elmi redaktoru
**HÜSENQULU BAĞIROV**
*Professor*

Redaktoru
**ROZA KƏRİMOVA**

**ELİN OĞLU.** */Akademik Həsən Əliyev haqqında xatirələr. İkinci nəşri/* Bakı.«İSMAYIL» Nəşriyyat-Poliqrafiya Müəssisəsi, 2002 — 136 s.

Azərbaycan EA-nın həqiqi üzvü, kənd təsərrüfatı elmləri doktoru, professor. əməkdar elm xadimi, ABŞ-ın Tukson şəhərində yerləşən Ümumdünya Universitetinin fəxri elmlər doktoru Həsən Əlirza oğlu Əliyev tanınmış alim. görkəmli ictimai-siyasi və dövlət xadimi olmuşdur. Azərbaycanda Təbiəti Mühafizə Cəmiyyətinin yaradılması, bir çox təbiət yasaqlıqları və qoruqlarının təşkil edilməsi məhz akademik Həsən Əliyevin adı ilə bağlıdır.

Oxucular topluda uzun illər Həsən Əliyevlə birgə işləmiş, onunla ünsiyyətdə olmuş sənət, əqidə dostlarının, daha sonra tələbələrinin, onu yaxından tanıyanların bu sadə, səmimi , xeyirxah, zəhmətsevər insan haqqında xatirələri ilə tanış olacaqlar.

E $\frac{4502010000}{125}$ 2002

© "İsmayıl" Nəşriyyat-Poliqrafiya Müəssisəsi

# ÖN SÖZ ƏVƏZİ

*Otuz, əlli, səksən və daha çox illər ömür sürən kəslərə dünyadan köçəndən sonra müxtəlif tale qismət olur. Daha doğrusu, bu fiziki ömür kəsimində gerçəkləşmiş insan əməllərinin dəyəri sahibinə yaddaşlarda yaşayıb-yaşamamaq haqqı qazandırır.*

*Adam var hələ sağlığında varlığı ilə yoxluğu arasında fərq olmur, adam var ancaq özünün, ailəsinin, qohum-əqrəbasının qayğısına qalmaqla ömrünü başa vurur, adam da var ki, el-obasının, bütün xalqının ağrılarını yaşayır, sevincini bölüşdürür, gələcəyi qayğısına qalır. Axırıncılar hörmət və diqqətə, tarixə düşməyə layiqdirlər.*

*Millətin müəyyən səviyyəyə çatması, tərəqqisi yolunda əməyi olmuş belə şəxslərin ayrı-ayrı ömür kəsimi ilə bağlı faktları, xatirələri bir yerə yığıb bütövləşdirmək, keçdiyi həyat yolunu yazıda maddiləşdirmək vacibdir. Bu, haqqında yazılan kəsdən daha çox millət üçün zəruridir. Həm də bunu təxirəsalmadan, o kəsi tanıyanların hələ sağ olduğu bir dövrdə gercəkləşdirmək lazımdır. Biz unutqanıq, bugünkü işimizi sabaha qoyanıq. Milli səviyyədə başımıza gələn bəlaların çoxuna səbəb də elə budur.*

*Oxuculara təqdim olunan bu toplu sadə, nəcib, zəhmətsevər, yüksək duyuma malik olmuş bir insana — akademik Həsən Əlirza oğlu Əliyevə həsr edilmişdir.*

*Həsən müəllim ziddiyyətli dövr yaşamış və ağrılı-acılı bir ömür yolu keçmişdir. Yorulmaz zəhməti, güclü həvəsi, istəyi, inadkarlığı və taleyinin uğurlu qisməti nəticəsində zamanın mürəkkəb olaylarının bütün dolanbaclarından sağ-salamat çıxıb, həyatın zirvəsinə qalxa bilmişdir — akademik olmuş, el ağsaqqalı səviyyəsinə yüksəlmişdir.*

*Həsən müəllim Azərbaycanı, sözün həqiqi mənasında, qarış-qarış gəzmiş, sevmiş, adamları ilə yaxından təmasda olmuşdur. Onu tanıyanların, yaxınlıq edənlərin sayı-hesabı*

yox idi. Bu topluda Həsən müəllim haqqında onlardan yalnız bir qisminin xatirəsi və vaxtilə dövri mətbuatda getmiş yazılar verilmişdir. Toplunu vərəqlədikcə aydın olur ki, o, zəka sahiblərinin, zəhmət adamlarının, kimsəsizlərin dostu, dayağı olmuş, böyüklə böyük, kiçiklə kiçik kimi rəftar etmişdir.

Həsən müəllimin həyatının əsas amalı Azərbaycan təbiətinin mühafizəsi olmuşdur. Topluda gedən yazıların müəllifləri bu nəcib insanın həyatının müxtəlif anlarını, müxtəlif sahələrini işıqlandırsalar da, özlərindən asılı olmayaraq, Həsən müəllimlə bağlı bir məsələdə ümumi fikir söyləmək ehtiyacından — Azərbaycan təbiətinin gözəlliyini, bütövlüyünü olduğu kimi gələcək nəsillərə çatdırmaq ehtiyacından heç cür yan keçə bilməmişlər.

Bəzi Qərb təbiətşünaslarının fikrincə, bir çox sivilizasiyaların tarix səhnəsindən çıxmasının əsas səbəbi torpağa, bitki örtüyü və heyvanat aləminə zorakılıqla bağlı olmuşdur. Çağdaş dünyamızda, Azərbaycan hüdudlarında Həsən müəllim bu fikri çoxlarından əvvəl dərk etmiş və öz həyatını bütövlükdə bu xeyirxah işə sərf etmişdir. Bizcə, iyirminci yüzillikdə Azərbaycanda təbiəti mühafizə ideyasının üç nəfər ali daşıyıcısı olmuşdur: Nəcəf bəy Vəzirov, Həsən bəy Zərdabi və Həsən Əliyev.

Onu da deyək ki, təbiəti mühafizə ideyası Həsən müəllim üçün ideya olaraq qalmamış, əmələ çevrilmişdir. Həsən müəllim Təbiəti Mühafizə Cəmiyyəti yaratmış, yasaqlıqlar, qoruqlar təşkil etmiş, plantasiyalar, meşəliklər saldırmışdır. Topludakı yazıları oxuduqca hiss edirsən ki, bu qocaman alimin sevə-sevə saldırdığı meşələrdəki cavan tinglər illər keçdikcə boy ataraq inkişaf edəcək, əsrlərlə yaşı olacaq qollu-budaqlı nəhəng ağaclara çevriləcək, Həsən müəllimin ömrünü də uzadacaqdır. Və bu insan əsrlərlə yaşı olacaq bir ömür qazanacaqdır, əbədi bir ömür...

*Budaq Budaqov*

BUDAQ BUDAQOV
*Akademik*

# ELİN OĞLU

Hamımız üçün əziz, doğma, müqqəddəs sayılan bir peşə sahibi var. Məkan və zaman hüdudsuzluğuna malik bu uca peşənin sahibi müəllimdir.

Müəllim cəmiyyətin mizan-tərəzisi, insan mənəviyyatının ölçü vahididir. İnsanlar bütün zamanlarda müəllim sözünü ağır batmanla, böyük hörmət və izzətlə dəyərləndirmişlər. O, həmişə cəmiyyətin dadı-tamı, mayası, mayakı olmuşdur. Uşaqlar ayaqları yer tutub addım atandan, dili söz tutub danışan andan müəllim sözünün istisinə isinmiş, müqəddəsliyinə, ucalığına tapınmışlar.

Müəllim ustalığı, müəllim hövsələsi, xoş mənada, müəllim inadı damadama göl yaradır — bilik gölü, sonra bilik dənizi, bilik okeanı.

Müəllim öz öyrənclərinə təkcə bilik yox, həm də ədəb-ərkan dərsi verir, mərifət öyrədir, mədəniyyət aşılayır. Onlardan çıxan alov, isti daha gur olsun, aydınlıqların sərhədləri genişlənsin deyə, müəllim ömrü şam tək əriyib öz şagirdlərinin, tələbələrinin ömrünə qarışır — müəllim ömrü ömürlərdə yaşayır. Müəllim öz sevimli, fərasətli öyrənclər ilə, öyrənənlər isə öz istəkli, doğma müəllimləri ilə fəxr edirlər.

Dünya şöhrətli Nütondan soruşanda ki, elmdə belə nəhəng görünməyinin səbəbi nədir, o, tərəddüd etmədən iftixarla demişdi: "... mən müəllimim Dekartın çiyinləri üzərində dayanmışam". Qədirbilən Nüton müəllimi Dekartı dünyanın ən uca dağına — Comolonqma zirvəsinə bənzədir, özünü isə bu zirvədə dayanan şəxs kimi təsəvvür edir.

Teymurləng sevimli müəllimini xüsusi tikdirdiyi məqbərədə dəfn etdirmiş, qəbrinin üstünə qaranlıqda işıq saçan mərmərdən sinədaşı qoydurmuşdu. Öləndə vəsiyyət etmişdi ki, onu öz müəlliminin qəbrindən aşağıda — onun ayaq tərəfində dəfn etsinlər.

Hacı Zeynalabdin Tağıyev də Teymurləng kimi öz məzarını ustadının qəbrinin ayaq tərəfində qazdırmağı vəsiyyət etmişdi. Bununla Hacı çox təvazökarlıq etməklə alim-üləmaların hörmətini uca tutmuşdur. Mərdəkan qəsəbəsi yaxınlığında dəfn edilmiş H.Z.Tağıyevin və ustadı Əbu Turabın qəbirləri indi ziyarətgaha çevrilmşdir.

Saysız-hesabsız xəstəyə şəfa gətirmiş penisillin dərmanının yaradıcı-ı Fleminq demişdir: "... dünyada ən xoşbəxt adam müəlliminin qapısı həmişə onun üzünə açıq olan kəsdir".

Bir sözlə, müdrik adamlar müəlliminin qədir-qiymətini bilmiş, onu yüksək dəyərləndirmişlər. Mən də bu ənənəyə sadiq qalmağa çalışmışam. Hələ 1948-ci ildə mənə torpaq coğrafiyasından dərs demiş, sonralar eyni elmi-tədqiqat institutunda bərabər işləmiş müəllimim, akademik Həsən Əlirza oğlu Əliyevə tələbəlik haqqımı ödəməyə cəhd göstərmişəm. Onun həyat və yaradıcılığına, ictimai fəaliyyətinə həsr olunmuş bir sıra məqalələr yazmış, bir kitab çap etdirmişəm. Bu mənim tələbəlik borcumdur. Əgər bu borcun altından azacıq da olsa çıxa bilmişəmsə, deməli, mən də tarixi ənənəyə sadiq qalaraq qismən öz istəyimə çatmışam. Bu əməksevər müəllimin əziz xatirəsini yad etmək, haqqında yazmaq xalqımızın elm xəzinələrinin birindən yazmaq deməkdir. Azərbaycan elm xəzinəsinin məcmusunu təşkil edən ayrı-ayrı elm sahiblərinin şəxsiyyətini, yaradıcılığını təbliğ etmək Azərbaycan elmini təbliğ etmək deməkdir.

Mən ünsiyyətdə olduğum, elmi yaradıcılığından bəhrələndiyim şəxslər haqqında həmişə xatirə yazmağa çalışmışam.

Xatirə yazmaq yalnız haqqında söhbət açdığın adamın şəxsiyyətini, əməllərini deyil, həm də onun yaşadığı dövrün siyasi-ictimai mühitini, təmasda olduğu adamların adlarını tarixdə yaşatmaqdır.

Yazıya köçürülmüş, maddiləşdirilmiş xatirələrin ikinci və bəlkə də ən böyük əhəmiyyəti onların tərbiyəvi xarakterə malik olmasıdır. Görkəmli şəxslərin söylədikləri fikirlər, ünsiyyət zamanı verdikləri məsləhətlər, ağır və çətin anlarda başqalarının qolundan tutub həyan, dayaq olmaları və təmənna umulmayan çeşidli əməlləri oxucuların, xüsusən də gənclərin daxili dünyasının saflaşmasına, mənəviyyatının kamilləşməsinə köməkçi olur. İlk əvvəl müəllimim, sonra iş yoldaşım olmuş akademik Həsən Əlirza oğlu Əliyev haqqında söhbət açmaq, nəsə yazmaq isə həmişə məndə mənəvi məmnunluq doğurmuş, xoş duyğular yaratmışdır...

O, keçmiş Zəngəzur qəzasının ünyetməz, əlçatmaz ucqar bir kəndində — Comərdlidə dünyaya gəlmşdi. Həsən kiçik yaşlarından çox çevik, qoçaq, diribaş və əməksevər olmuş, ailənin böyük oğlu kimi atasının qolundan tutmuş, ona həyan durmuşdu. Böyüklərə məxsus qayğı, ailə dolanışığı onu uşaqlıq dünyasından tez ayırmışdı. Böyüklərsayağı qoyun otarmasını, kotan öküzlərinin boyunduruğunda inamla oturmasını görəndə çoxlarına elə gəlirdi ki, hələ sümükləri lazımınca bərkiməmiş Həsənin tale yolu artıq həll olunmuşdur. O vaxt kimin ağlına gələrdi ki, bu uşaq 1924-

cü ildə Naxçıvan şəhərində axşam məktəbinə daxil olacaq, 1930-cu ildə kənd Təsərrüfatı Məktəbini bitirəcək, 1932-ci ildə Gəncə Kənd Təsərrüfatı İnstitutunun tələbəsi olacaq və 1935-ci ildə keçmiş SSRİ EA Azərbaycan filialının Torpaqşünaslıq Bölməsinə elmi işçi qəbul ediləcək, 1941-1943-cü illərdə Böyük Vətən müharibəsində iştirak edəcək və yenidən doğma filiala qayıdacaqdır. Və nəhayət, o vaxt desəydilər ki, gün gələcək Həsən 1952-ci ildə akademik seçiləcək, Azərbaycan EA-nın akademik-katibi işləyəcək, heç kim inanmazdı.

Ağrılı-acılı bir insan ömrü yaşamış H.Ə.Əliyevin 800-ə qədər elmi məqalə, monoqrafiya, elmi-kütləvi əsərin müəllifi olması onu göstərir ki, bu narahat insanın elmi fəaliyyəti coşğun keçmiş və o, çox məhsuldar işləmişdir. Həsən müəllim bir gününü belə mənasız keçirməyi özünə bağışlamazdı.

Həsən müəllimin daxilində toplanmış çoxistiqamətli xidmət yanğısı onu tez-tez orta və ali məktəblərə, kənd və qəsəbələrə aparar, dağlara çıxarar, düzləri gəzdirər, təbiətin gözəlliklərini fotoşəkillərə köçürtdürərdi. Adamların arasında olmaq, onların istəkli qonağına və ya doğmasına çevrilmək, hər səfərdə bir məna axtarmaq və xeyir vermək niyyətini qəlbində tutmaq Həsən Əliyevin amalı, arzusuydu. Əməyinə, cüzi də olsa, verilən yerinə düşmüş qiymət ona mənəvi dayaq olardı.

Həsən müəllim həmsöhbətinin həyatından olaylara qulaq asmağı və onun əvəzində öz həyatından maraqlı, ibrətamiz səhnələr danışmağı çox sevərdi. O, bütün söhbətlərində, çıxışlarında şəxsi ünsiyyətində şifahi xalq ədəbiyyatından misallar çəkməyi çox xoşlardı. Atalar sözündən, zərbi-məsəllərdən ustalıqla istifadə edər, xalqın əsrlər boyu sınaqdan keçirdiyi tutarlı sözləri hədəfin düz gözündən vurardı.

Həsən müəllim Azərbaycanın bölgələrini qarış-qarış gəzib seyr etdiyindən, yeni-yeni torpaqlar görmək istəyinə düşərdi. O, keçmiş SSRİ-nin müxtəlif guşələrini gəzmiş, Antarktidadan savayı bütün qitələrdə olmuşdu. Beynəlxalq miqyasda torpaq, ətraf mühitin mühafizəsi və coğrafiya üzrə keçirilən elmi simpoziumların, konfransların və konqreslərin iştirakçısı olur, məruzələrlə çıxış edir, gördüklərini yazır, eşitdiklərini yadda saxlayır, xarakterik mənzərələri fotolentə köçürür və geriyə — Vətənə dönəndə zəngin materiallarla qayıdırdı. Həsən müəllimin məruzələri çox vaxt slaydlarla müşayiət olunduğundan dinləyicilərin yadında yaxşı qalırdı. Çünki dinləyici akademikin həm təəssüratını eşidir, həm də haqqında danışılan obyektin surətini ekranda görürdü. Onun güclü hafizəsi vardı, rəqəmlərə müraciət etməyi və bununla da dinləyiciləri heyrətə gətirməyi bacarırdı.

Həsən müəllimin torpaqşünaslıq, aqrokimya və coğrafiya elmləri sahəsində uğurları hədsizdir. Lakin onun ətraf mühitin mühafizəsi sahəsində gördüyü işlərin misli-bərabəri yoxdur. Ətraf mühitin mühafizəsinin həyatı vacibliyini hiss etdiyindən o, keçmiş SSRİ EA sistemində ilk dəfə olaraq Respublika EA Rəyasət Heyəti yanında təbiəti mühafizə şöbəsi açdı. Respublikada təbiəti mühafizə üzrə yaradılmış cəmiyyət, Azərbaycan Ali Sovetinin sessiyasında təbiəti mühafizə üzrə xüsusi məsələnin müzakirəyə qoyulması, Azərbaycan hökuməti tərkibində təbiəti mühafizə üzrə xususi komitənin yaradılması, Coğrafiya İnstitutunda təbiəti mühafizə şöbəsinin açılması birbaşa Həsən Əliyevin adı ilə bağlıdır.

20 il bundan əvvəl H.Ə.Əliyevin təkidi ilə yaradılmış və 15 ildən artıq bir zaman kəsimində baş redaktoru olduğu "Azərbaycan təbiəti" toplusu onun respublikamıza ən böyük töhfəsi idi. Bu illər ərzində topluda dərc edilmiş elmi, elmi-kütləvi məqalələr, elmi-təşkilati informasiyalar, ətraf mühitin mühafizəsinə dair dünya miqyasında görülən işlər haqqında verilən elmi xəbərlər Azərbaycan oxucularına geniş bilgilər vermiş və Azərbaycanda təbiətin düzgün qorunmasının təşkili işinə ciddi köməklik göstərmişdir. "Azərbaycan təbiəti"nin səhifələrində respublikanın nadir mənzərələrinə aid dərc edilmiş rəngli, həm də orijinal fotoşəkillər vətən təbiətinə məhəbbətin əvəzsiz əyani vəsaiti olmuşdur.

Həsən Əliyev Azərbaycan Respublikası ərazisinin torpaqlarını qarış-qarış gəzdiyindən, onun növlərinin həm üfüqi, həm də yüksəklik istiqamətində yayıldığını yaxşı bildiyindən torpaqdan səmərəli istifadə işinin düzgün təşkilinə çox ciddi fikir verirdi. Bu məqsədlə o öz əməkdaşlarını istifadəsiz qalmış torpaqların tədqiqinə yönəldər və həmin ərazilərdən üzümçülükdə, bağçılıqda, ot əkinində istifadə etməyi tövsiyə edərdi. Belə hallarda alimin yeganə məqsədi xalqın güzəranının yaxşılaşdırılmasına xidmət etmək idi. Torpaqdan səmərəli istifadə etmək işində Həsən müəllimin təcrübəsi və səriştəsi böyük idi.

Həsən müəllim ayda bir neçə dəfə camaat arasına çıxmasa, onlarla görüşməsə, özünü narahat hiss edərdi. Şənbə və bazar günləri təbiətin görüşünə getməyi, gerçək həyatla tanış olmağı özünə borc bilərdi. Bu onun gündəlik həyat normasına çevrilmişdi. Odur ki, Həsən Əliyevdə həmişə tər-təzə informasiya olardı. O, həm elmdə, həm də həyatda özünün bütün imkan və bacarığından maksimum istifadə edirdi.

Həsən Əliyev elmdə olduğu kimi, həyatda da öz ədalətli sözünü demək bacarığına qabil idi. O, müzakirə edilən məsələlərdə haqsızlığa qarşı üsyan edər, haqlı adamlara kömək əlini uzatmaqdan çəkinməzdi. Belə halda

özünü, gələcək taleyini düşünməzdi. Həsən müəllimi düşündüyünü demək cürətinə, əzilənləri qorumaq istəyinə görə sevənlər çox idi.

Həsən Əliyev təbiətən demokratik fikirli şəxsiyyət idi. O, haqqı, ədaləti tapdamağa çalışanlara vaxtında öz yerini göstərməyi bacarırdı. Özünün haqlı tələbi yerinə yetirilmədikdə vulkan kimi püskürürdü. İnandığı, saf əməllərinə böyük ümidlər bağladığı şəxslərə arxa olmağa çalışırdı. Əgər onlardan kimsə Həsən müəllimin ümidini doğrultmurdusa, o, belələrinə qarşı barışmaz olurdu. Əmək intizamı Həsən Əliyevin canına, qanına, iliyinə işləmişdi. O, bir gün nədir, bir neçə saat işdə olmadıqda belə özünü çox narahat hiss edər və mənim iş yerimdə olub-olmadığımı yoxlardı (o vaxt mən Coğrafiya İnstitutunun elmi işlər üzrə direktor müavini idim).

Həsən Əliyev qabiliyyətli və istedadlı alimlərin hər birinə öz qiymətini verməyi bacarır, gənc alimləri böyük elmi problemlərin həllinə həvəsləndirirdi. O, həmişə zəhmətkeş balalarını işə götürməyə daha çox üstünlük verirdi.

Həsən müəllim ancaq Əliyevlər nəslinin ağsaqqalı yox, həm də respublikamızda təbiət və Yer haqqında elmlər sisteminin başında duran azmanlardan biri idi.

Dünyasını dəyişmiş görkəmli alimləri illər bizdən uzaqlaşdırır. Lakin həyatımızın bir çox sahələrində onların yoxluğu özünü çox qabarıq göstərir. Həsən Əliyevin yeri onun uzun illər başçılıq etdiyi institutda, qartallar yuvası Çıraqqalanın ətəyində, quru meliorasiyadan yaranmış arid antropogen meşələrində, aspirant olarkən ilk elmi işə başladığı Nəvahi düzündə, torpağını qarış-qarış öyrəndiyi Qonaqkənd dağlarında, Şamaxının, Cəlilabadın üzüm plantasiyalarında, müxtəlif səviyyəli ictimaiyyət və kollektivlər arasında, Akademiyanın mühüm toplantılarında, dövri mətbuatda görünür.

Həsən müəllim kəndli təbiətini, fəhlə işgüzarlığını, alim müdrikliyini özündə toplamışdı. O, millətimizə arxa, torpağımıza dayaq idi. Bu sadə qəlbli alim, böyük insan yetişdirdiyi onlarla elmlər namizədi və elmlər doktorunun, bu gün onun adını daşıyan Coğrafiya İnstitutu əməkdaşlarının qəlbində, elmi yaradıcılığında yaşayır və yaşayacaqdır.

Allah sənə rəhmət eləsin, Həsən müəllim.

MƏMMƏD ARAZ
*Xalq şairi*

# BÖYÜK ALİM, BÖYÜK İNSAN

Mən bu kiçik yazımı o böyük alimin, böyük insanın fəaliyyəti haqqında xatirə hesab eləmirəm. Sadəcə olaraq, ölümündən sonra ona verilən mükafata əks-səda sayıram bu kiçik yazımı.

20 ilə yaxın bir müddət onunla görüşüm olub, daha doğrusu, 20 ilə yaxın bir müddətdə onunla birlikdə jurnal nəşr etmişik, çətinliyimizin, qayğılarımızın böyük hissəsini o öz çiyninə götürüb. Onun bu kəlamını heç vaxt unuda bilmirəm. O deyərdi: "Sən poeziyaya həsr etdiyin gücünü jurnala həsr eləmə, sən bizə şair kimi daha çox lazımsan. İşçilərə tapşırığını ver, qoy onlar lazım gələndə məni narahat eləsinlər".

Ömür möhlət versə, gələcəkdə onunla bağlı xatirələrimi daha geniş yazacağam.

Keçən ilin dekabrında Ekologiya Komitəsi yeni bir mükafatın bünövrə daşını qoydu. Uzun müddət təbiətin mühafizəsi yolunda xüsusi xidməti olanlar arasında Azərbaycan Təbiəti Mühafizə Cəmiyyətinin, "Azərbaycan təbiəti" jurnalının yaradıcısı mərhum akademik Həsən Əliyevin bu mükafata layiq görülməsi (ölümündən sonra) çox şey deyir.

Həsən Əliyev böyük alim, böyük vətəndaş və böyük insan idi. O, həm də dünya miqyasında tanınan alimlərimizdəndi. Dünya səviyyəsində təbiəti mühafizəyə, ekologiyaya dair keçirilən elə mühüm yığıncaq olmazdı ki, H.Əliyev ora dəvət olunmasın, orada çıxış eləməsin.

O, şeri-sənəti gözəl başa düşən, şair qələminə dərin hörməti olan bir ziyalı, çox sərrast qələmi olan jurnalist idi.

Əsrin 20-ci illərinin sonlarında "Molla Nəsrəddin" jurnalının fəal əməkdaşı olmuşdu. O heç vaxt bu barədə danışmazdı. Hərdən o illərdən xatirə söylərdi. Azərbaycan torpağını isə qarış-qarış gəzən, öyrənən tədqiqatçılardan biri, bəlkə də birincilərdən biri idi. O, təkcə yazmırdı, tədqiq etmirdi; bir əli qələmdə, bir əli telefon dəstəyində nə isə deyirdi, göstəriş verirdi, təbliğ edirdi, təkid edirdi, uçuruma gedən hansısa təbiət parçasını ölümdən xilas edirdi. O, yüksək professional səviyyəli fotoqraf idi. Bu işdən zövq alırdı, bu iş həm də onun təbiəti dağıdanlara və onlara biganə olanlara qarşı mübarizə vasitəsi idi. Onun arxivi ilə tanış olanlar belə bir xəzinəni görəndə heyrətə gəlməyə bilmirdilər. Dediyim kimi, bu onun

üçün bir həvəs deyildi — bu onun elmi fəaliyyətinə, mübarizəsinə, vətəndaşlığına xidmət edirdi. Onun Azərbaycan torpağına xidmətini, Azərbaycan torpağına sevgisini, mübaliğəsiz, H.B.Zərdabi ilə müqayisə etmək olardı. Sanki onun qulaqları həmişə torpağa söykəli idi, daim bu torpağın nəbzinə qulaq asır, torpağın dərdini-ağrısını dinləyirdi.

Bəzən adama elə gəlirdi ki, Azərbaycan təbiətində hər şeyi öz əlləri ilə yerbəyer eləmişdi; Sultanbud meşəsinin də, Eldar şamı qoruğunun da, respublikanın neçə rayonunda yaşı mini adlamış neçə çinarın, Naxçıvan-Şərur yolunda qalmış yeganə narbəndin də "müəllifi" onun özüdür.

Azərbaycan torpaqşünaslıq elmi öz yaranışı, inkişafı, tədqiqat yolu üçün həmişə H.Əliyevin ruhuna baş əyməlidir; o, bu elmin dirəklərindən biri olmuş və ömrünün sonuna qədər birincilər cərgəsində bu şərəfli yükü daşımaqdan yorulmamışdır. O, bu elmin bütün potensialını, bütün təmayülünü, elmi-nəzəri vəzifələrini təbiəti mühafizə ilə, içində yaşadığımız bioloji dövranla, ətraf mühitlə birləşdirmiş, ayrı-ayrılıqda mövcud olan bu elmlərin hamısının son nəticədə bir məqsədə, bəşəriyyətin yaşamasına xidmət etdiyini, bu aydın həqiqəti sübut eləməyə yönəlmişdi. Bu ikicə kəlməlik "insan yaşamalıdır" sözü üçün ömrü boyu həyəcan təbili çalmağı özünə borc bilmişdi.

H.Əliyev xalqın oğlu səviyyəsinə yüksələn, öz əli ilə özünə abidə qoyan alimlərdən biri idi. Odur ki, elmin ona verdiyi mükafat elin mükafatıdır. Ruhuna əyan olub yəqin ki... Ruhunuza üz tutub Sizi təbrik edirəm, Həsən müəllim! 20 ilə yaxın bir müddətdə Sizin redaksiya kollektivi ilə ata-oğlu münasibətiniz olmuşdu, indi bütün kollektiv "qəbrin nurla dolsun", — deyir.

Azərbaycan təbiətinin saflığı, Azərbaycan torpağının qorunub saxlanması uğrunda apardığınız mübarizəni indi Sizin əsərləriniz davam etdirir. Bundan da şərəfli ömür ola bilməz. Bir daha təkrar edirəm: elmin mükafatı elin mükafatıdır. Siz elmin böyük nümayəndəsi, elin böyük oğlusunuz!

Mən H.Əliyev haqqında bir neçə dəfə yazmışam, ən sanballı kitabı olan "Həyəcan təbili"nin birinci nəşrinin redaktoru olmuş, hər iki nəşrə ön söz yazmışam. Aradan illər keçsə də, bu yazıların heç bir sözünə belə əl vurmadan, olduğu kimi topluda getməsini istərdim.

Azərbaycan SSR EA-nın akademiki, görkəmli alim Həsən Əliyevin imzası oxucularımıza yaxşı tanışdır. O, dövri mətbuatda tez-tez çıxış edir, təbiətin qorunması, zənginləşdirilməsi problemlərindən söhbət açır, çox

halda gözümüz görə-görə əlimizdən gedən gözəlliyin halına acıyır, onu mühafizə etmək yollarını araşdırır. Biz indi texniki tərəqqinin elə nəhəng bir sürətlə addımladığı dövrdə yaşayırıq ki, sənətindən, vəzifə mövqeyindən asılı olmayaraq, hər kəs təbiətə nə isə əlavə etməlidir. Təbiətin müalicəsi və zənginləşməsinə xidmət edən əlavə.

Vaxtilə Yer üzündə əhalinin indikindən xeyli az olduğu bir zamanda insanın təbiətə təsiri zəif idi. Dünya əhalisinin çoxaldığı, insanın fəal qüvvə olduğu bir dövrdə, H.Əliyevin yazdığı kimi, tənasüb pozulur, təbiət bir növ "məğlub kimi" geri çəkiilir. Lakin insan "bu qələbəsinə görə" döşünə döyməməlidir. Çünki insanın bioloji dövrana təsiri təbiətin zənginləşməsinə xidmət etmirsə, deməli, göyə atılmış daşın altından qaçmaq çox da asan olmayacaq. Müəllif respublikamızın daxilində ətraf mühiti vərəqləyir, onun təbii mənzərəsinin xatirəsini göz önünə gətirməklə, əlvan rənglərindən danışmaqla bərabər, bu əlvanlığın pozulmaq qorxusundan da həyəcanla söhbət açır.

Bir düzənlikdəki münbit torpağın əmələ gəlməsi üçün bəzən min ildən artıq vaxt keçir. Onun yararsız hala düşməsi üçün isə çox "əmək" sərf etmək lazım gəlmir. Belə hadisələr azmı olur? Gözümüzün önündəcə əsrlərin övladı olan gözəl bir meşə qurşağı insan ömründən də az bir müddətdə ölümə məruz qalır.

Alim çox yerdə "əsrlərin şahidi" kimi çıxış edir, müqayisələr aparır, faktlar, rəqəmlər sadalayır, dünəndən bu günə necə gəlmiş təbiətin bu gündən sabaha necə gedəcəyi məsələlərinə toxunur.

Məlumdur ki, insan heç vaxt onu əhatə edən mühitin düşməni olmamışdır. İndi də o niyyətdə deyildir. Lakin insan təbiətdən istədiyini qopararkən, bəzən onun yarasını bağlamağı yaddan çıxarır. Təzəsini əkməmiş köhnəsinə sahib çıxır. Təbiət isə ona qarşı yönələn bu güclü hücumdan sonra özünübərpanın öhdəsindən gələ bilmir.

Çoxdan bəri Azərbaycan SSR Təbiəti Mühafizə Cəmiyyətinin sədri kimi ictimai vəzifə daşıyan alim respublikamızı, demək olar ki, qarış-qarış gəzib, hər gəzdikdə dayanıb təbiəti müşahidə eləmiş, hər cığırla addımlayıb flora və faunamızın vəziyyətini öyrənmiş, həmişə də qeydlər aparıb mətbuat səhifələrində oxuculara öz sözünü demişdir.

Oxucularla söhbət seriyasından olan bu yazılar indi kitab şəklində təqdim olunur. Müəllifin real və ideal qəhrəmanı hamımızın sevdiyi, qoynunda bəsləndiyimiz ana təbiətdir.

H.Əliyev gördüklərimizi qoruyub artırmağa, görmədiklərimizi isə duymağa, hiss etməyə çağırır.

O, bədii-publisist təsvir dalınca qaçıb, gördüyündən, görmək istədiyindən uzaqlaşmır. Alim-müşahidəçi real faktları dindirir, təbiətin müasir donunu olduğu kimi təqdim etmək istəyir. İnanırıq ki, alimin bu kitabı oxucularımızın təbiət sevgisinə, təbiət duyğusuna, ətraf mühitə münasibətdə vətəndaşlıq hisslərinə yeni bələdçi rolunu oynayacaqdır.

ꕤ

"Həyəcan təbili"nin yeni nəşrinə bu abzasla başlayan qeydləri əlavə edərkən kitabı təkrarən nəzərdən keçirməli oldum. Fikrimdən keçən bir sualın tələbi ilə əsəri yenidən oxudum: kitabın təkrar nəşrinə səbəb nədir? Yeni nəşrə yeni əlavələrmi? Doğrudur, bir neçə yeni məqalə kitabı bir növ təzələyir. Ancaq səbəb təkcə bu deyil. Əsl səbəb odur ki, görkəmli alimin toxunduğu ekoloji problem nəinki aktuallığını itirib, əksinə, yeni tikintilərin artması, yeni yolların çəkilməsi, atmosfer, su hövzələrinə, böyük şəhərlərin ətrafına atılan tullantıların həddini aşması bütün dünya miqyasında aydın ağıl sahiblərini daha artıq həyəcana gətirir. H.Əliyevin toxunub həll etmək istədiyi problemlərin təzəliyi ondadır ki, alim haray çəkməklə, "Həyəcan təbili"ni qulaqlardan asmaqla kifayətlənmir: o, konkret faktlarla danışır, əlibaltalının biləyindən yapışır, kölgəsində oturduğu ağacı kəsdiyini ona göstərir, zərərvericiyə çevrildiyini sübut eləyir. O, dünyanın bir çox ölkələrində olmuş, mötəbər kürsülərdə alimlərin çıxışlarını dinləmiş, özü də onlara qoşulmuş, təşvişdoğurucu bu faktı təkrar-təkrar deməyə məcbur olmuşdur ki, adambaşına düşən məhsuldar torpağın sahəsi sürətlə azalır. Kitabın bütün səhifələrindən keçən qırmızı xəttin birisi budur.

Çəkilən yol da, körpü də, adicə arx da, tikilən nəhəng zavod da, sadəcə, bir ev də torpaqdan istifadə "əsasnaməsinə" tabe olmalıdır. Belə bir "əsasnaməni" hər bir ağıllı vətəndaş öz şüurunda yaratmalıdır. Alimlərin də, təsərrüfat adamlarının da son məqsədi birdir: yüksək məhsul bolluğu yaratmaqla insanın mədəni, rahat, qorxudan, həyəcandan uzaq həyatının keşiyində durmaq!

H.Ə.Əliyevin həyəcanla danışmağında, elmi dəlilləri "ələyib ortaya tökməsində", son nəticədə insanı öz beşiyini qorumağa səsləməsində ali məqsəd budur.

Məqsəd budur: təbiətlə daim üzbəüz olan insan başa düşsün ki, bu səxavətli, əliaçıq, varını qısmadan paylayan varlıq həm də üzübozdur, kinlidir, qısqancdır. Onunla hesablaşmadan ona endirilən zərbəyə qarşı birə-

beş qüvvətlə cavab verir: bunun üçün alim dəfələrlə yerin tarixinə səyahət edir, bu günə gərəkli faktlar gətirir.

Şübhəsiz ki, "Həyəcan təbili"nin təkrar nəşri təkrar-təkrar əks-səda doğuracaq, yeni oxucu auditoriyalarına yol tapacaq, əsər müəllifini təzə axtarışlara səsləyəcəkdir.

ASƏF NADİROV
*Akademik*

## VƏTƏNPƏRVƏR ALİM

Akademik Həsən Əliyev respublikamızın görkəmli elm xadimlərindən biri kimi vətən tarixində layiqli yer tutmuşdur. Əsl alimə xas olan yüksək insani keyfiyyətləri özündə təcəssüm etdirən Həsən müəllim nəinki Azərbaycanda, eyni zamanda onun hüdudlarından da çox-çox uzaqlarda tanınmış elm xadimi və şəxsiyyət idi. H.Əliyevin torpaqşünaslıq, coğrafiya və kənd təsərrüfatı elmləri, təbiətin qorunması sahəsində çoxcəhətli fəaliyyətini və onun elmə verdiyi töhfələri yəqin ki, bu elmi istiqamətlərin mütəxəssisləri daha yaxşı işıqlandıra bilərlər. Mənim isə hafizəmdə onun cəfakeş və yorulmaq bilməyən tədqiqatçı kimi fədakarlığının və apardığı gərgin axtarışların yaddaqalan çoxlu lövhəsi həmişəlik həkk olunmuşdur.

Həsən müəllim sözün əsl mənasında yorulmaz tədqiqatçı, apardığı tədqiqat sahəsində elmi həqiqətləri və yenilikləri böyük həvəslə aşkar etməyə daim səy göstərən alim idi. Onun böyük təsərrüfat əhəmiyyətli elmi nəticələri olan köklü və miqyaslı müxtəlif layihələrin həyata keçirilməsi yolları barədə maraqlı mülahizələri və arzuları vardı. Həsən müəllimin yaxın həmfikirləri və həmkarları ilə birgə Böyük Qafqazın şərq qurtaracağındakı dağ yüksəkliklərində, böyük sahələrdə saldırdığı meşə örtükləri bu gün öz xoş görünüşü, yaratdığı mikroiqlim şəraiti və bol məhsulu ilə (püstə, badam və s.) insanın düşünülmüş, səmərəli fəaliyyətinin nə qədər sonsuz imkanlara malik olduğunu göstərir. Ümumiyyətlə, Həsən Əliyevin şəxsində özünə və tabeliyində olan əməkdaşlara yüksək tələbkarlıq, təvazökarlıq və insanlara qarşı xeyirxah münasibət bir nümunə kimi həyatda ləyaqətliliyin nə qədər yüksək mənəvi keyfiyyət olduğunu əyani şəkildə ifadə edirdi. Həsən müəllimlə mən bir institutda işləməsəm də, institutla-

rımızın fəaliyyət dairələrinin müəyyən istiqamətlərində bir-birinə yaxınlığı onunla tez-tez ünsiyyətdə olmağa, birgə yaradıcılıq fəaliyyətini həyata keçirməyə imkan verirdi. Onunla təmasda olduğum uzun illər, müşahidələrim mənə tam əsasla imkan verir deyim ki, Həsən müəllim çox ədalətli insan idi, adamlarda düzgünlüyü yüksək qiymətləndirərdi. Kömək üçün ona müraciət edənlərə həmişə çox diqqətli olmaqla, lazım gələrsə, onların üzləşdiyi çətinliklərin aradan qaldırılmasına ürəkdən qayğı göstərərdi. Hər cür riyakarlığa nifrət edər və baş verən hadisələrə cəsarətlə, ancaq öz düşündüyü kimi münasibətini bildirərdi. Həsən müəllimin bir vətəndaş alim, pak əməlli insan kimi yüksək keyfiyyətlərini göstərən faktlar çoxdur. Mən onlardan yalnız ikisi haqda, biri özümlə bilavasitə əlaqədar, digəri isə mənimlə bərabər çoxlarının iştirak etdiyi bir yığıncaqda şahid olduğum hadisə barədə danışacağam.

1956-cı ildə Moskvada namizədlik dissertasiyasını müdafiə edib Bakıya qayıtdım. Özümə daimi əmək fəaliyyəti kimi elmlə məşğul olmaq yolunu seçdim. Elmlər Akademiyasında işimi davam etdirməyə başladım. Müstəqil elmi fəaliyyətə başladığım dövrdə əsas məqsədim Azərbaycan iqtisadiyyatının gələcək hərtərəfli kompleks inkişafına yönəldilən daha təkmil quruluşun yaradılması yollarını müəyyən etmək idi. Bu istiqamətdə, hər şeydən əvvəl, respublika xalq təsərrüfatının quruluşunda onun öz yerli tələbatının daha tam ödənilməsi, yerli xammal növlərindən müxtəlif hazır məhsullar istehsalının genişləndirilməsi ilə əlaqədar sahələrin lazımi səviyyədə inkişaf imkanlarını araşdırmaq vəzifəsini qarşıma məqsəd qoymuşdum. Bunun üçün ilk növbədə Azərbaycanın şəkər məhsullarına tələbatının təmin olunması imkanlarını öyrəndim və hələ 50-ci illərdə apardığım araşdırmalar nəticəsində belə bir qəti qənaətə gəldim ki, respublikada şəkər çuğunduru-qənd sənayesi istehsal kompleksinin yaradılması nəinki mümkündür, hətta çox zəruridir və xeyli səmərəlidir. Bu xarakterli apardığım başqa tədqiqatlar da, şübhəsiz, əlavə ehtiyat mənbələri axtarmaq və ya dövriyyədə olan imkanların daha faydalı şəkildə istifadə edilməsi məsələlərinə yeni baxışlar mövqeyindən yanaşmağı tələb edirdi. Bu cəhətdən ilk növbədə belə bir fakt diqqəti cəlb edir ki, 50-ci illərin axırlarında respublikanın ümumi əkin sahələrinin 60 faizdən çoxunu əhatə edən taxılçılıq (650-700 min hektara qədər) bu imkanlar müqabilində çox az məhsul (650-675 min ton) verirdi. Bunun da əsas səbəbi Azərbaycanın taxılçılıq üçün əlverişli şəraitində onun xeyli aşağı (8,5 sentnerə qədər) məhsuldar olması idi. Aparılan araşdırmalar göstərirdi ki, aşağı məhsuldarlıq əsasən ondan irəli gəlirdi ki, respublikanın bir çox bölgələrində taxılçılıq, onun üçün heç də əlverişli olmayan yerlərdə də, geniş sahələr-

də inkişaf etdirilirdi. Belə sahələrdən nəinki həddən artıq aşağı məhsul götürülürdü (bəzən hətta səpilən toxum da əldə edilmirdi), eyni zamanda bu halda çox yüksək fayda verən başqa sahələrin inkişafı da xeyli məhdudlaşdırılırdı. Əslində, bu şəraitdə sanki hər şey aydın olmalı və taxılçılıq üçün əlverişsiz sahələrdə onun inkişafına son qoyulması günün öz tələbi kimi həll edilməli idi. Lakin həmin dövrlər Sovet İttifaqında çox ciddi taxıl qıtlığı yaranmışdı və buna görə də dövlət Qazaxıstanda, Sibirdə və başqa yerlərdə xam və dincə qoyulmuş böyük torpaq sahələrinin taxılçılığın inkişafı üçün istifadə edilməsi tədbirlərini həyata keçirir və bu istiqamətdə bütün respublikaların imkanlarından tam istifadə olunmasını tələb edirdi. Təbii ki, yaranmış vəziyyətdə Azərbaycanın müvafiq rayonlarında taxıl sahələrinin azaldılması məsələsini qaldırmağın o zaman həm elm, həm də onun təşəbbüskarları üçün nə ilə nəticələnə biləcəyini anlamaq çox da çətin deyildi. Mən isə belə basmaqəlib münasibətlə, kənd təsərrüfatının təbii məhsuldar qüvvələrinin bu qədər səmərəsiz istifadə edilməsi faktı ilə daxilən heç cür razılaşa bilmirdim. Nəhayət, qərara gəldim ki, bu məsələni ancaq Naxçıvan Muxtar Respublikasının timsalında əsaslandırım. Respublikanın bu bölgəsi həm də o cəhətdən səciyyəvi idi ki, həmin dövrdə məhz burada ərazinin bir çox dağətəyi və orta dağlıq zonalarında qiymətli meyvə ağaclarını, üzümlükləri kəsib, əvəzində bu şəraitdə az fayda verən taxılçılığın əkin sahələrini genişləndirirdilər.

Məqalə hazır olandan sonra onu çapa verə bilmədim. Çünki məqaləni nəşrə tövsiyə etmək üçün iki rəy və institutun elmi şurasının qərarı lazım idi. Yazını rəyə verdiyim həmkarlarım isə, xüsusən yaşlı nəslə mənsub olan alimlər çox səmimi surətdə, xeyirxahlıq məqsədilə onu çap etdirməməyi məsləhət gördülər, hətta bəziləri yazının partiyanın baş xəttinə zidd olduğunu qeyd edərək mənə ehtiyatlı olmağı anlatdılar. Bu hadisələrin gedişində elmi əməkdaşlardan biri məni başa saldı ki, Akademiyada "Məruzələr" adlı jurnal nəşr olunur, orada isə məqalə çap etdirmək üçün heç rəy və elmi şuranın qərarı lazım deyil, bunun üçün yalnız həmin elm sahəsi üzrə bir akademikin təqdimatı kifayətdir. Bu barədə bir mütəxəssis kimi akademik Həsən Əliyevə müraciət etməyi də mənə məsləhət gördülər. Akademik H.Əliyev haqqında çox eşitmişdim, lakin onu şəxsən tanımırdım. Məqaləni təqdim edərkən, mahiyyətini qısa şəkildə akademikə çatdırdım və hiss etdim ki, irəli sürdüyüm fikir onda müəyyən maraq oyatdı. Elə ertəsi gün Həsən müəllim məni yanına çağırdı və özünəməxsus xoş təbəssümlə dedi: "Afərin, çox yaxşı məqalədir. Ölkədə taxıl çatışmaması o demək deyil ki, bu problemi Ordubadın daşlı-çınqıllı torpaqları hesabına həll etmək lazımdır. Bilirsənmi, Ordubadın vaxtilə bol olan hər cür ləzzət-

li və əvəzsiz meyvələrinin artıq kökü kəsilir. Bu, uzun tarixi təcrübənin, xalq müdrikliyinin əsrlərlə yaratdığı və sınaqdan keçirdiyi fəaliyyətin təkzibedilməz nəticəsidir. O ki qaldı taxılçılığın inkişafına, mən taxılı insan üçün ən vacib və əsas qida məhsulu hesab edirəm. Lakin sən çox düz qeyd edirsən, bu heç də o demək deyil ki, onu becərilməsi üçün şərait olmayan yerlərdə də əkmək lazımdır".

Doğrudan da, sonralar həyat bir daha göstərdi ki, bütün kənd təsərrüfatı sahələri kimi, taxılçılıq da əlverişli torpaq, iqlim şəraitində inkişaf etdirilərsə və ona tələb olunan xidmət göstərilərsə, hər hektar torpaq sahəsindən daha çox məhsul götürmək mümkündür. 70-80-ci illərdə taxıl bitkilərinin əkin sahələri respublikada ildən-ilə azalaraq, 1980-1987-ci illərdə 400-500 min hektar səviyyəsinə endirilmişdi. Lakin buna baxmayaraq, taxıl istehsalının orta illik həcmi 1,2-1,3 milyon tona qalxmış və hər hektardan məhsuldarlıq 26 sentnerə qədər yüksəlmişdi. Mən indi də əminəm ki, Azərbaycan öz tələbatını yerli taxıl istehsalı hesabına təmin edə bilər və bunun üçün heç də indiki qədər taxıl sahələri (700 min hektardan çox) lazım deyil. Yüksək məhsuldar taxıl sortlarını rayonlaşdırmaq, taxılçılıqda bütün zəruri aqrotexniki tələbləri yerinə yetirməklə, onun becərilməsini tam intensivləşdirmək yolu ilə hətta hazırda taxılçılıq üçün ayrılan torpaqlardan xeyli az sahə tutmaqla, respublikanı öz yerli taxıl istehsalı hesabına təmin etmək tamamilə real vəzifədir. Bununla belə, onu da nəzərə almaq lazımdır ki, əhalinin istehlak səbətində başqa qida məhsullarının (tərəvəz, meyvə, bostan) xeyli artırılması da taxılla təmin olunma probleminin uğurla həllinə köməklik göstərə bilər.

Sonralar mən öyrəndim ki, Həsən müəllim məqalənin hətta ən son nömrəyə salınması barədə də jurnalın məsul katibindən xahiş edibmiş. Beləliklə, Həsən müəllimin fəal köməkliyi və cəsarəti ilə məqaləm "Azərbaycan Elmlər Akademiyasının Məruzələri"nin 1958-ci il 8-ci sayında çap olundu. Onu da deyim ki, bu məqalədən sonra Həsən müəllim mühüm iqtisadi-coğrafi tədqiqatların, xüsusən xarici ölkələrlə nəzərdə tutulan işlərin aparılmasında məni tez-tez birgə əməkdaşlığa dəvət edərdi.

Əlbəttə, kiçik yazıda Həsən müəllimlə bağlı xatirələrin hamısını qələmə almaq çətindir. Ancaq bir şəxsiyyət kimi onun xarakterinə xas olan daha bir hadisə haqqında da danışmaq istəyirəm.

60-cı illərin təqribən ortaları idi. O zamanlar Azərbaycan KP MK-nın birinci katibi V.Y.Axundov tez-tez EA-nın partiya təşkilatının illik hesabat-seçki yığıncaqlarında iştirak edərdi. Belə yığıncaqlardan birində Həsən müəllim də müzakirə olunan məsələlər ətrafında çıxış etdi. O, Akademiya həyatının, habelə öz elm sahəsinin bir sıra önəmli problemlərinin həlli il

MEA-nın Botanika İnstitutunun
KİTABXANASI
İNV. № 22394

əlaqədar çox maraqlı mülahizələrini şərh etdikdən sonra V.Y.Axundovun burada iştirakını nəzərə alaraq, bəzi respublika miqyaslı məsələlərə toxunmaq istədiyini bildirdi. Akademik H.Əliyev öz çıxışında bu yaxınlarda Şəki-Zaqatala bölgəsində olduğundan və orada yerli rəhbərliyin təbiətin qorunması işinə biganəliyindən, hətta bu vacib məsələyə mənfi münasibət göstərildiyindən çox həyəcanla danışdı. Sonra qeyd etdi ki, bu barədə Mərkəzi Komitə aparatı qarşısında qaldırılan məsələlərə də lazımi münasibət göstərilmir və çıxışının mətləbə aid yekununu belə tamamladı: "Mən açıq deməliyəm ki, Vəli Yusifoviç, Sizin aparat (yəni Mərkəzi Komitə) yaxşı işləmir". Çox böyük cəsarətlə deyilən bu sözlərdən sonra salona tam sakitlik çökdü, sanki açıq səmada qəflətən şimşək çaxdı. Vəziyyətin sonrakı gedişinə maraq göstərən konfrans iştirakçılarının çoxu nə isə qeyri-adi bir hadisənin baş verəcəyini gözləyirdilər. Həsən müəllim isə mənalı baxışlarını V.Y.Axundova zilləmişdi və belə kəskin şəkildə açıqladığı həqiqətin çox əsaslı olduğunu nümayişkaranə hiss etdirərək, sanki respublika rəhbərindən onu həyəcanlandıran məsələnin düzgün həlli üçün ümidverici bir cavab gözləyirdi. Bayaqdan natiqi diqqətlə dinləyən MK-nın birinci katibi öz çıxışında akademik H.Əliyevin qaldırdığı məsələnin doğrudan da nə qədər vacib olduğunu ətraflı şərh etdi və alimə müraciət edərək bu işlə şəxsən özü məşğul olacağına söz verdi. V.Y.Axundovun çıxışında akademik Həsən Əliyev şəxsiyyətinə böyük ehtiram hiss olunurdu. Bu hadisə Həsən müəllimin öz işinə sonsuz sədaqətini, bu müqəddəs yolda qarşıya çıxan istənilən ən mürəkkəb problemin belə həllində prinsipial, qəti mövqe tutmaq iradəsini bir daha vurğuladı və alimin hamıya məlum möhkəm əqidəsini yenə də nümayiş etdirdi.

Akademik Həsən Əliyev təkcə bilavasitə öz marağı dairəsində olan elm sahələrinin inkişaf problemləri ilə maraqlanmırdı. Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafının yüksəldilməsinə xidmət edən bütün elm sahələrinin taleyi ona çox yaxın idi və onların lazımi səviyyədə təşkil olunmasına hər cür köməklik göstərirdi. 50-ci illərin əvvəllərində Azərbaycan Elmlər Akademiyasında akademik-katib vəzifəsində işləyərkən respublikanın bu əsas elm mərkəzinin təşəkkül tapmasında, istedadlı gənclərdən ibarət yeni nəsil kadr potensialının yaranmasında, eləcə də elmin Azərbaycanın tərəqqisi üçün ən vacib istiqamətlərinin inkişaf etdirilməsində Həsən müəllimin böyük əməyi olmuşdur. Mən şəxsən onun Azərbaycanda iqtisadiyyat elminin inkişafı sahəsində göstərdiyi böyük səylərin şahidiyəm. O dövrlər Azərbaycanda iqtisadiyyat üzrə tədqiqatçılar çox az idi. Akademik Həsən Əliyev bunu öz təcrübəsində hiss edərək, iqtisadiyyatın aqrar problemləri üzrə yüksək ixtisaslı kadrlar hazırlanmasına çox zaman

bilavasitə qəyyumluq edirdi: kiməsə elmi məsləhətçi olur, kiminsə dissertasiya müdafiəsi üçün rəsmi opponentliyi öz üzərinə götürür, bir çoxunun isə keçmiş Sovet İttifaqının digər şəhərlərindəki mərkəzlərdə təhsil almasına hərtərəfli köməklik göstərirdi.

Akademik Həsən Əliyev hər cəhətdən Azərbaycanın görkəmli vətənpərvər alimlərindən biri kimi özünə şöhrət qazanmışdır. O, xalqını, Vətənini, onun əvəzi olmayan gözəl təbiətini böyük qəlblə, bütün varlığı ilə sevirdi və buna görə də uzun ömrünün son günlərinə qədər sədaqətlə, ilhamla xidmət etdiyi elmin hər yeni uğurunu doğma Azərbaycanın yüksək tərəqqisinə həsr etmək amalı ilə yaşadı və bununla da özünü həyatda əbədiləşdirdi.

BƏXTİYAR VAHABZADƏ
*Xalq şairi*

# HƏYƏCAN TƏBİLİ ÇALAN VƏTƏNDAŞ - ALİM

Mən hələ tələbəlik illərindən Həsən Əliyevin adını yaxşı bir torpaqşünas alim kimi eşitmişdim, lakin şəxsən tanış deyildim. Filarmoniyada keçirilən bir yığıncaqda şair dostum İslam Səfərli bizi tanış etdi. Fasilə zamanı o dövrdə qapılar dalında qalan Azərbaycan dilinin taleyi barədə Həsən müəllimin ürək yanğısı ilə dediyi sözlər məni əfsunladı. O vaxta qədər mən onun da şahidi idim ki, rəsmi yığıncaqlarda Həsən Əliyev yalnız Azərbaycan dilində danışardı. Buna görə də o zamanın ədəbi gəncliyinin tamam başqa sahənin adamı olan Həsən Əliyevə dərin hörməti var idi. Sovet dövlətinin zirvədə olduğu zamanlar rəsmi idarələrdən qovulan ana dilimizin taleyi barədə hər adam açıq-açığına danışa bilməz, bu dərdi hər kəs ürəyində çəkərdi. İlk tanışlığımızda artıq Azərbaycanda çox məşhur olan bu alimin cavan şairlə bu qədər açıq danışıb, dilimizin qəsdən öldürüldüyünü deməsi məni həm sevindirmiş, həm də heyrətləndirmişdi. Ona görə sevinirdim ki, həmdərdimi tapmışdım, ona görə heyrətlənirdim ki, mən bu sözləri dilçi və ədəbiyyatçının dilindən deyil, ana dili ilə o qədər də bağlı olmayan bir sahənin mütəxəssisindən eşidirdim. Heyrətimin bir səbəbi də o idi ki, dilimizin əridilməsi prosesi getdiyi zaman dilçi və ədəbiyyatçılar belə susduqları halda, Həsən müəllim bu qəsdə hər yerdə etirazını bildirirdi.

İlk tanışlığımızdan bir müddət keçmiş, yəni 1959-cu ildə radioda mənim yenicə yazdığım "Şəbi-hicran" poemasının verildiyi gecə Həsən Əliyev evimizə zəng çalıb məni təbrik etdi. Bu zəngdən sonra bizim tanışlığımız, aradakı yaş fərqinə baxmayaraq, əqidə dostluğuna çevrildi. Biz tez-tez Dövlət Dram Teatrında görüşər və fasilələrdə dərdləşərdik. Onu da deyim ki, Həsən müəllim Dram Teatrında olan ilk tamaşalara gələr, yeni yaranmış yaxşı əsərlərə sevinər, fikrini əsərlərini bəyənmədiyi müəlliflərin üzünə deyərdi.

1970-ci illərdə Dram Teatrında mənim "Yağışdan sonra" pyesim oynanılırdı. Həmin pyesdə Azərbaycan ekologiyasının bərbad hala salınmasından söhbət gedirdi. Tamaşadan sonra Həsən müəllim məni qucaqlayıb dedi:

— Zəmanəsinin qüsurlarını deməyi bacarmayan sənətkar qələmini sındırsa yaxşıdır. Sən bir çox əsərlərində xalqı narahat edən ciddi problemlərə toxunursan. Buna görə çox sağ ol!

Həqiqətən, Həsən Əliyev o zamanlar yaranan bütün bədii əsərləri bu baxımdan qiymətləndirərdi. Bu mənada o, İsa Hüseynovun kənd mövzusunda yazdığı əsərlərini çox bəyənərdi. Bu əsərlərdə onu narahat edən yaralı məsələlərə böyük ustalıqla, eyham və işarələrlə toxunulduğunu görər, buna sevinərdi. Həmin məsələlərdən biri də respublikada taxıl üçün əlverişli olan torpaqların üzümçülüyə verilməsi idi. Bu məsələlərin həlli üçün çağırılmış bir müşavirədə Həsən müəllimin çıxışı bugünkü kimi yadımdadır. O, kürsüdən "Azərbaycan xalqı süd içməlidir, şərab yox",-deyə üzümçülüyün həddini aşdığına etirazını bildirmişdi.

Mən belə hesab edirəm ki, əgər o zaman Həsən Əliyevin etirazını eşitsəydilər, bu gün biz xarici ölkələrdən od qiymətinə taxıl alıb, çörəyin qiymətini fantastik səviyyəyə qaldırmazdıq.

Bu gün məndən Həsən müəllimin insani xarakterini səciyyələndirməyi soruşsalar, bircə cümlə ilə deyərdim: "O, Azərbaycan üçün yanan bir vətəndaş idi". Buna görə də onun alimliyi vətəndaşlığından doğurdu. O, Vətənimizin hər guşəsini, rayonunu, kəndini, dağını, dərəsini, meşəsini ovucunun içi kimi tanıyır, harda nəyin daha münasib olduğunu çox yaxşı bilirdi. Bir zamanlar döşünü ordenlərlə bəzəmək üçün təbiətin ağ ciyərləri olan meşələrimizi qırıb yerində pambıq əkən raykom katiblərinə etiraz səsini ucaldan, onları ittiham edən bir nəfər vardısa, o da Həsən Əliyev idi.

Təbiət aşiqi Həsən müəllim "Biz təbiətdən mərhəmət gözləməməli, onu öz iradəmizə tabe etməliyik" — şüarına istehza edər, "tabe elə görüm, necə edəcəksən", — deyərdi. Onun bu barədə yazdığı "Həyəcan təbili" kitabı təbiətimizin müdafiəsinə qalxan vətəndaş alimin, sözün həqi-

qı mənasında, həyəcan təbili idi. Amma neyləyəsən ki, o zaman onu eşitmədilər.

Quruyan çeşmə və çaylarımızın, qırılan meşələrimizin, şoranlaşan torpaqlarımızın dərdi, ağrısı Həsən Əliyevin ürəyindən keçirdi. Adamları təbiəti mühafizə ideyası ilə maarifləndirməyə çalışar, mühazirələr oxuyar, məqalələr yazardı. Respublikamızda bir çox qoruq və yasaqlıqların təşkili məhz onun adı ilə bağlıdır. Yox olmaq təhlükəsi qarşısında qalmış neçə-neçə heyvan və bitki növünün bugünkü varlığı üçün biz Həsən müəllimə borcluyuq.

Həsən müəllimin həyatı Azərbaycanı sevənlər üçün bir örnəkdir. Allah ona rəhmət eləsin.

HİDAYƏT
*Yazıçı*

## O KİTAB YAZILMAYACAQ

Mənim taleyim elə gətirib ki, sevdiyim, şəxsiyyətinə, sənətinə, fəaliyyətinə ciddi hörmət etdiyim böyük adamlarla tanış olmağa, onların qəbuluna düşməyə cəhd göstərməmişəm, amma ömrün hansısa bir məqamında Tanrı bizi görüşdürüb, bir-birimizi yaxından tanımışıq, uzaqdan-uzağa qəlbimdə olan məhəbbət səmimi ünsiyyətə çevrilib. İstər görkəmli elm və mədəniyyət adamlarıyla olsun, istər dövlət xadimləri ilə, siyasətçilərlə, həmişə belə olub. Azərbaycan təbiətinin sözün əsl mənasında məcnunu, yorulmaz tədqiqatçısı, cəfakeş alim, Milli Elmlər Akademiyamızın yaradıcılarından biri Həsən Əlirza oğlu Əliyevlə tanışlığım da xoş bir təsadüflə bağlıdır.

Akademik Həsən Əliyevi görkəmli torpaqşünas, coğrafiyaçı, Azərbaycanda ekologiya problemləri haqqında ilk həyəcan təbili çalan vətəndaş ziyalı və müdrik şəxsiyyət kimi çoxdan tanıyırdım. Həsən müəllimlə söhbətlərimdə qeydlər aparmasam da, həm şəxsiyyət kimi mənə güclü təsir bağışladığından, həm də söhbətlərimiz maraqlı olduğundan görüşlərimiz, müxtəlif məsələlər barədə fikir mübadilələrimiz olduğu kimi yadımdadır və olduğu kimi də yazıya köçürürəm.

1987-ci ilin payızıydı. "Gənclik" nəşriyyatında baş redaktor otağımın qapısını orta yaşlarında, tanımadığım bir şəxs açdı, çəkinə-çəkinə, nəzakətlə özünü təqdim etdi:

— Mahmud Xəlilov. Akademiyanın Coğrafiya İnstitutunda elmi işçiyəm. Əlyazması gətirmişəm...

— Əyləşin, — dedim, əlyazmasını aldım, əsərin həmmüəllifi akademik Həsən Əliyev idi. — Bu günün qəzetləridir, baxın, mən beş-on dəqiqəyə əlyazmanı vərəqləyim.

Beş-on dəqiqə yarım saatdan çox çəkdi. "Təbiətin yaşıl libası" əlyazmasının strukturu yerli-yerində idi, ayrı-ayrı parçaları oxudum, xoşuma gəldi.

— Mən çoxdandır belə əlyazması axtarırdım, — dedim, — çap edəcəyik. Redaktə vaxtı müəyyən qeydlər meydana çıxa bilər, onlar da prinsipial məsələlər olmayacaq, düzələr.

Amma Mahmud müəllim, deyəsən, mənim dediklərimə inanmırdı, göz gördüyündən qorxar. Əliyevlər ailəsi ciddi təqib olunmağa başlanmışdı, heç bir əxlaq normasına sığmayan iyrənc kampaniya aparılır, cürbəcür şayiələr uydurulur, böhtanlar atılırdı. İş o yerə gəlib çatmışdı ki, Həsən müəllimin çap olunmuş kitablarına da müəyyən dairələrdə həqarətlə baxılır, hətta ciddi maraq doğuran, elmi-kütləvi səpkidə yazılmış çox qiymətli əsər olan "Həyəcan təbili"nin də guya tirajının çox olması barədə dedi-qodular yayılırdı. Buna görə dediklərim Mahmud müəllimə çox gözlənilməz gəlirdi.

— Əlyazması mütləq çap olunacaq. Yaxın vaxtlarda. Elmi rəyə verməyəcəyik, çünki Həsən müəllimin adı var. — Qətiyyətlə bildirdim, yeni əlyazmasını gözləyirik.

Mahmud müəllimin gözləri yaşardı, təşəkkür edib getdi. O, gedən kimi elmi-kütləvi ədəbiyyat redaksiyasının müdiri Vəli Məcidova tapşırdım ki, annotasiya hazırlayıb əlyazmasını gələn ilin planına salsın və çapa hazırlıq prosesinə özü nəzarət etsin.

Bir həftə sonra Həsən müəllim mənə zəng çaldı, görüşmək istədiyini bildirdi.

— Havaxt imkanınız varsa, gəlim, — dedim.

— Özüm gəlmək istəyirəm. Müəllif nəşriyyata gələr.

— Siz ağsaqqalımızsınız. Bizim borcumuzdur Sizi ziyarət edək.

Ertəsi gün saat 12-yə vaxtlaşdıq.

İlk dəfəydi müəllifin yanına gedirdim. SSRİ Elmlər Akademiyasının qəfil qonaqları gəlmişdi. Həsən müəllimin kabinetinin qapısı açılanda gördüm ki, içəri adamla doludur. Biz o kabinetlə üzbəüz otaqda görüşdük, qızdırıcılar işləmədiyindən soyuq idi və bir saatdan çox ayaq üstə söhbət elədik. Katibə iki-üç dəfə Həsən müəllimə baş çəkib ehtiyatlandırdı ki, sizə soyuq olar. Həsən müəllim, elə bil heç eşitmirdi, mənim sonsuz marağımı görüb böyük ömrünün səhifələrini vərəqləyirdi. Biz "Təbiətin yaşıl libası" kitabı haqqında iki-üç kəlmə danışdıq. "Gələn ilin planına salınıb, — dedim, — mütləq çıxacaq". İstəyirdim ki, mənim üçün qeyri-adi olan bu dəqiqələrdə söhbət kitabdan getməsin, Kişinin xatirələrini çözələyim, böyük

ömrün heç olmazsa bir-iki məqamı açıqlansın. Həsən müəllim o görüşdə ömrünün Bakı dövründən, xüsusilə müharibə illərindən danışırdı. Özü də heç vaxt "mən" demirdi, o dövrü, mühiti təfsilatı ilə yada salırdı və o dövrün, o mühitin, o proseslərin fövqündə Həsən müəllimin böyük Məni görünürdü: elmi əsərlər, müəllimlik, səngərlərdə əsgər şücaəti, yaralar, medallar, dövlət, partiya işi, nazir müavini, Azərbaycan KP MK katibi. Sonra yenə elm və həyatının sonunacan, 86-cı baharınacan fədakar bir alim ömrü...

... Həsən müəllim ona müraciət edən hər kəsə vəzifəsindən, tutduğu mövqeyindən, varlı və ya kasıb olmasından asılı olmayaraq diqqətlə yanaşırdı. Qapısı bütün ziyalıların üzünə həmişə açıq idi. Yaradıcı adamlar çətinə düşən kimi ona müraciət edirdilər. Bizim yazıçılardan birinin oğlunu təsadüfi cinayət hadisəsi üstündə həbs etmişdilər. Həsən müəllim respublika prokuroruna zəng çalıb demişdi ki, gənc oğlanın həbsi ilə nə qazanacağıq, onu tərbiyə etmək lazımdır. O illərdə bu sözləri demək üçün cəsarətlə birlikdə böyük humanizm, hər vətəndaşın, hər yeniyetmənin taleyinə diqqət və canıyananlıq gərək idi.

Coğrafiya İnstitutunda ilk görüşümüzdən sonra Həsən müəllim əvvəlcədən zəng çalmadan (zəng çalmazdı ki, mən ora getməyim) "Gənclik" nəşriyyatına gələr, biz üzbəüz əyləşib uzun söhbətlər edərdik ("Təbiətin yaşıl libası" kitabı çapdan çıxandan sonra da hər görüşdə xahiş edirdim ki, yeni əlyazması versin. "Təbiətin yaşıl libası" 1988-ci ildə nəşr edildi, təəssüf ki, onun sağlığında işıq üzü görən son kitabı oldu, yeni əlyazması vermədi və bunun səbəbi sonralar mənə aşkarlandı. Demə, bu kitabın çapı üstündə mənə olan təqiblər Həsən müəllimə də çatıbmış). Zəngəzurun Comərdli kəndində keçən uşaqlıq çağlarını xatırlayar, Andronikin, Njdein, Dronun törətdikləri vəhşilikləri, yalnız onların ailəsindən 14 nəfərin qətlə yetirildiyini ürək ağrısı ilə danışardı.

Mən Həsən müəllimə dedim ki, Comərdli kəndində olmuşam. İrəvan Dövlət Azərbaycan Dram Teatrının Zəngəzurda qastrol səfərində tamaşa göstəriləcək kəndlərin siyahısında Comərdli kəndini görmədim və o vaxtlar Sisian rayon partiya komitəsinin katibi Nurəddin müəllimdən (deyirlər, indi dünyasını dəyişib, Allah rəhmət eləsin) bunun səbəbini soruşanda dedi ki, çox balaca kənddir. Əlbəttə, Əliyevlər kəndi məni çox maraqlandırırdı. Nurəddin müəllimə dedim ki, bizim kənd də indi dünyanın ən balaca kəndlərindəndir, inqilabdan qabaq böyük kənd olub, 1918-1920-ci illərin erməni təcavüzündə yerlə-yeksan edilib, qırılanı qırılıb, qalanın da çox hissəsi qaçqınlıqda ehtiyac üzündən tələf olub, çox az hissəsi Şura hökuməti qurulandan sonra Mehriyə, Maralaəmiyə qayıdıb. Bəlkə elə ikimiz gedək: o kəndi mənə göstərəsən. Biz Comərdliyə gəldik, elə

bildim Maralaəmidəyəm, dağın ətəyində, suyu da elə bil bizim kəndin suyudu. Camaatla görüşdük, şirin söhbət etdik. Ağsaqqallar elə bil Maralaəminin tarixini danışırdılar, fikirləşirdim ki, erməni taunu Zəngəzurda, indi Ermənistan adlanan qədim oğuz ellərinin başqa bölgələrində neçə-neçə obamızı torpaqdan silib, neçəsini beləcə balacalaşdırıb.

Kənd camaatı teatrın tamaşasına baxmaq istədiyini bildirdi. Mən rayonda bir-iki gün qalıb qayıdacaqdım, müavinimə tapşırdım ki, Comərdliyə tamaşa göndərsin, özü də camaat hansı tamaşanı istəsə...

Mən bunları Həsən müəllimə danışdıqca onun fenomen yaddaşına bir daha heyran olurdum: evlərin düzümünü, daşnakların kəndi necə dağıtdığını yerli-yataqlı xatırlayırdı.

O, XX əsr Azərbaycan tarixinin, elm, mədəniyyət dünyasının canlı ensiklopediyası idi. Neçə dəfə xahiş etdim ki, xatirələrini yazsın:

— Həsən müəllim, əlavə heç nə lazım deyil, elə necə danışırsınızsa, eləcə yazın. Stenoqrafçıya diktə edin, vəssalam. Bu tarixi Sizdən bişqa kimsə yaza bilməyəcək. Mən o kitabı məmnuniyyətlə Azərbaycan və rus dillərində çap edərəm.

Deyirdi, yazacağam.

Amma Həsən müəllim sürətlə qocalırdı, bunu hər görüşdə açıqca hiss edirdim. İçində saxlasa da, ailəsinə qarşı yönəlmiş haqsızlıqlar, böhtanlar, törədilən təxribatlar, irticalar Kişiyə ağır təsir edirdi. İki-üç il ərzində fenomen yaddaşı korşalmışdı. Həsən müəllim böyük və zəngin bir ömrün qürub günlərini yaşayırdı.

Görüşlərimizdə, söhbətlərimizdə bircə dəfə də olsun Heydər Əliyevin adı çəkilmədi. Hiss edirdim ki, bu böyük şəxsiyyətin taleyi həm də bir böyük qardaş kimi Həsən müəllimin ürəyində narahatlıq və nigaranlıq doğurur. O, narahat duyğuları yerindən tərpətmək, Kişini həyəcanlandırmaq istəmirdim, özü də bunu hiss edirdi.

Bizim görüşlərimiz Həsən müəllimin adi, bəzən də yorğun və narahat əhvalı ilə başlayar, söhbətimiz davam etdikcə o fəallaşar, axırda çox nikbin və yaxşı əhvali-ruhiyyədə görünərdi.

— Buradan keçirdim, dedim səni görüm...

Həsən müəllim gələndə bu sözləri deyərdi və mən onun hər kəlməsini ağsaqqal xeyir-duası kimi qəbul eləyər, səmimi söhbətdən sonra maşınınacan yola salardım.

Sonra mənim iş yerim dəyişdi. Həsən müəllimdən dostlarımız, xüsusən Budaq Budaqov vasitəsilə xəbər tuturdum. Deyirdilər ağır xəstədir. İki dəfə evinə zəng çaldım, özü telefonla danışa bilmirdi...

Ölüm xəbərini eşidəndə o dəyərli kitabın — akademik Həsən Əliyevin memuarının yazılmamasına heyfsiləndim və özümü də çox qınadım: gərək o kitabın yazılması üçün Həsən müəllimə təsir edə biləydim, özüm stenoqrafçı dəvət edəydim...

Həsən müəllimin çox qiymətli kitabları var. Amma heyf, çox heyf ki, o kitab yazılmayacaq. Tarixçilər inciməsinlər məndən, heç kəs o tarixi elə canlı, elə səmimi, elə təbii yarada bilməyəcək.

QULU XƏLİLLİ
*yazıçı*

## VƏTƏNDAŞ - ALİM

Məni akademik Həsən Əliyevlə uzun və mənalı bir tarix birləşdirir. Azərbaycan təbiəti yaranandan başının üstə özünə güclü ikiayaqlı və dördayaqlılardan, təbiətin kortəbii qüvvələrindən ibarət qənimlər də yaratmışdır. Müxtəlif vaxtlarda bu qənimlər bəzən çoxalmış, bəzən də azalmışdır. Amma heç vaxt yox olmamışdır. Mən kəndli balası olduğumdan və ömrümün bir çox illərini çoban-çoluqluqda, naxırçılıqda keçirdiyimdən təbiətlə həmişə sıx bağlı olmuşam, onun şaxtasına, qarına, yağışına düşmüşəm, başımı qayalarına, çəmənlərinə, dağlarına söykəyib yatmışam, çaylarında, göllərində çimmişəm, bulaqlarından ciyər dolusu sümürüb içmişəm, istisində qovrulmuşam, yanmışam. Təbiət mənə bəzən həm ana olub, həm cəllad. Amma mən ona layiq övlad ola bilməmişəm. Çünki imkanım, gücüm az olub. Zəmanə bəzən dizimi qatlayıb, hünərimi azaldıb. Gözümü açandan təbiətin çoxlu qənimini görmüşəm, amma onlara qarşı çıxmağa gücüm çatmayıb. Bir dəfə Həsən Əliyevin 1976-cı ildə çapdan çıxmış "Həyəcan təbili" kitabı əlimə düşdü. Bu əsəri acgözlüklə oxuyub barəsində bir məqalə yazdım. Çalışıb şəxsən onunla tanış oldum. Bu kitabı isə əlavə dərs vəsaiti kimi ali məktəbdə tələbələrə də oxutdum. H.Əliyevlə bir neçə dəfə Kəlbəcər, İstisu, Göygöl, Maralgöl, Gəncə səfərlərinə çıxdım və getdikcə alimin təbiət vurğunluğuna heyran oldum. Hətta o qədər vuruldum ki, Həsən Əliyev haqqında bir əsər yazmaq fikrinə düşdüm. Bu məqsədlə ona bir "plan" verdim və bu plan əsasında o, bir neçə ümumi dəftər yazıb hazırladı. Mən "Kometa" maqnitofonumu götürüb onun evinə getdim və səsini bir neçə lentə köçürdüm. Mən Həsən Əliyevlə o qədər mehribanlaşdım ki, bəzən ərklə ona iradlarımı da deyirdim. Məsə-

lən, Maral göllərinə göstərilən qayğı məni qane etmirdi. O, Gəncə Şəhər Sovetinin sədri ilə, yaxud Sultanbud meşələrinə divan tutan Rustəm Səfərəliyev kimi bir katiblə mülayim danışanda hirsimi yığışdıra bilmirdim. Bu, uzun bir əhvalatdır. Amma onu bilirəm ki, mən Həsən Əliyevi çox nüfuzlu bir şəxsiyyət hesab etdiyimə görə onunla belə danışırdım. Çünki ondan qorxurdular, çəkinirdilər. Sonralar mən onun kitablarının təsiri altında "Torpağın ətri" (1984) və "Torpağın göz yaşı" (1989) əsərlərimi yazdım və burada dediyim bir sıra cəsarətli, açıq fikirlər başıma oyun açdı.

H.Əliyevin "Həyəcan təbili" daha kamil və təkmil vəziyyətdə 1982-ci ildə çapdan çıxdıqda o, göy mürəkkəblə, öz dəst-xətti ilə bu sözləri yazıb, kitabını mənə hədiyyə vermişdir: "Ən görkəmli qələm dostum, doğru sözlərin ustasına ən xoş arzularla. 28.12.82.". Kitabın bu nüsxəsi haqqında da məqalə yazıb çap etdirdim və indi həmin məqaləni topluda çap olunmaq üçün təqdim edirəm.

Bu alim bizim təbiətin, təbii sərvətlərimizin, bulaqlarımızın, meşələrimizin ilk qoruyucularındandır və onun bu barədə xidmətləri misilsizdir.

Bir çox jurnalist və publisistlərimiz, yazıçılarımız bu mühüm mövzu ilə əlaqədar mətbuatda maraqlı yazılarla çıxış edərək, səslərini xalqın səsinə qataraq ətraf mühiti korlayanlara qarşı kəskin çıxış etmiş və indi də edirlər. Bir çox görkəmli alimlərimiz də bu mühüm tədbirdən kənarda qalmamış, bu və ya başqa şəkildə əllərindən gələni etmişlər. Belə publisist alimlərdən biri də akademik Həsən Əliyevdir. O, bir sıra məqalə və çıxışlarında, həmçinin "Həyəcan təbili" adlı kitabında bu vacib problemə geniş yer vermiş və səmərəli işlər görmüşdür. Biz də əsas mülahizələrimizi "Həyəcan təbili" kitabının Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən təkmilləşmiş ikinci nəşrində (1982) toplanmış publisist məqalələr əsasında qruplaşdırmağa çalışacağıq. Çünki publisistikanın ən yaxşı nümunələrindən olan bu məqalələrdə təbiət və ətraf mühitlə bağlı elə problemlərə toxunulmuşdur ki, onlar öz müasirliyini həmişə saxlamaqdadır.

Açıq desək, bizdə elə vaxtlar olmuşdur ki, təbiətə nəinki arxa çevirmiş, həm də ona qənim kəsilmişlər. Ağaclar, meşələr, quşlar rəhmsizcəsinə qırılmış, ceyranlar, cüyürlər vertolyot və dördtəkərlilərlə yağır-bağır edilmişdir. Bir çox meşələrin yerində "kötüklər səltənəti" yaranmışdır. Həm də maraqlıdır ki, bunların çoxu bəzən qanun keşiyində dayanan vəzifəli adamlar tərəfindən edilmişdir. Meşəyə, təbiətə, nadir quşlara, soyuq bulaqlara, gül-çiçəyə qılınc çalmaq gözəlliyə arxa çevirməkdir. Əgər meşə,

gözəllik insandan qaçırsa, bu, faciədir. Böyük Caviddə belə bir fikir var ki, real aləm, mühit iblisanə hava ilə zəhərlənmişsə, bütün gözəlliklər uzaq üfüqlərdə əylənməlidir. Deməli, insanlıq, təmizlik o yerdə məskən salır ki, orada qayğı, saflıq hakimdir. Meşə də təmizlik sevir, qayğı sevir, insan kimi. Təbiət insandan qayğı umur. Təbiətin gözəlliyinə arxa çevirmək xalqın milli sərvətinə arxa çevirməkdir. Təbiəti müflisləşdirmək, yoxsullaşdırmaq torpağı yetimləşdirmək deməkdir, insanların ruhunu, mənəviyyatını kasıblaşdırmaq deməkdir. Təbiət onda gözəldir ki, ondan özünün ətri gəlir. Yanğın qoxusu gəlmir, kəsafət qoxusu gəlmir. Torpağın ətri gəlir, çörəyin ətri gəlir. Torpaq onda güclüdür ki, onun sinəsini dağlar, çaylar, ağaclar, kollar, bol məhsullu bərəkətli bağlar, bağçalar, zəmilər bəzəyir. Torpaq onda təklik hiss etmir, faciə hiss etmir. Torpağın da dili var, o da insan kimidir. O da bəzən nəfəs almaq, dincəlmək istəyir, onu furqon atına döndərib həmişə yükləmək, şah damarını çəkib sormaq kəmfürsətlikdir, insafsızlıqdır. Təbiətin qorunması bütün həyatın qorunmasıdır. İnsanın fiziki, əqli, ruhi dünyasının, sağlamlığının, zənginliyinin, möhkəmliyinin qorunmasıdır. Təbiəti yoxsullaşdırmaq bu günün və gələcək nəslin qarşısında ağır cinayət etməkdir. Məhz buna görə də hazırda təbiəti, ətraf mühiti qorumaq üçün son dərəcə böyük tədbirlər görmək lazımdır.

Akademik H.Əliyevi təkcə respublikamızda deyil, onun sərhədlərindən də çox-çox uzaqlarda görkəmli alim, coğrafiyaşünas, torpaqşünas, güclü publisist qələmə malik şair xəyallı xeyirxah və mehriban bir insan kimi tanıyır və hörmət edirlər. Bu alimin fəaliyyətindən, əsərlərindən söhbət düşən kimi mənim nəzərimdə Azərbaycanın bütün guşələrini qarış-qarış gəzmiş, onun torpağının, meşəsinin, otunun, gül-çiçəyinin, quşunun dilini, özünəməxsusluğunu bilən, H.Zərdabi ənənələrini ustalıqla inkişaf etdirən müdrik təbiətli bir el ağsaqqalı canlanır. Alim torpaq, meşələr, ətraf mühit, bütünlükdə Azərbaycanın iqlimi, flora və faunasının vəziyyəti barədə ən mötəbər sözünü "Həyəcan təbili" kitabında demişdir. Onun uzun müddətdən bəri təbiəti qorumaq barədə çaldığı həyəcan təbili indi də qulaqlarımızdadır. Kitabı oxuduqca adamda belə bir qəti inam yaranır ki, insan öz elinə-obasına, ayağının altında nəfəs alan torpağa möhkəm tellərlə bağlananda, başının üstündə ulduzlu vətən səması şəfəq saçanda daha güclü və mətin olur. Belə adamlar büdrəyə bilər, müəyyən məqamlarda səhv də buraxa bilər, tərəddüd də edə bilər, lakin böyük amalından-torpağa, xalqa bağlılığından üz döndərə bilməz. Bütün canlıların, hətta cansızların da yerdə ilk və son beşiyi torpaqdır. Mənə görə, torpağa məhəbbət insana ana südünün cöhvəri ilə daxil olur və torpağa da hopur. Bəlkə də torpaqdakı tükənməz ətir, cazibə qüvvəsi, həyat eşqi ilə elə ana südünün müqəddəsliyi yaranmışdır. İnsan inananda ki, böyük və dəyişməz bir

amal uğrunda döyüşür, vuruşur özünü daha güclü, qüvvətli hiss edir. İnam idealdır, məsləkdir, insanın fəaliyyətini nizamlayan əsas amildir. Torpağa — həyata, bərəkətə, gözəlliyə məhəbbəti ideala çevirmək ən böyük səadətdir. H.Əliyev belə bir idealın ən fəal daşıyıcılarından biridir. Təbiəti qorumaq vətənpərvərlik, hətta insanpərvərlik hissi ilə vəhdət təşkil edir. Vətən — torpaq quru, boş sözdən ibarət deyil, ömründə bir kol belə əkməyən adam qoltuğunda dəhrə, balta, mişar gəzdirib meşələri kor qoyursa, bunun nəyini vətənpərvər saymaq olar?! Torpaq insanı məğlubedilməz böyük Antey edir, Məcnuna, Kərəmə çevirir. Onun dərəli-təpəli, sulu-qurulu, dağlı-meşəli hər qarışını gəzməyə, sevməyə vadar edir. İnsanın vətəndaşlığı da məhz buradan başlayır. Peşəsindən, sənətindən asılı olmayaraq vətəndaşlığı olmayanların hamısı torpağa ağırlıqdır. Biz H.Əliyevi təpərli, hünərli, cəsarətli vətəndaş alimlərdən, həm də xoşbəxtlərindən sayırıq. "Əlimə qələm alarkən torpağın tədqiqindən başladım. Bu sahədə yazdığım kitablarımın da, məqalələrimin də oxucuları yalnız torpağı tədqiq edənlər və becərənlər oldu. Bəs torpağın dərdi? Torpağın dərdi çoxdur. Onu da düşünmək, görmək və hiss etmək lazımdır. Torpaq dilə gəlib şikayətləndi. Kimdən? Özünün "süd verib bəslədiyi" insanlardan, sinəsinə yara vuranlardan, gözlərinə zəhər tozu üfürənlərdən. Mən isə torpağın övladlarından birisi kimi haray saldım, dövri mətbuatda məqalələrlə çıxış etdim, dedim ki, qoy səsimi hamı eşitsin. Kitabın adını da naşir dostlarım qoydular: "Həyəcan təbili". Dedilər ki, "Həyəcan təbili"ni haradan asaq ki, hamı eşitsin. Dostlarımdan biri dedi: "Həyəcan təbili"ni insanların qulağının dibindən asmaq lazımdır".

H.Əliyev məqalələrinin birində indiki şəraitdə insanı barama qurduna bənzədir. Lakin bu insan bəzən barama qurdundan da ağılsız hərəkət edir. Bildiyiniz kimi, barama qurdu yarpaqlardan özünə tor toxuyur, sonralar bu tordan özünə bir yolağa qoyub çıxmaq istəyir, amma bacarmır. İnsan təbiəti, ətraf mühiti korlamaqla tamam məhv ola bilər. Əgər kainat, hava, su və torpaq çirklənsə, yararsız hala düşsə, bütün canlılar aləmi bata bilər. Məsəl var deyərlər, hər bir ləkəni, hətta qanı da su ilə yuyurlar, bəs su çirklənsə onu nə ilə təmizləmək olar? Su hər şeyi yuyur, hava yayır, torpaq isə udur. Yəni suyun yuduğu, havanın yaydığı hər bir zəhəri, çirkabı, kiri də torpaq özünə çəkib təmizləyir. Əgər torpaq zəhərlənsə, çirklənsə, onu hər cür yaramazlıqlarla yükləsək, bütün canlıların qida mənbəyi sıradan çıxar. Belə olduqda təbiətdə və cəmiyyətdə canlılar aləmi təhlükə qarşısında qalar.

Kainatda enerji mənbəyi günəşdir. Günəş enerjisi təbiətin yaşıl örtüyü, çəmənlər, meşələr, bağ-bağçalar vasitəsilə sintez olunub torpaqda qidalılıq, münbitlik yaradır. Bu münbitliyi yaşadan ən xırda mikrob mikroor-

qanizmlərdir. Onlar isə müxtəlif formalarda təzahür edirlər. Kitabda göstərildiyi kimi, əgər müxtəlif zəhərli sənaye tullantıları, çirklənmiş hava və sular, hamısı bizim qida mənbəyimiz olan torpağa axıdılsa, hopdurulsa, nəticə necə olar? Bütün canlılar aləmi, təbiətin yaşıllığından, gözəlliyindən tutmuş heyvanat və insan aləminə qədər hamısı məhv olmaq təhlükəsi qarşısında qalmazmı? Bu baxımdan laqeydlik üzündən bizim zəngin və bərəkətli torpağımızın on min hektarlarla sahəsinin şorlaşıb, meşəsizləşib sıradan çıxması təkcə alimləri, yazıçıları, ictimai-siyasi xadimlərimizi deyil, hamını düşündürməli, narahat etməlidir. Buna görə də şüursuz barama qurdunun hördüyü tordan xilas ola bilməməsi təbii görünsə də, şüurlu insanın havanı, suyu, torpağı çirkləndirməsi elə böyük fəlakətlərlə nəticələnə bilər ki, onun qarşısını heç nə ilə almaq olmaz. Bu saat təbiət uşaqdan da şıltaq və zərif olmuşdur. Biz ata-anasız uşağa yetim deyirik. Yetimləri də yetimsizlikdən çıxarmaq olar və mümkündür, lakin təbiət yetim qalsa, onu kim xilas edər? Şairlər demişkən, insansız təbiət yetim kimidir. Belə olduqda, biz özümüzün xilasımız naminə, gələcəyimiz naminə qida mənbəyimizi — suyu, havanı, torpağımızı hər cür çirkabdan, natəmizlikdən qorumalıyıq.

Mən dəfələrlə görkəmli alimlə Kəlbəcər dağlarına qalxmışam, Göygölün bihuşedici mənzərələrini seyr etmişəm. Onun duzlu, maraqlı, fotoşəkilli, sənədli-sübutlu söhbətlərinə qulaq asmış, kino ekranı mühazirələrinə tamaşa etmişəm. O yerdə ki təbiətə, torpağa, meşəyə, havaya, suya insani gözlə baxılır, orda onu şad, gülərüz görmüşəm, o yerdə ki bu həyat mənbələrinə laqeyd, etinasız münasibət bəslənilir, orada onu qəzəbini dişləri ilə güclə boğan, bəzən də qılınc kimi kəsən, parçalayan görmüşəm. Onun vətəndaşlığı da, torpağa bağlılığı da, alimliyi də məhz belə anlarda kara gəlib, öz işini görüb. Yaxşını, yamanı görəndə ağzına su alıb susan, torpaqların, meşələrin korlanıb sıradan çıxmasından tükü belə tərpənməyən adamların vətəndaşlıqda haqları yoxdur. H.Əliyev təbiətə insanı tam əhatə edən və onun mənəvi dünyasını üzə çıxaran əsas həyat mənbəyi kimi baxmaqda tam haqlıdır.

Onun "Həyəcan təbili"nin məna dairəsi çox geniş və rəngarəngdir. Bu təbil torpaqdan, sudan, meşədən, mineral mənbələrdən, təbiətin heyvanlar və quşlar dünyasından tutmuş, sanatoriyalara, parklara, bağ və bağçalara qədər hər şeyi əhatə edir. O, hər yerdə bu təbili bir vətəndaş alim kimi, xalqımızın ləyaqətli və cəsarətli oğlu kimi çalır, hətta çox yerdə ali nüfuzlu kürsülərdən də eşitdirir. Bu alim hər bir adamda qibtəoyadacaq dərəcədə bütün dünyanı gəzib-dolaşmış, doğma Azərbaycanı hər yerdə uca tutmuş, ən çox bu torpağın ağacının, quşunun, otunun, çiçəyinin dilini, dər-

dini, sirrini dərindən bilmiş, sevmişdir. O, hər yerdə Azərbaycan torpağının bütün gözəlliyini nümayiş etdirməyə çalışmışdır. Bu kitab onun torpağının, meşəsinin, quşlar aləminin tarixi aynasıdır. Bu kitab onun gözəllik aləminə, canlılar dünyasına, müqəddəs sərvətlərinə əl qaldıran nankorlara qarşı ən sərraf ittiham aktıdır. Bu kitabın heç də bütün səhifələri sevinc və şadlıq ruhu ilə yazılmamışdır. Burada qəzəbqarışıq nifrət də var, eyham və satira da var, tənbeh və ittiham da var. Və bütün bunların vətəndaşlıq pafosu ilə cəsarətli ifadəsi var. O, bəzən mahir bir təbib kimi Azərbaycan təbiətinin dərdlərinin diaqnozunu necə də dəqiq qoyur. O, ustad torpaqşünas alim kimi Azərbaycanın təbii mənzərəsinin xəritəsini çəkib, az qala hər ağacın, daşın, kolun, dağın, çayın... keçdiyi yolun tarixini danışır. Alimin bir səcdəgahı var: Azərbaycan təbiəti! Məğlubedilməz bir qəhrəmanı var: Azərbaycan torpağı! Bir gözəllik ilahəsi var: Azərbaycan! Dünyanın ən ucqar guşələrində olanda da o, daim bu barədə fikirləşir. Adam bəzən düşünür, kaş H.Əliyevin diaqnozu əsasında Azərbaycan təbiətini bütünlüklə müalicə etmək mümkün olaydı. Çünki o, bu torpaqla fəxr etməklə bərabər, həm də onun yaralanmış hissələri üçün böyük həyəcan keçirir. O başa düşür ki, rus-sovet şairlərindən O.Şestiniskinin dediyi kimi:

*Təbiətin şah damarı qırılsa,*
*Bu ana torpağın qanı dayanmaz!*

O, təbiətimizi qanına qəltan etməyə çalışanların bəd əməllərini çoxlu faktla, ustalıqla nümayiş etdirir.

Çox müxtəsər olaraq bu faktlardan bir neçəsini nəzərinizə çatdırmaq istərdik: Çörək ağacımız, həyat mənbəyimiz, yaşayışımızın ilk məbədgahı TORPAQDAN başlamaq istəyirəm. Kitabda oxuyuruq ki, təkcə Kür — Araz ovalığında 130 min hektardan çox torpaq sahəsi yararsız hala düşmüşdür. Eroziya nəticəsində Azərbaycan torpaqları "ildə 1200 min ton kalium, 5,8 min ton fosfor və 82 min ton azot itirir, 100 min illər ərzində əmələ gəlmiş torpaq qısa bir müddətdə eroziya prosesi ilə yuyulub aparılır". Bütünlükdə respublika ərazisinin 35 faizdən çoxu yararsız hala düşüb.

Hazırda bir çoxları kimi torpağımızın gələcək taleyi, münbitliyinin saxlanması məni də narahat edir. Bəzən tək-tək rayonlar üzrə şorlaşmış, əkinə yararsız hala düşmüş torpaqlarımızı gözlərim önünə gətirəndə dəhşətə gəlirəm. Mötəbər mənbələrdən aldığımız məlumata görə, Ucarın, Neftçalanın, İmişlinin, Zəngilanın, Qasım İsmayılovun və digər rayonların torpaq sahələrinin bir qismi müxtəlif səbəblər üzündən yararsız hala düşmüşdür. Buna bənzər faktları başqa rayonlardan da gətirmək olar. Niyə dağa-daşa düşək? Kürdəmir yolu ilə gedəndə o zonanın min hektarlarla torpaq sahə-

sinin nə vəziyyətə düşməsini kim görməmişdir? Yorulmuş, heydən düşmüş, gömgöy göyərmiş torpağın elə bil dərisini soyub yağmalayıb qaçmışlar, torpağa divan tutmuşlar. Bizim çörək ağacımızı — ana torpağımızı böyrü üstə yıxıb, zəlil, şikəst edib, gələcəyimizi təhlükə altında qoyan kimlərdir? İllərlə amansızcasına, kəmfürsətcəsinə torpağın şirəsini çəkib, zəhərli dərmanlardan verib onu müalicəsi çətin olan xəstəliyə düçar edən bu "torpaq düşmənləri kimlərdir?". Həm də ən dözülməzi budur ki, bütün bu torpaqlar "keçmişdə özünün bir nəfər ixtisaslaşmış torpaqşünas alimi olmayan respublikamızda" deyil, indi, iri elmi-tədqiqat institutları və yüzlərlə mütəxəssisi, Elmlər Akademiyası, iyirmi nəfər elmlər doktoru, 80 nəfərdən çox elmlər namizədi, 200 nəfərdən artıq kiçik elmi işçisi və aspirantı, yüzlərlə, hətta minlərlə torpaq üzrə böyük şöhrətə çatmış adamlarımız fəaliyyət göstərdikləri bir vaxtda yararsız hala düşmüşdür.

Bəlkə indi də MEŞƏLƏRİMİZƏ tutulan divana baxaq?

Vaxtilə respublika ərazisinin 25-30 faizdən çoxu meşə ilə örtülü olduğu halda, indi bu, 10,8 faizə enmişdir. Hazırda Sovet İttifaqında hər nəfərə orta hesabla 4,0 hektar, Azərbaycanda isə 0,17 hektar, yəni 28 dəfə az meşə düşür. Publisist alim meşəni haqlı olaraq "həyat mənbəyi, yaşıl ciyər", havanı təmizləyən və tənzimləyən əvəzsiz sərvət, torpağın xilaskarı adlandırır, belə bir xalq misalı çəkir: "Meşə sudur, su məhsuldur, məhsul isə həyatdır". "Meşəni — Yer kürəsinin bu yaşıl kəmərini bircə an təsəvvür etməsək, demək, bəşər də yoxdur. Yaşıllığa ölçüsüz-biçisiz hücum insana qarşı yönəldilmiş ən ağır müharibədir". "Düşmən hər hansı bir ölkəyə hücum edəndə birinci növbədə onun adamları ilə bərabər meşəsini də qırır. Meşəsi məhv olmuş milləti, xalqı, torpağı təslim etmək, məhv etmək asandır. Meşə xalqın sərvətinin tacıdır, meşəsiz torpaq yazıqdır, səqirdir, miskindir. Meşə sahəsində alimin həyəcan siqnalı qəzəb dolu etiraza çevrilir. Axı, meşənin hansı möcüzələrə qadir olduğunu başa düşən həqiqi vətəndaş bu faktlara necə dözsün? "Yaxın keçmişdə Tuqay meşəsinin minlərlə hektar sahəsi (Samux meşəsi adı ilə məşhur olan ən xarakterik hissəsi) Mingəçevir gölünün altında qalmışdır. Yəqin ki, bu yaxın vaxtlarda Şamxor və Tovuz rayonları sahəsində xeyli meşə sahəsi də Şamxor su anbarı altında qalacaqdır", "Tuqay meşəsinin kiçik sahələrindəki qalıqları da... yavaş-yavaş sıradan çıxmaqdadır... Kürboyu 700-800 km-dən artıq sahə çılpaq, yəni meşəsiz qalmışdır... Hazırda mövcud olan Kürqırağı meşələrinin 70%-i ... son dərəcə acınacaqlı bir vəziyyətə düşmüşdür... Qarağac və palıd meşələrinin, demək olar ki, hamısı acınacaqlı vəziyyətə düşmüşdür. Bir daha ürək ağrısı ilə təkrar etmək lazımdır ki, Gürcüstan ərazisində Qarayazı meşəsi qorunduğu halda, orada marallar cövlan et-

diyi halda, Azərbaycan ərazisində hər cür meşələr mal-qara döyənəyinə çevrilir. Bərdə ərazisində meşə ilə örtülü sahə 1945-ci ildə 94% idisə, 1965-ci ildə bu, 32 %-ə enmişdir. Sonrakı illər daha faciəli olmuşdur. Müvafiq illərdə Ağstafada 70-dən 47%-ə, Ağdaşda 70-dən 39 %-ə enmişdir. Belə bir vəziyyət Kür sahilində yerləşən bütün təsərrüfatlara aiddir". Publisist alim sübut edir ki, meşəsi tələf edilən sahələrdə torpaq örtüyü şorlaşmağa və bataqlaşmağa doğru gedir. Təkcə 1955-1970-ci illər arasında meşələrimizin sahəsi 200 min hektardan çox azalmışdır. 100 min hektar kolluq sıradan çıxmışdır. Hətta elə rayonlar var ki, orada meşənin, kolun kökü kəsilmək üzrədir. Sovxoz və kolxozların ərazisində olan 150 min hektar meşə tamam sıradan çıxmışdır. Bu ərazilərdə son 25 il ərzində (1945-1970) 225 min hektar meşə, 70 min hektar kolluq tamam silinmişdir. Hazırda meşəyə həsrət qalan rayonların (Abşeron, Zərdab, Puşkin, Salyan, İliç, Ordubad, Qasım İsmayılov ) sayı getdikcə artır. Talış meşələri sürətlə seyrəlir, Tərtərçayın ətraf meşələri təhlükə altındadır. Masallı, Lerik, Lənkəran, Astara, Yardımlı rayonlarında meşələr seyrəldikcə dağ yamaclarında eroziya güclənir, meşə "mühüm torpaqqoruyucu və su mənbəyi kimi öz əhəmiyyətini itirir". Mardakert və Kəlbəcər rayonlarında da belədir. Yer üzündə yalnız Azərbaycanın Lənkəran zonasında və az bir hissəsi də Cənubi Azərbaycanda qalmış, sənayedə metalı əvəz edən dəmirağacın, yer üzündə yalnız bizim respublikamızda olan Eldar şamının, SSRİ-də yalnız Naxçıvanda təsadüf edilən narbənd ağaclarının da taleyi haqqında düşünmək lazım gəlir.

Sonrakı illərdə meşələr barədə çox güclü qərarlar çıxarılm na, tədbirlər görülməsinə baxmayaraq, Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin qəbul etdiyi qərarda ( 30 noyabr 1982) göstərilir ki, təkcə son iki ildə nə az, nə azacıq — 1400 hektardan çox meşə sahəsi məhv edilmişdir. "Həyəcan təbili" kitabında meşələri korlayanlardan söhbət gedərkən haqlı olaraq bir sıra rayonlarda "Yaşıl alovun" — qazın olmaması bir fakt kimi gətirilir və əsaslandırılır. Bu da xüsusi qeyd edilir ki, Azərbaycanın Kəlbəcər ərazisindən keçib Cermuxa aparılmış qaz kəmərindən, yenidən xüsusi icazə istəyib, "Cermuxdan İstisuya qaz kəməri çəkməyi" təklif edənlərin hərəkətləri doğrudan da gülüş doğurur. Bax, elə meşələri, torpağı kor qoyanlar da məhz belə qeyri-təşəbbüskar təsərrüfat başçılarıdır. Bu ona bənzəyir ki, özün öz səlahiyyətini başqalarına tapşırıb sonra da öz torpağını, suyunu qorumaq üçün ondan icazə istəyəsən. Meşələri Gürcüstanda, Ermənistanda, Rusiyada... niyə otarmırlar? Bir budağı kəsən məhkəmə qarşısında dayanmalı olur. Dünyanın heç bir ölkəsində meşəyə, torpağa, təbii sərvətlərə bizdəki qədər laqeydlik yoxdur. Qarayazı və Sultan-

bud meşələrinə divan tutanlara nə etdilər ki, o birilər də ondan ibrət götürsünlər?! Bizdə elə xırsız, qansız təsərrüfat rəhbərləri var ki, onlar bir meşəni bir gecədə buldozerin xortumuna verib yerlə-yeksan edirlər. Yuxarı təşkilatlardan başqa kimin haqqı və səlahiyyəti çatar ki, belələrinə gözün üstə qaşın var deyə bilsin. Mən hələ qorxuram ki, belələrinin burunları ağıllı-başlı ovulmasa, bizi quru yurdda qoysunlar.

Kitabda "Yaşıl ciyər" adlı klassik bir məqalə var. Burada ADR-də meşəyə olan yüksək insani qayğıdan çox tutarlı, ibrətli nümunələr gətirilir. Meşə üçün çox nümunəvi qayğının yaradılmasından bəhs edilir. Mən bu qayğını Kislovodsk, Pyatiqorsk, Teberda ... tərəflərdə də görmüşəm, hətta meşənin bir dəstə otunu biçmək də qadağandır, çünki o da meşə heyvanlarının qismətidir. Amma siz gedin Naxçıvanın ən az meşə ərazisi olan Batabat tərəflərə baxın. Meşəyə o qədər qoyun, keçi dərisi, şüşə sınığı, çirkli bağırsaq töküblər ki, adamın başının tükü qabarır. Təbiət üzərindəki insafsızlıq və zorakılıq bizim meşələrimizin az qala hamısını faciəli vəziyyətə salmışdır. Gələcək nəslə dərisi soyulmuş, torpağı şorlaşmış, meşəsi yağmalanmış Azərbaycan deyil, təbiəti bahar libası geymiş, meşə ətirli, torpağının hər qarışı barlı-bəhərli Azərbaycan lazımdır. "Həyəcan təbili" kitabı ilk növbədə bizim doğma Azərbaycanımızı belə barlı-bəhərli görməyə çağırır.

Təbiətlə elə rəftar etmək lazımdır ki, heyvanlar da razı qalsın. Qartalı mərhəmət gözləməyə vadar etmək, ceyranı, cüyürü, maralı gözüyaşlı qoymaq, pələngi, şiri meşəsiz qoyub yazıq vəziyyətə salmaq təbiətə də, onun canlıları da qəsd etməkdir. Norveçdə təbiəti qorumaq haqqında qanun ilk dəfə 1910-cu ildə qəbul edilmişdir.Və bu qanun əsasında yaradılan Mühafizə Şurası hökumətin ən yaxın məsləhətçi orqanıdır. AFR-də ətraf mühiti çirkləndirənlər cinayət məsuliyyətinə cəlb edilirlər. Belələri ya 100 marka cərimə verməli, ya da 10 il azadlıqdan məhrum olunmalıdırlar. Əla qanundur. Belə olmasa, acgözlər təbiəti hələ çox çapıb-talayacaqlar. Əgər biz həm öz səadətimizi, həm də bütün canlılar aləmini, torpağın bərəkət və tükənməzliyini əbədi saxlamaq istəyiriksə, gərək təbiətə doğma övlad münasibəti bəsləyək. Unutmayaq ki, "Biz toxuculuqda hörümçəklərin, ev tikməkdə qaranquşların, oxumaqda bülbüllərin şagirdləriyik" (Demokrit). " Heç bir kitab insanın biliyini təbiət qədər zənginləşdirə bilməz" (Feyerbax). Gərək hamımız yadda saxlayaq ki, "Təbiətin cana göstərdiyi şən, güclü, tərbiyəedici təsiri uşaqlar üçün heç bir şey əvəz edə bilməz" (Uşinski).

"Həyəcan təbili"ndə mineral suların, batırılan bulaqların, azalmış balıqların, meyvə bağlarının... vəziyyətinə də müxtəsərcə nəzər salaq. Müəllifin harayı bir sahə ilə məhdudlaşıb qalmır. Təbii sərvətlərimizin müxtəlif

guşələrinə yayılır. Mineral bulaqların sayı mindən artıq olan respublikamızda 200-ə qədər müalicəvi əhəmiyyətli mənbə var. Alim-publisist xalqa arxalanıb deyir: "Düşmən torpağımıza hücum edəndə hər şeydən qabaq bulaqları qoruyun. Bulaqlar əlimizdə qalsa, düşməndən qorunmaq asandır. Düşmənə hücum edəndə ən əvvəl içməli sularını əlindən alın. Sudan məhrum olan düşməni əzmək asandır".

Məlumdur ki, respublikada istehsal olunan neftin bir litri dövlətə qəpik yarıma satılır. "Sirab"ın, yaxud "Badamlı"nın bir şüşəsi isə 4-5 dəfə neftdən bahadır. "Köşk və apteklərdə satılan mineral suyun bir litri kolxoz və sovxozlardan alınan bir litr südün qiymətinə bərabərdir". Bu kimi tutarlı faktlardan sonra fikirləşirsən ki, onda nə üçün çaylara axıb gedən sular şüşələrə doldurulub pula çevrilməsin? Biz hələ onu demirik ki, su sarıdan da respublikamız adambaşına görə sonuncu yerlərdə dayanır. Təəssüf ki, xeyli iş görülsə də, mineral sularımızın vəziyyəti yenə də qənaətləndirici deyildir.

Bəs quşların vəziyyəti necədir?

Kitabda oxuyuruq: "Quş səsi olmasaydı, təbiət lal-kar olardı. Quşlar təbiətin ən canlı, poetik bir aləmidir. Quşsuz təbiət, mizrabsız tara bənzər".

Çox obrazlı və poetik deyilmişdir. Təkcə təbiət deyil, insanlar da quş səsindən, avazından çox şey əxz ediblər. Meşəsiz, bağ-bağatsız quşların çoxalacağını, artacağını da təsəvvür etmək çətindir. Kitabda alim bir qədər patetik şəkildə məqalələrin birində soruşur ki, nə üçün ADR-in meşələrində maral, cüyür, qaban, dağ keçisi sürü ilə gəzdiyi halda, bizim meşələrdə bunlar barmaqla sayılsın? Hətta yaşlı adamların söylədiklərinə əsaslanıb göstərir ki, lap bu yaxın keçmişə qədər Qarabağ, Mil, Muğan və Şirvan düzənliklərində addımbaşına ceyran sürüləri ilə rastlaşmaq olardı. Bəs indi onlar niyə görünmürlər? Nə üçün təbiətdə bu nadir heyvanları indi, necə deyərlər, əliçıraqlı da axtarıb-tapmaq mümkün deyil? Nəyə görə Muğanda onların nəsli tamam kəsilmişdir?

Kitabda Xəzərin qiymətli kürüsünə, balıqlarına da xeyli yer verilmişdir. Məhz bu gün bizi kürüyə, balığa həsrət qoyanlar da elə torpağa, meşəyə laqeyd yanaşanlardır. Qarakürülü balıqlar yalnız Xəzərdə yaşayardı və dünyada istehsal edilən kürünün 90%-ni əsasən Azərbaycan verərdi. Kitabda oxuyuruq ki, Xəzər dənizi əsrlər boyu milyonlarla adamı zülal maddəsi ilə qidalandırdığı halda, indi onun cüzi hissəsini belə verə bilmir. Qabaqlarda Xəzərdə və Kür çayında 100 sentnerlərlə qızılbalıq tutulduğu halda, indi çoxumuz bu qiymətli nemətə tamarzı qalmışıq. Əsərdə çox sərrast deyildiyi kimi, indi "təbii sərvətləri istismar edən çox, onun mühafizəsinə və bərpa olunmasına isə can yandıran, qayğısına qalan azdır".

Müəllif bununla da kifayətlənmir. "Hanı dadlı meyvələrimiz?", "Hanı sənin ceyranların, Ceyrançölüm?", "Təbiəti sevmək və onun sərvətlərindən istifadə etmək ümumxalq işidir" — deyə xüsusi başlıqlarla haray qoparıb hamını ayağa qaldırmağa çalışır. Meşələrin cır və dadlı meyvələrini toplamaq, min hektarlarla torpaqda qoz ağacları əkmək sahəsində də eyni yanğını hiss edirik.

Görkəmli şairimiz Məmməd Araz kitaba "Alimi düşündürən problemlər" adlı müqəddimə yazmışdır. Burada deyilir ki, alimin toxunduğu ekoloji problem nəinki aktuallığını itirib, əksinə, yeni tikintilərin artması, yeni yolların çəkilməsi, atmosferə, su hövzələri, böyük şəhərlərin ətrafına atılan tullantıların həddini aşması bütün dünya miqyasında aydın ağıl sahiblərini daha artıq həyəcana gətirir.

Bütünlükdə bizə belə gəlir ki, "Həyəcan təbili" kitabı torpağımıza, təbiətimizə böyük qayğının səmimi ifadəsidir və publisistikamızın bu ciddi məsələ ilə necə yaxından məşğul olduğunu aydın göstərir.

NƏBİ XƏZRİ
*Xalq şairi*

## TƏBİƏT VURĞUNU, ALİM, VƏTƏNDAŞ

Vətən müharibəsinin ağır illəri... Qışdır. Ağaclar buz bağlayıb. Quşbaşı qar yağır. Üfüqlər arxasında atılan topların boğuq sədası gəlir. Ölüm-dirim vuruşlarında qəhrəmancasına həlak olmuş Vətən oğullarını səhra qospitalının ölüxanasından çıxarıb qardaşlıq məzarında dəfn etməyə aparırlar.

Bir azdan tüfənglərdən açılan yaylım atəşi gurlayacaq. Xalqın qələbəsi üçün canlarını qurban vermiş igidlər bir məzarda əbədiyyət yuxusuna gedəcəklər.

Yağan qar igidlərin üzünə qonur, kirpiklərində buz bağlayırdı. İgidləri aparan əsgərlərdən biri bu an heyrət içində donub qalır. Dəfn edilməyə aparılanlardan birinin üzünə qonan qar dənələri o dəqiqə əriyirdi. Qar də-

nələri tər damlalarına çevrilirdi. Deməli, o diri idi. Bədənində hərarət vardı. Əsgər heyrətini yoldaşlarına dedi. Tez həkimlər gəldi.

Bir azdan yenə də həmin xəstəxana... Təcili dava-dərman... O gün indi dünya şöhrətli, görkəmli alimimiz akademik Həsən Əliyevin ikinci təvəllüd günü oldu.

Döyüşlərdən qəhrəmancasına çıxmış Vətən oğlu ölümlə vuruşmadan igidcəsinə çıxmışdı. Beləliklə, ancaq xoşbəxt bir təsadüf xalqımızın böyük övladını bizə qaytarmışdır.

10 yaşından Naxçıvanda muzdurluğun acısını dadmış Həsən Əliyev taleyini kitaba, təhsilə bağlamışdır. Hələ çobanlıq etdiyi günlərdə o ilk dəfə əlinə kitab alıb, tanışlardan eşitdiyi hərfləri höccələyə-höccələyə əzbərləmişdir. Təbiət qoynunda nə qədər kitablar oxumuşdur. Onun ilk məktəbi, auditoriyası təbiət özü olmuşdur. Bu, gələcək alimin ilk elmi möcüzəsi idi. Harada işləyirsə-işləsin, yeganə amalı Azərbaycan təbiətini, onun sərvətini qorumaq, inkişaf etdirmək və bütün dünyada tanıtmaqdır.

Təyyarə 10 min metr yüksəklikdə uçur. Moskva — Bakı. Bizdən aşağıda ağappaq qatı buludlar göy üzünü tamam tutmuşdur.

Biz yan-yana oturmuşuq. O, qatı buludlara baxır və buludlar altındakı yamyaşıl, günəşli, nurlu bir dünyadan söhbət açır:

— Bakıya düşən kimi Qalaaltıya gedəcəyəm. Bilirsiniz, Qalaaltının suyu necə möcüzədir? Orda yeni sanatoriyalar başlamışıq tikməyə. İndi yollar da salınır. Bakıdan ora ən çoxu iki saatdır. Paytaxtdan iki saatlıqda dünya əhəmiyyətli kurort. Bu, bilirsiniz, bizim üçün nə qədər böyük əhəmiyyətə malikdir?

O, elə ilhamla danışır ki, lap adamı sehrləyir.

— Axı niyəTruskovetsə gedəsən, niyə Karlovı-Varıya yollanasan?

Bir az susub əlavə edir:

— Sov.İKP Mərkəzi Komitəsi Xəzər sahilindəki kurort zonasını inkişaf etdirmək haqqında tarixi qərar çıxarmışdır. Bu gün cahanşümul qələbələr qazanan Azərbaycanın sabahını heç bilirsiniz necə nurlu, işıqlı görürəm? Biz indi başqa yerlərə müalicəyə gedirik. Gün gələcək ki, bütün dünya istirahətə, müalicəyə Azərbaycana axışacaqdır.

Onun səsində qürur hissi duyulur. Birdən nəyisə xatırlayaraq sözünə davam edir:

— Hələ nə qədər müalicə sularımız var ki, tam istifadə etmirik. Bu qızıl qiymətli sular boş-boşuna axıb gedir. Düzdür, Kəlbəcər İstisuyunda kiçicik bir sanatoriya tikilib. Amma bu, tələbatı heç cür ödəyə bilməz. Yay günü ətraf kəndlərdən camaat bura axışıb gəlir. Hərə bir alaçıq qurur. Elə-

cə o qaynaya-qaynaya axan, fəvvarə vuran sudan içib sağlamlıq tapırlar. Burada sanatoriyalar, pansionatlar, motellər salmaq çox vacibdir.

Bu an mənim yadıma bir hadisə düşdü: 20 il əvvəl Karlovı-Varıya müalicəyə getmişdim. Mehriban, qayğıkeş həkimim ilk söhbətimizdə məndən haradan gəldiyimi soruşdu. Mən cavab verdim ki, Azərbaycandan. Həkim öz heyrətini gizlədə bilmədi:

— Azərbaycandan buraya müalicəyə? Axı, sizdə İstisu var. O, müalicə xassəsilə bizim sudan bəlkə daha təsirlidir. — Və əlavə etdi: — Mən o suyun tərkibi ilə tanışam. Bu barədə çox oxumuşam.

Mən onda həkimə deyə bilmədim ki, İstisuda kütləvi müalicə üçün lazımi şərait hələ yoxdur. Akademik isə öz sözünə davam edirdi:

— Hələ bəs Naxçıvan mineral suları, heç bircə faizindən istifadə olunmur. Vayxır suyu adnandır. 5 metrə qədər fəvvarə vurur. Bu suyun tərkibi Yessentuki sularının tərkibinə bənzərdir. İstifadə etmək olar? Əlbəttə, olar! Hələ "Sirab", "Badamlı". Qəhrəman neftçilərimzin yer qatlarından çıxardığı neftin bir litri qəpik yarıma satılır. "Sirab"ın, "Badamlı"nın isə bircə şüşəsi ondan 4-5 dəfə bahadır. Onda bəs bu sular boş yerə niyə axıb gedir? Sular nəinki havayı axıb gedir, maddi ziyan vurur, həm də axdıqca münbit torpqlarımızı da duzlaşdırır, yararsız edir.

O, təbiətdən təbii bir ilhamla danışırdı. Təbiət şairdir. Bəs təbiəti dərin məhəbbətlə sevən insana nə ad verək? Təbiət vurğunu! Şair təbiətin şairanə oğlu! Onun səsində qayğıyla yanaşı, bir həyəcan da vardı, yanğı da, narahatlıq da. Bu, vətəndaşlıq qayğısı, vətəndaşlıq həyəcanı, vətəndaşlıq məhəbbəti idi.

... Söhbət şirin olanda vaxtın necə keçdiyini bilmirsən. Təyyarə artıq doğma Bakı limanına enirdi. H.Əliyev portfelindən bir kitab çıxardı. Bu, onun məşhur "Həyəcan təbili" əsərinin ikinci nəşri idi. O, kitaba avtoqraf yazıb mənə təqdim etdi. Kitabı unudulmaz görüşdən unudulmaz bir xatirə kimi qəbul etdim.

Mən "Həyəcan təbili" kitabının ilk nəşrini neçə il əvvəl böyük diqqət və maraqla oxumuşdum. Müəllifin bütün vətəndaşlıq düşüncələrinə, təbiətimizi qoruyub saxlamaq haqqındakı fikirlərinə ürəkdən şərik olmuşdum. İkinci nəşr birinci nəşrdən çox fərqlənir — həm keyfiyyəti, həm də qoyulduğu problemlərin yeniliyi və genişliyi ilə. Olduqca nəfis şəkildə buraxılmış bu kitabı müəllifin özünün çəkdiyi rəngli fotoşəkillər zənginləşdirmişdi. İndi biz nadir təbiət sərvətlərimiz haqqında oxumaqla yanaşı, onları əyani görürük də. Məsələn, minillik çinarlarımızı, əzəmətli ardıc ağacını, müqəddəs şabalıdları, dəmirağacları, Eldar şamlarını, möhtəşəm dağları-

mızı, dağlarımızın mavi incisi Göy gölü, əfsanəvi Çıraqqala abidəsini, şəfa bulaqlarımızı və i.a.

Müəllif bizə bildirir ki, bu həyəcan təbili hamımızın ürəyində əzəmətli səslənməli, bizi təbiət qarşısında məsuliyyətə çağırmalıdır. Çünki təbiəti qorumaq ancaq təbiətşünasların borcu yox, ümumxalq işidir. Təbiət bütün sərvətini bizə səxavətlə verir — əvəzində ancaq diqqət, hörmət və məhəbbət umur. Günəş, torpaq, su təmənnasızdır!

Müəllif açıq, səmimi ürəklə təbiətin nə qədər qapalı sirlərini bizə açıb söyləyir, bizimlə inam və etibar dili ilə danışaraq yerə, göyə məhəbbət aşılayır.

O, torpaqdan danışanda onu maddi və fəlsəfi bir varlıq kimi qəbul edir və deyir: "İnsan üçün torpaqdan kənar təbiət anlayışı yoxdur".

O, ağaclardan danışanda elə bil canlı insanlardan söhbət açır: "Yaşıllığa ölçüsüz-biçisiz hücum insana qarşı yönəlmiş ən ağır müharibədir".

O, təbiətimizin qanadlı övladlarından danışanda isə çox şairanə bir nəticəyə gəlir: "Quşsuz təbiət mizrabsız tar kimidir".

Göllərdən danışanda isə ...

Bu məsələ üzərində xüsusi dayanmağa dəyər. "Həyəcan təbili"nin birinci nəşrində akademik H.Əliyev Göy gölün baxımsızlığından ürək ağrısı ilə danışmışdı. O, bura maşınla gələn qonaqların ağacları rəhmsizcəsinə qırmasından, gölün sahili boyu ocaqlar çatmasından, ətrafı zibilləyib, yanğın təhlükəsi törətməsindən qəzəblə yazırdı. Bu özü çox böyük həyəcan təbili idi. Göy gölü — yaşıl əhatəli, canlı mavi muzeyimizi təmiz, saf, ləyaqətli saxlamaq hamımızın müqəddəs borcudur. Ona görədir ki, vətəndaş alimimizin həyəcan təbili bütün xalq tərəfindən təqdir olundu, partiyamız və xalqımız tərəfindən razılıq hissi ilə dinləndi. Azərbaycan SSR Nazirlər Sovetinin xüsusi qərarı ilə Göy göl qoruğunda lazımi qayda-qanun yaradıldı. Göy gölə və onun meşələrinə uzanan rəhmsiz əllər kəsildi.

"Həyəcan təbili" əsərinin bu mənəvi qələbəsi ümumxalq sevincinə səbəb oldu.

Yeri gəlmişkən, məni düşündürən bir fikri demək istəyirəm. Məlumdur ki, dünyada kökü kəsilməkdə olan quşlar, heyvanlar "Qırmızı kitab"a salınır. Mənə elə gəlir ki, "Qırmızı kitab"la yanaşı, "Mavi kitab"ın da yaranması vaxtı çatmışdır. Bu "Mavi kitab"a ayrı-ayrı müəssisələrin, fabrik və zavodların çirkləndirdiyi dənizlər, çaylar, göllər, dəryaçalar salınsa, çox məqsədəuyğun olar. Çünki bu, siyasi-sosial xarakterli bir işdir.

"Həyəcan təbili" kitabının bir fəsli görkəmli sənətkarımız, Sosialist Əməyi Qəhrəmanı, xalq şairi Süleyman Rustəmə məktub şəklində yazılmışdır.

Müəllif burada Abşeronun nadir nemətlərindən, quru subtropik meyvələrdən-innab, badam, püstə, zeytundan danışır, onların insan üçün təbii xeyrindən, eləcə də zahiri gözəlliyindən geniş söhbət açır və o nəticəyə gəlir ki, bu bitkilərin Abşeron yarımadasında genişləndirilməsi çox vacibdir. Birinci ona görə ki, Abşeronda bunun üçün əlverişli şərait var: isti günəş, dəniz havası, münbit torpaq və mötədil iqlim. İkincisi ona görə ki, bu nadir nemətlər hər yerdə bitmir. Onlar Abşeronu sevib-seçiblər, biz də onları sevib, bəsləməliyik.

Akademik H.Əliyev təbiət abidələri haqqında çox şairanə söhbət açır. O qeyd edir ki, təbiət abidələrini qorumaq üçün şərait Böyük Oktyabr inqilabından sonra yaradılmışdır. Bunlar bizim möhtəşəm qoruqlarımızdır: Qızılağac, Zaqatala, Türyançay, Göy göl, Pirqulu, Şirvan və bir sıra başqa qoruqlar təbii sərvətlərimizin qorunub saxlanılmasında böyük tarixi iş görmüşdür. Lakin bununla belə, bəzən meşə və düzənliklərimizdə nagahan güllə səsi eşidilir, uca-uca ağaclar rəhmsiz baltalar əlindən haray çəkir.

Vaxtilə böyük şairimiz Səməd Vurğun belələrini nifrət və qəzəblə damğalamışdır:

*Qıyma öz qanına boyana ceyran,*
*Gör necə yaraşır Muğana ceyran.*

Akademik H.Əliyev təbiət abidələrimizdən danışarkən ardıc, dəmirağacı, Eldar şamı, şabalıd, saqqızağacı, palıd və çinar ağaclarımızın taleyindən — bu günündən, gələcəyindən hərarətlə söhbət açır. O yazır: "Eldar şamı isə təbii halda Yer kürəsində yeganə Eldar oyuğu dağının şimal yamacında, cəmisi 390 hektar sahədə qalmışdır". Deməli, dünyanın bu nadir, gözəl neməti ancaq bizim torpaqdadır. Onu qorumaqdan və intişar etməkdən şərəfli vəzifə olarmı?

Müəllif haqlı olaraq bizə öyüd-nəsihət verir: "Beşini basdırsan, biri qalar, bir kötüklü ağacı qorusan, 5-6 pöhrə verər". Sonra kitabda məğrur, əzəmətli çinarlarımızdan yana-yana söhbət açır. Axı, bu çinarlarımızın çoxu biganəlik (belə halda biganəlik özü də cinayətdir), baxımsızlıq üzündən bizdən üz döndərir, quruyur, solur. Bir çinarın məhvi əsrlərin məhvi deməkdir. Burada müəllif hər dəfə hamımızın heyranlıqla kölgəsində dincəldiyimiz möhtəşəm Ağdaş çinarını nümunə gətirir. Bu çinarın oyuğu anbara çevrilmiş, ağaca mıxlar vurulmuş, başına min cür bəla gətirilmişdir. Ona görə də qocaman çinar artıq gücdən düşmüş, bəlkə də ömrünün son illərini yaşayır. Biz onu — əsrlərin yadıgarını təbiət muzeyimizin nadir bir eksponatı kimi qoruyub saxlamalı, nəsillərdən-nəsillərə ərmağan kimi çatdırmalıyıq.

Müəllif ardıc ağacı barədə ətraflı məlumat verir, "közü gec sönən" bu ağacı qırılmaqdan qorumağa çağırır. O yazır: "İndi hər bir ardıc ağacına bir müqəddəs "yaşıl heykəl" kimi baxmaq lazımdır".

Yaşıl heykəl! Nə gözəl deyilmişdir! Təbiətin özünün özünə heykəli — insan naminə, həyat naminə ucalan abidə...

Yadıma son illər respublikamızda keçirilən yaşıl beşilliklər düşür. Və müəllif mənim bu düşüncələrimə öz kitabında çox yaxşı cavab verir: "Əgər 70-ci ildə şəhərdə (söhbət Bakıdan gedir) adambaşına 6,5 kvadratmetr yaşıl sahə düşürdüsə, 75-ci ildə bu göstərici 17,5 kvadratmetrə (görün nə qədər sıçrayış olmuşdur) çatdırılmışdır" Sonra müəllif fikrini tamamlayaraq deyir: "İndi Bakıda hər nəfərə 22 kvadratmetr yaşıllıq düşür". Doğrudan da, qısa bir müddətdə nə qədər böyük işlər görülmüşdür. "Yaşıl beşillik" xüsusilə paytaxtımızı yaşıl örtüyə bürümüşdür. Bu, insanların sağlamlığı yolunda aparılan humanist siyasətin bariz nümunəsidir. Dünya üzərində meşələrin, yaşıllıqların məhvə düçar olduğu bir vaxtda respublikamızın bu sahədəki böyük sıçrayışı misilsiz bir hadisədir. Çünki akademik H.Əliyevin dediyi kimi, "İnsan özü özünün keşikçisi olmalıdır. Təbiətə münasibətdə yubanmaq isə çox yaşamağa yubanmaqdır". Bu fikirlə razılaşmamaq olmaz.

Dövrümüzün çox vacib problemlərini qaldıran "Həyəcan təbili" kitabını onun müəllifinə minnətdarlıq hissi duyaraq oxuyub sona çatdım. Onu da qeyd etməliyəm ki, əsər Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən yüksək zövqlə buraxılmışdır. Bu kitabla dünya miqyasına alnıaçıq çıxmaq olar. Kitaba sevimli şairimiz, "Azərbaycan təbiəti" jurnalının məsul redaktoru Məmməd Araz şairanə giriş sözü yazmışdır.

Akademik H.Əliyev bizi bir daha təbiətin ahəngini, vəhdətini qoruyub saxlamağa, o ahəngi, vəhdəti pozanlara qarşı amansız olmağa çağırır. Biz alimin səsinə səs verərək, onun öz sözləri ilə deyirik: "Bu ahəng nədir? Bu ahəng torpaqdır, sudur, havadır, yaşıllıqdır, canlı aləmdir, onlarla insanların təmasıdır. Təklikdə bunların heç biri deyil, ümumilikdə hamısının vəhdətidir. Bizim bütün səylərimiz respublika təbiətinin vəhdətini qorumağı adamlara təlqin etməkdən ibarətdir".

Bu, xeyirxah, nəcib bir vətəndaşın həqiqət səsidir.

*"Ədəbiyyat və incəsənət" qəzeti*
*3 fevral 1984-cü il*

CƏLAL ALLAHVERDİYEV
*Azərb.MEA-nın müxbir üzvü*

# YÜKSƏK VƏTƏNDAŞLIQ MÖVQEYİ

Akademik Həsən Əliyevi nə vaxtdan tanıdığımı dəqiq deyə bilmərəm, lakin ən azı 65-70-ci illərdən tanışlığımız var idi. Mənim diqqətimi Həsən Əliyevin vətəndaşlıq mövqeyi və fəallığı cəlb edirdi. Elmlər Akademiyası Rəyasət Heyətinin iclaslarında, ümumi yığıncaqlarda o, daim öz prinsipial mövqeyindən çıxış edirdi. Yaxşı yadımdadır, Rəyasət Heyəti iclaslarından birində akademik H.Əliyev Mingəçevir İstilik-Elektrik Stansiyasının inşa olunacağı halda onun ətraf mühitə verəcəyi ziyan haqqında rəqəmlər gətirməklə kəskin çıxış etdi və qəti tələb etdi ki, Akademiya İES-in layihəsi əleyhinə öz səsini qaldırsın və onun həyata keçməsinə yol verməsin. Həsən Əliyevin işə qarışması İES-in inşası və fəaliyyəti nəticəsində dəyə biləcək ziyanı mümkün qədər azaltdı. Belə ki, onun tüstü borusunun hündürlüyü təxminən iki dəfə artırıldı, stansiyanın özü Mingəçevir su hövzəsindən xeyli uzaqlaşdırıldı, texniki təkmilləşdirmələr aparıldı və s.

Digər bir məsələ — Azərbaycanda AES tikilməsi müzakirə edilirdi. Akademik H.Əliyev çox qətiyyətə bunun əleyhinə çıxdı və dərin məntiqlə əsaslandırdı ki, bu, Azərbaycana fəlakət gətirə bilər. Şübhəsiz ki, bu məsələnin təxirə salınmasında Həsən Əliyevin çox böyük rolu oldu. Həsən Əliyev habelə Azərbaycanın yaxın qonşuluğunda Ermənistan SSR adlandırılan respublikanın ərazisində AES tikilməsinə də çox cəsarətlə etirazını bildirdi, bu stansiyanın Azərbaycan üçün potensial təhlükə olduğunu göstərdi. O qeyd etdi ki, faşist təbiətli ermənilərin AES yaratmasının bizim üçün ikitərəfli təhlükəsi vardır. Seysmik zonada yerləşən bu obyekt təbii hadisələr nəticəsində ətrafa fəlakət gətirə bilər və bundan əlavə, ermənilərə atom silahı əldə etmək imkanı verər.

Akademik Həsən Əliyevin yüksək vətəndaşlıq mövqeyi və insani keyfiyyəti digər bir məsələdə də özünü göstərir.

1970-ci illərin əvvəlləri idi. Həsən müəllimlə Akademiyanın həyətində kompüterlərin tətbiqi haqqında söhbət edirdik. Söhbət zamanı mən Həsən müəllimə kompüterlərin tətbiq dairəsinin genişliyini nümayiş etdirmək məqsədilə dedim ki, məsələn, sürücülük vəsiqəsi üçün olan imtahanları yüz faiz obyektivliklə kompüter vasitəsilə həyata keçirmək mümkündür. Bu fikir Həsən müəllimdə gözləmədiyim dərəcədə maraq oyatdı. O

məndən soruşdu ki, bəs biz niyə bunu etmirik? Mən izah etdim ki, bu elə də asan məsələ deyil. Məsələni həll etmək səlahiyyətində olan adamlar yəqin ki, bunu həyata keçirməyə maraq göstərməzlər. O, səbəbini soruşduqda mən səmimiyyətlə bildirdim ki, bu məsələnin həllinə gücü çatan adamlar məni heç qəbul belə etməzlər, onlarla heç telefonla danışmaq imkanım da yoxdur. Həsən müəllim narazı halda başını buladı və mənə yuxarıya — onun otağına getməyi təklif etdi. Həmin illərdə o, Coğrafiya İnstitutunun direktoru idi. Hökumət telefonu ilə zəng çalıb məsələni danışdı. Sonra isə mənə tərəf dönüb: "Bala, sabah saat 3-də səni gözləyəcək, get Arifin yanına, o bu məsələni həll edər, çox ağıllı, qanacaqlı oğlandır", — dedi. Mən Arif Heydərovu tanıyırdım; bizi Moskvada Akademiyanın prezidenti Həsən Abdullayev tanış etmişdi. Ona görə də tərəddüd etmədən deyilən vaxt DİN-ə gəldim. Doğrudan da, məni gözləyirdilər. Nazir Arif Heydərov məni hörmət və nəzakətlə qarşıladı. Məsələni danışdım, çox maraqlandı, xeyli sual verdi. Onunla işə nədən başlayacağımızı müəyyənləşdirdik. Arif Heydərovun bizim işlərlə belə dərindən maraqlanması məni çox sevindirdi. Danışdığımız kimi, səhəri gün bir DAM işçisi Kibernetika İnstitutuna gəlib, mənə nazirin adından "şablon"ları gətirdi. Elə o gündən işə başladıq.

Bir neçə gündən sonra Həsən müəllim mənimlə telefonla danışdı: "Nə təhərsən bala, Arifin yanına getdinmi?" — deyə soruşdu. Mən hər şeyi təfsilatı ilə ona söylədim. "Deməli, işlər yaxşıdır, amma mən nigaran qalmışdım, çox yaxşı". Səsində bir inciklik hiss etdim, mən özüm ona zəng çalmalı idim...

Beləliklə, Həsən müəllimin xeyir-duası ilə Daxili İşlər Nazirliyi sistemində kompüter cihazları işə salındı.

1984-85-ci illərdə Kibernetika İnstitutu Akademiya şəhərciyində yerləşən institutlarda abonent məntəqəsi yaratmaq təklifi irəli sürmüş və bu məqsədlə həmin institutlara məktubla müraciət etmişdi. Bəzi institutlar heç cavab da vermədilər, bəziləri başdansovdu cavabla bu xidmətdən imtina etdilər. Coğrafiya İnstitutu bu təklifi bəyənən ilk institutlardan olmaqdan əlavə, Həsən müəllim özü bu təklifi hər yerdə təbliğ etməyə başladı.

Azərbaycan EA Rəyasət Heyətində Orta Asiya respublikalarında təşəkkül tapmış qaragül cinsli qoyunların Azərbaycana gətirilib burada inkişaf etdirilməsi məsələsi geniş müzakirə olunurdu. Bu işin təşəbbüskarları əsasən Akademiyanın prezidenti Həsən Abdullayev və Nadir Mehdiyev idi. Onların hər ikisi ürəkdən inanırdı ki, o qoyunlar doğrudan da Azərbaycanda təşəkkül tapar və bu, iqtisadiyyata böyük xeyir verər. Həsən müəllim çox səmimiyyətlə alimləri inandırmağa çalışdı ki, belə təşəbbüs Azərbay-

canda əvvəllər də olub və uğursuzluqla nəticələnib. Dövlətin pulunu nahaq yerə batırmaq lazım deyil, qoyunların Azərbaycanda yaşaması üçün təbii imkan yoxdur. Orta Asiyada o qoyunlar yem dalınca 30 kilometrə yaxın yol gedirlər, o iqlimə öyrəniblər. Lakin bu xəbərdarlıqlar lazımi təsir göstərmədi və nəticədə respublikamız milyon manatlarla zərərə düşdü.

Təxminən 70-ci illərin axırı, 80-cı illərin əvvəli olardı. Jeleznovodskda sanatoriyada dincəlirdim. Parka girəndə uzaqdan Həsən müəllimi gördüm, yanında da həyat yoldaşı. Mən onlara yaxınlaşdım, görüşdük. Onun gözlərində, üzündə sevinc təbəssümü var idi. O, sevinəndə sifəti bunu çox mehribanlıqla ifadə edirdi. Həsən müəllim yoldaşına müraciətlə məni təqdim edib: "Zərqələm, heç bilirsən bu kimdir? Bu bizim əsl yerlimizdir", — dedi. Mən bir qədər təəccübləndim və :"Həsən müəllim, mən ki şuşalıyam", — dedim. O, qəhqəhə çəkib mənə xitabən dedi: "Sənin o Ermənistan bildiyin və dediyin yerlər Qarabağ xanlığının yerləridir, biz də Mehdiqulu xanın nəslindənik, indi bildin?" Sonra mənə Zəngəzurun başına gələn faciələrdən xeyli danışdı ...

NƏRİMAN HƏSƏNZADƏ
*Şair*

# CƏMİYYƏTDƏ YERİ GÖRÜNƏN ADAM

"Ağsaqqallar ağsaqqalı" deyirdilər. Bu ada Həsən müəllim layiq idi. Amma bəzən utanırdı, sıxılırdı. O yaşda kişidə uşaq məsumluğu, bir müdriklik həyası var idi. Əlbəttə, evin də ağsaqqalı gərəkdi, ölkənin də, millətin də. Bunu bilirdi. Hamıya gərək olduğunu da bilirdi və gərək olurdu. Bəlkə biri ehtiyac üzündən üstünə gəlirdi, heç tanımırdı da. Ona da gərək olurdu.

Azərbaycanda birinci kitab və prezidentlər dəyişdikcə, "adətlər" də dəyişirdi: Ağsaqqalı "ağsaqqal" çağıranı eşitmirdin. Amma bu fəxri adı o, zəkasına, elmi biliyinə, həyat təcrübəsinə görə özü qazanmışdı. Camaat isə günəbaxan kimi "gün" hansı tərəfdən çıxırdısa, üzünü o tərəfə çevirirdi. Bu, Həsən müəllimə təsir edirdi. Tay-tuşları bir məclisə dəvət ediləndə o, "yaddan çıxırdı", uzaq-yaxın səfərlər olanda adı siyahılara düşmürdü. Xidmətlərinin əvəzində unudulurdu. Elmi mühitdə də "artıq" adam olmağa başlayırdı.

Belə nadir adamları hələ sağlığında ikən artıq adamlar siyahısına yazıb adlarını qaralamaq, nəzərdən salmaq, təəssüf ki, bizim bir çox böyük vəzifə sahiblərimizin bioqrafik göstəricilərində xüsusi yer tutur. Bunun üçün Azərbaycan tarixini, lap elə son illərdəki mətbuat səhifələrini vərəqləmək kifayət edər. Həsən müəllim başında şimşəklər çaxan nəhəng palıd ağacını, səfərimiz zamanı mənə göstərdiyi yeddi yüz illik qocaman çinarı xatırladırdı. İnsan təbiətin bir hissəsidir, bəlkə də özüdür!

Dediklərimi bu unudulmaz insanla görüşlərimdə müşahidə edirdim. Elə bil hər gün bir az sınırdı. Görünür, insan öz ürəyindən su içir. İçindəki bulaqlar soyulduqca, insan da qurumağa başlayır. Heç kəs bu günahlardan xali deyildi: mən də, sən də, o da, o biri də. Topxana meşəsinin ermənilər tərəfindən yandırılması hələ qabaqdaydı. Xocalı soyqırımı qabaqdaydı. Yüz minlərlə soydaşımızın Ermənistan respublikasına aid edilən qədim torpaqlarından elliklə qovulması da qabqdaydı. Milləti qanlı yanvar hadisələri gözləyirdi. Ermənilərin xalqımızın gen fonduna qəsdi — genosidi yeni mərhələdə davam etdirilirdi. Parlamentə rüşvətlə deputatlar seçilirdi. Hamı bilirdi və hamı susurdu. Ən yaxşı oğlanlarımızı təyyarədə və vertolyotlarda ermənilər vururdu, Azərinform yazırdı ki, qayaya toxunub. Nəhayət, "külli Qarabağın" əldən getməsi qabaqdaydı. Daha ağsaqqal sözünə məhəl qoyan yox idi. "Həyəcan təbili" kitabının müəllifi hörmətli akademik Sokratsayağı hikmətli fikirlər söyləyir, Faust kimi cəmiyyətdə təklənirdi.

Həsən müəllimlə yaxından tanış olan hər bir kəs insanla təbiətin qarışığı olan bir ana mühitə düşürdü. Belə adamlar öz sağlığında az olur. Çox olsalar, belə, yenə də birinci, ikinci yerlər kiməsə verilməlidir. O, fitrətən beləydi, insanlar içində insanlıq idi, fövqəlbəşər deyildi. Bəlkə də, sadəcə, heç kəsdən seçilmədiyinə görə fərqlənirdi. Mənəvi bir tarazlıq yaratmaq istəyirdi. Böyük Nizami demiş, kinpərvər deyildi, insanpərvər idi.

On iki il öncə "Həyəcan təbili" kitabını mənə bağışlamışdı. Kitab öz avtoqrafı "İstəkli şair dostum..." sözləri ilə açılırdı. "Ədəbiyyatçı və rəssam olmağı arzulayarkən" taleyi onu "təbiətə, torpağa bağladı". Sonra da torpaq deyə-deyə torpağa qarışdı. Bu kitab onun mənəvi ağrılarının, vətəndaşlıq qeyrətinin əks-sədasıydı.

Bu günlərdə istedadlı tərcüməçi Zahid Məhəmmədoğlu mənə zənc vurmuşdu ki, görkəmli alim, akademik Budaq Budaqov Həsən Əliyev haqqında xatirə kitabı hazırlayır, görüşlərinizi yazın. Elə bil çiynimdən bir yük götürüldü.

"Ədəbiyyat və incəsənət" qəzetində işlədiyim vaxtlar tez-tez görüşürdük. Məqalələrini çap edirdim. Məni Akademiyada, rəhbərlik etdiyi Coğrafiya İnstitutunda xarici ölkələrdən aldığı məktublarla, xarici mətbuatda dərc

etdirdiyi elmi məqalələri ilə tanış etdiyi o dəmlər indiki kimi yadımdadır. Arada özü çay dəmləyib mürəbbə gətirərdi. Onun böyüklüyü ilə sadəliyi bir-birini tamamlayır, insanda mənəvi yaxınlıq, doğmalıq hissi oyadırdı.

Qəzetin redaksiyasında Həsən müəllimlə xaricdən gələn məktubları seçirdik ki, çapa hazırlayaq. Həyat yoldaşım evdən zəng vurdu, işdə qalıb-qalmamağımı soruşdu. Ucadan, həyəcanlı danışdığı üçün telefon dəstəyində sözləri aydın eşidilirdi. Həsən müəllim nə isə hiss edərək, dəstəyi əlimdən aldı və vəziyyəti öyrəndi. Dəstəyi yerə qoyandan sonra onu xəbərdar etmədiyimə görə narazılığını bildirdi.

Məsələ beləydi ki, Yazıçılar İttifaqının katiblərindən biri evimizə zəng vurub, "Kimin sualı var" adlı poemadan çap etdirdiyim bir fəsil üçün məni hədələmişdi. Katibi başa salmışdılar ki, guya bəzi misralar ona aiddir. Əslində, belə şey yox idi və ola da bilməzdi. Həsən müəllim elə mənim yanımdan ittifaqın birinci katibinə zəng çaldı, poemanı izlədiyini və həmin parçanı oxuduğunu dedi.

Həsən müəllimin zəngindən sonra mənə bir müddət dəyib-dolaşan olmadı. Sonra yeni bir kolliziya uydurdular: guya əsər Azərbaycan KP MK-nın birinci katibinin əleyhinədir. Mənəvi təqiblər təzədən başlandı. Büro iclasında qəzetin müzakirəsini təşkil etməyə nail oldular. İşlədiyim cəmisi dörd ay olardı, amma üç illik müddət müzakirə edilməliydi — yəni XXV partiya qurultayının qərarlarına nəzərən qəzetin fəaliyyətinə baxılmalıydı. Təbii idi ki, baş redaktoru vurmaq qəsdi güdülürdü, həm də birinci katibin yanında, halbuki məni qəzetin baş redaktorluğuna təklif edən, təyin edən də birincinin özü olmuşdu — indiki hörmətli Prezidentimiz.

Axırda danışmaq üçün mənə beş dəqiqə vaxt verilmişdi. Büro iclasında mənim vəziyyətimi hiss edən Heydər Əliyev tam şərait yaratdı, istədiyin qədər danış, dedi. Necə danışdığım yadıma gəlmir, həyəcanlı idim. Sonra özü çıxışının sonunda dedi ki, qəzet yaxşı çıxır. Normal iş şəraiti yaratmaq məqsədilə redaksiyaya yeni avadanlıq alınması barədə təklif də verdi. İclasın sonunda səbirsizliklə işdən götürülməyimi gözləyənlər məni təbrik edirdilər. Bunu həmişə minnətdarlıqla xatırlamışam, indi də xatırlayıram.

Bir gün Həsən müəllimlə onun maşınında Lənkəranın Qızılağac qoruğuna yola düşdük. Yolboyu şirin, duzlu söhbətlər edir, gülümsəyir, əsəbiləşdiyi anlar da olurdu. Ceyranların kökü kəsilir — deyir, Vurğunun misralarını xatırlayırdı.

Qızılağac qoruğunda dünyanın minbir quş növü var idi. Birinci dəfə görürdüm: sehrli-möcüzəli bir aləm! Suların üstə, qamış şaxlarında, cığır-

larda, qayalarda və balaca daşların böyründə quşlar yuva tikmişdilər. Quşların və çiçəklərin gözəllik sərgisiydi. Həsən müəllim quşların, çiçəklərin, ağacların adlarını deyir, xasiyyətini təsvir edirdi. Danışdıqca saflaşır, təbiətləşirdi. Elə bil kin, qərəz, cəmiyyət deyilən şeylərdən heç xəbəri yoxdu.

Həsən müəllim nadir təbiətə malik bir adam idi. Deyirdilər ki, vaxtilə Azərbaycan KP MK-nın birinci katibi Mir Cəfər Bağırov onun istedad və bacarığını görüb, Mərkəzi Komitəyə katib vəzifəsinə irəli çəkir. Lakin az keçmir ki, Həsən müəllim elmi işinə, öz laboratoriyasına qayıtması üçün icazə istəyir. Halbuki o dövrdə belə "icazə"lərin düşər-düşməzi ola bilərdi. Bu, həmin illərdə nadir hadisə idi. Hər-halda, nə ondan qabaq, nə də sonra böyük vəzifəsini elmə "qurban" verənin adını eşitməmişəm. Əksinə, alimlər can atıblar ki, gedib orada işləsinlər. Sonra özündən soruşdum. Elə bir şey olub, — dedi və fikrə getdi.

Biz üç gün, üç gecə Qızılağac qoruğunda tikilmiş gözəl, yaraşıqlı binada, səliqə-sahmanla düzəldilmiş qonaq otağında qaldıq.

Çoxlu sual verirdim. Danışdıqları əyani olsun deyə, özü ilə götürdüyü kinokamera vasitəsilə lentləri ekranda nümayiş etdirir, onların izahını verirdi. Yeganə nüsxəsi Laçında qalan qızılpalıd ağacı, Füzulidə yeddiqardaş çinar, Ordubadda qozun ən gözəl növü, badam və s. haqqında dedikləri, ardıc ağacının közü barədə pirani kəlamları ən gözəl yadigar sözlərdir. Yəqin ki, onun arxivində elmi əhəmiyyətini itirməmiş çoxlu kinolenti indi də durur. "Azərbaycan təbiəti" jurnalını şair dostum Məmməd Arazla birlikdə buraxırdılar. İndi həmin jurnalın səhifələrində o lentlərdən sənədli materiallar seçib verməк, çəkdiyi şəkillərin isə ayrıca fotosərgisini açmaq olardı. Vaxtilə böyük imkanları olan bu təbiət və insan vurğunu bunların heç birini eləmədi.

Axırıncı gün qoruqdan Lənkərana yola düşdük. O vaxt İsa Məmmədov Lənkəranda birinci katib işləyirdi, yaxşı ad qazanmışdı. Həsən müəllimi hərarətlə qarşıladı.

Günortadan sonra biz birlikdə Xanbulan dəryaçasının sahillərini gəzdik, Göy gölün doğmaca bacısıydı. Şəffaf sular dağlara güzgü tuturdu. Orada Həsən müəllim bizim çoxlu şəklimizi çəkdi, mən də öz fotoaparatı ilə onun şəklini çəkdim. Təəssüf ki, sonralar o tərəflərə yolum düşmədi.

Nəhayət, Lənkərandan Bakıya döndüyümüz zaman yolboyu əkinsiz şoran yerlərə baxıb köks ötürür, Bakıda yaşıllıq salmaqdan ötrü zeytun ağacının vacibliyindən misallar çəkir, onların susuzluğa dözümlü olduğundan danışırdı.

Bütün varlığı ilə el-obaya, torpağa bağlı olan böyük insan şerin, sözün, sənətin aşiqi idi. İndiki Milli Teatrın səhnəsində "Bütün Şərq bilsin" və "Atabəylər" peyslərimə mənimlə birlikdə baxdı, təbrik etdi. O, insanı sevindirməkdən zövq alırdı. Bu, hər kəsə nəsib olmayan, bəlkə də anadangəlmə gözəl bir mənəvi keyfiyyət idi.

Həsən müəllim dərdini içində çəkirdi. Çox sevdiyi həyat yoldaşı dünya işığından məhrum olmuşdu, müalicələrin isə təsiri yox idi. O, sonralar qadınını itirəndə dünyasını da itirmişdi.

İndiki Mətbuat prospektində, "Azərbaycan" nəşriyyatının qabağında görüşdük. Salam verdim, tanımadı. "Kimsən, yaxşı seçə bilmirəm", — dedi. "Nərimanam, dedim, Həsənzadə Nəriman". Kefini soruşdum. "Bir az yaxına gəl. Məni tərifləyənlər indi televiziyadan əleyhimə danışırlar", — dedi. Şikayət etmirdi, bütün bunlara fəlsəfi baxmağı bacarırdı və məni də bunlara hazır olmağa çağırırdı.

Həsən müəllimin qoluna girib aşağıdan doqquzuncu mərtəbəyə, "Ədəbiyyat və incəsənət" qəzetinin yerləşdiyi otağa qaldırdım. Söhbət elədik, çay içdik. Əslində, heç bir şey danışmırdıq, o mənim üzümə baxırdı, mən onun. Fikrin ağır siqləti ürəyimizdə idi. Sonra da həmin mərtəbədən endik aşağıya. Yenə qoluna girib Akademiyanın yanına qədər ötürdüm. Bütöv bir ömür həsr etdiyi Coğrafiya İnstitutu yerləşən binaya tərəf döndü. Biz bir də Fəxri Xiyabanda görüşəsi olduq. Həsən müəllim necə də özünə oxşayırdı, heykəltəraş təkcə nəfəs verməyi "unutmuşdu".

Yerin behişt olsun, gözəl insan!

ƏLƏŞRƏF MƏMMƏDOV
*Akademik*

## XEYİRXAH İNSAN

Qəlbimdə silinməz izlər buraxmış bu alicənab, kövrək ürəkli şəxsiyyətlə, düşünən və düşündürən insanla iyirmi il bir yerdə işləmişəm. Mən ondan, sözün əsl mənasında, həyat dərsi almışam. Müəllimim sandığım bu sadə, mehriban insan haqqında saatlarla, bəlkə də günlərlə danışmaq olar. Onun mənalı ömrünün ancaq mənimlə bağlı bir neçə məqamını oxucuların diqqətinə çatdırmağı özümə borc bilirəm. Bu məqamlarda Həsən müəllimin necə qayğıkeş, xeyirxah, mərd, cəsarətli, prinsipial, vəzifə bor-

cuna sadiq və yeri gələndə, bir azərbaycanlı kimi, təəssübkeş olması özünü açıq-aydın göstərir.

Həsən müəllimi Akademiyaya gəldiyim gündən, 1953-cü ilin avqust ayından tanıyıram. 1954-cü il idi, aspiranturanın birinci kursunda oxuyurdum. Nə qalmağa yerim, nə də Bakı şəhərində pasport qeydiyyatım var idi. Gündə bir tanışımın qapısında gecələyirdim. Aspirant yoldaşlarımın da çoxusu mənim günümdə idi. Bizi kitabxanalara, fondlara buraxmırdılar. Vəziyyətdən çıxış yolu axtarırdıq. Bir gün hamımız toplaşıb qərara gəldik ki, Akademiyanın rəhbərliyinə müraciət edək, bəlkə bir yol tapıb aspirantlar üçün yataqxana təşkil edələr. Fikirləşdik kimin yanına gedək. Məsləhət oldu ki, Həsən müəllimdən başlayaq. O zaman Həsən müəllim Akademiyanın Rəyasət Heyətinin üzvü və akademik-katib idi. Bizi çox səmimi, gülərüzlə qarşıladı. Dərdimizi ona söylədik, bir az duruxan kimi oldu. Sonra üzünü bizə tutub dedi: "Uşaqlar, şəhərin Zevin küçəsində Akademiya Nəşriyyatının otaqları var. Nəşriyyat Ağşəhərə köçüb, ora boş qalıb. Bu yaxınlarda otaqları zəbt etmişdilər, milis vasitəsilə boşaltdırmışıq. Yenə də oranı zəbt edə bilərlər. Yay vaxtıdır, gecikmədən gedin, hərəniz yorğandan, döşəkdən nəyiniz varsa, hələlik döşəmənin üstündə də olsa yatın, mən də Akademiyanın təsərrüfat müdirinə tapşıraram sizi bir- iki günə lazım olan hər şeylə təmin edər.

Bunu deyib telefon dəstəyini götürdü və təsərrüfat şöbəsi müdirini yanına çağırdı. Yanımızda ona tapşırıq verdi ki, bizlərdən bir neçə nəfəri götürüb mağazaları gəzsin və 15 nəfərlik yatacaq ləvazimatı alsın. Həsən müəllimə təşəkkürümüzü bildirib sevinə-sevinə dediyi ünvana yollandıq. Bir-iki gün döşəmənin üstündə yatdıq, sonra hər şey qaydasına düşdü. Bununla da Həsən müəllim Akademiya aspirantlar yataqxanasının əsasını qoymuş oldu. Hazırda çoxları bilmir ki, çoxmərtəbəli binalarda yerləşən aspirant yataqxanasının bu günü üçün kimə borcludur. Bu hadisədən sonra hər dəfə onunla rastlaşanda minnətdarlığımı bildirir və böyük ehtiramla salamlayırdım. O da işimi, vəziyyətimi xəbər alır, müvəffəqiyyətlərimə sevinir və "vaxtdan səmərəli istifadə etmək, çalışmaq lazımdır" deyirdi.

Təxminən 60-cı illərin əvvəli idi. Akademiyanın indiki İstiqlal küçəsindəki binasına daxil olarkən Həsən müəllimin pilləkənlərdən çox əsəbi vəziyyətdə danışa-danışa düşdüyünü gördüm. Yaxınlaşıb salam verdim və əhvalını xəbər aldım. O, uşaq sadəlövhlüyü ilə dərdini mənə açdı: "Bərk qəzəblənmişəm. Qəribə işlər olur. Prezident çağırıb deyir ki, elmlər namizədi ola-ola akademik seçilmisən, ancaq elmlər doktorlarının çoxusu heç müxbir üzv də deyil, ərizə ver, akademiklikdən çıx. Mən də dedim ki, məni özünüz seçmisiniz, özünüz də çıxarın, ərizə verən deyiləm". Mən çox

məyus oldum və onu sakitləşdirməyə çalışdım. Bu hadisədən çox keçmədən Həsən müəllim doktorluq dissertasiyasını müdafiə edərək diplom aldı və bu əsassız ittihamlara son qoydu.

Həsən müəllim bütün institut əməkdaşlarını yaxından tanıyır, kimin nəyə qadir olduğunu, hansı işi kimə tapşırmağı yaxşı bilirdi, işləyən adamlara şərait yaradırdı, yaradıcı alimlərə böyük etimad, inam göstərirdi, onlar haqqında Akademiya rəhbərliyində, elmi ictimaiyyətdə rəy yaradır və heç nədən çəkinmədən bu adamların hüquqlarını müdafiə edirdi. Yaxşı yadımdadır, 1976-cı ildə Beynəlxalq Coğrafiya İttifaqının prezidenti institutumuza gəlmişdi. Onları keçmiş İttifaq Akademiyasının Coğrafiya İnstitutunun baş elmi işçisi, professor Qornunq müşayiət edirdi. Moskvalı alim Dreşlə yaxından tanış idi. Onlar 50-ci illərdə Afrikada bərabər işləmişdilər. Azərbaycana gəlməkdə onların məqsədi Alp və Qafqazın yüksək dağlıq ərazilərinin konstruktiv coğrafi məsələlərini müqayisəli surətdə öyrənmək idi.

Həsən müəllim məni çağırıb tapşırdı ki, Böyük Qafqazın Azərbaycan hissəsinə bir həftəlik ekskursiya proqramı hazırlayın. Biz işə başladıq. İki gün Böyük Qafqazın şimal-şərq yamacını, Quba və Qusar rayonlarının ərazisini gəzdik, qonaqlara ərazinin geologiyası, fiziki coğrafiyası, paleocoğrafiyası, seysmikliyi, təbii ehtiyatları barədə ətraflı izahat verdik və fikir mübadiləsi apardıq. Eyni işi Qobustan, Şamaxı, İsmayıllı, Qəbələ, Şəki, Qax və Zaqatala rayonları ərazisində də apardıq və səkkizinci gün Bakıya qayıtdıq. Ertəsi gün işə gəldim və gördüyümüz işlər barəsində məlumat vermək üçün Həsən müəllimin yanına getdim. Mən məlumat verərkən telefon zəng çaldı. Həsən müəllim dəstəyi götürdü. Danışan Qornunq idi. Həsən müəllim onu dinlədikcə üzü gülürdü. Birdən bərkdən dedi: "Bəs nə bilmisiniz, yoxsa hesab edirdiniz ki, mənim institutum akademik Gerasimovun institutundan zəifdi?. Yox, bizim alimlərimiz sizinkilərdən qat-qat üstündür, onları yaxşı tanımırsınız, buranı periferiya sayırsınız, inciməyin, bu mənim həqiqi sözümdür". Sonra sağollaşdılar, Həsən müəllim təşəkkür edib dəstəyi yerinə qoydu və üzünü mənə tutdu: "Çox razıyam, oğul, sən çox böyük iş görmüsən, bizim nəyə qadir olduğumuzu onlara anlatmısan. Qornunq öz adından və Dreşin adından təşəkkürünü bildirdi. Səndən yaman razı qalıb. Onlar güman edirlər ki, Moskvadan kənarda elm yoxdur. Bizə yuxarıdan baxırlar. Yeri gələndə elmi gücümüzü göstərməli, özümüzü tanıtmalıyıq. Sənin gördüyün işin ən böyük əhəmiyyəti də elə bundadır".

Nəhayət, bir hadisə də heç yadımdan çıxmır. 1978-ci ildə Yerin iqliminin tarixi üzrə II Sovet — Amerika simpoziumunda iştirak etmək üçün SSRİ Hidrometeorologiya Komitəsi xətti ilə ABŞ-a gedirdim. Sənədlərimi vaxtında hazırlayıb Moskvaya, Akademiyanın Xarici ölkələrlə əlaqə idarə-

sinə göndərmişdim. Getməyə bir həftə qalmış məni Moskvaya Hidrometeorologiya Komitəsinə çağırdılar və bildirdilər ki, Azərbaycan KP MK bürosunun qərarından çıxarış olmadığına görə sənədlərimi Sov. İKP MK geri qaytarıb. Sonrakı araşdırmalardan məlum oldu ki, bu sənəd SSRİ Elmlər Akademiyasının Xarici ölkələrlə əlaqə idarəsində gizlədilib və işlər dolaşığa düşüb. Mən bu xəbəri alan kimi SSRİ EA-nın bu işlə məşğul olan şöbəsinə yollandım. Orada bildirdilər ki, bizə belə sənəd daxil olmayıb və özümü də acıladılar. Mən yorğun, pərişan halda mehmanxanaya gəldim və telefonla yaranmış vəziyyəti ABŞ-a gedəcək nümayəndə heyətinə rəhbər təyin olunmuş akademik Gerasimova danışdım. O, Hidrometeorologiya Komitəsinin sədri İzrailə zəng vurub kömək istəyəcəyini və bir saat ərzində nəticəsini mənə deyəcəyini bildirdi. Bir saat keçməmiş Gerasimov mənə zəng vurdu, İzrail köməkdən imtina etmişdi. Məlum oldu ki, məni nümayəndə heyətinin tərkibinə salmaq üçün sənədlərimi yenidən Mərkəzi Komitəyə göndərmək lazımdır. Bunun üçün ən azı bir ay vaxt tələb olunurdu. Nümayəndə heyətinin yola düşməsinə isə cəmi bir həftə qalırdı. Gerasimovla telefon danışığımız qurtaran kimi Bakıya, Həsən müəllimə zəng vurdum və əhvalatı danışıb qayıtmaq istədiyimi bildirdim. Həsən müəllim dedi ki, tələsməyim, Hollandiyaya getmək üçün bu gün Moskvaya uçur. Azərbaycanın daimi nümayəndəliyinin qonaq evinə düşəcək. Axşam ona zəng etməyimi tapşırdı. Axşam Həsən müəllimlə danışdım. Səhər saat 10-da məni 4-cü idarənin qarşısında gözləyəcəyini bildirdi. Biz görüşüb birbaşa idarə rəisinin qəbul otağına gəldik. Burada iki nəfər də rəisin qəbulunu gözləyirdi. Biz içəri girən kimi katibə kim olduğumuzu və haradan gəldiyimizi xəbər aldı. Həsən müəllim cavabında dedi ki, akademik Əliyevəm, bu yoldaş da professor Məmmədovdur. Katibə oturmaq üçün yer təklif etdi. Bir neçə dəqiqədən sonra katibə Həsən müəllimdən xəbər aldı: "Siz Heydər Əliyevin qardaşısınız?" Həsən müəllim o saat cavab vermədi. Ani sükutdan sonra dilləndi: "Yox, o mənim qardaşımdır, çünki mən ondan böyüyəm". Katibə cavabı eşidən kimi yerindən qalxıb rəisin otağına keçdi. Rəisin otağından hündürboy, xoşsifət bir şəxs çıxaraq bizə yaxınlaşıb salamlaşdı. O, rəisin humanitar elmlər üzrə müavini Milovidov idi. Milovidov Həsən müəllimə: "Yoldaş Əliyev, lap vaxtında gəlmişsiniz. Türkiyədən bir qrup alim gəlir, istəyirik onları sizin respublikaya göndərək" — dedi. Həsən müəllim qısa sükutdan sonra əlinə fürsət düşmüş kimi narazılığınıı bildirdi: "Dünən bir qrupu yola salmışam. Biz hamını yüksək səviyyədə qəbul edir və hörmətlə də yola salırıq. Ancaq bizim adamlar xaricə gedəndə siz onların işini dolaşığa salırsınız, hər vasitə ilə getmələrinə mane olursunuz". Milovidov özünü təmizə çıxarmağa

çalışdı: "Bu ola bilməz, mən humanitar elmlərə baxıram və sizdən kim gəlibsə, hamısını da xaricə göndərmişəm". Həsən müəllim dediklərinə sübut üçün məni göstərdi: "Bu yoldaş keçən il Fransaya getməli idi. Təyyarəyə minik başlayanda onun əvəzinə başqa adam göndərmisiniz. İndi ABŞ-a getməlidir, yenə də işini dolaşığa salmısınız". Milovidov tələsik bizi rəisin yanına apardı. Mən başıma gələn əhvalatı olduğu kimi danışdım. O, təbiət elmləri üzrə müavininə zəng çaldı və qəti şəkildə tapşırdı ki, bu işlə məşğul olsun. Biz oradan çıxdıq. Milovidov da bizimlə gəldi və Həsən müəllimin yanında öz kabinetini göstərərək mənə dedi ki, sabah saat 9-da onun yanına gəlim, birlikdə təbiət elmlərinə baxan müavinin yanına gedib məsələni həll edək. Səhəri günü Milovidovla birlikdə müavinin yanında olduq və hər şey yoluna qoyuldu. Beləliklə, mən Həsən müəllimin köməyi ilə ABŞ-a gedə bildim.

Həsən müəllim hamıya, xüsusən də qabiliyyətlilərə, ehtiyacı olanlara əl tutmaqdan yorulmazdı. Bu el ağsaqqalı minlərlə adamın hörmət və rəğbətini qazanmışdı.

Qəbri nurla dolsun.

ƏSGƏR ƏYYUBOV
*Coğrafiya elmləri doktoru*

# ELMƏ HƏSR EDİLMİŞ HƏYAT

Müasirlərimiz arasında elə şəxsiyyətlər vardır ki, onların həyatı gənclərimiz üçün çox ibrətamiz, təqdirəlayiqdir. Belə şəxsiyyətlərdən biri də bu günlərdə anadan olmasının 70 illiyi və elmi-pedaqoji fəaliyyətinin 50 illiyi qeyd olunan görkəmli alim, Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru akademik Həsən Əliyevdir.

Akademik H.Əliyev adi kənd zəhmətkeşindən Azərbaycan KP MK katibi vəzifəsinə, ibtidai məktəb müəllimindən böyük pedaqoqa, laborantdan akademikə qədər yüksələ bilməkdən ötrü çətin, lakin çox şərəfli yol keçmişdir. O, respublikamızda elmin təşkilatçılarından, Azərbaycan torpaqşünaslığı və coğrafiyasının banilərindən biridir.

Həsən müəllim geniş diapazonlu bir alimdir. Onun əsərlərinin əksəriyyəti təbiət, biologiya və kənd təsərrüfatı elmlərinin müxtəlif sahələrinə həsr edilmişdir.

H.Əliyev birinci növbədə torpaqşünasdır. Onun torpağa münasibəti konkret və mənalıdır. "Torpaq — Vətən deməkdir" sözlərini tez-tez təkrar edən alim yarıməsrlik elmi fəaliyyətini respublikamızda torpaqların tədqiqinə, onların tipləşdirilməsinə, torpaqyaradan amillərin təhlilinə və s. həsr etmişdir. O, Azərbaycan Respublikası şəraitində geniş sahələrdə ildə iki-üç məhsul yetişdirilməsi böyük imkanlar olduğunu göstərən ilk tədqiqatçılardan biridir.

Akademik H.Əliyev respublikada üzümçülüyün elmi əsaslarla inkişaf etdirilməsinə də xüsusi fikir verir. O, düzənlik və dağətəyi rayonlarda üzümə yararlı torpaqların seçilməsi, həmin torpaqların tədqiqi işinə bilavasitə rəhbərlik və kömək edir. Təkcə bunu demək kifayətdir ki, H.Ə.Əliyevin təşəbbüsü ilə son bir neçə ildə respublikamızın müxtəlif guşələrində 50 min hektar yeni üzümlük salınmışdır.

H.Əliyev "Azərbaycan SSR-in torpaqları" monoqrafiyasının müəllifi və redaktorlarından biridir. O, respublikanın irimiqyaslı torpaq xəritəsinin tərtibatında fəal iştirak etmiş, Böyük Qafqaz, Kür — Araz ovalığının torpaqları, meşə bitkiləri haqqında faydalı əsərlər yazmışdır.

Təbiəti mühafizə məsələləri dövrümüzün ən vacib problemlərindən biridir. Bu problemə diqqət son illərdə xüsusilə güclənmişdir. Lakin təbiəti mühafizə işinin get-gedə çox mühüm problemə çevriləcəyini Həsən müəllim hələ 25-30 il bundan qabaq görmüşdü. 1950-ci illərdə onun bilavasitə rəhbərliyi və iştirakı ilə Azərbaycanda təbiəti mühafizə məsələlərinə aid elmi-tədqiqat işləri başlanmışdı.

H.Əliyev 1956-cı ildən Azərbaycan EA Təbiəti Mühafizə Komissiyasına, 1967-ci ildən isə Müəssisələrarası Təbiəti Mühafizə Şurasına sədrlik edir. O, eyni zamanda 1962-ci ildən respublika Təbiəti Mühafizə Cəmiyyətinin sədridir. Keçən 16 il ərzində cəmiyyət ətraf mühitin mühafizəsini təbliğ və təşkil edən mühüm təşkilata çevrilmişdir. Hazırda cəmiyyətin milyondan artıq üzvü var. Başqa sözlə, respublikamızın əhalisinin hər beş nəfərindən biri Təbiəti Mühafizə Cəmiyyətinin üzvüdür.

"Həyəcan təbili" adlı kitabında Həsən müəllim təbiəti qorumaq sahəsində "yanıqlı" danışanlara tövsiyə edib deyir: "Əsas məsələ yeni nəslə ətrafına ağıllı nəzərlə baxmağı öyrətməkdir. Təbiəti duymaq, oxumaq, lazım gələndə bütün "hisslərini səfərbər eləyib", onun keşiyində durmağı bacarmaq psixologiyasını böyüyən nəslə aşılamaq ən yaxşı təbiət dərsidir".

Akademik H.Əliyev 1968-ci ildən Azərbaycan EA-nın Coğrafiya İnstitutuna başçılıq edir. Bu müddət ərzində institutun strukturunda köklü dəyişiklik edilmiş, 5 yeni şöbə (o cümlədən meşə torpaqları coğrafiyası, təbiəti mühafizə şöbələri) və onların nəzdində 6 laboratoriya açılmışdır. Hazırda

institutun əməkdaşları müasir dövrün tələbinə uyğun elmi-tədqiqat işləri aparır və bu işlərin nəticələri təsərrüfatın müvafiq sahələrində tətbiq edilir.

Yeri gəlmişkən, qeyd edək ki, müasir coğrafiya həm eksperimental-dəyişdirici, konstruktiv, həm də nəzəri xarakter daşıyır. Coğrafiya xalq təsərrüfatının kompleks şəkildə inkişafı planlaşdırılması, yol çəkilməsi və başqa işlərdə müvafiq ixtisas sahiblərinə yaxından kömək edir.

Coğrafiya İnstitutunun əməkdaşları son 10 ildə respublikada təbii ehtiyatların öyrənilməsi və onlardan səmərəli istifadə edilməsi problemlərinə aid 30-a qədər monoqrafik əsər və ortamiqyaslı xəritə çap etdirmişlər. Bu əsərlərin bir çoxu respublika və hətta Ümumittifaq mükafatlarına layiq görülmüşdür.

İnstitutun beynəlxalq miqyasda da nüfuzu artmışdır. Onu demək kifayətdir ki, keçən il Moskvada keçirilən XXIII Beynəlxalq coğrafiya konqresində institut alimləri 7 mövzuda məruzə etmişlər.

Hazırda institutun kollektivi 20-yə qədər xarici ölkənin coğrafiyaçıları ilə elmi əlaqə saxlayır, bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq edir və s. H.Əliyev beynəlxalq bioloji proqram üzrə respublikada aparılan elmi-tədqiqat işlərinə, bu təşkilatın Azərbaycan komitəsinə rəhbərlik edir. O, dünyanın bütün qitələrində olmuş, müxtəlif beynəlxalq konqres və simpoziumlarda dəfələrlə məruzə ilə çıxışlar etmişdir. Həsən müəllimin əsərlərinin bir çoxu xarici ölkələrdə — ABŞ-da, Fransada, Vyetnamda və digər ölkələrdə çapdan çıxmışdır.

Akademik H.Əliyevi düşündürən problemlər çoxdur. Bu problemlər barədə o, mətbuatda, radio və televiziyada çıxışlar edir, respublikanın rayonlarında təbiət haqqında bilikləri əhali arasında yayır.

Təbiətə mərhəmət göstərmək, onun ehtiyaclarından səmərəli istifadə etmək, hər bir ağaca, hər bir faydalı heyvana qayğı ilə yanaşmaq, torpağın, suyun qədrini bilmək insan xeyirxahlığı nümunələrindəndir. Bu xeyirxahlığı bacaran adamların ömrü uzun olur. Onlar həm özləri yaşayır, həm də başqalarını yaşadırlar. Həsən müəllimin təbirincə desək: "Bəlkə toya, yasa və digər mərasimə yubanmaq da olar. Təbiətə münasibətdə yubanmaq isə yaşamağa yubanmaqdır...". Həsən müəllim bizə yaşamağa yubanmamağı tövsiyə edir. Biz də ona uzun ömür, yaradıcılıq işində yeni-yeni müvəffəqiyyətlər arzu edək.

*"Azərbaycan gəncləri"*
*17 dekabr 1977-ci il*

İMRAN CƏFƏRZADƏ
*Professor*

# HƏR ŞEYİ SU İLƏ YUYURLAR

Azərbaycan təbiətinin təbilçisi və cəfakeş mühafizəçisi akademik Həsən Əliyev böyük ürək ağrısı ilə tez-tez bu sözləri deyərdi: "Hər şeyi su ilə yuyurlar, bəs su çirklənəndə onu nə ilə yuyurlar?". Həsən Əliyev bu həyəcanlı sözlərlə Kür və Arazın, onların suyundan bəhrələnən torpaqların və adamların taleyini düşünür, bu çaylarboyu yaşayış bölgələrinin əhalisinə xəbərdarlıq edir, qonşu respublikaların rəhbər işçilərinə müraciət edirdi. Bu məqsədlə o, səyahətlərdən, konfranslardan, qəzetlərdən və şəxsi görüşlərindən səmərəli istifadə edirdi. Lakin iş elə gətirdi ki, Həsən Əliyev narahat fikirlərini çatdırmaq üçün yeni və çox gərəkli bir auditoriya əldə etdi.

1969-cu ilin əvvəlləri idi. O vaxt İttifaq rəhbərliyinin qərarına əsasən Azərbaycan, Gürcüstan, Ermənistan və Dağıstanın rəhbər partiya və sovet işçiləri, şəhər və rayon partiya komitələrinin birinci, ikinci və üçüncü katibləri, icraiyyə komitələrinin sədrləri, onların müavinləri respublika qəzetlərinin redaktorları və onların müavinləri, Bakı Ali Partiya Məktəbində təkmilləşdirmə kursları keçirdilər.

Həmin vaxt Moskvada, Sov. İKP MK-da keçirilən müşavirədə bizə rəhbər işçilərin təkmilləşdirmə kurslarına Azərbaycanın ən səriştəli və hazırlıqlı alimlərinin cəlb edilməsi tapşırığı verildi. Bakıya qayıdan kimi uzun axtarışlardan sonra xüsusi tələbkarlıqla tərtib olunmuş siyahını respublika rəhbərliyinə təqdim etdik. Müəllimlərin tərkibi çox götür-qoy edildikdən sonra MK-nın bürosunda təsdiq olundu. Siyahıda birinci sırada Həsən Əliyevin adı yazılmışdı. Hazırlıq işləri ilə əlaqədar mən onun direktor olduğu Coğrafiya İnstitutuna getdim. Qısa məlumat verdikdən sonra qərarı və siyahını göstərdim. Həsən Əliyev siyahıda öz adının birinci yazıldığını görüb mənə dedi: "Ay oğul, məni dil-ağıza salmayın, heç olmasa bir-iki adamdan sonra yazaydınız da". Mən ona cavab verdim ki, bunun iki səbəbi var: birincisi, Siz elmimizin və hamımızın ağsaqqalısınız, ikincisi isə, siyahı rus dilində əlifba sırası ilə yazılmışdır. O, astadan gülə-gülə mənə dedi: "Yaxşı, oğul, sən məni inandırdın, keçək əsas məsələyə, de görüm, işə nə vaxt başlayacağıq və mən onlara nə barədə danışacağam?".

Biz Moskvanın ümumi tövsiyələrinə əsasən bölgə üçün müvafiq tədris proqramı tərtib etmişdik. Proqramda ətraf mühitin qorunmasına dair xüsusi bölmə var idi. Həsən Əliyev belə bir bölmənin ayrılmasını bəyəndi və yarızarafat mənə dedi: "Siz çinovniklərin ağlına bu fikir haradan gəlib, siz də bu barədə düşünə bilirsiniz? Mən elə bilirdim təkəm, demə, mənim sözümü eşidənlər varmış. Əhsən! Razıyam, gələrəm, vaxtınızı deyin". Biz razılaşdıq, təqribi vaxtı müəyyənləşdirdik. Mən xudahafizləşib getmək üçün ayağa duranda o, əli ilə oturmağıma işarə etdi və soruşdu: "Yaxşı, oğul, de görüm, bu dəfə Ermənistandan da adamlar olacaqmı?". Bəli, dedim, hər toplantıda Ermənistandan Bakıya iyirmi nəfər rəhbər işçi gələcəkdir. Həsən Əliyev bir an fikrə daldı və dedi: "Onlara mənim sözüm çoxdur. Bilmirsən, onlar Arazın başına nə oyun açırlar. Əlvan metalları bu suda yuyur, istifadə etdikləri kimyəvi birləşmələri Araza axıdırlar, biz də o çirklənmiş sudan istifadə edirik. Mən onlarla danışaram. Axı bu qədər zinakarlıq, xatakarlıq olar? Biz qonşuyuq, qonşu qonşuya pislik etməz, zərər vurmaz. Gör Azərbaycanda Arazdan nə qədər insan istifadə edir? Belə yaramaz, belə qonşuluq olmaz. Hamı bilir ki, mən sözümü deyənəm. Onları da başa salacağam ki, belə hərəkət etməsinlər. Bu, yaxşı fürsətdir. Bəsdir dinmədik".

Təşkilati işləri başa çatdırdıqdan sonra Həsən Əliyev Bakı Ali Partiya Məktəbinə gəldi, yanındakı assistentə bəzi göstərişlər verdi və o dəqiqə mühazirəyə başladı. O, Azərbaycandan, Gürcüstandan, Ermənistandan və Dağıstandan gələn 65 birinci katibi salamladı. Bakı haqqında ilk təəssüratlarını soruşdu, onların məişət məsələləri ilə maraqlandı və mənə dönüb azərbaycanca dedi: "Gərək elə edəsən ki, qonaqlar Azərbaycanda çox şey görsün və xoş təəssüratla getsinlər. Bu, böyük siyasi məsələdir, sənin üzərinə ağır məsuliyyət düşür". "Arxayın olun, vətənpərvərlik məsuliyyətini anlayıram", — dedim.

Həsən Əliyev dərsə başladı, ekologiyanın ümumbəşəri problemlərindən bəhs etdi, çoxlu fakt, rəqəm gətirdi, gördüyü, eşitdiyi maraqlı hadisələrdən danışdı. Onlardan bir qəribəsi indiyədək qulaqlarımda səslənir. "Bir dəfə Almaniyada Müdafiə Nazirliyinin təklifi ilə yer altında raketlər üçün şaxtalar, təyyarə meydanları və digər hərbi obyektlər kompleksi tikilməsi planlaşdırılmışdı. Bundan xəbər tutan torpaqla məşğul olan dövlət orqanı işə başlmağa icazə vermir, obyektin tikintisinə qədər bəzi işlərin görülməsi üçün vaxt tələb edirdi. Sən demə, bu yerə dəmiryol xətti çəkmək, torpağın üst qatını vaqonlara doldurub başqa yerə daşımaq, cavan ağacları kökündən çıxarıb yaxın yerlərdə əkmək, sonra torpağı öz yerinə qaytarmaq və ağacları əvvəlki yerinə basdırmaq lazım idi. Onlar belə də edirlər. Təqribən bir ildən sonra kompleksin üstü örtüldü və götürülmüş

torpaq öz yerinə qaytarıldı, ağaclar bərpa edildi, əkin, biçin başlandı. Əlbəttə, bu iş çox böyük vəsait tələb etdi, lakin təbiət qorundu, məhv edilmədi. Almanların torpağa qayğısına baxın! Onlar bilirlər ki, torpağın üst münbit qatı bir ilə, iki ilə yaranmır, bunun üçün uzun vaxt və müvafiq iqlim amilləri tələb edilir. Torpaqdan səmərəli istifadə etmək, onun münbitliyini, fauna və florasını qorumaq üçün almanlar böyük vəsait sərf etməkdən, hərbçilərlə üz-üzə durmaqdan çəkinmədilər. Çünki onlar belə hesab edirlər ki, meşə yaşıl ciyərdir, gübrə fabrikidir, su həyatdır, torpaq çörəkdir. Sizə məsləhətim budur ki, tikinti üçün yer seçəndə, su, yol, qaz çəkəndə münbit torpaqların korlanmasına yol verməyəsiniz, bu işləri əkinəbiçinə yararsız yerlərdə görəsiniz. Baxın, indi sizə Gürcüstanda, Almaniyada, Yaponiyada çəkilmiş slaydları göstərəcəyəm. Görürsünüzmü, evlər əsasən qayaların üstündə, daşlıq yerlərdə, qurumuş çay yataqlarında tikilib. Bu, torpağa qayğıdır, bol məhsul istehsalına təminatdır. İndi görün bizim bölgədə necə hərəkət edirlər. Çox vaxt məhsuldar meyvə və üzüm bağlarını, suvarılan taxıl, tərəvəz əkin sahələrini şəxsi mənzil tikintisi üçün adamlara paylayır, sonra isə deyirlər ki, obyektiv səbəblərə görə məhsul istehsalımız azalıb. Azalar da. Onsuz da bizim respublikada suvarılan əkin sahələri çox azdır. Belə olduğu halda, boş yerləri qoyub suvarılan əkin sahələrini "satmaq" cinayətdir". Bu söhbətdən sonra 15 dəqiqə ərzində dinləyicilər 25 rəngli slayda baxıb özləri üçün qeydlər götürdülər, çoxlu sual verdilər. Həsən Əliyev o vaxtın ciddi siyasi rejimində bütün suallara cəsarətlə və açıq cavab verirdi. Yaxşı yadımdadır, Ermənistanın Krasnoselski rayon partiya komitəsinin birinci katibi Kim Eremoviç Həsən Əliyevə belə bir sual verdi: "Həsən Əliyeviç, Siz belə açıq və kəskin danışmaqdan qorxmursunuzmu? Axı, burada söhbət rəhbər partiya işçilərinin fəaliyyətindən gedir". Həsən Əliyev bir anda ona cavab verdi: "Nədən qorxmalıyam? Mənim məqsədim Zaqafqaziya və Dağıstanda təbiəti qorumaq üçün sizə məsləhət verməkdir. Bura bizim hamımızın birgə məkanımızdır. O adamlar qorxsunlar ki, onlar xalqları üz-üzə qoymağa, adamların başını zəhərləməyə, özlərini əlahiddələşdirməyə, başqalarına ziyan vurmağa çalışır, zərərli ədəbiyyat buraxırlar". Erməni partiya işçisi cavabını alıb susdu. Yəqin ki, o, Həsən Əliyevin nələrə işarə etdiyini yaxşı başa düşdü və bu sözlərin kimə ünvanlandığını anladı.

Növbəti məşğələlərin biri 1983-cü ilin fevral ayında keçirilirdi. Elə cədvəldə Həsən Əliyevin adı görünəndə dinləyicilər mənə sualı sual ardınca verir, onun haqqında əlavə məlumat istəyirdilər. Mən aydın başa düşürdüm ki, onları iki məsələ maraqlandırır. Birinci, Heydər Əliyev fenomeni, ikincisi, həmkarlarından eşitdikləri Həsən Əliyev şəxsiyyəti. Mən hər də-

fə Həsən Əliyevin keçdiyi yol, onun xidmətləri haqqında ətraflı məlumat verirdim. Məşğələlərdən birində Həsən Əliyev su problemi barədə danışmağı planlaşdırmışdı. O, içməli və suvarma sularına dair dünya miqyasında və İttifaq məkanında maraqlı icmal məlumatı verdikdən sonra bizim bölgənin problemlərinə keçdi. Mühazirəçi qeyd etdi ki, bölgəmizdə xırda çaylar çox olsa da, su bolluğu yoxdur. Kənd təsərrüfatında məhsuldarlığın aşağı olmasının bir səbəbi də suvarılan torpaqların azlığıdır. Doğrudur, torpağın münbitliyi, məhsuldar toxumların seçilməsi, aqrotexniki qaydalara riayət edilməsi, zərərvericilərə qarşı mübarizənin gücləndirilməsi, gübrələrdən istifadə edilməsi çox vacib olsa da, susuz məhsul əldə etmək mümkün deyil. Elə buna görədir ki, ən yüksək növlü pambıq dəmyə yerdə məhsul vermir, o, mütləq suvarılmalıdır. Əgər Braziliya və Argentinada hər hektardan 50-65 sentner taxıl götürülürsə, bizim bölgədə orta məhsuldarlıq 25 sentnerdən yuxarı qalxmır. Deməli, bitkilər düzgün yerləşdirilməli və meliorasiya sistemlərinin genişləndirilməsi daim diqqət mərkəzində olmalıdır. Burada bir məsələyə xüsusi diqqət yetirmək lazımdır. Bu da suyun təmizliyidir. Suda olan zəhərli maddələr məhsul vasitəsilə insan orqanizminə keçir. Narahatçılıq Kür və Araz çayları ilə bağlıdır. Bu çaylar Gürcüstandan və Ermənistandan keçib Azərbaycana gəlir. Araz çayı Ermənistanın Qafan, Alaverdi, Qəcəran missaflaşdırıcı kombinatlarının və kimya zavodlarının yanından keçir və burada metal külçələr zəhərli kimyəvi maddələrlə yuyulur, Araza axıdılır. Bu zəhərli sulardan Azərbaycan ərazisində əhali istifadə edir, əkin sahələri suvarılır. Beləliklə, qonşu respublikadan gələn zəhərli sudan Azərbaycanda istifadə edilir. Bu, yaxşı iş deyil, qonşuluğa yaraşmır. Bəlkə siz əfsanələrdə deyilən taktikadan istifadə etmək istəyirsiniz? Əfsanədə deyilir ki, düşmənə qalib gəlmək üçün ya onun su mənbəyini zəhərlə, ya da əlindən al. Biz ki düşmən deyilik, tarixi qonşularıq. Əgər biz sizə göndərdiyimiz qaza, neft məhsullarına zəhərli kimyəvi maddələr əlavə etsək və bu qaz evlərdə sizin adamları zəhərləsə, necə olar? Siz nəzərə alın ki, Azərbaycan hər il Ermənistana respublikalararası iqtisadi əlaqələr balansı üzrə 350 milyonluq əvəzsiz əlavə məhsul göndərir. Görürsünüzmü, ziyankarlıq üçün Azərbaycanın imkanları daha genişdir. Biz buna qəti yol vermərik. Gərək siz də diqqətli olasınız. Bir şeyi başa düşmək lazımdır ki, suyu çirkləndirmək olmaz. Hər şeyi su ilə yuyurlar. Su çirklənsə, onu nə ilə yuyarlar? Ermənilər özlərinə bəraət qazandırmaq üçün dəlillər gətirməyə çalışanda Həsən Əliyev slaydları işə salıb, bir-birinin ardınca sarımtıl, şabalıdı rəngli zəhərli suları Araza tökən iri boruların axar ağzını nümayiş etdirdi. İridiametrli borulardan saralmış, zəhərli su dalğası böyük təzyiqlə çaya tökülürdü. Ermənilər sanki

şok vəziyyətinə düşdülər, təqsiri İttifaq dövlətinin sahə nazirliklərinin üstünə atdılar, təmizləyici qurğuların verilməməsindən şikayətləndilər. Həsən Əliyev zahirən sakit görünsə də, bərk əsəbiləşmişdi. O, etika xatirinə zəif əsəbi gülüşlə, yarıərklə barmağını havada yellədi və bir cümlə ilə gərgin söhbətə yekun vurdu: "Davayte, ne budem!".

Biz mənim iş otağıma gələndə Həsən Əliyevin rəngi ağarmışdı. O, bir qurtum çay içib, məndən siqaret istədi. Mən: "Axı, Siz papiros çəkən deyilsiniz, bəlkə çəkməyəsiniz", — dedim. "Yox, ver, — dedi, — ya gərək papiros çəkəm, əsəblərimi sakitləşdirəm, yaxud da onları təhqir edəm, başqa yol yoxdur. Onların indi əl-ayağını yığmasaq, sonra qudurub cızıqdan çıxacaqlar. Arazın zəhərlənmiş bu qədər suyunu nə ilə yumaq olar? Bu cinayətdir, onu bağışlamaq olmaz, biz sözümüzü deməliyik".

Həsən Əliyev düz 20 il bölgə respublikaları rəhbər işçiləri qarşısında həyəcan təbili vurdu, mübariz vətəndaş ehtirası ilə Azərbaycan təbiətinin keşiyində durdu. Axırıncı dəfə mən onunla 1990-cı ilin yayında görüşdüm. Həsən Əliyev məni oğlu kimi bağrına basıb təəssüflə dedi: "Biz yaxşı əməkdaşlıq etdik, faydalı iş gördük, mən isə daşnakların atalarına od vurdum. Mən rəhbərliyə də tez-tez yazılı müraciətlər edirdim. Amma nə fayda, bu başıboşlar, ağıldanseyrəklər qorxularından hər dəfə deyirdilər ki, yaxşı deyil, bizi düz başa düşməzlər, dözün görək, necə olur. Dözdük və gördük. Bu təsadüfi rəhbərlərin günahından ermənilər gəlib başımıza çıxdılar. İndi artıq nahaq qanları, zəhərlənən suları heç nə ilə yumaq mümkün deyil".

Əzizim, 24 illik müdrik dostum, həyat müəllimim Həsən Əliyev sağ olsaydı, onu sevindirib deyərdim: "Həsən müəllim, axır ki, canımız başıboşlardan, qorxaqlardan, hay-küyçülərdən, mənsəbpərəstlərdən qurtarıb, dövlətçiliyimiz möhkəm əllərdədir. Çox çəkməz ki, qanımızı da, suyumuzu da yuyarıq".

EYYUB QURBANOV
*Biologiya elmləri doktoru*

## ƏSRLƏRLƏ YAŞI OLACAQ BİR ÖMÜR

Akademik Həsən Əliyevin onlarla elmi, fəxri adı, rəsmi və ictimai vəzifələri olsa da, həmişə ona müdrik ağsaqqal kimi baxır və sadəcə olaraq, Həsən müəllim deyə müraciət edirdilər. Maraqlı idi ki, müxtəlif peşə sahibləri ayrı-ayrılıqda Həsən müəllimi öz həmkarı sanır və yeri gəldikcə ondan peşəkar səviyyədə cavablar, məsləhətlər alırdılar.

Mən nəbatatçıyam və nəzərimdə Həsən Əliyev ən nadir bioloq-meşəşünas kimi canlanır. Son otuz ildə vəziyyəti onsuz da bərbad olan Azərbaycan meşələrinin qayğısına Həsən müəllim qədər qalan, onun dərdlərinə yanan ikinci bir şəxs tanımıram.

Bu ağsaqqal insan təbiətdə olmağı, hər növ kolu, ağacı, axar çayları, əzəmətli dağları, al-əlvan çəmənləri müşahidə etməkdən doymaz, çöl dəftərində yorulmadan, ardıcıl qeydlər aparmağı sevərdi. Həsən müəllim ezamiyyətdə olduğu ərazisini piyada, qarış-qarış gəzər, sonra rayonun kənd, qəsəbə rəhbərlərinə, zəhmət adamlarına dəyərli, peşəkar səviyyəli məsləhət verməkdən sevinc duyardı.

Yaxşı yadımdadır, 1962-ci ildə işlədiyim laboratoriyanın, həm də Azərbaycan EA Nəbatat İnstitutunun rəhbəri akademik Validə Tutayuqun başçılığı ilə İsmayıllı rayonunda ezamiyyət zamanı Talıstan meşələrindən bitki toplayarkən, o vaxtlar uzaqdan-uzağa tanıdığım Həsən müəllimlə qarşılaşdım. O, tək idi. Çiynindən ayrılmaz "dostu" — fotoaparatı asılmışdı, əlində içində dəftər-qələm olan çanta vardı. O, dəftərini çıxarıb mənimlə rastlaşmasını təfərrüatı ilə qeydə aldı. Sonra gördükləri haqda danışdı, Basqala gedəcəyini söylədi. Danışığından, söhbətlərindən qayğı və narahatçılıq yağırdı.

Təkrarı olmayan Talıstan meşələrinin vəziyyətindən, ona münasibətdən narazı idi. Meşə idarəsinin işçiləri ilə görüşmək və giley-güzarını onlara çatdırmaq istədiyini bildirdi. O, peşəkar meşəçi və meşənin böyük dostu kimi danışırdı: "Meşənin boş sahələrinə yeni tinglər əkilməlidir. Yabanı qozmeyvəlilərin, alma, armud, zoğal, əzgil, çaytikanı kimi qiymətli bitkilərin becərilib-artırılmasına diqqət yetirilməli, sonra onların tədarükü və təhvilini səliqə ilə təşkil etmək lazımdır... ". O vaxtlar Həsən müəllimin qayğı ilə dediyi bu sözləri mən indi də tez-tez xatırlamalı oluram.

Həsən müəllimi respublikamızın hər yerində tanıyır və hörmət edirlər. Olduğum rayonlarda bu barədə məqsədli və təsadüfi söhbətlərdən gəldiyim nəticələrdi bunlar.

Həsən müəllim respublikamızın qoruqlarına xüsusi qayğı göstərirdi. O, "Azərbaycan təbiəti" jurnalının baş redaktoru kimi təbiəti mühafizə maarifinin təbliği sahəsində böyük işlər görürdü. Həsən müəllim sabahı fikirləşən, uzaqgörən, dünyanın gör-götür dünyası olduğunu bilən bir insan idi.

Son iyirmi-otuz ildə təbiəti mühafizə ilə bağlı beynəlxalq səviyyədə keçirilən tədbirlərin, demək olar ki, hamısında iştirak etmişdi. O, xarici səfərlərdən qayıdandan sonra Akademiya əməkdaşları qarşısında çıxış edər, gördüyü, eşitdiyi, əxz etdiyi yeniliklər haqqında məlumat verər, çək-

diyi fotomaterialları göstərərdi. Respublikamız üçün yararlı saydığı yenilikləri, imkan daxilində, tətbiq və inkişaf etdirməyə çalışardı.

Həsən müəllim xarici ölkələrdən respublikamıza qonaq gəlmiş görkəmli alimlərlə görüşməyi, onlarla fikir mübadiləsi aparmağı, çıxışlarını təşkil etməyi özünə borc sayırdı.

1977-ci ildə mənim dəvətimlə Bakıya gəlmiş İstanbul Universitetinin meşəçilik fakültəsinin dekanı, ağac-kol bitkiləri tozcuqlarının sitoloji, embrioloji tədqiqi sahəsində tanınmış alim, professor Burxan Aytuq düz 20 gün Nəbatat İnstitutunun qonağı oldu. Mən onu Həsən müəllimlə tanış etdim. Akademik Həsən Əliyev türkiyəli həmkarını iki dəfə öz iş otağında qəbul etdi və hər dəfə də söhbətləri saatlarla çəkdi. Burxan Aytuqun axtarışları Həsən müəllimi maraqlandırırdı. O, qonağa Akademiya alimləri qarşısında məruzə ilə çıxış etməyi məsləhət gördü.

Türk alimi iki mövzuda məruzə oxudu: "İstanbul və Belqrad çevrəsi bitki örtüyünün əmələgəlmə tarixi", "İstanbulətrafı bitkiləri tozcuqlarının allergiya xüsusiyyətlərinin öyrənilməsi". Növbəti gün Həsən müəllim özü "Azərbaycan təbiətinin ümumi problemlərinə dair" xüsusi məruzə ilə çıxış etdi. Akademik Həsən Əliyevin professionallığını vurğulayan Burxan Aytuq sevincini gizlədə bilmədi: "Əfəndim, otaqdan çıxmadan Azərbaycanı qarış-qarış gəzmək, zənginliklərini baxıb görmək və bir daha ürəkdən vurulmaq. Heyran qaldım xocam, Sizə". Məruzədən sonra Həsən müəllim qonaqla türk dünyasına dair söhbətlər etdi, qırılmış əlaqələrin səbr və ağılla bərpa olunması yollarından danışdı.

Həsən müəllimlə bir görüş haqqında da söhbət açmaq istəyirəm. 1978-ci ildə Türkiyənin Trabzon şəhərindəki Qara dəniz Texniki Universiteti meşəçilik şöbəsinin müdiri, professor Cəmil Ata qonağımız oldu. O, Türkiyədə yayılmış Qazdağı küknarının Azərbaycanda bitən küknar növləri ilə bioekoloji baxımdan müqayisəli fərqini araşdırmaq arzusunda idi. Bu arzunun kerçəkləşməsində Həsən müəllimin böyük köməyi oldu. Türkiyəli alim Azərbaycan EA Nəbatat İnstitutu və Akademiyanın böyük salonunda "Qazdağı küknarının bioekoloji xüsusiyyətləri" mövzusunda məruzə ilə çıxış etdi. Həsən müəllim məruzəni qiymətləndirdi və Cəmil Ataya məsləhət gördü ki, Quba rayonuna gedib, orada bitən yerli küknar ağacları ilə tanış olsun.

Bizi Quba meşəçilik idarəsində hörmətlə qəbul etdilər. Professor Cəmil Ata küknar sahəsində xeyli müşahidə apardı, qeydlər etdi. Cəmil Ata belə qənaətə gəldi ki, Qazdağı küknarı dirəyinin daha düz və hündür olması, kölgə sevməsi ilə fərqlənir. Yeri gəlmişkən, deyim ki, Qazdağı küknarını respublikamızda təbliğ etmək məqsədilə Cəmil Atanın yazdığı mə-

qalə Həsən müəllimin xeyir-duası ilə "Azərbaycan EA Xəbərləri"nin 1979-cu il 4-cü sayında işıq üzü gördü.

Türkiyəli alim vətənə döndükdən sonra məhz Həsən müəllimin xahişi ilə Qazdağı küknarının 1,5 kiloqram toxumunu bizə göndərdi. Və elə bu müdrik alimin tövsiyəsi ilə toxumu Quba, Lənkəran Hacıkənd və Göy göl ərazilərinin meşə təsərrüfatlarına verdik. Artıq 15-16 yaşa çatmış Qazdağı küknarları xeyli boy verib, qol-budaq atmışdır. Hər dəfə günəşə doğru boy atan bu yaraşıqlı, incə qamətli fidanları gördükdə nurani sifətli Həsən müəllimi xatırlayıram. Düşünür və belə qənaətə gəlirəm ki, gələcək nəsillərə çatacaq daha bir ömür möhləti qazanmışdır Həsən müəllim — əsrlərlə yaşı olacaq bir ömür!

ZAHİD ŞÖYÜBOV
*Əməkdar müəllim*

## MƏKTƏBİMİZİN BÖYÜK DOSTU

Hörmətli Budaq müəllim, məktubunuzu aldım. Xalqımızın gözəl oğlu Həsən müəllim haqqında xatirələr toplusu nəşr etmək təşəbbüsünüzə ürəkdən sevindim; bu, əsl vətəndaşlıqdır, layiq olanlara qədir-qiymət verməkdir. Bunun üçün Sizə minnətdarlığımı və səmimi təşəkkürümü bildirirəm.

Hörmətli akademik, mən rəhmətlik Həsən müəllimi əvvəllər qiyabi tanıyırdım. Onun mətbuatda dərc olunmuş yazılarını oxuyarkən hiss edirdim ki, Həsən müəllim Azərbaycan torpağına, onun təbiətinə daxilən vurğun, ürəkdən yanan bir insandır. Onun yazıları, televiziya ilə çıxışları məndə Azərbaycan təbiətinə sevgi hissini daha da artırdı.

Həsən müəllimin ideyalarına əsaslanan Xaldan orta məktəbi uzun illərdir ki, məktəbin tədris-təcrübə sahəsinin böyük bir hissəsində meşə tingçilik təsərrüfatı ilə məşğuldur. İndiyədək məktəb respublikanın yaşıllaşmasına 1,5 milyondan çox əkin materialı vermişdir.

70-ci illərin əvvəllərində mən ərazimizdə olan Kürsahili tuqay meşələrinin məhvə doğru getdiyini ürək ağrısı ilə duyub, Həsən müəllimə geniş məktub yazdım. Məktubda xahiş etdim ki, Kür çayı sahili meşələrini bərpa etmək məqsədilə Xaldan orta məktəbinə 10 hektar torpaq sahəsi verilməsinə köməklik göstərsin. Həsən müəllim məktubla əlaqədar Azərbaycan KP MK qarşısında məsələ qaldırmış və məktubu Xaldan məktəbliləri-

nin müraciəti kimi qiymətləndirərək respublikanın Təbiəti Mühafizə Cəmiyyəti, Maarif Nazirliyi, komsomolun Mərkəzi Komitəsi və Meşə Təsərrüfatı Nazirliyinin birgə kollegiya iclasında müzakirə edilməsinə və qərar çıxarılmasına nail olmuşdu. Müraciət respublikanın bir sıra qəzet və jurnallarında dərc edilmişdi. Bu təşəbbüsə Kür sahilində yerləşən 18 rayonun məktəbliləri də qoşuldu və Kürsahili meşələrinin bərpasında xeyli iş görülmüş oldu. Həsən müəllim Kürsahili meşələrinin bərpasında Xaldan məktəblilərinin təşəbbüsünə qoşulmuş digər rayon məktəblilərinin gördüyü işlər haqqında respublika Təbiəti Mühafizə Cəmiyyətinin qurultayında etdiyi hesabat məruzəsində ətraflı məlumat vermişdi.

Həsən müəllimlə ilk şəxsi tanışlığımız 1974-cü ilin aprel ayına təsadüf edir. Onun məktəbimizə qonaq gələcəyini əvvəlcədən bilirdik. Hamımız — müəllimlər də, şagirdlər də onun gəlişini səbirsizliklə gözləyirdik. Şagirdlər bu ağsaçlı nurani insanı özlərinin ən yaxın dostu, əzizi kimi gül-çiçəklə qarşıladılar. O, uşaqlıq illərinə qayıtmış kimi məktəbliləri bağrına basdı, qucaqladı. Özümüzdən asılı olmayaraq gözlərimiz yaşardı. Bu kövrəklik Həsən müəllimdə daha aydın hiss olunurdu. Məktəbin yaşıllığa, gül-çiçəyə qərq olmuş həyətini gəzdik, meşə tinglik sahəsini göstərdik. O, razılığını bildirdi, gördüklərinin düşündüklərindən artıq olduğunu söylədi. Üz-gözündən minnətdarlıq yağırdı. Uşaqların isə sevinci yerə-göyə sığmırdı, hərəkətlərində, danışıqlarında bir inam yaranmışdı. Həsən müəllim şagirdlər qarşısında çıxış etdi, onlarla şəkil çəkdirdi. Xudahafizləşib ayrılanda bundan sonra tez-tez gələcəyini bildirdi.

Elə ilk görüşdən doğmalaşıb sevdiyimiz, ürək qızdırdığımız qocaman alim məktəbimizə ikinci dəfə 1977-ci ildə gəldi. Şagirdlər artıq onu uzun illərin doğması, dostu kimi qarşıladılar. Məktəbimiz təzə, yaraşıqlı tədris binasına köçmüşdü. Həyət yenə yaşıllığa qərq olmuşdu. Yeniliklər Həsən müəllimin nəzərindən yayınmadı. O, uğurlarımıza sevindi, səliqə-sahmanımızı təriflədi. Üzündə xoş təbəssüm, gözlərində razılıq hissi vardı. Nə isə demək istəyirdi ki, məktəbin həyətinə içi adamla dolu avtobus daxil oldu. Bunlar Sabirabad rayonunun bizim məktəblə təcrübə mübadiləsinə gəlmiş maarif işçiləri idi. Təvazökarlıqdan uzaq da olsa deyim ki, Xaldan orta məktəbi o vaxtlar Azərbaycanda ən qabaqcıl məktəblərdən biri idi. Hətta biz SSRİ məkanında belə sayılıb-seçilirdik. Həsən müəllim çox məmnun qaldı, qonaqlara bizim məktəbdən fəxrlə danışmağa başladı: — Yaxşılardan öyrənmək, götürmək qəbahət deyil, fərasətdir, gələcəyi fikirləşməkdir. Uşaqlar burada yalnız elm öyrənmir, həm də əməyə öyrəşirlər, sabaha hazırlaşırlar. Bu məktəb binasına, onun texniki təchizatına ən qabaqcıl şəhər məktəbi belə həsəd apara bilər. Bakıya qayıdanda naziriniz-

lə danışacağam, qoy Xaldan məktəbinin təcrübəsinin bütün respublikada yayılmasına şərait yaratsın...

Sonra Həsən müəllim məktəb telestudiyası ilə 40 dəqiqədən artıq çıxış etdi. Şagirdlər siniflərdə, fənn kabinələrində televizor qarşısında oturub onu dinlədilər. Həsən müəllim özünün çəkdiyi maraqlı slaydları nümayiş etdirə-etdirə təbiəti mühafizədən danışdı. Onun söhbəti sadə, anlaşıqlı və məzmunlu idi. O, Azərbaycan təbiətini xarici ölkələrin təbiəti ilə müqayisə etdi, təbii sərvətlərin zənginliyinə görə respublikamızın üstün olduğunu göstərdi və qeyd etdi ki, təəssüf ki, təbiətə münasibətdə, qayğıda üstünlük bizdə deyil. Həsən müəllim bu fikirləri kədərlə, qayğı ilə söylədi, hələ təbiətə münasibətdə bizə çox maariflənmək lazım olduğunu bildirdi. Müəllimlərimizin, şagirdlərimizin əməyini yaddan çıxarmadı, onların xeyirxah əməllərini vurğuladı, uğurlar dilədi və sonra dedi: "Mən Xaldan məktəbinin inkişafı timsalında Azərbaycanımızın gələcəyini görürəm". Həsən müəllim bizim məktəbin qızğın təbliğatçısı və böyük dostu idi.

Bu sadə, qayğıkeş və narahat insan özünün "Həyəcan təbili" kitabında Xaldan məktəbi haqqında belə yazır: "Mən Xaldan məktəbinə çatanda dərs qurtarmışdı. Lakin məni sevimli təbiətşünaslarım səbirsizliklə gözləyirdilər. Xaldan məktəbinin şagirdləri "məktəb meşəliyi" yaratmış, orada toxmaçarlıq salıb müxtəlif meşə ağaclarının tinglərini böyüdüb artırırlar. Məktəb bu tingləri satıb əldə edilən vəsaitlə texniki mərkəzə ləvazimat alır. Məktəbdə televiziya mərkəzi vardır. Hər bir sinifdə televizor qoyulmuşdur. Zəngin fotolaboratoriya yaradılmışdır. Laboratoriyada rəngli fotoşəkillər və diopozitivlər hazırlayıb dərs zamanı şagirdlərə göstərirlər.

Hələ keçən il mən məktəbin televiziyası ilə çıxış edib təbiətin mühafizəsinə aid şəkilləri "Proton" aparatı ilə ekrana saldım. Şagirdlər isə öz siniflərində həm televizorda şəkilləri görür, həm də məni eşidirdilər. Halbuki bizim ali məktəblərin çoxunda hələ indiyə kimi belə şərait yaradılmamışdır. Mən respublika məktəblərinin şagird və müəllimləri qarşısında mühazirə söyləməyə gedəndə ləvazimat aparıram. Çox təəccüblüdür ki, respublika Xalq Təhsili Nazirliyi Xaldan məktəbinin təşəbbüsünü başqa məktələrə yaymır".

Həsən müəllim bizdən uzaqda yaşasa da, həmişə məktəbimizlə maraqlanıb, əlaqə saxlayıb, ortaya çətinliyimiz çıxanda, imkan daxilində, öz kömək əlini uzadıb. O, çox qayğıkeş və həssas idi.

Bir dəfə meşə işçiləri xəbər verdilər ki, məktəbin meşə sahəsindən xeyli ağac oğurlanıb, küknar ağaclarının başlarını kəsib aparıblar. Ağacla-

rın izinə düşüb tapdıq. Oğrular Bərdə rayonunun Caparidze kolxozundan idilər. Bu barədə Həsən müəllimə məktub yazdım. Çox keçmədi, o, yeni il qabağı respublika televiziyası ilə çıxış edib, ziyankarların əməllərini pislədi. Elə o gündən sonra bir də belə bir hadisə baş vermədi...

Həsən müəllimin bizə münasibəti ötəri deyildi. O bizim kollektivi sevir və əməyini yüksək qiymətləndirir, yeri gəldikcə, bunu əyani şəkildə göstərirdi. 70 illiyində onun haqqında sənədli film çəkilişinin bizim məktəbdə aparılması heç də təsadüfi deyildi.

Həsən müəllimlə respublika və keçmiş İttifaq toplantılarında dəfələrlə bərabər iştirak etmişəm. Yadımdadır, Həmkarlar İttifaqlarının qurultayına nümayəndə idik. Bilərəkdənmi, yaxud təsadüfdənmi "Rossiya" mehmanxanasında bizə qonşu nömrədə otaqlar vermişdilər. Xoşbəxtlikdən Kremlin Qurultaylar sarayında da yanaşı düşmüşdük. Boş vaxtlarımızda Həsən müəllimin söhbətlərini dinləməyi nümayəndə heyətimiz səbirsizliklə gözləyərdi. O, Azərbaycanı gözəlliklər dünyasına, ən varlı respublikaya çevirməyin mümkünlüyündən söhbət açar, hər birimizdə torpağımıza, təbiətimizə vurğunluq hissi aşılamağa çalışardı. Söhbətlərimizdən birində Həsən müəllimə çatdırdım ki, şagirdlərimiz Şirvan kanalının ətrafını yaşıllaşdırmağa başlamışlar. Bu xəbər ona bir dünya sevinc bəxş etdi, uşaqlara təşəkkürünü bildirib, salam göndərdi.

Böyük şəxsiyyət, sadə, çoxumuzun ideal sandığımız gözəl insan — Həsən müəllim haqqında çox danışmaq olar. O, xalqına, vətəninə, xüsusən də təbiətə elə bağlı idi ki, bunu adi sözlərlə ifadə etmək mənə çətindir. Həsən müəllim öz gərgin əməyi ilə respublikamızın çox yerində iz qoyub getmişdir. Mən onun qədər təbiətin vurğunu olan ikinci bir adam tanımıram.

Azərbaycan Elmlər Akademiyasından, Budaq müəllim, şəxsən Sizdən xahiş edirəm, Həsən müəllimin keçdiyi mənalı həyat yolunu, onun elmi-pedaqoji irsini, hər şeydən öncə isə yüksək insani keyfiyyətlərini dərindən öyrənib, haqqında sanballı xatirələr toplusu yaradılsın və böyük sayda çap edilsin. Çünki bu, tarixdir — bu günümüzdən gələcək nəsillərə çatması zəruri olan bir tarix.

Nə qədər ki Azərbaycan təbiəti var, Həsən müəllimin izi o qədər yaşayacaqdır.

Allah ona rəhmət eləsin, qəbri nurla dolsun.

ƏHMƏD XASPOLADOV
*Jurnalist*

# ŞÖHRƏTLİ ALİM

Keçən il dekabrın 3-də Almaniya Demokratik Respublikasında çıxan "Vissenşaft und texnik" qəzeti jurnalist Verner Hangenin Xəzər haqqında oçerkini dərc etmişdi.

Xəzərin bu günü və gələcəyi ilə maraqlanan Hange Azərbaycan EA Coğrafiya İnstitutunun direktoru, akademik Həsən Əliyevin qəbulunda olmuş, onunla xeyli söhbət etmişdi.

Jurnalist oçerkində yazır: "... Professor Əliyev bizi öz iş otağında qarşıladı. Qonaqpərvər alim kitab və əlyazmalarını bir kənara çəkib bizi çay içməyə dəvət etdi... Sonra o bizə Azərbaycanda ətraf mühitin mühafizəsinə dair məlumat verdi".

Jurnalist öz oçerkində görkəmli alimin bir ifadəsini zərbi-məsəl kimi işlətmişdir. "Susuz dəniz boş çəlləyə bənzər". Alim bu fikri suya böyük ehtiyacı olan Xəzər haqqında söyləmişdir.

Beynəlxalq Təbiəti Mühafizə Cəmiyyətinin və Beynəlxalq Torpaqşünaslar Cəmiyyətinin üzvü, akademik Həsən Əlirza oğlu Əliyev dünya miqyasında tanınmış alimlərdən biridir.

Bu mülayim xasiyyətli, dünyagörmüş alimin ömrü olduqca mənalı və dolğun keçir, onun hər dəqiqəsi bir iş üçün ayrılmışdır. Nə isə... mətləbdən uzaqlaşmayaq. Günlərin birində akademik Həsən Əliyevlə görüşümüz baş tutdu.

— Həsən müəllim, — dedim, — siz neçə-neçə sanballı tədqiqat əsərinin müəllifisiniz. Onlardan ən uğurlu hesab etdiyiniz hansıdır?

— Bilirsinizmi, — dedi, — tədqiqat işinin uğurlu olub-olmadığını zaman göstərir. Yalnız zamanın sınağından çıxan elmi nəzəriyyələr, fikirlər bəşəriyyətin malı olur.

O, kitab şkafından qəhvəyi cildli kiçik bir monoqrafiya çıxarıb bizə göstərdi: "Pirsaat düzünün torpaqları və onunu perspektivləri".

— Bu, ilk monoqrafiyamdır, — dedi, — 1940-cı ildə çıxıb. Əgər bu kitabı vərəqləsəniz, görərsiniz ki, Pirsaat düzünün indiki mahiyyəti hələ qırx il əvvəl diqqət mərkəzində olub. O vaxt həmin ərazidə bir neçə il tədqiqat işi aparmışdım. Biz Pirsaat düzündəki torpaqların xarakteri, növləri və tərkibi

haqqında çoxlu material topladıqdan sonra bu rayonun neft sənayesi üçün perspektivli olduğunu bildirmişdik. Belə də oldu. Pirsaat düzündəki on beş min hektar yararlı torpağı isə gələcəkdə Bakı şəhərini üzüm və tərəvəzlə təmin edə biləcək bazaya çevirməyin mümkün olduğunu söyləmişdik. Fikrimiz düz çıxdı. Bundan ötrü Pirsaat çayı üzərində su anbarının tikilməsini təklif etmişdik. Bax, həmin su anbarı da yaradıldı. Hətta Pirsaat düzündəki kəndlərin, qəsəbələrin subtropik bitkilər hesabına yaşıllaşdırılması, burada növbəli əkinin inkişaf etdirilməsi məsələsini irəli sürmüşdük. Həyat bizim axtarışlarımızın düzgün olduğunu təsdiq etdi...

Akademik Həsən Əliyev indiyədək dörd yüzə qədər elmi və elmi-kütləvi əsər yazıb nəşr etdirmişdir. Bunlardan "Böyük Qafqazın cənub yamaclarındakı çay vadilərinin torpaqları", "Böyük Qafqazın şimal-şərq hissəsinin meşə və meşə bozqır torpaqları", "Azərbaycan torpaqları", "Meşələrin torpaq proseslərinə təsiri", "Qəhvəyi meşə torpaqları" və başqa monoqrafiyalar öz müəllifinə dünya şöhrəti gətirmişdir.

Alimdən soruşduq:

— Torpaq problemi nə üçün Sizi bu qədər çox düşündürür?

— Təbiətin əsas sərvəti torpaqdır, — deydi. — İnsan yarandığı gündən torpağın nemətlərindən istifadə edir. Planetimizin əhalisi ildə təqribən yetmiş milyon artır. Bu qədər adamı yalnız çörəklə təmin etmək üçün hər il on beş milyon hektar əlavə əkin yeri lazımdır. İkincisi, onun əkinə yararlı sahəsi hələlik qurunun cəmi on-on iki faizini təşkil edir.

Birləşmiş Millətlər Təşkilatının ərzaq və kənd təsərrüfatı komissiyasının hesablamaları göstərir ki, hazırda hər dəqiqə on hektara qədər yararlı sahə istifadədən çıxır, yəni müxtəlif tikintilərə, yol çəkməyə və sair üçün istifadə edilir, yaxud şorlaşır və eroziya nəticəsində öz keyfiyyətini itirir. Ona görə də bu məsələ dünya ictimaiyyətini, xüsusən alimləri düşündürür.

Bir dəfə akademik Həsən Əliyev Hollandiyada nəşr olunan Beynəlxalq Torpaqşünaslıq Cəmiyyətinin bülletenini nəzərdən keçirirdi. Bir xəbər onu heyrətləndirdi. Orada alimin "Qəhvəyi meşə torpaqları" adlı monoqrafiyasının İsraildə çox böyük tirajla çap olunması barədə məlumat verilirdi. Müəllif öz əsərinin xaricdə çap olunmasından düz üç il sonra xəbər tutur. Şərqi Qafqazın ən mühüm torpaq növlərinə həsr edilmiş bu əsər dünya torpaqşünaslıq ədəbiyyatında böyük sensasiyaya səbəb olmuşdu. İngilis dilinə tərcümə edilmiş həmin kitabın cildinin iç üzündə yazılıb: "Bu kitabdan dünyanın kitabxanaları istifadə etməlidir".

Məsələ burasındadır ki, akademik Həsən Əliyev qəhvəyi torpaqlar haqqında ilk dəfə torpaqşünasların VIII Beynəlxalq konqresində məlumat vermişdi. Alim quraq ekoloji şəraitdə iqlimə uyğunlaşan torpaq növü haq-

qında təzə fikirlər irəli sürmüş, təbiətşünaslıq elmini yeni faktlarla zənginləşdirmişdi.

1968-ci ildə Amerika Birləşmiş Ştatlarında "Dünyanın görkəmli alimləri" adlı təqribən beş yüz səhifəlik ensiklopediya nəşr edilmişdir. Bu ensiklopediya antik dövrdən başlamış ta bizim dövrə qədər planetimizdə yaşamış, öz böyük kəşfləri, ixtiraları və sanballı tədqiqatları ilə tanınmış məşhur alimlərin həyat və yaradıcılığından bəhs edir. Həmin alimlər sırasında həmyerlimiz, görkəmli təbiətşünas alim Həsən Əliyevin də adı çəkilir, onun həyatı və elmi fəaliyyəti haqqında oxuculara məlumat verilir.

Həsən Əliyevin görkəmli bir elm xadimi kimi Vətənimizdə və xarici ölkələrdə tanınmasına səbəb torpaqşünaslıq sahəsində apardığı orijinal tədqiqatlarıdır.

Torpaq, hər şeydən əvvəl, təbiətin canlı orqanizmidir. Alimlər torpağı bizim qalaktikamızın nadir cismi adlandırırlar. Şair Əhməd Cəmil çox gözəl deyib:

*Bizi çəkib göylərə*
*Aparsa da arzular,*
*Yenə səadətimiz*
*Yerdə — bu torpaqdadır.*

Bəs bu misilsiz sərvətdən, yer üzündəki bütün canlıların əsas mənbəyindən necə istifadə olunur?

Həsən Əliyev:

— Müasir dövrdə təbiətin mühafizəsinin ən aktual problemləri torpağın, havanın, suyun təmiz saxlanmasından ibarətdir. Torpaq çirklənəndə onun məhsulu da zəhərlənir, orada bitki də məhv olur. Bitki olmayan yerdə heyvanlar da yaşaya bilməz.

Torpaq süzgəc kimi hər şeyi sorub özündə saxlayır. Suyu da, tozu da, çirkli havanı da. Çirkli torpaqda yaşamaq da çətindir.

Həyatda hər bir çirki su ilə təmizləyirlər. Bəs su çirklənəndə onu nə ilə təmizləmək lazımdır? Hava isə bizim əsas qidamız hesab olunur. Çörəyi kartofla, kartofu düyü ilə, düyünü meyvə ilə, ət ilə əvəz etmək olar. Amma su ilə havanı heç bir qida ilə əvəz etmək mümkün deyil. Deməli, biz torpaq haqqında, hava haqqında daha ciddi düşünməliyik.

Respublikamızın gözəl təbiəti var. Lakin onun çətin problemləri də çoxdur. Azərbaycan ərazisi rəngarəngliyinə, həm iqlim şəraitinə, həm də təbiətinə görə ölkəmizdə zəngin bir guşə kimi tanınır. Amma burada torpaqların xeyli hissəsindən istifadə olunmur.

— Siz radio ilə çıxışlarınızdan birində respublikamızdakı torpaqların otuz beş faizinin yararsız olduğunu bildirmişdiniz, bunu nə ilə izah edə bilərsiniz?

— Səbəbi suvarılan torpaqlrın şorlaşması, dağlıq rayonlarda isə onların eroziyaya uğramasıdır. Axı, bizim ərazimizin kənd təsərrüfatı üçün yararlı olan hissəsi Kür — Araz ovalığındadır. Kür — Araz ovalığı respublikamızın kənd təsərrüfatı məhsulunun təqribən səksən faizini verir, orada torpaqların suvarmaya ehtiyacı var. Ancaq bu torpaqların hamısı, əksinə, bağçılığa yararlı deyil. Suvarılan torpaqların, demək olar ki, üçdə bir hissəsi şorlaşmışdır. Onları duzlardan yumaq, təmizləmək və yararlı hala salmaq lazımdır. Çox vaxt bir məsələni unuduruq. Düşünmürük ki, su az olanda da qorxuludur, çox olanda da. Bəzən su çox olanda onu kanallardan başlı-başına buraxırlar. Kanallar təmizlənmir, dibindən su sızır, torpağın alt qatlarındakı duzlar tədricən həll olur, quraq havada buxarlanıb yerin səthinə qalxır, torpaq yenidən şorlaşır. Bir də, suları sənaye tullantılarından gözləməliyik. Belə suları təmizləmədən Kürə, yaxud Araza axıtmaq zərərlidir. Ermənistan ərazisindən bizim ərazimizə tökülən Oxçu və Ağstafa çaylarının, Naxçıvan Muxtar Respublikası ərazisindən Araza tökülən Gilan çayının suyu çox çirklidir.

— Respublikamızda becərilən torpaqların təxminən üçdə iki hissəsi dağlıq ərazidədir. Bəs bu torpaqların vəziyyəti barədə nə deyə bilərsiniz?

O, bir an fikrə getdi, həyəcanlandı.

— Hər il, — dedi, — dağ rayonlarının ərazisindən torpaqların yuyulması nəticəsində bir milyon tona qədər qida maddələri yuyulub gedir. Axı, o qida maddələri azot, fosfor, kalium gübrələrindən ibarətdir. Dağlıq rayonlarda torpaqların üst qatı yuyularkən, o nəinki öz münbitliyini itirir, eləcə də tərkibindəki gübrələri özündə saxlaya bilmir.

— Bəs torpaqların yuyulmasının qarşısını necə ala bilərik?

— Birinci növbədə dağlıq rayonlarımızda meşələri çoxaltmaq hesabına. Meşələrimizin sahəsi xeyli azalıb. Qəribədir ki, hələ də dağ meşələrindən ağac qırıb yandırırlar, lakin əvəzində meşə salmaq çox vaxt unudulur. Dağ meşələri əsl su anbarıdır, gübrə fabrikidir, onlar yağışı, qarı özündə saxlayıb torpağa hopdurur. Bu da çaylara ömür verir. Bəs meşələrin azalmasının torpağın münbitliyinə necə təsiri var? Hər hektar enliyarpaq meşə bizim respublikamızın ərazisində günəş enerjisi hesabına dörd-beş tondan on-on beş tona qədər üzvi maddə sintez edir. Bu da torpağı münbitləşdirir. Son əlli-altmış ildə meşələrin iki yüz min hektara qədər azalması ilə nə qədər qida maddələri itirilib. Bu məsələlər hamımızı narahat etməlidir.

Akademik Həsən Əliyevin "Kommunist" qəzetində "Torpaqdan səmərəli istifadə edilməlidir" adlı məqaləsi dərc olunmuşdu. Məqalədə ildə iki dəfə məhsul götürməyin mümkün olduğu göstərilir. "Yayda taxıl yığılandan sonra boşalan sahələrin müəyyən qismində birillik otlar, xüsusən paxlalı bitkilər əkib iki aydan sonra yaşıl yem yetişdirmək mümkündür". Biz ondan bu məsələni elmi cəhətdən əsaslandırmağı xahiş etdik.

Alim dedi:

— Əvvəla, biz dağlıq rayonlarda əkinçiliyə fikir verməliyik. Dağlıq rayonların ərazisində əkin dəmyə becərilir. Dəmyə becərilən əkinlərin də əksəriyyəti gərək ot bitkiləri, daha doğrusu, paxlalı bitkilər olsun. Elə bitkilər ki, onların dəni ilə insanlar, yarpaq və gövdəsi ilə heyvanlar qidalansın, kökləri isə torpağı qidalandırsın. Paxlalı bitkilər əkilən yerə heç gübrə vermək də lazım deyil.

Akademik Həsən Əliyev Azərbaycan təbiətini ehtirasla sevən, onun mühafizəsi işinə daim qayğı göstərən vətəndaş alimdir. O, sözün həqiqi mənasında təbiət vurğunudur. Beynəlxalq Təbiəti Mühafizə Cəmiyyətinin Yunanıstanda, Rumıniyada, Avstraliyada, Kanadada keçirilmiş ümumdünya konqreslərinin fəal iştirakçısı olub. Alimin əsərləri dünyanın on beş ölkəsində nəşr edilib. O, bir çox dünya alimləri ilə elmi əlaqə saxlayır, onların əsərlərini alır, rəy yazır. Amerika alimi Harris Sovet İttifaqında coğrafiya elminin inkişafına həsr etdiyi böyükhəcmli monoqrafiyasının əlyazmasını rəy üçün akademik Həsən Əliyevə göndərmişdi. Azərbaycan aliminin faydalı düzəlişləri, əlavələri Amerika alimini çox razı salmışdı. Monoqrafiya 1975-ci ildə çap olunmuşdur.

Bir neçə il əvvəl Almaniya Federativ Respublikasının Münxen şəhərində və İngiltərədə buraxılmış ensiklopediyalarda professor Həsən Əliyevin geniş tərcümeyi-halı və elmi işləri haqqında məlumat verilmişdir. Beynəlxalq Nəşriyyatlar Cəmiyyəti Azərbaycan alimini fəxri diplomla təltif etmişdir.

Akademik Həsən Əliyevin başçılıq etdiyi Coğrafiya İnstitutu respublikamızda kənd təsərrüfatı ilə sıx əlaqəsi olan tədqiqat mərkəzlərindən biridir. Burada aparılan tədqiqatlar meşə təsərrüfatı, üzümçülük-şərabçılıq və təbiəti mühafizə komitələrinin, Su Təsərrüfatı və Kənd Təsərrüfatı nazirliklərinin işinə kömək edir, elmin istehsalatla əlaqəsini möhkəmləndirir.

İnstitutun meşə torpaqları şöbəsinə alim özü rəhbərlik edir. Şöbədə digər tədqiqat işləri ilə yanaşı, torpaqların xəritələşdirilməsi, torpaqla meşə bitkiləri arasındakı münasibətlərin öyrənilməsi üçün əsaslı tədqiqatlar aparılmışdır.

Azərbaycan Təbiəti Mühafizə Cəmiyyətinin sədri akademik Həsən Əliyevin "Azərnəşr" tərəfindən çap olunmuş "Həyəcan təbili" kitabı havanı, suyu, torpağı çirkləndirən məsuliyyətsiz adamlara qarşı bir ittihamnamə kimi səslənir.

Ətraf mühitin mühafizəsi müasir dövrümüzün ən böyük problemlərindən biridir. Ona görə də şəhərlərdə hava hövzəsinin çirkləndirilməsi məsələsi çox kəskin qoyulur. Mətbuatda tez-tez belə məlumatlara rast gəlmək olar: dünyanın hansı şəhərindəsə avtomatlar adamlara sərin, qazlı su əvəzinə tənəffüs üçün təmiz hava satır, küçə hərəkətini tənzim edən polislər əleyhqaz taxırlar, haradasa havanın həddindən artıq çirklənməsi adamların həyatına bais olur. Bütün bunlar real, lakin xoşagəlməz hadisələrdir. Alimin "Həyəcan təbili" vaxtında səslənir.

Elmi-texniki tərəqqi biosferin gələcək nəsillər üçün qorunmasına, təbiətin səmərəli dəyişdirilməsinə, insanın yaşayışı üçün əlverişli şərait yaradılması işinə kömək etməlidir.

Akademik Həsən Əliyevin elmi axtarışları və ictimai fəaliyyəti çox genişdir. Biz onun elmə həsr etdiyi mənalı həyatının, xeyirxah və faydalı işlərinin ancaq bir qismini qələmə aldıq. Ömrünün yetmiş baharı tamam olmuş şöhrətli alimimizə bu nəcib işində uğurlar diləyirik.

*"Ulduz" jurnalı, 1978, № 3.*

ABBAS SƏMƏDOV
*Filologiya elmləri doktoru*

# TANINMIŞ ELM XADİMİ, GÖZƏL İNSAN

Görkəmli şəxsiyyət, tanınmış elm xadimi, gözəl insan Həsən Əlirza oğlu Əliyev haqqında fikir söyləmək, yazmaq, kövrək xatirələri yada salmaq ağır, həm də məsuliyyətli işdir. Müxtəlif dillərdə dövri mətbuatda ona həsr edilmiş məqalələr, daha sonra yazılmış kitablar, söylənilən rəylər Həsən müəllimin dünyəvi alim olduğunu, bəşəri ideyalarla yaşadığını, alovlu vətənpərvər, elm fədaisi, mahir tərbiyəçi kimi səmərəli fəaliyyət göstərdiyini aşkarlayır.

Mən Həsən Əliyevi ilk dəfə 1954-cü ildə, tələbəlik dövrümdə Akademi-

yanın kitabxanasında görmüşəm. Oxuçularla kecirilən görüşdə Həsən müəllim cox maraqlı bir cıxış etdi və elmə, sənətə dərindən yiyələnməyin sirlərindən, xüsusilə müəllim peşəsinin müqəddəsliyindən danışdı. O, fikrini qədim yunan filosofu Platonun sözləri ilə yekunlaşdırdı: Platon müəllimini atasından daha cox sevdiyinin səbəbini izah edərkən deyir ki, atam məni göydən yerə endirib, müəllimim isə yerdən göyə qaldırıbdır. Ona görə də müəllimimə sevgim sonsuzdur. Həsən müəllim bizə tövsiyə etdi ki, qədim və zəngin Azərbayçan folklorunu dərindən öyrənsəniz, müəllimlik peşəsinin müqəddəslik, xeyirxahlıq zirvəsi olduğunu dərk edəçək və ondan bəhrələnəçəksiniz.

Akademik Həsən Əliyevin vətənin gözəllikləri, tarixi kecmişi, igidliklərlə dolu mübarizə salnamələri, əfsanəvi qəhrəmanları haqqındakı şirin və inandırıçı söhbətləri gənçlərin qəlbini həyəçana gətirdi, onları öyrənməyə, mütaliə etməyə istiqamətləndirdi.

Həsən müəllim söz ustalarından, onların əsərlərindən məhəbbətlə danışdı. O, milli ədəbiyyatımızı, xalqın şifahi yaradıçılığını, başqa sözlə desək, xalqın müdrikliyini, zənginliyini, hikmətini ifadə edən mənəvi sərvətini, folklorunu mükəmməl bilir, yeri gəldikçə ondan məharətlə istifadə edirdi. Onun müraçiət etdiyi misallar göstərdi ki, Həsən müəllim yalnız milli ədəbi irsimizlə deyil, həm də dünya klassik ədəbiyyatı ilə yaxından tanışdır.

1965-çi ildə mən artıq H.Zərdabi adına Gənçə Dövlət Pedaqoji İnstitutunda işləyirdim. İnstitutun rektoru, mərhum Yusif Qasımov Həsən Əliyevlə səmimi dost idi. İnstitutumuzla bağlı bəzi problemlərin həllində, yeri gəldikcə, Həsən müəllim bizə kömək edirdi. Bir gün institutun prorektoru Hidayət Abdullayev mənə dedi ki, Bakıdan qonaqlarımız gəlir. Yusif müəllim onları qarşılamağa gedibdir. Qonaqlar Göy gölə gedəçəklər. Elmi ezamiyyətə gəlmiş alimlər bir həftə Göy göldə qaldılar. Təbiəti öyrənirdilər. Həsən müəllimin rəhbərlik etdiyi qrupun işində akademik Budaq Budaqov da iştirak edirdi. Budaq müəllimlə, onun həyat yoldaşı, görkəmli dilci alim, mərhum professor Zərifə xanım Budaqova ilə ailəvi dost idik. Minnətdarlıq hissi ilə qeyd edim ki, Budaq müəllim məni Həsən Əliyevlə yaxından tanış etdi.

Bu bir həftədə mən sənətə vurğunluqla, insan mənəviyyatı, insan saflığı ilə bağlı özüm üçün yeni bir dünya kəşf etdim. Həsən müəllimin söhbətlərində, davranışında ulu babalarımızın yaşantılarını görür, hiss edirdim. O, təbiətə qayğıdan, onun qorunmasından sakit danışa bilmirdi. Dünyanın cox yerində olmasından, təbiət abidələri görməsindən söhbət salar, Göy gölün bənzəri, tayı-bərabəri olmadığını iftixarla bildirərdi. Cox

təəssüf ki, sərvətlərimizin qədrini bilməkdə, qiymətini verməkdə güçsüzlük, qayğısızlıq göstəririk, deyirdi.

Həsən müəllim Vətən, torpaq, el-oba qayğısı, təəssübü çəkən insan idi. Onun Böyük Vətən müharibəsi, müharibədə Azərbayçan oğul və qızlarının göstərdiyi qəhrəmanlıqlar haqqında maraqlı söhbətlərini həyəcansız dinləmək mümkün deyildi. Azərbyçan neftinin müharibədə oynadığı roldan, lakin Sovet hökumətinin onu öz çanı, qanı hesabına hasil edən bütöv bir xalqı layiqincə qiymətləndirməməsindən yana-yana danışardı...

Həsən müəllimin Borcalı elinə səfəri yaddaşımda həmişəlik qalmışdır. Özümü xoşbəxt sanıram ki, bu səfərdə mən də iştirak edirdim. Professor Əliyar Qarabağlı və akademik Həsən Əliyevi qarşılamaq üçün Gürcüstanda yaşayan azərbaycanlıların maşın karvanı Sınıqkörpüyə qədər gəlmişdi. Bizi Marneuli, Bolnisi, Dmanisi, Qardabani, Rustavi və Tbilisi şəhərlərində böyük qonaqpərvərlik və məhəbbətlə qarşıladılar. Məclisləri Aşıq Əmrah, Aşıq Hüseyn Saraclı, Aşıq Kamandar şənləndirirdi. Ağsaqqalların, ziyalı və sadə əmək adamlarının sevinçi yerə-göyə sığmır, Həsən müəllim və Əliyar müəllimə öz təmənnasız istəklərini bildirirdilər. Bu mehribanlıqdan, məhəbbətdən Həsən müəllim qayğılanmışdı, kövrəlmişdi, danışanda səsi titrəyirdi. Burada yaşayan azərbaycanlıların firavan dolanışığı, adət-ənənələrə hörmət, kökə bağlılıq, Dədə Qorqud timsallı babalara, xanım-xatın nənələrə göstərilən ehtiram onu mütəəssir etmişdi.

Səfər zamanı Həsən müəllim dönə-dönə çıxış etdi, görüşlər keçirdi, adamlarla qaynayıb-qarışdı.

Qonaqları yola salan izdihamdan ayrılarkən Həsən müəllimin dediyi sözlər hələ də qulağımda səslənir:

— Bu günə kimi necə-necə ölkə gəzmiş, adamlarla görüşmüşəm. İnanın mənə, belə səmimi, istiqanlı, qonaqpərvər adamlara, gözəl yerlərə rast gəlməmişəm və bu qədər sevinməmişəm. Ürəkdən şadam ki, gec də olsa, gürcüstanlı azərbaycanlılarla onların öz ev-eşiklərində görüşmək qisməti mənim taleyimə yazıldı. Sizlərlə yaxından tanış oldum və millətimizin gələcəyinə məndə inamlı bir əminlik, arxayınçılıq yarandı. Millət ağızbirliyi, keçmişə, kökə, adət-ənənəsinə bağlılığı ilə böyük olur, uzunömürlülük haqqı qazanır. Tanrıya şükürlər olsun ki, bunların hamısını Borçalı elində gördüm.

Həsən müəllim qədim Borçalı mahalına qonaq kimi gəlmişdi, dost kimi, doğma kimi qayıtdı. Və güman ki, bu səfəri o, ömrünün sonuna kimi xatırladı.

Akademik Həsən Əlirza oğlu Əliyev onu tanıyanların yaddaşında xoş

bir xatirətək yaşayacaqdır, cünki o, Vətənini, xalqını sevmiş, insanlığa xidmət etmişdir. Xalq şairi Səməd Vurğun Həsən müəllim kimi şəxsiyyətlərin ölümünə qətiyyən inanmamış, onların həmişə yaşayacağına inamını belə bildirmişdir:

*Ölüm sevinməsin qoy, ömrünü vermir bada,*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirətək qalacaqdır dünyada,*
*Sevərək yaşayanlar, sevilərək ölənlər...*

ZAHİD ƏHMƏDOV
*Tərcüməçi, publisist*

# NARAHAT BİR ÖMRÜN SƏHİFƏLƏRİNDƏN

Hər dəfə işdən evə qayıdarkən Fəxri Xiyabanın yanından keçəndə kənardan kiminsə nəzərlərini üzərimdə hiss edirəm. Çevrilib sağa baxıram və hər şey mənə aydın olur. Lap elə özü boyda heykəlləşmiş, bürüncləşmiş Həsən müəllimi fikrə dalmış görürəm. Daxili bir həyəcan keçirir, özözümə pıçıldayıram: "Ədalətli və qeyrətli kişiydin, Allah sənə rəhmət eləsin". Dediklərim yüz dəfə ürəyimdən olsa da, narahatçılıgım keçmir. Bəzən də qəbrini ziyarətə gedirəm, heykəli ilə üz-üzə durub söhbət edirəm, olub-keçənləri yada salıram. O isə susub dinmir. Küsübdür, ya da bu günlərimizdən narazıdır, sanıram...

Nurani görünüşü, gülümsər gözləri, sakitləşdirici nəzərləri, həlim xasiyyəti, xoş rəftarı vardı Həsən müəllimin. Davranışı çox yapışıqlıydı. Tələsikliyi, çığırqanlığı sevməzdi. Sözünün üstündə durandı. Dəqiq adam idi. Gücü çatmayan işə əl qoymazdı, haqqı nahaqqa verməzdi. Münasibətdə ölçü-biçini, aydınlığı sevərdi. Alçaqdan, aram-aram danışardı. Sadə və səliqəli idi...

Həsən müəllim haqqında çox yazılıb, çox deyilib, yenə də günlərlə yazmaq və danışmaq olar. Mən onunla bağlı ancaq özümün şahidi, iştirakçısı oldugum bəzi anları yada salmaq istərdim. Bu söhbətlərdə xrono-

loji və məntiqi ardıcıllığı gözləmədiyimə görə, yəgin ki, oxucular məni qınamazlar.

Həsən müəllim bütövlüyü, əhatəliliyi sevərdi. Gözüaçıq, diribaş olmağı, hər şeylə maraqlanmagı məsləhət görərdi. O, ezop dili ilə danışmağı xoşlardı. Çoxlu atalar sözü və zərbi-məsəl bilirdi, saysız-hesabsız rəvayətlər toplusuydu. Adamın təcrübəsizlikdən etdiyi səhvi birbaşa üzünə deməzdi. Atalar məsəli çəkər, istəyini dolayı yolla başa salmağa çalışardı.

Onunla təmasda oldugum ilk günlər və ömrünün sonlarına yaxın aramızda baş vermiş iki söhbəti heç vaxt unuda bilmirəm və onları oxucuların diqqətinə çatdırmağı özmə borc sayıram.

İki-üç ay olardı ki, Həsən müəllimin yanında işləyirdim. O, məni bir xariçi jurnalla bağlı Akademiyanın Əsaslı kitabxanasının müdiri mərhum Məhbubə xanımın yanına göndərdi. Gəlib dedim ki, bəli, həmin jurnal var. İlini və çap olunduğu ölkəni xəbər aldı. Bilmirəm, gedib öyrənərəm, dedim. Dinmədi, tələsik düşüb öyrəndim. Onu maraqlandıran məqalənin neçə səhifə olduğunu soruşdu. Yenə bilmədim... Gedib onu da öyrənərəm, dedim. Qoymadı, gülə-gülə:

— Otur, — dedi. — Xətrinə dəyməsin, sənə bir rəvayət danışaçağam. Neçə aydır bərabər işləyirik, görürəm çalışqansan, düzlüyü sevirsən, hər şeydən əvvəl isə səmimisən. Onu da bil ki, mən hər adamla belə mərhəm söhbət etmirəm. Dünya gör-götür dünyasıdır. Düzdür, biz yəhudi deyilik, amma yeri gələndə olmaq lazımdır.

O, danışığağına ara verib üzümə baxdı, elə bil ki, dediklərini mənim neçə qəbul edəcəyimi yoxlamaq istəyirdi. Axırıncı sözlərinin mənasını başa düşə bilmədim. Az vaxtda neçənci dəfə idi ki, təkrar edirdi. Özü də oturdu, tələsmədən aram-aram danışmğa başladı.

— Qədimlərdə çox ağıllı bir xan yaşayırmış. Vaxtaşırı əyan-əşrəfləri ilə torpaqlarını gəzər, yoxlarmış. Yenə adəti qaydasında seyrə çıxıbmış. Təpənin qaşından uzaqlara baxarkən yerlə göyün kəsişdiyi yerdə yolla karvan getdiyini görür.

— Öyrənin görün, bu nə karvandır? — deyə əmr edir.

Dəstədən aralanan süvari atın başını buraxır, çox keçmir geri qayıdır.

— Xan sağ olsun, Kor Hətəmin karvanıdır.

— Apardığı nədir?

Süvari udqunur, xanın cavab gözlədiyini görüb:

— Xan sağ olsun, xəbər almadım, indi öyrənərəm, — deyib dəstədən aralanır. Bir azdan sonra qayıdır, xanın qulluğunda durduğundan sevinc hissi keçirə-keçirə tələsik hesabat verir:

— Xan sağ olsun, karvan sahibi dedi ki, ipək aparır.

— İpəyi harada satacaq?

Süvari gözlərini döyür, xanın sualına cavab dalınca yollanmaq istəyir. Xan əlini qaldırır, etiraz işarəsi verir. Dəstədə bir yəhudi də varmış. O, atını tərpədib irəli çıxır:

— Xan sağ olsun, icazə versəniz, bu sualın cavab sorağıyla mən gedərdim.

Xan başını tərpədib razılığını bildirir. Çox keçmir yəhudi süvari qayıdır və hesabat verir:

— Xan sağ olsun, karvan sahibi gəncəli Mirzə Qədirin böyük oğludur. Bir gözü uşaq vaxtı çilingağacı oynayarkən çıxıb. Karvanda 24 dəvə, 6 at var. Dəvələrin on səkkizinin yükü ipək, ikisininki al-qumaş, dördü xırdavatdır. Altı gündür yol gəlirlər. Yolüstü karvan sahibinin dostunun oğlunun toyunda iştirak ediblər. Yolları Təbrizədir. İpəyi bir yerdən versələr, ucuz satacaqlar, al-qumaşın pulunu əvvəlcədən alıblar, xırdavatın müştəriləri hazırdır. Geri dönəndə xanımlar, bəylər üçün pal-paltar, bər-bəzək şeyləri alacaqlar...

Bir sözlə, yəhudi heç xanı maraqlandırmayan mətləblərdən də xəbər verir. Xan çox razı qalır, vəzirə tapşırır ki, yəhudinin vəzifəsini və donluğunu artırsın...

Həsən müəllim tutulduğumu görüb mənə yaxınlaşdı, iki əli ilə çiyinlərimdən tutub yüngülcə, mehribanlıqla sıxdı:

— Sözlərim sənə toxunmasın, xətrini istədiyimdən danışdım. İndi anladın ki, yəhudi olmaq deyəndə nəyi nəzərdə tuturam...

Bu, mənim üçün dərs oldu. Sonralar bu söhbəti bir neçə dəfə Həsən müəllimin yadına salmışam, doyunca gülmüşük.

İnstitutda onunla məndən çox təmasda olan kəs yox idi. Gündə ən azı bir, bəzən də bir neçə dəfə görüşməli olurduq. Neçə-neçə rəsmi və ictimai vəzifə sahibi olsa da, özünü çox sadə aparır, adamlara asanlıqla qaynayıb-qarışır, doğmalaşırdı. O, dövlət miqyaslı şəxsiyyət idi.

Həsən müəllim Azərbaycanımızı yalançı görünüş yaratmaq xatirinə deyil, ürəkdən, böyük məhəbbətlə sevirdi, təbiətin dəlicəsinə vurğunu idi. Hər otun, ağacın üstündə əsərdi. Bakının küçələrində, bir zavodun, müəssisənin həyətində balaca bir tüstü çıxardısa, ora qaçardı. Təbiətimizin sağlamlığını, bütövlüyünü saxlamağın yeganə yolunu təbiəti mühafizə maarifində görürdü. Maraqlıydı ki, o, təbiətimizin tarazlığının pozulmasında daha çox vəzifə sahiblərini, imkanlı adamları günahlandırırdı. Çox cəsarətli idi. Yeri gələndə üz-üzə durmağı, haqq uğrunda mübarizədə

amansız olmağı bacarırdı. Bəziləri bunu o zamanlar Mərkəzi Komitənin birinci katibi işləyən qardaşı Heydər Əliyevlə bağlayır. Ancaq mən tam əminliklə deyərdim ki, bu, səhv fikirdir. Cürət onun daxilindən gəlirdi, mənəviyyatından, həyat əqidəsindən doğurdu.

Xatirimdədir, Bakının yaxınlığında, Nəvai kəndində atom elektrik stansiyasının tikintisi planlaşdırılırdı. Həsən müəllim həftələrlə otağına sığmadı, sakitləşmədi. Nazirlər Sovetinə, Mərkəzi Komitəyə zəng çaldı, ayaq döydü, xahiş etdi, inandırmağa çalışdı ki, bu, düşmənlərimizin növbəti fitnəkarlığıdır, Azərbaycanın gələcəyi üçün böyük fəlakətdir. Əli Azərbaycandan üzüləndə Moskva ilə təkbaşına qarşı-qarşıya durdu. Çernobıl qəzası onun uzaqgörənliyini sübut etdi.

İndi Bakının küçələrində, yaşıllıq sahələrində kəsilən ağacların yerində alverçilərin dəmir köşklərini, imkan sahiblərinin saraylarını görəndə bu ağsaqqal maarifçinin, qocaman insanın yeri hiss olunur, duyulur. Və sanırsan ki, bizim üçün dünyanın sonu çatmışdır. Yadlaşmışıq, ifrat dərəcədə fərdləşmişik, yalnız özümüz üçün yaşayırıq.

O, haqqın, imkanı məhdud olanların tərəfində durar, onların qayğısını çəkməkdən yorulmazdı. Yaxşı yadımdadır, Bakının gözəgəlimli, mənzərəli yerlərindən birində, telestudiyanın yaxınlığında "Coğrafiyaçı" kooperativ binası tikilib başa çatanda keçmiş SSRİ Müdafiə Nazirliyi də daxil olmaqla, imkan və vəzifə sahibləri bu binaya "müştəri" çıxdılar. On illərlə növbə gözləyən ziyalıların köməyinə yenə də Həsən müəllim çatdı. Bu gün bu binada yaşayanların çoxusu onu minnətdarlıqla yad edir.

Həsən müəllim sabaha baxan adam idi. Xaricdə çoxlu dostu vardı, adi fəhlədən tutmuş görkəmli alimə, dövlət xadiminə qədər. Onun saysız-hesabsız məktublarını, məqalələrini ingilis dilinə mən tərcümə etmişəm. Azərbaycanımızın xaricdə təmsil olunmasında, təbliğ edilməsində Həsən müəllimə yaxından köməkçi olmuşam. O anları yad etdikcə özümdə bir məmnunluq hissi duyuram...

Respublikamızın həyatınınbütün sahələrində Həsən müəllimin təşəbbüsü, xidməti, zəhməti çoxdur, danılmazdır və bəlkə də əvəzsizdir. Bu barədə ardı-arası kəsilmədən, günlərlə danışmaq olar. Bütün bunların əvəzində bəs biz nə etmişik? Bu mehriban, sadə, qədirbilən insanın ömrünün son günlərini yad edəndə adam xəcalət çəkir, utanır. Odur ki, yazımın əvvəlində söz verdiyim kimi, bu nəcib insanın ömrünün axır illərində aramızda olmuş son söhbəti də danışmağı lazım bilirəm. Bu, Həsən müəllimin böyüklüyünü, qisasçılıqdan, xırda, dayaz hisslərdən uzaq, müdrik bir insan olduğunu göstərən xarakterik bir an idi.

Səksəninci illərin sonları idi. Əliyevlər ailəsinə qarşı haqlı-haqsız hü-

cumlar başlanmışdı. Arabir Həsən müəllimə də sataşırdılar. Respublika qəzetlərindən birində Qalaaltı sanatoriyası haqqında böyük bir yazı verilmişdi. Guya Həsən müəllim özü üçün burada imarət tikdirib və bu binada təkcə özü və ailəsi dincəlir. Bunlar ağ yalan idi. Həqiqəti bilsək də, Həsən müəllimi müdafiə etməkdə gücsüz idik. O vaxtlar Həsən müəllim ərizə verib Coğrafiya İnstitutunun direktoru vəzifəsindən çıxmışdı, məsləhətçi işləyirdi, iş yerinə həftədəbir gəlirdi. Bir dəfə onu yola salanda könlünü almaq, həmdərd olmaq istədim.

— Həsən müəllim, — dedim, — cızmaqaralara fikir verməyin, çoxları Sizin neçə halal kişi olduğunuzu bilir. Deyilənlərə inananlar azdır.

O, halını pozmadı, heç bir şey olmamış kimi gülümsədi.

— Qardaş, — dedi (aramızda ata-oğul yaş fərqi olsa da o, həmişə mənə qardaş deyə müraciət edərdi), — bir rəvayət danışım, məndən sənə yadigar qalsın.

O, Akademiyanın səkkizinci mərtəbəsində, liftin qabağında ayaq saxlayıb məni kənara çəkdi və keçmişdən danışdı.

— Deyirlər, Bəhlul Danəndənin qardaşı Harun ər-Rəşid padşah imiş. Onun ədalətliliyi ilə yanaşı, zalımlığı da yox deyilmiş. Hökmdar öz məmləkətində yaşayan rəiyyətinin hamısı üçün yalnız ədalətli olaraq qala bilməz. O, yaxşılıqla bərabər, istər-istəməz pislik də etmiş olur. Gün gəlir, Allah-taalanın padhaş qardaş üçün ayırdığı ömür vaxtı başa çatır, o, dünyadan köçür. Aradan həftələr, aylar keçir. Bir dəfə Bəhlul Danəndə təsadüfən ən yaxın dostuna rast gəlir. Hal-əhvaldan sonra dostu tələm-tələsik ondan ayrılmağa çalışır. Bəhlul Danəndə dünyagörmüş, ağıllı adam idi, dostunda sirr olduğunu başa düşür. Və məcbur edir ki, bildiklərini qoysun ortaya. Uzun təkiddən sonra dostu deyir:

— Bəli, məndə sirr var, amma deməyə çəkinir, sənə ağırlıq gətirəcəyimdən ehtiyat edirdim. Sonra da fikirləşirəm ki, gizlətməyin də mənası yoxdur. Bu xəbəri düşmənindən deyil, dostundan eşitsən daha yaxşı olar. Agah ol və bil, padşah qardaşının qəbrinə sataşıblar...

Həsən müəllim danışığını kəsdi, cavabını məndən almaq istəyirmiş kimi sual verdi:

— Heç bilirsən, Bəhlul Danəndə nə cavab verib? — O, cavab gözləmədən söhbəti elə özü də davam etdi: — Bəhlul Danəndə dostundan eşitdiklərinə təəccüblənmədi, heç üzünün ifadəsi də dəyişmədi. İkicə kəlmə deməklə kifayətləndi: — Yəqin ki, etmişik, edirlər...

Mən donub qalmışdım. Həsən müəllimin solğun üzünə qonmuş kədər kölgəsi çəkilmişdi, narahat gözlərində bu qoca, amansız dünyaya bir istehza duyulurdu. Bənzətməsi yerinə düşməsə də, rəmzi məna daşısa da, qi-

sasçılıqdan, ötəri hisslərdən nə qədər uzaq olduğunu gördükdə o mənim nəzərimdə bir az da ucaldı, müqəddəsləşdi, zamanından yüksəyə qalxdı.

Mənim çaşqınlığımı görən Həsən müəllim gülümsəməyə çalışdı, sonra da qeybdən gələn səslə pıçıldadı:

— Ziddiyyətli millətik biz azərbaycanlılar. Başqalarına görk ola biləcək əməllərimizlə yanaşı, qəribəliklərimiz də yox deyildir. Bəzən yaxşılıqları tez unuduruq, çoxluğun xeyri naminə edilmiş haqq "pisliklərə" qiymət verməkdə ədalət mövqeyində dayana bilmirik. Bir anlığa özümüzə kənardan baxmağı bacarmırıq. Kinliyik. Şəxsi incikliyə görə bir-birimizdən heyf çıxmaq üçün milli mənafelərimizi unutmağa, hətta düşmənlə sövdələşməyə belə hazırıq. Düşünmürük ki, taleyüklü məsələlərdə şəxsi münasibətlər səviyyəsinə enmək, Allah eləməsin, milli fəlakətimizə səbəb ola bilər.

O, bir anlığa susdu, zəif, gücdən düşmüş barmaqları ilə alnını ovuşdurdu, nəyi isə xatırlamağa çalışdı. Yalnız handan-hana yaddaşını bərpa edib yarımçıq qalmış fikrini başa çatdıra bildi:

— Özümüzdə güc tapıb bir-birimizi bağışlamağı bacarmalıyıq.

Bəyaz saçlarına, solğun üzünə, işartısı zəifləmiş aydın gözlərinə və bir yerdə qərar tuta bilməyən əllərinə baxdım. Dədə Qorqud babamız düşdü yadıma. Çox yazıqlar olsun ki, bu mənim Həsən müəllimlə sonuncu görüşüm oldu.

Kədərli, qayğılı anlarımda Həsən müəllimin qu quşu nəğməsini andıran axırıncı söhbətini xatırlayıram. "Özümüzdə güc tapıb, bir-birimizi bağışlamağı bacarmalıyıq" fikri isə məni heç vaxt tərk etmir...

Soyuq və qərib bir fevral günündə Həsən müəllim dünyadan köçdü. Mərkəzi Komitənin katibi, kənd təsərrüfatı nazirinin müavini, institut direktoru, Ali Sovetin deputatı olmuş bu azman insanın dəfni üçün dövlət dəfn komissiyası yaradılmadı, dəfn mərasimində dövlətin və hökumətin rəhbər vəzifəli kişiləri iştirak etmədilər.

Qəbiristanlığın üzləri, dodaqları qarsayan acı soyuğunu ömrünü Azərbaycan adlı məmləkətin gözəlliyi yolunda əritmiş bir İnsanı sevən saysız-hesabsız sadə, təmənnasız və əsasən də vəzifəsiz adamların isti nəfəsi yumşaltdı.

Dəfn gününü xatırlayır və bu gün tuş gəldiyimiz dərdlərin mayasının haradan götürüldüyünü dərk etməyə çalışıram. Qərinələrin arxasından keçib gələn adət-ənənələrimizin müqəddəsliyinə haram qatan vəzifə sahiblərinin etibarsızlığını gördükcə adamda milli sabahımıza ümidsizlik yaranır. Xaricdə düşmənlərimiz fürsət güddüyü bir zamanda ölkəmizin daxi-

ində elliklə umu-küsülər unudulmalı, böyüklük-kiçiklik ölçüsü gözlənilməi, vətən və milli mənafe şəxsi istəklərdən üstün tutulmalıdır. Dünya malı üçün bir-birimizdən incik olsaq da, dünyadan köçənlərimizi haqq yerinə ırvatla yola salmalıyıq.

Düşünürəm, həmişə od üstünə su səpən, küsülülər, qanlılar barışdıran Həsən müəllim kimi bir ağsaqqalın dərdi bizi birləşdirə, şəxsi inciklikləri-mizi unutdura bilmirsə, deməli, biz sabah hamılıqla vətənsiz qala bilərik.

Hər dəfə işdən evə qayıdarkən, Fəxri Xiyabanın yanından keçəndə kiminsə nəzərlərini üzərimdə hiss edirəm. Çevrilib sağa baxıram və hər şey mənə aydın olur. Elə özü boyda heykəlləşmiş, bürüncləşmiş Həsən müəllimi görür və daxili bir rahatlıq duymaq istəyirəm, ancaq bacarmıram. Bakının küçələrində, xiyabanlarında qəsdən çıxardılmış, qol-budaqları qırılmış, sındırılmış ağacların, yaşıllıqların kədər doğuran mənzərəsi gəlib durur gözümün qabağında. Həsən müəllimin hamımıza qoyub getdiyi əmanətə etibarsızlığımız kədər yükümü bir az da ağırlaşdırır.

Belə qənaətdəyəm ki, respublikamızın sayılıb-seçilən nüfuz sahiblərinin hamısı Həsən müəllim kimi fikirləşsəydi, onun kimi olsaydı, işlərimiz nə qədər avand gedərdi. Nə hərə közü öz qabağına çəkər, nə də düşmən qabağında belə əyilməz, gözükölgəli qalmazdıq.

Atalar yaxşı deyib: "Allahsız yerdə otur, böyüksüz yerdə oturma". Bəlkə də böyüklərə, ağsaqqallara dönüksüzlüyümüzə görə sınağa çəkilmişik biz. Kim bilir, bəlkə də ...

Həsən müəllim kimi ağsaqqallar güzəştə getməyi, bağışlamağı bacarırlar. Çətin də, ağır da olsa, qoy ruhu keçsin günahımızdan, əlavə bir möhlət versin bizə. Əvvəlcə öz içimizdəki dayazlığı, cılızlığı, dünya malı üçün acgözlüyümüzü təmizləyək. Bundan sonra düşmənlə vuruşmaq çətin deyildir.

— Amin! — deyə səs eşidirəm. İnanıram, Həsən müəllimdir.

Dünyada baş verən olaylara gücsüzlüyümü hiss etsəm də, varlığımı kövrək bir ümid istisi bürüyür. Utandığımdan başımı yerdən qaldıra bilmirəm, yeridikcə deyirəm:

— Allah sənə rəhmət eləsin, Həsən müəllim. Qoy müqəddəs ruhun dünyalar qədər sevdiyin Azərbaycanımızı heç vaxt tərk etməsin!

Ürəyimdən keçənlərə xeyir-dua almış kimi günahkar-günahkar elə özüm də pıçıldayıram:

— Amin!

BARAT CƏFƏRLİ
*Kənd təsərrüfatı elmləri namizədi*

# MƏNALI ÖMRÜN BİR ANI

Həsən müəllim 25 ildən çox müddətdə torpaqşünaslıq sahəsində dərc olunmuş əsərlərinin toplusuna görə Moskvada, Torpaqşünaslıq İnstitutunda kənd təsərrüfatı elmləri doktoru alimlik dərəcəsi almaq üçün 1966-cı il fevral ayının 9-da dissertasiya müdafiə etməli idi. Bunun üçün o, son bir neçə ay idi ki, gecəli-gündüzlü çox gərgin işləyirdi. Moskvaya ən azı bir həftə tez gedib müdafiəyə hazırlaşmaq lazım idi. O, Moskvaya məni də aparacağını bildirdi. Elmi Şurada nümayiş etdiriləcək 50-dən çox xəritə, qrafik və cədvəl, 10 ədəd rəngli foto-slayd qutusu, müxtəlif tip və yarımtip torpaqlardan götürülmüş 60 ədəd karton monolit, əsərlərdən ayrıca nüsxələr, kitab, monoqrafiya və s. əşyaları hazırlayıb özümlə götürdüm. Fevralın 4-də birlikdə Moskvaya uçduq. Həsən müəllim səhər evdən çıxanda başağrısı və yuxusuzluqdan şikayətlənirdi. Ümidini yolda, təyyarədə dincəlməyə bağlamışdı. Elə də oldu.

Həsən müəllim və Zərqələm xanımın şərəfinə professor S.V.Zonnun ailəsində verilən naharda iştirak etdik. Nahardan sonra S.V.Zonn rəsmi opponent kimi işdəki bəzi mübahisəli məsələlərə aydınlıq gətirmək üçün Həsən müəllimi öz iş otağına dəvət etdi. Onlar münasibətlərini aydınlaşdırdıqdan sonra yenidən süfrə başında göründülər. Hər ikisinin duzlu və şirin zarafatlarına xeyli güldük. Zərqələm xanım Həsən müəllimin xoş əhvalını görüb sevincək halda dedi: "İnanın ki, son bir neçə həftədir, Həsəni bugünkü kimi şən görməmişdim, sağ olun".

Həsən müəllim işin avtoreferatına aid göndərilmiş 28 rəyə, habelə R.V.Kovalyovun və N.İ.Qoqolevin rəylərinə də cavablar hazırladı.

İnstitutun müdafiə zalında dissertantın nümayiş etdirəcəyi materialları asıb hazırladıq. Həsən müəllim asılmış materialları nəzərdən keçirdi, bəzi xəritə və qrafiklərin yerini dəyişdirdi. Axşamdan seçib ayırdığımız 4 slayd qutusundan yalnız ikisini göstərməyi məsləhət bildi. Onları bir daha nəzərdən keçirib arxayın oldu.

Müdafiə Elmi Şurasını şuranın sədri prof. V.V.Yeqorov aparırdı. Həsən Əliyev dissertasiyanın əsas müddəalarını Elmi Şura üzvlərinin nəzərinə çatdırdıqdan sonra məruzə ətrafında suallar verildi və onlara məzmunlu cavablar alındı. Opponentlərin çıxışlarında Həsən Əlirza oğlunun müdafi-

əyə təqdim etdiyi dissertasiya, sadəcə olaraq, konkret bir obyektin ümumiləşdirilmiş elmi-tədqiqat işlərinin yekunu kimi deyil, çox mürəkkəb torpaq-iqlim şəraitində uzun illər aparılan ağır və gərgin əməyin nəticəsi kimi qiymətləndirildi. Həsən müəllim sonuncu opponentin rəyində göstərilən qüsurlara cavab verən anlarda Heydər Əlirza oğlu gəldi və mənimlə yanaşı oturdu. İkinci dəfə idi ki, Heydər Əliyevi belə yaxından görürdüm. O, məndən pıçıltı ilə vəziyyəti soruşdu. Elmi Şura çox yüksək səviyyədə keçirdi. Həsən müəllim opponentə cavab verib qurtardıqdan sonra sədr dissertasiya ətrafında çıxışlara söz verdi. Heydər Əlirza oğlu şuranın iki üzvünün çıxışını dinlədikdən sonra mənə dedi ki, vacib işim var, gedirəm, Həsən müəllimə deyərsən, narahat olmasın, danışdığımız kimi, axşam ora gələcəyəm. Və dərhal xudahafizləşib getdi. İşin qızğın müdafiəsi isə davam edirdi. Elmi Şura üzvlərinin on yeddisinin də son qərarı yekdil oldu. Hamı 35 ildən artıq torpaq tədqiqatı aparan yetgin alimi təbrik etdi.

Axşam "Bakı" restoranına, Həsən müəllimin şərəfinə düzəldilmiş ziyafətə getdik. Ziyafətdə 28 nəfər iştirak edirdi. Böyük qardaşın uğurlu müdafiə məclisini axıradək Heydər Əlirza oğlu idarə etdi. O, Azərbaycan süfrəsi arxasında oturan qonaqları salamladı və onlara xoş arzularını bildirdi. İlk badələr məclisin səbəbkarı Həsən müəllimin şərəfinə qaldırıldı. Sonra Heydər müəllim sevimli qardaşının gərgin və ağır zəhmətini yüksək qiymətləndirən Elmi Şura üzvlərinə, onun sədrinə və rəsmi opponentlərə öz dərin minnətdarlığını bildirdi: "Ailəmiz üçün bu hadisəni mən böyük sevinc və fərəh hissi ilə qəbul edirəm. Eyni zamanda, mən belə hesab edirəm ki, bu hadisə Həsən müəllimin həmkarlarının Azərbaycan torpağına verdikləri qiymətin təcəssümüdür. Mən əminəm ki, neçə-neçə gələcək nəsillər onun elmi-tədqiqat işlərinin nəticələrindən bəhrələnəcəklər". Çıxış edən qonaqlar Heydər müəllimin dediklərinə qoşuldular və qonaqpərvərlik üçün öz minnətdarlıqlarını bildirdilər. Ziyafət üç saat davam etdi. Sevincimizin hüdudu yox idi...

VAHİD HACIYEV
*Akademik*

## GÖRKƏMLİ BİOLOQ

Mən Həsən Əliyevlə uzun illərin yol yoldaşı olmuşam, haqqında yaddaqalan çoxlu xatirəm vardır.

Yadımdadır, 50-ci illərdə Nəbatat İnstitutunda çəkişmələr baş alıb gedirdi. Mərkəzi Komitədən ildə iki-üç komissiya gəlir, yoxlayır, ancaq heç

bir faydası olmurdu. Bir sözlə, İnstitutda vəziyyət olduqca ağır və gərgin idi. Axırıncı komissiyanın gəldiyi nəticələr institutun açıq partiya iclasında müzakirə olunurdu. İclasda Akademiyanın prezidenti, mərhum akademik Y.H.Məmmədəliyev, vitse-prezidentlər — akademik M.A.Topçubaşov, akademik Heydər Hüseynov və bir də Həsən Əliyev iştirak edirdilər. Bir neçə saat davam edən kəskin müzakirələrdən sonra institutun direktoru, elmi işlər üzrə direktor müavini, partiya təşkilatı katibi və büro üzvləri vəzifələrindən çıxarıldılar, bəziləri isə institutdan xaric edildilər. Həsən müəllim bizim instituta direktor təyin olundu.

Az müddət içərisində Həsən Əliyev institut kadr məsələlərini həll etdi, iş planında əsaslı dönüş yaratdı. Gənc mütəxəssisləri seçib aspiranturaya göndərdi. İnstitutda normal iş şəraiti bərpa olundu, işçilər arasında münasibətlər yoluna qoyuldu.

Həsən müəllim tanınmış torpaqşünas olmaqla yanaşı, həm də geniş dünyagörüşlü bir bioloq idi. Botanika, təbiətin, xüsusən də bitki örtüyünün qorunması sahəsində onun xidmətləri saysızdır. O, meşəyə, yaşıllığa xüsusi diqqət yetirirdi. Meşəni "təbiətin təkrarolunmaz hissəsi" adlandırır və qeyd edirdi ki, meşə əlverişli şərait yaradır, özünü, ətrafı qida və su ilə təmin edir, havanı təmizləyir. Nəslinin qorunub saxlanması, davam etməsi üçün özünə qayğı göstərir.

Həsən müəllim institutun iş planında nəzəri məsələlərlə yanaşı, praktiki-tətbiqi məsələlərə də geniş yer verirdi. Maldarlığın inkişafına imkan verə biləcək yem bazasının yaradılması sahəsində aparılan axtarışların ön plana çəkilməsinə, quraqlığa davamlı yabanı yem bitkilərinin mədəniləşdirilməsinə, yaşıl yem konveyerinin yaradılması və təsərrüfatlarda onların geniş tətbiq olunmasına xüsusi qayğı göstərirdi. Onlarla aspiranta bu sahədə mövzu vermiş və rəhbərlik etmişdi.

Həsən müəllim institutun gənc əməkdaşlarını yabanı yem bitkilərinin toxumunu yığmaq üçün dağətəyi rayonlara səfərbər edər və bəzən özü də bizimlə gedərdi. O vaxtlar biz xeyli yabanı lərgə, iyli noxud, xəşənbül, şənbələ, yonca və digər yem bitkilərinin toxumunu yığıb təcrübə sahələrində sınaqdan keçirə bilmişdik. Həsən müəllim həmişə deyərdi ki, təcrübə müəllifi özü təsərrüfata getməli, əkinçi ilə birgə işləməlidir.

Bir gün Həsən müəllim məni yanına çağırıb kürüşnə adlı bitki haqqında yerli camaatdan ətraflı məlumat toplamaq üçün Qonaqkənd rayonuna göndərdi. Yerli adı "acı çax" olan bu bitki botaniki baxımdan çox maraqlı olmaqla yanaşı, həm də qiymətli yem bitkisidir. Yerli əhali bu bitkinin acılığını axan suda çıxarıb pörtür, qışın soyuq və şaxtalı günlərində iş öküzlərinə yem kimi verir. Heyvanlar bu çox kalorili, zülallı, həddən artıq yağlı

bitkini həvəs və iştahla yeyirlər. Xeyli axtarış apardıqdan sonra bu qəribə və maraqlı bitki haqqında Həsən müəllimlə birgə ətraflı bir məqalə yazdıq.

Həsən müəllimin rəhbərliyi ilə az müddət içərisində respublikada yemçilik üzrə baza yaradıldı. O vaxtlar üç il dalbadal respublikada quraqlıq keçdi və Həsən müəllimin əməyi köməyə gəldi.

Həsən Əliyevin zəhmətsevərliyi, təşəbbüskarlığı dövlət və hökumət rəhbərlərinin diqqətindən yayınmadı. O, Mərkəzi Komitəyə kənd təsərrüfatı üzrə katib təyin edildi. Xalq təsərrüfatının çox ağır bir sahəsinə rəhbərlik etdiyi müddətdə də elmdən uzaqlaşmadı, vaxt tapdıqca elmi axtarışlarla məşğul oldu.

Həsən müəllim narahat insan idi. O, xalqının sabahını fikirləşir, özündən sonra bir iz qoymağa çalışırdı. Nəsli kəsilməkdə olan ağac və kolların çoxaldılması sahəsində xeyli iş görmüşdü. Azərbycanın ayrı-ayrı rayonlarından gətirdiyi onlarca nadir bitki növünü Nəbatat bağında əkdirmiş və mütəmadi olaraq onların inkişaf prosesini izləmişdir. Onun gətirdiyi daş palıd pöhrəsi indi bağın mərkəzi hissəsində qollu-budaqlı nəhəng ağaca çevrilmişdir.

Həsən müəllim Nəbatat bağına xüsusi qayğı göstərir, onu Azərbycanın ayrı-ayrı rayonlarında (Gəncə, Mingəçevir, Lənkəran, Şuşa) öz filialları olan böyük tədqiqat mərkəzi kimi görmək istəyirdi. "Bağ sərbəst, avtonom olsa, indikindən qat-qat yaxşı inkişaf edər" — sözlərini Həsən müəllim dəfələrlə təkrar etmişdi. Təəssüf ki, biz bunu dərk edə bilmədik, bizdən sonra gələcək nəsil mütləq Həsən müəllimin dediyi yolu tutmalı, səhvlərimizi düzəltməlidir.

Bir gün bizə xəbər çatdı ki, akademik A.A.Qrossheym öz zəngin Herbari fondunu Gürcüstan Elmlər Akademiyasına satıb. Bunu eşidən Həsən müəllim çox məyus oldu (o vaxt Həsən Əliyev EA-da akademik-katib vəzifəsində işləyirdi) və bizi tənbehlədi: "Belə fürsəti əldən vermək olardı? Siz yatmısınız, gürcülər isə tez tərpəniblər. Heç olmasa siz də onun kitabxanasını alın". Bu işi mənə həvalə etdi. İki dəfə Leninqrada — A.A.Qrossheymin arvadı Anna Moiseyevnanın yanına getdim, ancaq cəhdlərim nəticəsiz qaldı.

Həsən müəllim A.A.Qrossheymin elmi fəaliyyətini yüksək qiymətləndirirdi. O, 1912-ci ildən 1947-ci llədək Azərbaycanda yaşamış və böyük tədqiqat işləri aparmışdır. Elmə məlum olmayan yüzlərlə bitki növü aşkar etmiş, ondan artıq monoqrafiya yazmışdır. Bu müdrik insan çox istəyirdi ki, Azərbaycan botanikləri Qrossheymə bənzəsinlər və onun yolunu davam etdirsinlər.

Akademik H.Əliyevi yalnız Azərbaycanda, keçmiş İttifaqda deyil, xa-

ricdə də yaxşı tanıyırdılar. Təbiəti mühafizə xətti ilə mən onunla bir ay Ruminiyada oldum (o vaxt Həsən müəllim İnsan və Biosfer Cəmiyyətinin sədri, mən isə katibi idim). Sanki Həsən müəllimi mən özüm üçün yenidən kəşf etdim. Ayrı-ayrı şəhərlərdə fəaliyyət göstərən torpaqşünaslıq mərkəzlərində etdiyi çıxışları həmkarları tərəfindən böyük maraq və minnətdarlıqla qarşılanırdı. O, fotoaparatla şəkil çəkməkdən doymazdı, bir ay ərzində üç mindən artıq şəkil çəkdi.

Həsən müəllim gözəl yol yoldaşı, maraqlı həmsöhbət idi. Onunla dəfələrlə Gəncədə, Zaqatalada, Tərtərdə və digər yerlərdə ezamiyyətdə olmuşam. Güclü yaddaşı vardı, bir söhbəti iki dəfə danışmazdı.

Həsən müəllim kimsəsizlərin, bacarıqlı və təmiz adamların dostu, sirdaşı idi. 1953-cü ildə mənzil almağıma, Leninqradda aspiranturada oxumağıma görə mən yalnız və yalnız akademik Həsən Əliyevə borcluyam. Onun dünyagörüşü geniş olduğu qədər də sadə təbiətli idi.

Həsən müəllim həmişə yenilik tərəfdarı olub. Rus dilində işlənən "step" termininin qarşılığını coğrafiyaçılar "çöl" sözü ilə verirdilər. 60-cı illərin əvvəlində botaniklər bu termini "bozqır" sözü ilə verməyə başladılar. Coğrafiyaçılar öz narazılıqlarını bildirdilər. Mən Həsən müəllimə müraciət etdim. O qeyd etdi ki, "bozqır" əsl türk sözüdür; rus alimləri quru otlu yamaclara, xüsusən kserofit tərkibli bitkilərin yayıldığı cənub yamaclarına "step" deyirlər, biz də "bozqır" desək, yerinə düşər. Bax, "bozqır" məfhumu elmi ədəbiyyatda öz vətəndaşlıq haqqını belə qazandı.

Həsən müəllim görüb-götürmüş ziyalı idi. O, Azərbaycan alimlərini hərtərəfli, peşəkar səviyyədə görmək istəyirdi. Rus və başqa dilləri öyrənmələrini təbliğ edirdi. Özü ömrünün son günlərinə qədər ingilis dilini daha yaxşı öyrənməyə çalışırdı.

Həsən müəllimdə güclü duyma, öncədəngörmə qabiliyyəti vardı. Təbiəti mühafizə ideyasının respublikamızda çox erkən təşəkkül tapması məhz bu uzaqgörənliyin məhsulu idi.

1960-cı ildə Bakıda mikroelementlərə həsr edilmiş simpozium keçirilirdi. Simpoziumda akademik M.S.Peyve kimi tanınmış alimlər iştirak edirdilər. Geniş iclasda ilk məruzə ilə akademik Həsən Əliyev çıxış etdi. Məhz bu simpoziumdan sonra respublikanın bir çox elmi-tədqiqat institutlarında mikroelementlər laboratoriyaları açıldı.

Həsən müəllim çox təəssübkeş idi. Azərbaycanda bitən "çövüz"ə "yunan qozu" deyilməsindən əsəbiləşərdi. Bunu dəfələrlə mənə irad tutmuşdu. Azərbaycanın qədir-qiymətini bilməyi, onun bitkilərini özünə layiq adla adlandırmağı məsləhət görərdi.

Mən tam məsuliyyət hissi ilə demək istərdim ki, "Azərbaycan florası"

əsərinin I-VIII cildləri məhz Həsən müəllimin qayğısı və xeyir-duası ilə işıq üzü görmüşdür. Kitabla bağlı ortaya bir problem çıxan kimi botaniklər ona müraciət edərdilər. O, bizim arxamız, dayağımız idi.

Respublikamızda 13-ə qədər dövlət qoruğu vardır, onlardan bir neçəsi istisna olunmaqla, qalanları Həsən müəllimin bilavasitə təşəbbüsü və iştirakı ilə təşkil edilmişdir. Respublikamızın botanikləri və zooloqları bu əməllərinə görə indi Həsən müəllimi minnətdarlıq hissi ilə yad edirlər.

Həsən müəllim həmişə ümummilli mənafedən çıxış etməyə səy göstərirdi. Yaxşı yadımdadır, 1965-ci ildə qonşu respublikaların kağız, karton problemlərini həll etmək məqsədilə Azərbaycanda sellüloz kombinatı tikmək planlaşdırılırdı. Nəbatat İnstitutunun əməkdaşlarını da bu işə cəlb etmişdilər. Kür-Araz ovalığında qarğı, qamış ehtiyatını müəyyənləşdirmək üçün bostaniklərdən ibarət bir neçə ekspedisiya dəstəsi təşkil olunmuşdu. Həsən müəllim bu layihənin əleyhinə çıxdı. O, Baykal gölünün aqibətindən inandırıcı misallar çəkərək, düşmən planının həyata keçirilməsinə imkan vermədi. İndi düşünür və belə qənaətə gəlirəm ki, yaralı təbiətimiz bu gün mövcud olan az-çox gözəlliyinə görə Həsən müəllim kimi qeyrətli və təəssübkeş kişilərə borcludur.

Həsən müəllim botaniklərin yaxın dostu və hamisi idi. Onun əziz xatirəsi həmişə bizə örnək olacaqdır.

QƏRİB MƏMMƏDOV
*AMEA-nın müxbir üzvü*

## VƏTƏNİ SEVƏNDƏ...

Akademik H. Əliyevlə əlaqədar ilk xatirələrim tələbəlik illərimlə bağlıdır. 60-70-ci illərdə Azərbaycan Pedaqoji İnstitutu coğrafiya fakültəsinin elmə maraq göstərən başqa tələbələri kimi mənim də bu alimə böyük hörmətim var idi. Qeyd edim ki, akademiklə fakültə tələbələrinin hər bir görüşü, adətən, çox maraqlı, səmimi, açıq fikir mübadiləsi şəraitində keçirdi. Bu görüşlər uzun müddət yadda qalmaqla yanaşı, bizim hər birimizin istər alim, şəxsiyyət, istərsə də vətəndaş kimi formalaşmağımızda böyük rol oynayırdı. Həsən Əliyevin varlığı vətənpərvərlik, xalqsevərlik təcəssümü idi. Qarşısındakı auditoriyanın səviyyəsindən asılı olmayaraq, özündə olan bu cəhətləri ona aşılamağı, sevdirməyi bacarırdı. Ona görə də tam əminliklə deyə bilərəm ki, mənim istər alim, istərsə də bir şəxsiyyət kimi

formalaşmağımda "Həsən Əliyev fenomeninin" böyük təsiri olmuşdur.

1970-ci ildə APİ-nin coğrafiya fakültəsini bitirəndə, bir qədər sadəlövhlük də olsa, qarşıma yalnız bir məqsəd qoymuşdum, coğrafiyaşünas alim, son nəticədə isə akademik olmaq. Təyinatım Kənd Təsərrüfatı Nazirliyinə verildi və bu, şübhəsiz ki, ürəyimcə olmadı. Çox götür-qoydan, uzun düşüncələrdən sonra akademik H.Əliyevin qəbuluna getmək qərarına gəldim. Sənədlərimi götürüb Coğrafiya İnstitutuna getdim. Doğrusu, qəbul otağında öz qərarımdan çox peşman oldum. Burada adlı-sanlı professorlar, şöbə müdirləri, tanımadığım, lakin çox ciddi, sanballı görünüşlü şəxslər onu gözləyirdilər. Düşdüyüm vəziyyət məni çox sıxırdı, bir an hətta çıxıb qaçmaq da istədim. Lakin artıq gec idi. Həsən Əliyev içəri daxil olmuşdu. Hamı ilə səmimi görüşdükdən sonra öz iş otağına tərəf getdi. Lakin qapının dəstəyindən tutanda bir az fikirləşib geri döndü. Baxışları ilə gözləyənlər arasında kimisə axtarmağa başladı, məni görəndə gülümsəyib soruşdu: "Oğlum, mənimlə işin var?" Başımla təsdiqlədim. Sonra o, ətrafdakılardan üzr istəyib məni iş otağına dəvət etdi. Doğrusu, bu mənim üçün çox gözlənilməz oldu. Söhbətimiz sıxıntısız, səmimi keçdi. Həsən Əliyev məni diqqətlə dinlədikdən sonra telefon dəstəyini götürüb harasa zəng etdi. Telefonla qısa söhbətdən sonra mənə təyinat yerinə getməyi məsləhət gördü. Bildirdi ki, Kənd Təsərrüfatı Nazirliyi təkcə idarəetmə aparatından ibarət deyil, bu təşkilatın nəzdində ciddi elmi axtarışlarla məşğul olan elmi-tədqiqat müəssisələri də vardır, məsələn, elə Elmi-Tədqiqat Eroziya Bölməsi. Beləliklə, mənim torpaqşünaslıq elminə gəlişim bu görüşlə başladı.

H.Əliyevlə ikinci görüşüm Akademiyanın Əsas binasının girişində oldu. Vəziyyətimi xəbər aldı. Bir qədər fikirləşdikdən sonra o, Torpaqşünaslıq və Aqrokimya İnstitutunun yeni laboratoriyasını, torpaqların aqroekologiyası və bonitirovkası laboratoriyasının açıldığını və bu elmi istiqamətin, böyük perspektivə malik olduğunu söylədi, diqqətimi bu sahəyə yönəltməyi məsləhət bildi. H.Əliyevlə ikinci görüşdən sonra mənim həyatım kökündən dəyişdi.

1972-ci ildə mən bonitirovka laboratoriyasında işə başladım. Neçə illər, aylar keçdi. 1994-cü ildə institutun kollektivi və Akademiyanın rəhbərliyi mənə çox məsul vəzifə etibar etdi. Torpaqşünaslıq və Aqrokimya İnstitutuna direktor təyin olundum. Lakin heç kim bilmir ki, bütün bunlara səbəb məhz Həsən müəllimlə ikinci görüşüm olmuşdu.

1974-cü ildə Moskva şəhərində dünyanın məşhur torpaqşünaslarının iştirakı ilə nüfuzlu bir konqres keçirildi. Respublikamızdan həmin konqresdə yalnız elmi ictimaiyyətin yaxşı tanıdığı bir neçə alim iştirak edirdi. Konqresin sonunda tədbirin iştirakçıları üçün Şəki-Zaqatala zona-

sına ekskursiyanın təşkili planlaşdırılmışdı. Beynəlxalq səviyyəli ekskursiyada iştirak etmək çoxları kimi, mənim də böyük arzum idi. Yenə də Həsən müəllimlə xoş bir təsadüfi görüşüm istəyimi gerçəkləşdirdi. Doğrusu, söhbət zamanı o mənə heç nə demədi. Ertəsi gün respublikamızdan bu ekskursiyada iştirak edəcək namizədlərin siyahısında mənim də adımın olmasına institutda çoxları inanmadı. Bu, kiçik bir səhv sayıldı. Lakin xoşbəxtlikdən bu, səhv deyildi və ola da bilməzdi. Sadəcə olaraq, mənim adım H.Əliyevin təkidi ilə siyahıya salınmışdı.

70-ci illərin sonlarında ictimai-siyasi həyatın bütün sahələrində olduğu kimi, elmdə də durğunluğun ilkin əlamətləri özünü göstərməkdə idi. İttifaqın digər elmi müəssisələrində müasir istiqamətlərdə tədqiqatlar aparıldığı halda, bizim tərəfimizdən torpaqşünaslığın ən yeni istiqamətləri olan torpaq münbitliyinin konseptual və riyazi modellərinin işlənməsi və torpaq örtüyü strukturunun öyrənilməsinin zəruriliyi məsələsi qaldırılanda çoxları bunu "süngü" ilə qarşıladı.

Belə problemlərdən biri də mənim üçün torpaqların bonitirovkası, onların keyfiyyətcə qiymətləndirilməsidir. Problemin böyük elmə yolunu açmaqdan ötrü səlahiyyətli bir jurnalda onun haqqında ətraflı məlumat verilməsi tələb olunurdu. Bu mövzu ətrafında H.Əliyevlə tez-tez etdiyimiz məsləhətləşmələr 1984-cü ildə meşə torpaqlarının bonitirokasının əhəmiyyətinə, onun aparılması metodikasına dair irihəcmli bir məqalənin ortaya çıxmasına səbəb oldu. Məqaləni "Elmlər Akademiyasının Məruzələri"ndə çap etdirmək qərarına gəldik. Bu zaman mən H.Əliyevin neçə böyük ürək sahibi olduğunun şahidi oldum. Nəşr ərəfəsində Həsən müəllim mənə məqalənin tək müəllifi kimi çıxış etməyi məsləhət bildi. O dedi ki, belə bir məqalənin çapı sənin bir alim kimi yüksəlməyin, elmi nüfuz qazanmağın üçün lazımdır. Mənim isə məqalədə birinci müəllif kimi çıxış etməyim sənin əməyini kölgədə qoya bilər. Doğrudan da o dediyi kimi oldu. Tezliklə məqalə Həsən müəllimin təqdimatı ilə çap edildi və Azərbaycanda torpaqların bonitirovkası kimi ən vacib elmi istiqamətin inkişafı üçün təkan oldu.

Coğrafiya İnstitutunda akademik H.Əliyevin iştirakı ilə onun aspirantının namizədlik dissertasiyasının ilkin müzakirəsi idi. Çox təmtəraqlı şəraitdə keçən bu müzakirəyə mən də dəvət olunmuşdum. Ayağa duran hər kəs işin əhəmiyyətindən, yüksək səviyyədə yazıldığından, hətta nöqsansızlığından danışırdı. Növbə mənə çatanda durub işi tənqid etdim, aşkara çıxardığım nöqsanların mütləq düzəldilməsini zəruri saydım. Yığıncaqdan sonra H. Əliyev mənə yaxınlaşıb əlimi bərk-bərk sıxdı: "Çox sağ ol, oğlum, sən düzgün hərəkət etdin, həmişə belə ol", — dedi. Bir müddət

keçdikdən sonra öyrəndim ki, H. Əliyevin təkidi ilə mən həmin aspirantın rəsmi opponenti təyin edilmişəm.

"Azərbaycanın 1:600000 miqyaslı torpaq xəritəsi"nin, "Azərbaycanın 1:200000 miqyaslı torpaq örtüyünün struktur xəritəsi"nin yaranma tarixindən xəbəri olan şəxslər təsdiq edə bilərlər ki, yalnız H.Əliyevin sayəsində bu vacib, əhəmiyyətli sənədlər həyatda yaşamaq hüququ qazana bilmişdir.

Keçmiş xatirələrimi vərəqləyərkən akademik H.Əliyev həmişə gözlərim qarşısında bir narahat şəxs, narahat alim kimi canlanır. Şəxsi söhbətlərimizdə mən həmişə belə bir qənaətə gəlirdim ki, elmimizin elə bir sahəsi, elə bir problemi yoxdur ki, onu düşündürməsin. H.Əliyevin elmi fəaliyyətinin böyük bir hissəsi təbiəti mühafizə problemləri ilə bağlı idi. 60-70-cı illərdə bizim çoxumuz bu problemin vacibliyini görsək də, onun böyüklüyünü H.Əliyev kimi dərk etmək iqtidarında deyildik.

Torpaq tədqiqatı və təbiətin mühafizəsi sahəsində əvəzsiz xidmətlərinə görə H. Əliyev xalqımız, dövlətimiz, o cümlədən beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Həsən Əliyevin ən böyük mükafatı onun Azərbaycan xalqı tərəfindən tanınması və sevilməsi idi. Vətənin bu böyük mükafatını yalnız onu ürəkdən sevənlər qazana bilərdi.

ZEYNAL MÖVSUMOV
*Kənd təsərrüfatı elmləri doktoru*

# TƏBİƏT VURĞUNU

Azərbaycan təbiəti haqqında söhbət gedəndə ani olaraq göz önündə unudulmaz bir obraz — akademik Həsən Əliyevin əbədi obrazı canlanır. Bu sadə insanı Azərbaycan kəndlərində tanımayan, onun əməllərinin bəhrəsi ilə rastlaşmayan, demək olar ki, tapılmaz. Mən kənd adamlarının adını ilk öncə ona görə çəkirəm ki, bu qəbildən olanların qəlbinə yol tapmaq hər alimə nəsib olmur. Elmi ictimaiyyət arasında tanınmaq üçün bir neçə elmi-kütləvi kitab və məqalənin müəllifi olmaq kifayətdir. Lakin bütün xalq arasında tanınmaq, sevilmək üçün gərək xalqı, vətəni, torpağı öz varlığın qədər sevəsən. Bəli, Həsən müəllim belə şəxsiyyətlərdən idi.

Həsən müəllimlə tanışlığımın 45 illik bir tarixi var. İlk tanışlığımız indiki kimi yadımdadır. Onda mən Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsinin ikinci kursunda oxuyurdum.

İkinci dünya müharibəsi yenicə qurtarmışdı. Dolanmaq çətin idi. Təh-

sil almaqla yanaşı, işləmək də lazım idi. Mən iş axtara-axtara Azərbaycan Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutuna gəlib çıxdım. Birinci mərtəbənin dəhlizində orta boylu, üzündən mülayimlik yağan bir nəfərlə rastlaşdım. O, mənim nabələd hərəkətlərimə, utancaq davranışıma fikir verdi, sonra nə fikirləşdisə, mənimlə maraqlandı və öz iş otağına apardı. Gəlişimin səbəbini sıxıla-sıxıla danışdım. O, məni işə götürəcəyini bildirdi və əlavə etdi ki, mənim işim dərslərdən sonra gəlib torpaq nümunələrini döyüb analizə hazırlamaq olacaqdır. Sonra öyrəndim ki, bu xeyirxah insan Həsən müəllimdir. O, institutda direktorun elmi işlər uzrə müavini işləyir.

Həsən müəllimin sayəsində mən tələbəlik illərindən respublikamızın sayılıb-seçilən görkəmli aqrokimyaçı və torpaqşünas alimləri ilə tanış oldum və beləliklə, taleyim Torpaqşünaslıq və Aqrokimya İnstitutuna bağlandı, institutut mənim üçün doğma ata evinə çevrildi.

Bu elmi müəssisənin həyatı ilə tanış olduqdan və ilk çöl təcrübə işlərini başa vurduqdan sonra Həsən müəllim məni institutun direktoru mərhum akademik Cəbrayıl Hüseynovla tanış etdi. Mən universitetdə bitki fiziologiyası üzrə ixtisas aldığıma görə görkəmli aqrokimyaçı alim Cəbrayıl Hüsenovla işləməli oldum.

Bugünkü uğurlarıma görə mən özümü Həsən müəllimə borclu sanıram. Elmdə ilk addım atmaqda əlimdən tutub mənə istiqamət vermiş bu gözəl alim xatirimdə xeyirxah və qayğıkeş bir insan kimi qalmışdır.

Yaxşı yadımdadır, 1952-ci ildə ADU məzunlarına təyinat verilirdi. Akademiyanın Torpaqşünaslıq və Aqrokimya İnstitutundan sifariş məktubu apardığıma baxmayaraq, həyəcan keçirirdim. Çünki məni universitetdə saxlamaq üçün biologiya fakultəsinin qərarı olsa da, elmi-tədqiqat institutunda işləmək arzusunda idim.

Təyinatdan bir gün qabaq Həsən müəllimlə görüşməyi qərarlaşdırdım. Artıq Torpaqşünaslıq və Aqrokimya İnstitutunda işləməsəm də, çətinliyə düşən kimi Həsən müəllimlə məsləhətləşməyi özümə borc bilirdim. Gəlişimin səbəbini söylədim. O, diqqətlə qulaq asdı, bir qədər şübhəli nəzərlə baxdıqdan sonra soruşdu: "Sən bilirsən ki, Akademiyanın institutlarına ancaq əla qiymətlərlə oxuyanları işə götürürlər?" Çəkinə-çəkinə cavab verdim: "Bilirəm müəllim, universiteti fərqlənmə diplomu ilə bitirmişəm". Məni təbrik etdi və ucadan dedi: "Onda narahat olmağa dəyməz, arxayın ol, get, mən rektordan xahiş edərəm".

Təyinat komissiyasına rektorun özü, görkəmli ədəbiyyatşünas alim, mərhum Cəfər Xəndan sədrlik edirdi. Komissiyanın sədri: — Həsən müəllim sənin haqqında xahiş etdiyi üçün səni biologiya fakültəsində saxlamadıq, təyinatını Akademiyaya veririk, — dedi.

Bax elə o andan, bu gün də işlədiyim və doğma sandığım Torpaqşünaslıq və Aqrokimya İnstitutunun elmi kollektivinin üzvü oldum. Sənədlərimi aspiranturaya hazırlayarkən Həsən müəllimlə rastlaşdım. Seçdiyim sahə ilə maraqlandı. Duruxduğumu görüb məni qabaqladı: "Yəqin ki, aqrokimyaçı olacaqsan. Bitki fiziologiyası ixtisası aqrokimyaya daha yaxındır. Sənə uğurlar arzulayıram".

Onu da deməliyəm ki, hələ keçmişdən torpaqşünas və aqrokimyaçılar arasında kəskin elmi mübahisələr olub, ayrı-ayrı məsələlərə münasibətdə fikir ayrılığına görə qısqanclıq hisslərindən yan keçə bilməyiblər. Odur ki, mənim aqrokimyaçı olmağımı biləndə Həsən müəllim daxilən narazı olsa da, üzə vurmadı, gülümsədi, əlimi sıxıb səmimiyyətlə dedi: "Təki xalqın üçün xeyir verə biləcək bir mütəxəssis ol, nə fərqi var. Respublikamıza aqrokimyaçı da lazımdır, torpaqşünas da!"

Aspiranturaya daxil oldum.Dissertasiya mövzusu ilə bağlı tədqiqat obyekti seçəndə yenə də Həsən müəllimin məsləhəti köməyimə gəldi. Axtarışlarımı çay bitkisi ilə əlaqədar aparmalı idim. Həsən müəllim çay bitkisinin vətəni sayılan Lənkəran-Astara bölgəsini yaxşı tanıyırdı. O, məsləhət gördü ki, təcrübəni "Avrora" sovxozunda aparım. Mən elə də etdim.

1970-ci ildə məndən asılı olmayan səbəblərlə bağlı elmdə boya-başa çatdığım doğma iş yerimdən — Torpaqşünaslıq və Aqrokimya İnstitutundan Əkinçilik İnstitutuna keçməli oldum.

İstər elmi, istərsə də məişət məsələlərində Həsən müəllimin köməyini həmişə hiss etmişəm. O, adamlara göstərdiyi qayğıda, yardımda heç bir şəxsi məqsəd, təmənna ummayıb. Ən yaxın qohumuna aça bilmədiyin dərdini, çətinliyini onunla asanlıqla bölüşmək olurdu.

Uzun illərdən bəri elmlər doktoru, daha sonra institut direktoru olsam da, mənzil şəraitimi yaxşılaşdıra bilmirdim. On bir ildən artıq mənzil növbəsində idim, lakin bir nəticə hasil olmurdu. Mən bu gün yaşadığım mənzilə görə yalnız Həsən müəllimə minnətdaram.

Yazdıqlarım Həsən müəllimlə 45 illik ünsiyyətimin çox kiçik bir hissəsidir. Biz bir sıra elm və təsərrüfat əhəmiyyətli problemlərin işlənib həyata keçirilməsində yaxından əməkdaşlıq etmişik. Mən Əkinçilik İnstitutunda direktor işləyirdim. O, Abşeronun Ramana sovxozunda "yaşıl konveyer" sxemi düzəldib, ilboyu yaşıl yem istehsal etmək məsələsini qaldırdı. Ramana sovxozunda və bir sıra başqa təsərrüfatlarda bu iş təşkil edildi.

Mənim elmi fəaliyyətim bitkilərin azotla qidalanması məsələsinə həsr olunmuşdu. Həsən müəllimin qiymətli yem bitkisi kimi şənbələnin becərilməsini məsləhət görməsi ürəyimcə oldu. Belə ki, şənbələ havadan azot toplayan bitki olduğundan onun əkin dövriyyəsinə daxil edilməsi tor-

paqların münbitliyinin artırılmasında əhəmiyyətli rol oynaya bilərdi.

Həsən müəllim Nəbatat İnstitutunun direktoru olarkən aqrokimyanın bir çox sahələrinin inkişafı üçün çox iş görmüşdür. Bir sıra qiymətli mikroelementlərin tətbiqi məhz onun adı ilə bağlıdır.

İndi böyük bir torpaqşünas ordusunu təmsil edən Azərbaycan Torpaqşünaslar Cəmiyyətinin yaradılması da Həsən Əliyevin adı ilə bağlıdır.

Mən əminəm ki, vaxt gələcək akademik Həsən Əlirza oğlu Əliyevin elmi, ictimai fəaliyyəti haqqında əsərlər yazılacaq, o, siyasi və dövlət xadimi kimi dəyərləndiriləcəkdir.

Həsən müəllim bu gün dünyasını dəyişsə də, onu tanıyanların qəlbində həmişə yaşayacaq.

SƏYYAF XƏLİLOV
*Kənd təsərrüfatı elmləri namizədi*

## NAĞILLARDAKI KİMİ ...

Mən 1964-cü ildə imtahan verib aspiranturaya daxil oldum. Həsən müəllimlə — bu sadə, səmimi, istiqanlı, maraqlı, müdrik insanla yaxından tanışlığım da elə bu andan başlandı.

Namizədlik mövzumla bağlı rayona ekspedisiyaya getməyə hazırlaşırdım. Fikir mübadiləsindən sonra apardığım işi istiqamətləndirmək üçün elmi rəhbərim kimi akademik Həsən Əliyev də rayona gələcəyinə söz verdi. Söhbət əsnasında o, mənim haralı olduğumu soruşdu.

— Göyçayın Bığır kəndindənəm, — dedim. O, maraq dolu nəzərlərlə mənə baxıb əlindəki kitabı kənara itələdi və ayağa qalxdı. Öz-özünə danışırmış kimi: — Ola bilməz, — dedi.

Həyəcanlı baxışlarımı ona zillədiyimi görüb oturdu, gülümsədi, titrəyişli səsinə yumşaqlıq verməyə çalışdı.

— Sənə bir əhvalat danışacağam, maraqlı bir əhvalat.

Elə bil məni ovsunlamışdılar, bir kəlmə kəsə bilmirdim. Həsən müəllimi bürümüş narahatçılıq mənə də sirayət etmişdi.

Həsən müəllim narahatçılığıma son qoymaq istəyirmiş kimi, sözə başladı:

— 1951-ci il idi. Nazirlər Sovetində işləyirdim, maşınla Göyçay rayo-

nuna ezamiyyətə gedirdim. Şamaxıya çatanda yolun kənarında bir nəfər əl qaldırdı. Sürücüyə işarə etdim, maşını saxladı. Əl qaldıran şəxs maşina yaxınlaşdı, üç gündür ki, Şamaxıda kursda olduğunu dedi, indi isə Göyçaya qayıtmaq istədiyini bildirdi. Maşina onu da götürdük. Yolda müxtəlif mövzularda söhbətlər etdik. Müəllimlik sənətinin sirlərindən, dolanışığından, həyatdan danışdı. Axşam saat 9-10 olardı ki, Bığır kəndinin yolayrıcına çatdıq. Yol yoldaşımız maşını saxlamağı xahiş etdi. Bığıra neçə kilometr məsafə qaldığını soruşdum. Dörd kilometr yol qaldığını biləndə narahatçılıq keçirdim, bu adamı zil qaranlıqda, yolayrıcında düşürüb getməyi özümə sığışdıra bilmədim. Yaxşılığı axıra qədər etməyi qərara aldım. Sürücüyə dedim, maşını kəndə tərəf çevirdi. Təsadüfi yol yoldaşımızın minnətdarlığına, xəcalət etirazına baxmayaraq, onu mənzilbaşına çatdırdıq. Müəllim qəti qərarını bildirdi. Bizi buraxmayaçağını söylədi.

— Bu qədər yaxşılıqdan sonra bir stəkan çayımı içməsəniz, bir qismət çörəyimi yeməsəniz, kişilikdən olmaz, — dedi.

Bizi gecə hind toyuğu ilə döşəməli plova, səhər isə kənd şəraiti üçün xas olan yeməklərlə qonaq etdilər. Sonra sağollaşıb Göyçaya, vəzifə borcumuzu yerinə yetirməyə getdik. Gör aradan neçə illər keçir, təəssüf ki, müəllimin adını unutmuşam. Ancaq o yadımdadır ki, küçənin yuxarı hissəsində, qəbiristanlığın yanında qollu-budaqlı nəhəng bir palıd ağacı vardı.

Bəli, təsadüfi yol yoldaşını tapmaq üçün Həsən müəllimin yaddaşında ona bələdçilik edəcək iki şey qalmışdı: qəbiristanlıq, bir də palıd ağacı.

Növbəti dəfə kəndə gedəndə atama elmi rəhbərim Həsən müəllimin bizim kənddə köhnə bir tanışı olduğunu və mənə nağıl etdiyi əhvalatın bəzi məqamlarını danışdım. Maraqlıdır ki, atam da Həsən müəllim kimi oturduğu yerdən qalxdı və həyəcanla dilləndi:

— Oğul, Səyyaf, o müəllim mənəm.

Mən çaşıb qaldım. Eşitdiklərim ürəyimdən olsa da, inana bilmirdim. Bu, gerçəklikdən çox yuxuya bənzəyirdi. Lap nağıllardakı kimi...

1965-ci ilin yay aylarından biri idi. Qaraməryəm yaylağında torpaq tədqiqatı ilə məşğul olurdum. Günortadan sonra Qaraməryəmə tərəf maşın gəldiyini gördüm. Yaxınlaşanda Həsən müəllimin şəxsi "Volqa"sını tanıdım. Bədrəddin Həsənov da onunla idi. Biz kəndə gəldik. Həsən müəllim yolu və əvvəllər gördüklərini bir-bir yadına salırdı. Qəbiristanlığı və palıdı görəndə yolu düz gəldiyimizə əminliyini bildirdi. Bizim evin küçə darvazasına çatanda atamı gördü və bir-birini tanıdılar. Köhnə dostlar kimi qucaqlaşdılar. Elə o gündən də Həsən müəllim bizim ailənin və kəndimizin əziz qonağına çevrildi. Kiçikhəcmli bir yazıda Həsən müəllimlə bağlı xatirələri ardıcıllıqla nəsrə çəkmək, yeri gəldikcə daha maraqlı və yaddaqalan

hadisələri işıqlandırmaq bir qədər çətin olduğu üçün mən şahidi olduğum və eşitdiyim maraqlı əhvalatları ayrı-ayrı hissələr şəklində oxuculara çatdırmağı münasib bildim.

**Həsən müəllim Eldar oyuğunda.** Qədim tarixi olan tikililər, maraqlı və qeyri-adi bitkilər, relikt və münbit torpaqlar, müxtəlif təbiət hadisələri nəticəsində yaranan təbiət abidələri Həsən müəllimi çox maraqlandırırdı. O, respublikamızın ərazisində az-çox maraq doğuran təbiət abidələrinin hamısı haqqında ətraflı məlumata malik idi.

Aspiranturaya daxil olarkən Həsən müəllim mənə təklif etdi ki, Üçüncü dövrdən qalmış relikt arid meşələrinin ekoloji şəraitini və torpaq örtüyünü öyrənim. Ərazi ilə tanış olandan sonra bu işin çox çətin olduğunu gördüm və xahiş etdim ki, mövzunu dəyişsin. Həsən müəllim narazı olsa da, etiraz etmədi.

Aradan illər keçdi. Həsən müəllim Coğrafiya İnstitutuna direktror keçmiş və şöbəsini də özü ilə aparmışdı. Bir dəfə qəzetdə həmin şöbədə baş elmi işçi yerini tutmaq üçün verilmiş elana rast gəldim. Qəzeti də götürüb Coğrafiya İnstitutuna yollandım. Həsən müəllim məni səmimi qarşıladı. Gəlişimin səbəbini biləndə bir az ciddiləşdi. Sonra gülə-gülə dedi:

— Səni bir şərtlə — arid meşə zonasının torpaq örtüyünü tədqiq edəcəyinə söz vermək şərti ilə işə götürürəm.

Mən razı olmaq məcburiyyətində qaldım. Beləliklə, aspirant vaxtı imtina etdiyim mövzunu işləməli oldum. Arid meşələrdə gərgin iş başlandı, stasionar və coğrafi axtarışlar genişləndi. Arid meşələrin ən maraqlı, ecazkar sahəsi Eldar oyuğunda Üçüncü dövrdən qalmış Eldar şamı meşəsi idi. Bu sahə plana Həsən müəllimin təkidi ilə salınmışdı. Bitki və torpaq aləmi ilə məşğul olan alimlərin çoxusu bu sehrli aləmi görməyə can atır, ancaq hamıya nəsib olmur.

Eldar oyuğu Həsən müəllimi çoxdan cəlb edirdi. 1973-cü ilin iyul ayı idi. Bərdə Meşə İdarəsinin direktoru Rasim Gülməmmədov, Göy göl qoruğunun direktoru Həmid Bayramov və mən Həsən müəllimlə birlikdə Eldar düzünə gəldik. Gecə meşəbəyinin evində qaldıq. Səhər tezdən piyada Eldar oyuğuna yola düşdük. Bütün varlığı ilə təbiətə bağlı olan 66 yaşlı qocaman alimin dağ yolunda cavanlıq həvəsi ilə irəlilədiyini gördükcə məndə heyranlıq yaranırdı. Bu yaşda insanda belə şövq, güc hardan olarmış?! Günortaya yaxın dağın zirvəsinə çatdıq. Bizi bir-birindən gözəl görünən Eldar şamları qarşıladı. Həsən müəllim elə ilk müşahidədən bildirdi ki, bu nadir şam ağacları, hər şeydən əvvəl, qumluqların bərkiməsindən əmələ gələn və bir-birinə söykənərək yayılmış iri süxurlara minnətdar olmalıdır. Sal süxurlar altında toplanan və mühafizə olunan rütubət şam ağaclarına həyat verir.

Havanın yandırıcı istisinə baxmayaraq, Həsən müəllim bu möcüzəli mənzərədən ayrıla bilmir, fotoaparatın birini qoyub o birisini götürür, hər ağacın şəklini çəkməyə çalışır və qızğın fikir mübadiləsi aparırdı. Mənə torpaq kəsimi qoymağı və nümunə götürməyi tapşırdı. Geri qayıdan kimi gətirdiyimiz nümunələri laboratoriyada analiz etdik. Güclü müşahidə və analitik fikir söyləmək qabiliyyətinə malik qocaman alim öz ilkin ehtimallarında, demək olar ki, yanılmamışdı. Sonralar o, tez-tez Eldar oyuğuna getdiyi ilk səfərini xatırlayar, təbiətin möcüzələrinə heyranlığını gizlətməzdi.

**Həsən müəllim sözü üzə deyərdi.** Əlbəttə, Həsən müəllim görkəmli alim, təbiətin və əkinçiliyin gözəl bilicisi olmaqla yanaşı, həm də qayğıkeş dövlət xadimi idi. O, vaxt tapdıqca rayonlara səfər edər, camaat arasına çıxar, məsləhətlər verər, yeri gələndə köməyini əsirgəməzdi. Yadımda deyil, hansı zonaya isə səfərə çıxmışdıq. Rayonda qonaq evi olmadığından bizi qabaqcıl kolxozun qonaq evinə apardılar. Kolxoz sədri yenicə orden almışdı. O, bizi qarşılayan kimi MK-nın birinci katibini tərifləməyə başladı. Həsən müəllim bərk əsəbiləşdi və özünü saxlaya bilməyib dedi:

— Elə bilirdim sən ağıllı-başlı adamsan, başlamısan zəvzəməyə. Bəsdir, yarınmaqdan əl çəkin. Mən Yaponiyadan yeni qayıtmışam. Zəngin təəssüratım var, çoxlu şəkil çəkmişəm. Gündoğan ölkənin möcüzələri haqqında çıxış etmək istəyirdim. Elə sənin bu yersiz hərəkətinə görə də fikrimdən daşınıram.

**Qulam kişinini söylədiklərindən.** Həsən müəllimin ömür yoluna nəzər saldıqda fikirləşirsən ki, bu insan dünyaya yalnız yaxşılıq etmək üçün gəlibmiş. Mən respublikamızın bir çox rayonlarında torpaq tədqiqatı aparmış, müxtəlif adamlarla rastlaşmış, təmasda olmuşam. Yerindən, yurdundan, kimliyindən asılı olmayaraq, hər yerdə Həsən müəllim haqqında xoş sözlər, xatirələr eşitmişəm. Onlardan biri haqqında söhbət açmaq istərdim. Dəvəçi rayonunun sakini Qulam kişi belə nağıl edir:

— Dəvəçi rayonunda kolxoz sədri işləyirdim. Müharibə yeni qurtarmışdı. Qəflətən kolxoza yoxlama gəldi. Təftiş aparıldı, ancaq heç bir şey tapa bilmədilər. Yalnız bir itin öldüyünü aktlaşdırıb getdilər. Kolxozun iti öldüyünə görə mənə məhkəmə işi qaldırdılar və həbs olunmaq təhlükəsi qarşısında qaldım. Neçə-neçə vəzifə sahibinin qapısını döydüm, vəziyyəti danışdım, xeyri olmadı. Nəhayət, Nazirlər Sovetinə, Həsən Əliyevin yanına gedib dərdimi danışdım. O, məni diqqətlə dinlədi və əsəbiləşdi. Sonra telefon dəstəyini götürüb Teymur Quliyevə zəng etdi, dövlət idarələrindəki belə yersiz işlərdən narazılığını bildirdi və itin ölümünün təbii hal olduğunu qeyd etdi. Beləliklə, bu xeyirxah insanın rəsmiyyətdən uzaq səmimiyyəti nəticəsində həbsdən qurtara bildim.

**Bu millətin dərdi böyükdür.** Qərb rayonlarının birində ezamiyyətdə idik. Raykomun qonaq evinə getmişdik. Axşam yeməyinə oturmağa hazırlaşırdıq ki, birinci katib gəldi. Yeməyin təşkili məsələsi ilə əsasən rayon icraiyyə komitəsinin sədri (erməni) məşğul olurdu. Şam edə-edə əkinçilikdən, pambıqçılıqdan söhbət edib, üzümçülüyün inkişaf yollarından danışırdıq. Qonaqlara 45-50 yaşlarında bir erməni qadını qulluq edirdi. Qadın gəlib-getdikcə Həsən müəllim ona fikir verir, narahatlığı aydın hiss olunurdu. Məclisin sonuna yaxın Həsən müəllim üzünü birinci katibə tutub dedi:

— Bu bir tikə çörəyi niyə azərbaycanlına vermirsən?

Katib özünə haqq qazandırmağa çalışdı:

— Həsən müəllim, görürəm azərbaycanlının şalvarı, ya da pencəyi cırıqdır, deyirəm paltarını yamasın. İki gündən sonra nə görsəm yaxşıdır, qara şalvara ağ yamaq vurub gəzir. Xəbər alıram qara şalvara niyə ağ yamaq, elə qara yamaq vursana. Deyir, başına dönüm katib, axı sən onu mənə deməmişdin. Hörmətli Həsən müəllim, bax bizimkilər belə geridə qalmışdırlar.

Həsən müəllim tutulmuşdu, bıçaq vursaydın, qanı çıxmazdı. Pəncərəyə yaxınlaşdı, arxası katibə qaranlıqla danışırmış kimi tənəli-tənəli söylədi:

— Deməli, çörəyini yediyin adamların mədəni səviyyəsinə görə xəcalət çəkirsən? Bu torpağın halal sahibi saray davranışını bilmir deyə yadları, özü də necə yadları bəsləməlisən? Nə qədər ki, sənin kimi rəhbər işçilər var, bu yazıq millətin başı hələ çox bəlalar çəkəcək.

**Xoruzlar kişini peşman etdi.** Keçmiş Qasım İsmayılov (indiki Goranboy) rayonu ərazisində, mərkəzi şosse yolunun kənarında şoran torpaqların tədqiqi ilə məşğul idik. Həsən müəllim qazılmış kəsimin yanında durub şoran torpaqların spesifik strukturu, torpağın profilində duzların paylanma xüsusiyyətləri haqqında müşahidələrini bizimlə bölüşdürürdü. Qəflətən maşınlarımızın bərabərində iki "Volqa" maşını dayandı və içindən düşənlər bizə tərəf gəldilər. Görüşəndən sonra Həsən müəllim bizi onlara, onları da bizə təqdim etdi. Gələnlər Respublika Dövlət Nəzarət Komitəsinin sədri və ərazisində tədqiqat işi apardığımız rayonun birinci katibi idi. Katib qonağını yola salırdı. Söhbətin şirin yerində Dövlət Nəzarət Komitəsi sədrinin maşınının yük yerində olan xoruzlar səs-küy qoparıb banlamağa başladılar. Gözlənilməz vəziyyət sədri çaşdırdı və kefinə soğan doğradı. Bəhanə tapıb vidalaşdı və maşına oturmağı ilə tərpənməyi bir oldu. Həsən müəllim ürəkdən güldü və əlavə etdi:

— Xoruzlar şuluqluq salıb bu boyda kişini peşman etdilər. Daha doğrusu, xoruzun quyruğu göründü...

**Burada kommunizmdir ki...** Beynəlxalq konfrans iştirakçılarının bir

dəstəsi Ümumittifaq Torpaqşünaslıq Cəmiyyətinin xətti ilə Tbilisidən Qazağa keçib respublikamızın təbiəti və torpaq sərvəti ilə tanış olmaq üçün seçilmiş marşrutla Bakıya gəlməli idilər. Marşrutu və torpaq tiplərini əvvəlcədən seçib müəyyənləşdirmək üçün Həsən müəllimin başçılığı ilə Qazağa getmişdik. Raykom əməkdaşları ilə görüşüb söhbət etdikdən sonra bizi maraqlandıran əraziyə yola düşdük. İşlərimizi qaydaya salıb geriyə, qonaq evinə qayıtdıq. Bir az keçmişdi ki, raykomun birinci katibi gəldi və bizi günorta yeməyinə dəvət etdi. Qonaqlığı Göyəzən dağında təzə açılmış restoranda verdilər.10 nəfərə qədər olardıq. Qonaqlıq başa çatdıqda stol sahibləri xörəkpaylayanı çagırıb haqq-hesab çəkməyi xahiş etdilər. Fikir vermişdim, əvvəllər bizi qonaq edəndə pulu yanımızda verməzdilər. Bizi maraq bürümüşdü. Restoran müdirinin özü də ğəldi. Haqq-hesab çəkib ürəklə bildirdilər: — 39 manat!

10 nəfər adamın çeşidli xörəklərdən yeyib doyduğu stol haqqının 39 manata başa gəlməsi bizə nağıl kimi göründü. Bunun "tamaşa" olduğunu görən Həsən müəllim hamımızın əvəzində "sağ olun" dedi və sonra gülümsəyərək əlavə etdi:

— Yoldaş katib, deyəsən, Qazaxda kommunizm dövrü başlayır...

**Əməyi qiymətləndirərdi.** Həsən müəllim laboratoriyanın, institutun yığıncaqlarında, elmi şurada işğüzar, zəhmətsevər əməkdaşları həmişə tərifləyər, başqalarından fərqləndirmək üçün onları qiymətləndirməyə çalışardı.

Bir dəfə respublikamıza keçmiş SSRİ-nin bölgələrindən və xarici ölkələrdən mütəxəssislərin gəlişi gözlənilirdi. Onları, əsasən, Kür-Araz düzənliyində şorlaşma ilə baglı aparılan tədqiqat işləri və şorlaşmış torpaqların duzlardan təmizlənməsi yolları maraqlandırırdı.

Qonaqların qəbul edilməsinə hazırlıq işləri ğörmək üçün Həsən müəllim məni Ucar rayonuna ezam etdi. O vaxtlar Ucar rayonunun birinci katibi Sərxan müəllim idi. Dogrudan da vətənsevərlik yanğısına, millətini, elini təmsil və təqdim etmək basarığına hər adam qabil olmur. Bu, bir allah vergisidir. Mən bütün bunları Sərxan müəllimdə gördüm və onunla yaxından tanış olmağıma çox sevindim.

Sərxan müəllim bu sahədə çalışan mütəxəssisləri və aidiyyətli idarələrin müdirlərini dəvət edib ətraflı məsləhət və müzakirə apardı. Seçdiyimiz sahədə drenlər təmizləndi, təcrübə işləri elmin son imkanları səviyyəsində təşkil edildi. Təcrübəyə baxışdan, fikir mübadiləsindən sonra qonaqların istirahəti üçün tədbirlər də yaddan çıxmamışdı. Çay dəstgahı qurulmuş, gözəl süfrə açılmışdı. Yarımsəhra zonasına elə bil möcüzəyə bənzər bir həyat gəlmişdi. Əslində, bu çür görüşlər qonaq sahiblərinin mədəni-mənəvi dünyasının nümayişi və təbliği üçün bir meydan və imkan yaradır.

Duzlu sular, suların süzülüb getdiyi dərin və səliqəli drenlər, süzülən suların tərkibi haqqında məlumatlar, buradakı çəltik əkinləri qonaqları razı salmışdı. Qoyulmuş torpaq kəsimlərində, şoran torpaqların təkamülü və genetik xüsusiyyətləri ətrafında qızğın mübahisələr getdi. İşin təşkilindən hamı ürək dolusu danışır, öz heyranlığını gizlətmirdi. Həsən müəllimin sevinci yerə-göyə sığmır, gözləri gülürdü, üzünə məmnunluq qonmuşdu. O, bu işin təşkilində əməyi olanların hamısına öz minnətdarlığını bildirdi, ancaq Sərxan müəllimi xüsusi vurğuladı.

— Sərxan, sən təkcə Uçarın yox, bütün Şirvanın Sərxanısan. Elmimizin başını uca, bizimsə üzümüzü ağ elədin, sağ ol, oğul!

Bir kənarda durub sakit-sakit baxdığımı görən Həsən müəllim üzünü mənə tutdu, səsinin ahəngini dəyişmədən gülə-gülə əlavə etdi:

— Oğul, Səyyaf, narahat olma, sevinçimdə sənin də payın var.

Maraqlı və həm də qəribə insan idi Həsən müəllim. Onun hərəkətlərində, davranışında, münasibətlərində bir ipək yumşaqlığı və bal şirinliyi vardı...

**Daşkənd səfəri.** 1985-ci ilin sentyabr ayı idi. Torpaqşünasların Daşkənddə keçiriləçək VII Ümumittifaq qurultayına getməyə hazırlaşırdıq. Qurultaya gedən nümayəndələr üçün biletlər də alınmışdı. Getməyimizə iki gün qalmış Həsən müəllim məni çağırdı və dedi ki, sən öz biletini apar qaytar, mənimlə gedəçəksən. Coğrafiya İnstitutunda, Torpaqşünaslıq İnstitutunda alimlərimiz tərəfindən yazılmış tədqiqat əsərlərindən əlinə nə keçsə yığ topla, Özbəkistan Torpaqşünaslıq İnstitutunun kitabxanasına bağışlayarsan. Mən bir kisə kitab toplayıb, Həsən müəllimin yanına gəldim. O da bir neçəsini verdi. Elə həmin günlərdə Həsən müəllimin "Həyəcan təbili" əsərinin son variantı çapdan çıxsa da, onlardan mənə vermədi. Mən belə fikirləşdim ki, kitabları yəgin özü ilə aparacaq. Gedib Daşkəndə çatdıq. Həsən müəllimi elə aeroportda qarşılayıb, əvvəllər Özbəkistan MK-nın birinci katibi olmuş Ş.Rəşidovun 37 hektarlıq meyvə bağında tikdirdiyi zəngin iqamətgaha apardılar. Burada demək olar ki, hər şey möcüzə idi. Həsən müəllim və məndən başqa bu iqamətgahda bir neçə tanınmış Moskva alimi də qalırdı. Həsən müəllim qurultayın açılmasına bir gün qalmış bizimlə eyni binada olan akademiklərdən bir neçəsinə öz kitabını böyük məmnuniyyətlə hədiyyə verdi. Səhər qurultay açılacaqdı, axşam mənə dedi: "Həyəcan təbili"ndən bir neçəsini gətir, qurultayda MK-nın məsul işçilərinə, kənd təsərrüfatı sahəsində çalışan başqa hörmətli yoldaşlara bağışlamaq istəyirəm". Dedim ki, "Həyəcan təbili" kitabından məndə yoxdur. Başqa kitabları gətirmişəm, ondan isə mənə verməmisiniz. Həsən müəllim yerindən sıçradı: "Necə yəni gətirməmisən, mən bu-

ra gətirmək üçün "Həyəcan təbili"ndən iki bağlama ayırıb stolun üstünə qoymuşdum, yəgin itirmisən. Get, şeylərinin içərisinə əməlli bax". O, getdikcə əsəbiləşir və məni bərk danlayaraq: "Bəs bu camaata mən indi nə verəcəyəm, heç vaxt adamı yarıtmırsınız", nə bilim nələr, nələr deyirdi. Sentyabrın 9-da qurultay başladı. Həsən müəllim də rəyasət heyətində oturmuşdu. Sonuncu bir kitabı qalmışdı, onu da Özbəkistan MK-nın birinci katibi İ.B.Usmanxocayevə bağışladı. Kitab qurtardı. Əsəbilik isə azalmırdı. Aramız bərk dəymişdi, yarımküsülü vəziyyətdə idik. Mənim günahkar olmağımı yoldaşların hamısına deyirdi. Mən də dediyimdən dönmürdüm. O kitabları görmədiyimi və mənə vermədiyini təkrarlayırdım. Birinci gün qurultayda iştirak elədik. Aramızda olan gərginlik isə davam edirdi. Xoşbəxtlikdən qurultayın ikinci günü Səmərqənd Pedaqoji İnstitutunun rektoru Sadıq müəllim gəlib çıxdı. Onu mən də tanıyırdım. Bizim institutun Elmi Şurasında müdafiə etmişdi. Sadıq müəllim də bu əsəbiliyi hiss etdi və yavaş-yavaş Həsən müəllimdə Səmərqəndə getmək fikrini aşılamağa başladı. O, bu məqsədinə tezliklə nail oldu və biz rektorun maşını ilə Daşkənddən Səmərqəndə doğru səyahətə başladıq. Kitablar barədə mənə axırıncı sözü o oldu ki, əgər gedib görsəm ki, kitabları stolun üstündə qoyub gəlmisən, daha mənim gözümə görünmə.

Səmərqənddə Həsən müəllimin əsəbiliyi azalmış, aramızdakı gərginlik nisbətən zəifləmişdi. Vilayət Komitəsinin təşkil etdiyi geniş iclasda Həsən müəllimin iki saatdan artıq çəkən canlı məruzəsi böyük marağa səbəb oldu. Sonra Pedaqoji Universitetdə və coğrafiya fakültələrindəki çıxışları onun əhvalını lap yaxşılaşdırdı. Səmərqəndin gəzməli tarixi yerlərinə səyahət etdik. Məşhur Səmərqənd bazarında olduq. Sonra da Səmərqənddən təyyarəyə minib Bakıya qayıtdıq. Ertəsi gün saat 11 radələrində direksiyaya gəldim ki, kitabların sirrindən bir şey öyrənəm. O vaxt elmi katib işləyən Ağahüseyn müəllim məni görən kimi dedi: "Səyyaf, anan namaz üstə imiş. Həsən müəllim kitabları ayırıbmış, ancaq elə şkafda da qoyubmuş. Bir sözlə, canın qurtardı".

Elə həmin gün institutun partiya təşkilatı katibi Habil Haqverdiyev Həsən müəllimə institutun həmkarlar təşkilatına sədr seçmək lazım olduğunu bildirir. Həsən müəllim mənim namizədliyimi təklif edir. Demə, Daşkənddəki küsüşməmiz ötəri imiş, geniş ürəkli, müdrik insan olan mənəvi atam məni çoxdan bağışlayıbmış.

Allah rəhmət eləsin, qəbrin nurla dolsun, Həsən müəllim.

XƏLİL MUSTAFAYEV
*Kənd təsərrüfatı elmləri doktoru*

# BÖYÜK ALİM, QAYĞIKEŞ İNSAN

1958-ci ildə elmi işimlə bağlı Şəkidə eroziyaya qarşı təcrübələr aparır, çöldə, dağ yamaclarında olurdum. Bir gün işlədiyimiz obyektə ekspedisiya maşını gəldi. Maşından səfər geyimində gülərüz bir adam düşərək bizimlə salamlaşdı. Nə işlə məşğul olduğumuzu soruşdu. Mən ona torpağın, qarşımızdakı dağ və yamacların, meşə massivlərinin mühafizə olunub yaşaması, torpağın eroziyadan qorunmasına həsr edilmiş elmi işimizin mahiyyətini açıqladım. O dedi: "A bala, sənin eroziya üzrə apardığın elmi işin və təcrübələrin çox lazımdır (onun təmasda olduğu adama müraciətən "a bala" sözünü işlətməsi heç vaxt yadımdan çıxmaz). Meşələrimiz batıb gedir. Bu işdə Azərbaycana köməklik göstərmək hər birimizin borcudur".

Həsən müəllim gənc alimlərə xüsusi qayğı göstərərdi. Mənim 1974-cü ildə ABŞ-da keçirilən "Təbiətin mühafizəsi" adlı konqresdə, həmçinin Bolqarıstanda "Təbiətin problemləri"nə həsr edilmiş nüfuzlu elmi müşavirələrdə iştirak etməyimin səbəbkarı məhz Həsən müəllim olmuşdur.

Bu qayğıkeş alim Azərbaycanda dağ əkinçiliyinin inkişafı sahəsində apardığımız təcrübələri yüksək qiymətləndirmiş, onun respublikamızın dağ rayonlarında daha geniş tətbiqində bizə həm əməli, həm də mənəvi dayaq olmuşdur.

Həsən müəllim respublikamızda aparılan elmi işlərin qabaqcıl Avropa ölkələrinin təcrübəsi səviyyəsində olmasına xüsusi fikir verirdi. Əsas məqsəd isə Yer kürəsində durmadan artan əhalinin ərzaqla təminatı problemlərini həll etmək üçün "Beynəlxalq bioloji proqram" yaratmaq idi. Bu münasibətlə H.Əliyevin rəhbərliyi ilə Azərbaycanda xüsusi komissiya yaradıldı və bu mövzuda bir neçə məqalələr və kitabçalar çap olundu.

Təbii ehtiyatların tədqiqi, təbiətdən istifadənin elmi əsaslandırılması və onların mühafizəsinin təşkili H.Əliyevin elmi və ictimai fəaliyyətinin əsas istiqamətini təşkil edir.

1966-cı ildə Moskvada doktorluq dissertasiyamı başa çatdırdıqdan sonra Həsən müəllimin yanında oldum. Ondan elmi opponentimin kim olacağına dair məsləhət almaq istəyirdim. Bu ağır yükü Həsən müəllim öz öhdəsinə götürdü.

Moskvada dissertasiya üzərində işləyərkən kitabxanadan qayıdırdım. Təsadüfən yolda rastlaşdıq. O mənim maddi cəhətdən çətinlik çəkdiyimi hiss etdi. Cibindən pul çıxararaq zorla mənə verdi: "A bala, işləyəndə qaytararsan", — dedi. Bəli, istedadlı alim, bacarıqlı pedaqoq bizə bu cür rəhbərlik edirdi. Onun mənalı həyat yolu və xatirəsi əbədi olaraq qəlbimizdə yaşayacaqdır.

Bir alim kimi böyük elmi-təşkilati və ictimai fəaliyyəti ilə yanaşı, H.Əliyev eyni zamanda təbiətşünaslığın nəzəriyyəsi, ekologiya, botanika, biocoğrafiya, meşəşünaslıq, torpaq-meşə, meliorasiya və aqrokimya, bitkiçilik, təbii ehtiyatların və təbii şəraitin qorunması, ondan səmərəli istifadə edilməsi kimi problemlərlə məşğul olurdu.

Akademik H.Əliyevin elmi və ictimai həyatı hər bir alim üçün örnəkdir.

ŞÖVQİ GÖYÇAYLI
*Coğrafiya elmləri doktoru*

# AZƏRBAYCAN TƏBİƏTİNİN TƏBLİĞATÇISI

1967-ci ildən başlanan tanışlığımızın elə ilk günlərindən hiss edirdim ki, o, adamların əməyinə, işgüzarlığına qiymət verir. Respublikanın elm, tədris ocaqlarında çalışan bütün coğrafiyaçıları öz ətrafında — Coğrafiya İnstitutunda toplamağa səy göstərirdi.

Həsən müəllim Azərbaycan coğrafiyasının öyrənilməsində əlindən gələni əsirgəmirdi. O, eyni zamanda Azərbaycan təbiətinin, onun mühitinin mühafizəsində də mübariz idi. Tbilisidə SSRİ Coğrafiya Cəmiyyətinin qurultayında akademik Həsən Əliyev Azərbaycanın ekoloji şəraiti və təbiətin mühafizəsi barədə məzmunlu çıxış etdi. O, qonşu respublikaları — Ermənistanı və Gürcüstanı Kür, Araz çaylarının suyunu çirkləndirdiklərinə görə möhkəm ittiham etdi. Bildirdi ki, Qafqazda ekoloji təmizlik yaradılmasında Qafqaz respublikaları elmi-işgüzar əməkdaşlıq etməlidirlər.

Həsən müəllimlə əlaqələrimin davamı mən BDU-ya, ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə kafedrasına keçəndən sonra (1982) başlamışdır. Ümumiyyətlə, həmin kafedranın açılmasında bilavasitə onun da xidməti olmuşdur.

Həsən Əliyevi mən kafedraya Azərbaycan təbiətinin mühafizəsindən

xüsusi kurs demək üçün dəvət etmişdim. O, dərsləri Coğrafiya İnstitutunda, xüsusi avadanlıqla təchiz olunmuş zalda aparırdı. Dərslərdə Azərbaycanın təbiəti və dünyanın təbiət güşələri ustalıqla çəkilmiş slaydlarla canlandırılırdı. Dediyi dərslərə görə əmək haqqı almaqdan imtina etmişdi.

Həsən Əliyev kafedra üzrə ixtisaslaşan məzunların təyinatları ilə də maraqlanırdı. O, bir neçə dəfə Dövlət Plan Komissiyasına, Təbiəti Mühafizə Komitəsinə, Meşə Təsərrüfatı İdarəsinə zəng vurar, təbiəti mühafizə üzrə ixtisaslaşan coğrafiyaçı mütəxəssislərin müvafiq işlə təmin edilməsinə qayğı göstərərdi. Müvafiq ixtisası olmayanların təbiəti mühafizə sahəsində çalışmalarına etirazını bildirərdi. Ümumiyyətlə, kadrların ixtisaslarına görə yerləşdirilməsində prinsipial mövqe tutardı.

O, tələbələrə bilik, təbiəti mühafizə bacarığı öyrətməklə yanaşı, onlara vətənpərvərlik, kamillik ruhu aşılayar, dərsdənkənar vaxtlarda, tənəffüslərdə çox ibrətamiz söhbətlər edərdi. Bir gün Həsən müəllim torpağa bağlılıq, onu sevmək barədə söhbət edərkən öz həyatından misal gətirdi və söylədi: "Evlərimizin Ermənistanda uçulub-dağıdılmasına baxmayaraq, mən ayağımı oralardan kəsmir, arabir kəndimizə gedirdim. Axırıncı dəfə gedərkən ata-baba yurd yerində gecələmək istədim. Köhnə tanışlarım, rayon rəhbərləri çox təkid etdilər ki, gecəni onlarda qalım, razılaşmadım. Bir yatacaq gətirtdirib uçmuş evimizin yerində yatdım. Gecəni yuxulaya bilməsəm də, ata mülkündə yatdığım üçün səhər yerimdən çox gümrah qalxdım". Bu sözləri dedikcə Həsən müəllimin sarsıldığını, gözlərinə, cöhrəsinə kədər çökdüyünü gördüm.

Təbiəti Mühafizə Cəmiyyəti xətti ilə də onunla əməkdaşlıq edirdik. İxtisasından asılı olmayaraq, ali məktəblərdə bütün tələbələrin təbiəti mühafizəyə hazırlığı barədə mənim təkliflərimi nəzərə alaraq, ADU-ya bu məqsədlə xüsusi ştat vahidi ayrılmasına səy göstərdi və məsələ müsbət həllini tapdı.

1990-cı ilin əvvəlində "Ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə" tədrisinin təkmilləşdirilməsinə həsr olunmuş müəssisələrarası "EKOLOGİYA-90" elmi-metodik konfransına Həsən Əliyevi də dəvət etmişdik. Konfrans qurtardıqdan sonra belə bir çətin vaxtda əhəmiyyətli tədbir keçirə bildiyimizə görə bizə öz təşəkkürünü bildirdi.

Əmək fəaliyyətimlə bağlı mənim Həsən müəllimlə bir çox görüşlərim olub. Bu görüşlərin mövzusu, bir qayda olaraq, elm, tədris, kadr hazırlığı, Azərbaycan təbiətinin mühafizəsi məsələlərini əhatə edirdi. Onunla olan görüşlərimin hamısından razı qalmışam, bu görüşlər ümumi işimizə az və ya çox dərəcədə təkan vermişdir.

Onunla görüşlərimin təəssüratı mənə aşağıdakı nəticəyə gəlməyə

əsas vermişdir: birincisi, onda qeyri-adi, fenomen yaddaş var idi; ikincisi, çox sadə, əməksevər, işgüzar idi, Azərbaycan təbiətinin mühafizəsi amalı ilə yaşayırdı; üçüncüsü, yerliçilik meyllərindən çox uzaq idi, adamlara zəhmətinə görə qiymət verməyi bacarırdı. Bir sözlə, Həsən müəllim Azərbaycan xalqının əsl ağsaqqalı zirvəsinə yüksələ bilmişdi.

SİRUS
*Jurnalist*

## ANA TƏBİƏTƏ ÖVLAD QAYĞISI

Əslində, bu söhbətin beş ilə yaxın bir tarixi var. O zaman ətraf mühitin qorunmasına çağıran "Həyəcan təbili" yenicə səslənməyə başlanmışdı. Dünya bina olandan əsas gücünü istehsala verən insan başını qaldırıb görmüşdü ki, bu qalmaqalda onu törədib yaradan anasını — təbiəti unudub. Elə işləri var ki, onları görəndə təbiətlə hesablaşmayıb, amma hesablaşmalıydı. İnsan anladı ki, təbiət qoynunda bəslədiyi, boya-başa çatdırdığı övladının özünə qarşı münasibətini həssaslıqla "izləyir", hər addımına "göz qoyur" və cızığından çıxanda "tənbeh eləməyi", onunla qəzəblə "danışmağı" da bacarır. Lakin bu həqiqətin özü də hamıya birdən çatmadı (adam var, heç indi də çatmayıb). Ona görə də dünyanın hər yerində kim isə "Həyəcan təbili"ni ardıcıl çalmalı idi. Yavaş-yavaş ayrı-ayrı ölkələrdən ucalan bu səslər Yer kürəsini gur, müqəddəs bir çağırış kimi bürüdü. Və bu çağırışı hamıdan əvvəl dünyanın ilk sosialist dövləti — Sovetlər ölkəsi eşitdi.

1973-cü ilin əvvəlləri idi. Redaksiyamız "Təbiətin mühafizəsini yaxşılaşdırmaq haqqında" mətbuatda yenicə dərc olunmuş qərarla bağlı "dəyirmi stol" arxasında söhbət planlaşdırmışdı. Burada müxtəlif sahədə çalışan mütəxəssislərin iştirakı nəzərdə tutulurdu. Əməkdaşlarımızdan hərə öz namizədini irəli sürürdü. Bir nəfərin isə adını hamı çəkirdi — Respublika Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru, Azərbaycan SSR Təbiəti Mühafizə Cəmiyyətinin sədri, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki Həsən Əliyev.

Bakıya azacıq qar düşsə də, hava yumşalmamışdı. Soyuq xəzri əsirdi. Yolboyu özlüyümdə düşünürdüm ki, bu tələsiklik artıqdır, gərək bir az gözləyəydim, işə çıxardı, zəng eləyərdim...

Yataqdan yenicə qalxıb, iş otağında qarşısındakı kağızlara nə isə yazan Həsən müəllim özünü qonağa və xüsusilə belə tezliklə yataqdan

qalxmasından təşvişə düşən həyat yoldaşı Zərqələm xanıma gümrah göstərməyə çalışsa da, xəstəliyin onu zəiflətməsi rəngindən, hərəkətlərindən sezilirdi..

Respublikamızın müxtəlif nazirlik, komitə, idarə rəhbərləri, sənət adamlarının partiyanın yeni qərarının qarşıya qoyduğu vəzifələr ətrafındakı söhbətini çapa hazırlayanda mənə elə gəldi ki, Həsən müəllim xəstəlikdən yenicə ayağa qalxmayıb, uzunmüddətli istirahətdən qayıdıb. Bütün ömrünü, fəaliyyətini müəyyən işə, məqsədə, ideyaya həsr eləyən insanlar yaşayıb-yaratmaq həvəsini, enerjisini, ilhamını da o işin, məqsədin, ideyanın reallaşması prosesindən alırlar. Akademik Həsən Əliyevin o günkü gümrahlığının da səbəbi uzun illər gündəlik yaradıcı əməyinin hədəfi olan mühüm bir məsələ ətrafında gedən işgüzar söhbətin özü idi.

Bir neçə gündən sonra "Ədəbiyyat və incəsənət" qəzetinin 10 fevral 1973-cü il nömrəsində "Ana təbiətə övlad münasibəti" başlığı altında verilmiş geniş material həmin "dəyirmi stol" arxasındakı danışıqlar idi. Bir müddət keçdi ki, müəlliflərimiz təbiətin mühafizəsi problemindən danışan yazıların arasını kəsdilər. Bir müəllifdən — Həsən Əliyevdən savayı. Təbiətsevər alim üçün bu mövzu tükənməzdir, əbədidir.

Bu yaxınlarda qəzetimizin 1973-cü il nömrələrini vərəqləyərkən həmin yazıları bir də gözdən keçirdim və bu beş il müddətində respublikamızda ətraf mühitin mühafizəsi sahəsində neçə böyük işlərin həyata keçirilməsinin şahidi oldum. Qarşıda duran problemlər, vəzifələr barədə söhbətə ehtiyac da buradan yarandı. Neçə deyərlər, bu dəfə mövzu da məlum idi, müsahib də...

Bilirdim ki, müxtəlif elmi, pedaqoji və ictimai işlə məşğul olan alim bu söhbətə hökmən vaxt tapacaq. Elə də oldu. Biz onunla anadan olmasının 70 illiyi ərəfəsində görüşdük.

— Həsən müəllim, bəşər övladı yarandığı gündən təbiətlə ünsiyyətdə olmuşdur. Hər şeyi — qidanı da, paltarı da, mənzili də, enerjini də ondan almışdır. Bəs niyə insan öz ifrat istehsalçılığı ilə təbiətin müvazinətini pozmasını belə gec başa düşmüşdür?

— Bildiyiniz kimi, bəşəriyyətin tarixi çox qədimdir — milyon illərlə hesablanır. İnsanın Yer üzərindəki fəallığı son 600 ildə daha intensivdir. Elə insanların kəmiyyətini götürək. Əgər eramızın əvvəlində dünya əhalisinin sayı vur-tut 250 milyon, 1800-cü ildə isə 1 milyard idisə, keçən ilin mart ayında bu rəqəm 4 milyarda çatmışdır. İndi bir ildə insanların sayı orta hesabla 60-70 milyon artır. Onları yalnız çörəklə təmin etməkdən ötrü hər il əlavə 15 milyon (!) hektar əkin yeri lazımdır. Planetimizin sahəsi isə sabitdir, dəyişmir. Dəyişikliyi insanın özü yaradır. Onun fəaliyyəti nəticəsin-

də hər dəqiqə yer səthinin 10 hektar əkinə yararlı sahəsi sıradan çıxır; yəni əbədi olaraq müxtəlif tikililərin, yolların, təyyarə meydanlarının altında qalır, şorlaşır, eroziyaya uğrayır. Planetimizin təbiətinə təsir göstərən ən mühüm amillərdən biri — texniki tərəqqi hər 14-15 ildə 2 dəfə artır. İnsan hər şeyi təbiətdə götürür, əvəzində isə orta hesabla 3 milyard (!) ton sənaye və məişət tullantıları ilə ətraf mühüti çirkləndirir. Bu proses XX əsrin ikinci yarısında xüsusilə gücləndiyindən insanlar bir çox xoşagəlməz hadisələrlə qarşılaşmış və bu problemi görməyə, müəyyən tədbirlər həyata keçirməyə məcbur olmuşlar. Sizə bir fakt deyim: günü bu gün ətraf mühiti çirkləndirən tullantıların 63 faizi beş iri kapitalist ölkəsinin payına düşür. Müasir dünyada təbii ehtiyatlardan səmərəli istifadə olunması belə geniş yayıldığı dövrdə, bir sıra kapitalist ölkələrinin yalnız yüksək mənfəət güdən sahibkarları onunla hesablaşmırlar. Bu səbəbdən ətraf mühitin çirklənməməsi üçün sosialist ölkələrində daha böyük tədbirlər görülür.

Bu ilin oktyabr ayında ətraf mühitin mühafizəsində təlim və tərbiyənin roluna həsr olunmuş Birinci Dövlətlərarası Konfrans da məhz bizim ölkəmizdə — Tbilisi şəhərində keçirilmişdir. 60-dan çox ölkənin dövlət nümayəndələri, ictimai xadimləri, alimləri, eləcə də bir sıra beynəlxalq təşkilatlarının üzvlərinin iştirakı ilə keçirilən Birinci Dövlətlərarası Konfransa toplaşanlar belə qərara gəldilər ki, yer üzündəki xalqların bir-biri ilə səmimi, dostluq şəraitində yaşaması üçün, ilk əvvəl, onlar təbiətlə mehriban dolanmağı bacarmalıdırlar.

— Yəgin ayrı-ayrı heyvan növlərinin belə qorunmasının labüdlüyünü başa düşməklə, bəşəriyyət faşizm, rasizm, irqçilik kimi antihumanist ideyaların nə qədər boş, iyrənc və əsassız olmasını daha yaxşı anlayır.

— Müasir şəraitdə təbiətə münasibət problemi əhəmiyyəti etibarilə demək olar ki, tərksilah kimi mühüm siyasi-ictimai-iqtisadi bir məsələ ilə eyni səviyyədə durur. Bu gün bir sıra Qərbi Avropa ölkələrinin ərazisindən "ölü" çaylar axır. Onların sularında nəinki heç bir canlı yoxdur, hətta bəzilərinin sahilindəki bitkilər, ağaclar da yoxdur.

Dünya alimlərinin fikrincə, ayrı-ayrı ölkələrdə ətraf mühitin çirklənməsi problemi müxtəlif formada olduğu üçün onun həlli də müxtəlifdir. Lakin bu məsələdə hamı üçün yeganə ortaq məxrəc var. Belə mühüm vəzifənin həllində ölkələr arasında sərhədlər götürülür. İrqindən, dinindən, dilindən asılı olmayaraq, təbiət bütün insanların doğma anasıdır.

— Bayaq qeyd elədiyimiz kimi, ətraf mühitin mühafizə probleminin ayrı-ayrı yerlərdə özünəməxsus ərazi xüsusiyyətləri var. Bizim oxucuları, hər şeydən əvvəl, bu sahədə respublikamızdakı vəziyyət və görülən işlər maraqlandırır.

— Təbiətin insanlara bəxş elədiyi sərvətlərlə özünə qayğı tələbatı düz mütənasibdir. Təbiətcə zəngin ərazidə yaşayan insanın üzərinə bu nemətləri qorumaq, onlardan səmərəli istifadə sahəsində daha böyük məsuliyyət düşür. Respublikamızın təbii zənginliyindən uzun-uzadı danışmağa ehtiyac yoxdur. Bu da bir həqiqətdir ki, bolluq çox vaxt insanı israfçı edir. O, əlindəki nemətin qədir-qiymətini bilmir. Məsələn, uzun illər biz meşələrimizi amansızcasına qırmışıq. Nəticədə vaxtılə təbiətin səxavətlə, kifayət qədər verdiyi sərvət indi xeyli azalıb. Hazırda respublikamızın ərazisindəki meşə sahələri normadan çox aşağıdır.

— Həsən müəllim, rayonlarımızın birində bizə çoxdan olmuş belə bir əhvalat danışdılar. Rayon maşın-traktor stansiyası bir neçə yeni meşəqıran traktor alıbmış. Traktorları paylayarkən bir neçə mexanizator onlarda işləməkdən boyun qaçırıb. Deyib ki, onsuz da rayonumuzun ərazisində meşə qalmayıb, məndən olsa, maşınların hamısını geri qaytararam. Qədim meşələri qırıb yerini əkməkdənsə, bu zəhməti rayon ərazisindəki əkin üçün yararsız olan torpaqların "dirilməsinə" sərf eləsək yaxşıdır.

— Qoca mexanizatorun fikrində həqiqət var. Bəzi kənd təsərrüfatı rəhbərləri fikirləşirlər ki, şoran torpaqları yararlı hala salıb oradan nə qədər məhsul götürəcəkləri sual altındadır. Meşədəki ağacları qırıb yerini əksələr, bir şey hasil olacaq. Həyat göstərir ki, meşələrin yersiz, səmərəsiz qırılması sonralar bizə baha oturur. Nəmişlik, rütubət azalır, bulaqlar quruyur, ərazidəki heyvanların sayı azalır. Ona görə də partiya və dövlətimiz kənd təsərrüfatında məhsuldarlığın artırılmasının əsas istiqamətini elm və texnikadan səmərəli istifadədə görür. Bu gün respublikamızda məsələnin belə həllinə hər cür imkan, şərait var.

— Siz bayaq respublikamızın heyvanlar aləminin azalma səbəblərindən birinə toxundunuz. Əgər xatirinizdədirsə, biz "dəyirmi stol" arxasındakı söhbətə görkəmli rəssamımız mərhum Səttar Bəhlulzadəni də dəvət eləmişdik.

— Yadımdadır. Amma gəlmədi, deyəsən xəstələnmişdi.

— Bəli, sonralar özü də buna təəssüflənirdi. Lakin biz onu söhbətə dəvət edəndə çox sevinmişdi. Emalatxanasında Azərbaycan təbiətindən xeyli danışmışdı. Divarlardan asılmış işləri də onun söhbətinə, fikir və mülahizələrinə qəribə fon yaradırdı. Biz rəssamdan ayrılanda o, sanki tam arxayınlıq üçün dedi: "Gələcəyəm, hökmən gələcəyəm. Özü də çox danışmayacağam. Bircə onu deyəcəyəm ki, mən Azərbaycanda çəkməyə bir ceyran, cüyür tapmıram". Sonra nə fikirləşdisə, əlavə etdi: — "Deyirlər get qoruğa, orada var. Mənə isə geniş çöllərdə azad gəzib-dolaşan ceyranın duruşu, baxışı lazımdır".

— Səttar Bəhlulzadənin belə danışmağa ixtiyarı var idi. Onun yaradıcılığı əvvəldən axıra Azərbaycan təbiətinin tərənnümü deməkdir. İşgörən adamın isə həyatını həsr elədiyi sahədəki nöqsanlar barədə sərt danışmağa haqqı var... Bildiyiniz kimi, 10-15 il əvvəl respublikamızın ərazisindəki qoruqların vəziyyəti qənaətbəxş deyildi. Bu barədə istər yerli, istərsə də mərkəzi mətbuatda tez-tez tənqidi yazılara rast gəlirdik. Son illər qoruqlarımızın işində əsaslı dönüş yaranmışdır. Gələcəkdə respublikamızda daha altı qoruq yaradılması nəzərdə tutulur. Lakin biz təkcə qoruqlarda olan heyvanat və bitki aləminin qayğısına qalmamalıyıq. Bu gün hər bir Azərbaycan sakini öz respublikasına böyük milli park, qoruq kimi yanaşmalıdır. Bəlkə də mərhum rəssamımız "mənə geniş çöllərin sinəsində azad gəzib-dolaşan ceyranın duruşu, baxışı lazımdır" — deyəndə məhz bunu nəzərdə tuturmuş.

İndi ölkəmizdə təbiətin mühafizəsi işi ümumdövlət, ümumxalq səviyyəsində qaldırılmış və onun icrası hər bir sovet vətəndaşının gündəlik fəaliyyətinə daxildir. Buna görə də böyüməkdə olan nəslin təlim və tərbiyəsində həmin məsələnin tədrisi də nəzərdə tutulur. Artıq bəzi ali məktəblərdə təbiətin mühafizəsi kafedraları fəaliyyətə başlayır.

— Söz ki təlimdən düşdü, bir məsələyə də toxunmaq istərdik. Təlim və tərbiyədə əməli işin, təcrübənin əhəmiyyəti böyükdür. Təbiəti qorumaq sahəsində isə hər bir insanın fəaliyyətinə geniş imkan var. Elə respublikamızın paytaxtı Bakı şəhərində yeni yaşayış sahələrində tikilən məktəblərə baxsaq görərik ki, onlardan biri yaşıllıq içərisində itib, digərinin ətrafında isə bircə ağac da yoxdur. Halbuki yer də eynidir, imkan da...

— Təbiətə, ətraf mühitə və mən deyərdim ki, işə münasibət isə yox. Məgər o məktəbdə botanika, biologiya fənləri tədris edilmir? Bəs nə üçün o müəllimlər dərs dedikləri şagirdlərin köməyi ilə məktəbyanı sahəni əkmirlər? Uşaq ağac əkib-becərərsə, onda əməyə, zəhmətə vərdişlə yanaşar, həm də təbiətə məhəbbət hissi güclənər. Respublikamızda bu sahədə uğurlu fəaliyyət göstərən məktəblərin sayı az deyil. Məsələn, Yevlax rayonunun Xaldan qəsəbəsindəki məktəbin ətrafında şagirdlərin qüvvəsi ilə bir neçə hektar meşə salınmışdır. Onlar başqa məktəblərə, hətta meşə təsərrüfatlarına tinglər verirlər. Birinci Dövlətlərarası Tbilisi Konfransında təbiəti mühafizənin geniş kütlələr arasında təbliğinin zərurəti xüsusilə qeyd edildi.

— Əlbəttə, məsələnin bu tərəfi siz alimlər, mütəxəssislərlə yanaşı, mətbuat, radio-televiziya işçilərinə, yazıçı və jurnalistlərə də aiddir. Onlar aktual problemə həssaslıqla yanaşmalıdırlar. Bu yaxınlarda respublika qəzetlərinin birində dünya xalqlarının zərbi-məsəllərindən nümunələr verilmişdi.

Onlardan biri belə idi: "Kim ilan öldürmüşsə və alma ağacı yetişdirmişsə, demək, ömrünü əbəs keçirməmişdir". Bizcə, müasir baxımdan bu zərbi-məsəldə fikrin birinci tərəfi ilə ikincisi arasında böyük uyğunsuzluq, təzad var.

— Haqlısınız. Bu zərbi-məsəlin birinci hissəsi müasir vəziyyət üçün köhnəlib, arxaikləşib. Elə buna bənzər Azərbaycan məsəli də var. Deyir, ilanı görənə lənət, görüb öldürməyənə lənət, öldürüb basdırmayana lənət. Düzü, indi bu məsəli ucqar kənddə də eşitməzsən. Çünki müasir insan üçün ilan əvvəlki kimi təhlükəli deyil və o, nə vaxtdır ki, bir çox ağır xəstəlikləri ilan zəhəri ilə müalicə edir. İndi müxtəlif yerlərdə ilan bəsləyən məntəqələr də var. Elə biri də bizim Abşeronun Zirə qəsəbəsindədir. Bu gün adamı ilan öldürməyə çağırmağa, bunu qəzet vasitəsilə təbliğ etməyə heç bir ehtiyac yoxdur.

— Yəqin bütün bunlara görədir ki, son vaxtlar insanlar heyvanlar arasında təqsimat aparanda onları mütləq mənfi və müsbət "qəhrəmanlara" ayırmırlar. İndi timsah Gena milyonlarla balacanın sevimli qəhrəmanıdır. Elə seriyadan-seriyaya dovşanı qovan məşhur canavar da... Ona görə də bədii ədəbiyyatın özündə də, xüsusən şerlərimizdə bəzi ənənəvi, klassik bənzətmələrə müasir oxucunun səviyyəsi, məlumatı baxımından yanaşılmalıdır. Məsələn, şair mənfi qəhrəmanın qəbih hərəkətini göstərmək üçün (biz təmsili nəzərdə tutmuruq) bəzən onu çaqqal, goreşən, kaftar, ya da quzğuna bənzədir. Oxucu isə istər mərkəzi, istərsə də respublika televiziyasının verilişlərindən öyrənir ki, bu tipli heyvan və quşlar əslində təbiətin "sanitarlarıdır". Onlar olmasaydılar, yoluxucu xəstəliklər geniş yayıla bilərdi. Və şübhəsiz ki, bununla da bədii söz müəyyən dərəcədə öz kəsərini, dəyərini itirir.

— Yaxşı yadımdadır, vaxtilə məşhur sovet yazıçısı İ.Erenburq faşistləri itə bənzədənlərə etiraz edir, yazırdı ki, it insanın ən sadiq dostlarındandır. Faşistlər isə insanlığın, bəşəriyyətin düşmənləridir. Ona görə də onları "faşıstskiye psı" adlandırmaq olsa-olsa itlər üçün təhqirdir.

Bizim klassik ədəbiyyatımızda bayquş həmişə insana bədbəxtlik gətirən, onun gülzarlığını xarabalığa çevirən, bədniyyət bir rəmz kimi işlənmişdir. Əgər insan bülbülü bağçada-bağda görmüşdürsə, bayquşla xarabalıqlarda rastlaşmışdır. Düzdür, bayquş xarabalıqları sevir, lakin onları quş yox, insanın özü yaradır. İndi elmə məlumdur ki, bayquş müxtəlif həşərat və vəba kimi təhlükəli xəstəlikləri yayan siçanlarla qidalanır. Bununla da, o həmin xarabalıqlarda "təmizlik işi" aparır, epidemiya və antisanitariyaya qarşı mübarizə edir. Belə məlumatdan sonra, heç şübhəsiz ki, bizdə o quşa rəğbət oyanır. İndi bayquşu qorumaq məqsədilə onun adı beynəlxalq Qırmızı kitaba salınmışdır.

— Həsən müəllim, vaxtilə apardığımız söhbətdə təbiətin mühafizəsi sahəsində arzu olunan bir sıra tədbirlər artıq həyata keçirilmişdir. Elə Xəzər suyunun çirklənməsi kimi mühüm bir problemi götürək. Bakılıların yaxşı yadındadır ki, beş-altı il əvvəl yay mövsümündə onlar çox vaxt Şıx çimərliyindən evə məyus qayıdardılar. Bunun da səbəbi suyun üzünü bürüyən neft, mazut təbəqəsi idi. İndi belə hallar, demək olar ki, yox dərəcəsindədir.

— Bildiyiniz kimi, Xəzər suyunun vəziyyəti, əsasən, şəhərimizdəki müəssisələrin və bir də dəniz mədənlərindəki işin təşkilindən asılıdır. Əlbəttə, mən ətraf mühitin çirklənməməsi üçün görülən işləri nəzərdə tuturam. Əgər müəssisədə istehsal prosesləri qaydasında gedirsə, qurğular, cihazlar sazdırsa, demək, ətraf mühit də az çirklənəcək.

Yaxşı yadımdadır, "dəyirmi stol" arxasındakı söhbətdə yoldaşlar hələ də bəzi müəssisələrdə təmizləyici qurğuların yoxluğundan gileylənirdilər. Hətta göstərirdilər ki, bu məqsədlə buraxılan vəsait çox yerdə xərclənmir. İndi belə nöqsanlar aradan qaldırılmışdır. İstər sahildə yerləşən müəssisə olsun, istərsə də sudakı buruqlar, üzən gəmilər, onların hamısında təmizləyici cihazlar mövcuddur. İndi artıq bir sıra neftayırma zavodları dənizdən götürdükləri suyu təmizləyib, soyudub yenidən qapalı dövriyyə üsulu ilə təkrar işlədirlər. Bir çox müəssisələrin Xəzərə qaytardıqları sular dupdurudur... Bütün bunlara baxmayaraq, biz ətraf mühitin çirklənməsi sahəsində hələ çox işlər görməliyik. Hər şeydən əvvəl, insanlar sənayenin bütün sahələrində tullantısız istehsala nail olmalıdırlar. Bəşər övladını yaradan və yaşadan təbiətin özü bunu bizdən tələb edir.

Həsən müəllimə minnətdarlığımı bildirib, ömrünün əlli ilini doğma torpağın sərvətlərinin qorunmasına sərf edən alimə möhkəm cansağlığı, uzun ömür, şərəfli, xeyirxah fəaliyyətində müvəffəqiyyətlər arzulayıb ayağa qalxanda o, qarşısındakı köhnə qəzetə bir də baxdı və dedi:

— Əgər bu söhbəti indi keçirsəydik, mən "Ana təbiətə övlad münasibəti" başlığında bir sözü dəyişərdim.

— Hansı sözü?

— "Münasibət" sözünü. İndi o mənə nə isə bir az mücərrəd görünür. Onu "qayğı" sözü ilə əvəz edərdim.

— Bir az düşünəndən sonra qəzetdəki başlığı yenidən oxudu: "Ana təbiətə övlad qayğısı".

*"Ədəbiyyat və incəsənət" qəzeti*
*17 dekabr 1977-ci il*

ŞAHVƏLƏD XƏLİLOV
*AMEA-nın müxbir üzvü*

# MÜDRİK TƏBİƏTŞÜNAS VƏ BÖYÜK VƏTƏNDAŞ

Həsən müəllim Coğrafiya İnstitutuna direktor təyin edildiyi gündən heç bir ay keçməmiş (1968-ci ilin fevralında) institutun bütün aspirantlarını və aspirantura müddəti başa çatmış əməkdaşları öz iş otağına yığdı. Onların hər biri ilə ayrı-ayrılıqda söhbət edərək gələcək elmlər namizədlərinin çətinliyini, nəyə ehtiyacı olduğunu və onlara hansı köməklik göstərilməsini müəyyən etdi. Odur ki, Həsən müəllim mənim elmi rəhbərim Yusif İbadzadə ilə danışmış və dissertasiya işimlə də maraqlanmışdı. Y. İbadzadə bir ayın içində dissertasiyanı oxuyub qurtardı. Akademik H.Ə.Əliyevin qayğısı nəticəsində qısa bir müddətdə onlarla namizədlik və doktorluq dissertasiyası müdafiə edildi.

Azərbaycan təbiətinin gözəlliklərini axtarıb tapmaq və görmək üçün təbiət Həsən Əliyevə iti göz və sağlam ürək vermişdi. O, yorulmaq bilmirdi. 80-cı illərin sonunda ona vurulan mənəvi zərbələr olmasaydı, yəqin ki, bu gün onun haqqında keçmiş zamanda danışmazdıq..

Yadımdadır, 1968-ci il may ayının 18-də istirahət günü institutumuzun bir qrup əməkdaşı "Bakuvi" tədqiqat gəmisində Xəzəri və Bulla adasını səyahətə çıxmışdıq. Çox isti idi. Adaya çatandan sonra əməkdaşların əksəriyyəti günəş şüalarından ehtiyat edərək gəzməyə çıxmadılar və gəminin göyərtəsindəki örtüyün altında, kölgəlikdə istirahət edir, dənizdə çimirdilər. Həsən müəllim isə hələ gəmi adaya yan almamış uzaqdan sayqak sürülərini görmüş və fotoaparatının ikisini də hazırlamışdı. Adaya düşən kimi o, gənclərə xas bir çeviklıklə sayqak sürüsünün arxsınca düşdü. Uzaqdan ceyrana çox oxşayan və onun kimi iti qaçan bu heyvanları adaya köçürdükdən sonra onların sayı xeyli artmışdı. Lakin adanın yem bazası onların gələcək artımına imkan vermədiyindən tezliklə sayqakların başqa yerə köçürülməsi nəzərdə tutulurdu. Bunu biz Həsən müəllimdən öyrəndik. O, söhbət edə-edə buruna yığılmış sayqaklara lap yaxınlaşdı. Biz cavanlar onunla çətinliklə ayaqlaşırdıq. Həsən müəllimin 61, bizim isə 25-30 yaşımız ancaq olardı.

Düz on il sonra, 1978-ci ilin mayında institutun ekspedisiya dəstəsi

Araz çayında tikiləcək Xüdafərin su anbarının yerləşəcəyi ərazidə çöl tədqiqat işləri aparırdı. Akademik H.Ə.Əliyev ekspedisiyaya baş çəkmək və elmi məsləhətlər vermək üçün buraya gəlmişdi. Cəbrayıl və Zəngilan rayonları ərazisində Araz çayı dərəsində keçirdiyimiz marşrutlarda o, on il əvvəl olduğu kimi, özünəməxsus bir çevikliklə hərəkət edirdi. Heç kim inana bilmirdi ki, artıq Həsən müəllimin yaşı 71-ə çatmışdır.

H.Əliyev görkəmli alim və ictimai xadim kimi böyük nüfuza malik idi. Respublika miqyaslı tədbirlərin heç biri onsuz keçirilmirdi. Kənd təsərrüfatı, təbiətin qorunması, su təsərrüfatı və s. sahələrdə planlar və layihələr bilavasitə onun iştirakı ilə hazırlanırdı. Onun dəyərli məsləhətlərinə, arzu və təkliflərinə böyük ehtiyac duyulurdu. Həsən müəllim ona olan ümumxalq məhəbbətindən və özünün kəsərli sözündən böyük miqyaslı məsələlərin həlli, qanunçuluğun bərpası üçün istifadə edirdi. Rəhbərlik etdiyi Coğrafiya İnstitutuna, onun əməkdaşlarına və öz yaxınlarına gəldikdə isə son dərəcə ehtiyatla tərpənərdi. Həsən müəllimin çox böyük imkanlarına baxmayaraq, 20 il direktoru olduğu Coğrafiya İnstitutu Azərbaycan EA sistemində öz binası olmayan institutlardan biri idi. İnstitutumuz indiyə qədər şəhərin müxtəlif yerlərində başqa institutlar üçün nəzərdə tutulmuş binalarda yerləşir.

Akademik Həsən Əliyev görkəmli alim kimi 1970-ci ildə beynəlxalq Biblioqrafiya Nəşriyyatı redaksiyasının üzvü seçilmişdi. Redaksiyanın baş radaktoru Londondan göndərdiyi məktubunda Həsən Əliyevi təbrik edir və redaksiyanın diplomunu almaq üçün 6 ABŞ dolları göndərməyi xahiş edirdi. Hər cür imkanı olsa da o, dollar əldə etmək üçün heç yerə müraciət etmədi.

Mən 1970-ci ilin iyul ayında İngiltərənin Redinq şəhərində keçirilən dünyanın su balansına həsr edilmiş beynəlxalq simpoziumda iştirak etmək üçün Moskvaya yola düşməli idim. Həsən müəllim səfər ərəfəsində məni evinə çağırdı və xahiş etdi ki, vaxt tapıb Londonda Beynəlxalq Biblioqrafiya Nəşriyyatının redaksiyasına baş çəkim, onun məktubunu və ümumi çəkisi 150 qram olan üç şüşə qabdakı qara kürünü nəşriyyatın baş redaktoruna çatdırım. Londona həftəsonu çatdıq. Şənbə və bazar günləri idarələr işləmirdi. Bazar ertəsi isə səhər tezdən simpoziumun keçirildiyi Redinq şəhərinə yola düşdük. Mən Həsən müəllimin tapşırığını yerinə yetirə bilmədim. Qərara aldım ki, geri qayıdanda nəyin bahasına olursa-olsun mütləq redaksiyaya getməliyəm. Lakin Redinqdə öyrəndim ki, Vətənə yola düşəndə də Londona bazar günü gələcəyik və elə o gün də Parisə, oradan da Moskvaya uçmalıyıq. Çaşıb qalmışdım. Vəziyyəti bizi Moskvadan müşayiət edən tərcüməçi qadına danışdım. O, bu məsələni

İngiltərənin beynəlxalq turizm firması Kuksinin bizə qoşulmuş bələdçisinə bildirməyi məsləhət gördü. Bələdçi Həsən müəllimin verdiyi sovqatı baş redaktora çatdırmağa söz verdi...

Avqustun əvvəllərində Bakıya qayıtdım. İşə çıxdığım gün Həsən müəllimin məzuniyyətdə olduğunu öyrəndim. Xeyli sevindim. Düşündüm ki, o qayıdanadək Londondan da bir xəbər gələr. Mən özüm də məzuniyyətə çıxdım. İşə qayıdanda bildirdilər ki, Həsən müəllim məni axtarır. Vəziyyətdən xəbərsiz olduğumdan xeyli həyəcanlı idim. Həsən müəllim məni mehribanlıqla qarşıladı və Biblioqrafiya Nəşriyyatı redaksiyasının diplomunu göstərərək baş redaktorun ona göndərdiyi məktubu oxudu. Üstümdən ağır bir yük götürüldü. Sən demə, mən İngiltərədə olan dövrdə baş redaktor məzuniyyətdə imiş. O, Həsən müəllimin assistentini qarşılaya bilmədiyi üçün təəssüfləndiyini və hər dəfə qara kürünü yeyəndə Azərbaycanı yad etdiyini bildirirdi.

HƏBİB HƏSƏNOV
*Jurnalist*

## ZƏNGƏZUR ELİNİN YETİRMƏSİ

Dövlət və təsərrüfat orqanları tərəfindən təbii sərvətlərə təcavüzə qarşı Azərbaycanda ilk həyəcan təbilini vuran şəxs Həsən Əlirza oğlu Əliyev olmuşdur. "Həyəcan təbili" kitabını oxuyan hər bir kəs onun səhifələrində qarşıya qoyulan problem və vəzifələrə biganə qala bilməz. 25-30 il bundan əvvəl işıq üzü görən bu kitab olmasaydı, bəlkə indi respublikamızda meşələr xeyli azalmışdı.

Təbiəti cəsarətlə qorumaq ehtirası Həsən müəllimin həyat qayəsinə, məqsədinə çevrilmişdi. 1918-1920-ci illərdə erməni daşnak başkəsənlərinin Zəngəzurda törətdikləri qanlı faciə onun uşaq qəlbində Vətəni qorumaq əzmini alovlandırmışdı.

Həsən Əlirza oğlu ilə qiyabi tanışlığım (1960-cı ildən) sonralar məslək, əqidə, məqsəd dostluğuna çevrildi. "Sovet Ermənistanı" qəzetində çalışarkən Bakıdan bir məktub almışdıq. Məktubda Sisian rayonunun azərbaycanlılar yaşayan Şəki, Ağudi, Vağudi, Comərdli və digər kəndlərinin təbiəti haqqında mülahizələr yürüdülür, heyvandarlıq və əkinçilik sahələrində məhsuldarlığın artırılmasına dair tövsiyələr verilirdi. Sonralar qəzet səhifələrində Həsən müəllimin Basarkeçər, Krasnoselsk, Amasiya, Zəngi-

basar, Vedibasar bölgəsi rayonlarının torpaqlarını eroziyadan qorumaq, məhsul istehsalını artırmaq üçün lazımi aqrotexniki tədbirlərin icrasına aid bir sıra məqalələri qəzet səhifələrində dərc edildi.

Həsən Əlirza oğlu Naxçıvana gedərkən mütləq Yerevanda dayanar, redaksiyaya baş çəkər, əməkdaşlarla görüşər, qəzetin fəaliyyətinin yaxşılaşdırılmasına dair dəyərli məsləhətlər verərdi.

1965-ci ildə Ermənistan qaynar qazana bənzəyirdi. Ermənilər uydurma "böyük qırğının" 50 illiyini qeyd etməyə hazırlaşırdılar. Redaksiyanın gənc kollektivi 1918-1920-ci illərdə erməni daşnak respublikasında azərbaycanlıların başına gətirilən faciələrdən xəbərsiz idi. Belə bir məqamda Həsən Əlirza oğlu redaksiyamıza baş çəkməyə gəlmişdi. Naxçıvanda, Zəngəzurda, Vedibasarda daşnaklar tərəfindən törədilən vəhşiliklər haqqında onlarca faktı redaksiya əməkdaşlarının nəzərinə çatdırdı. Redaksiya kollektivi bu faktları əsas götürərək hadisələrin şahidi olan və daşnak siyasətini pisləyən erməni müəlliflərini tapıb, onların çoxsaylı məqalələrini qəzet səhifələrinə çıxarmağa müvəffəq oldu.

Hindistana səfərlərindən birində Həsən müəllim oradan bir fotoşəkil gətirmişdi. Şəkildə möhtəşəm bir mədəniyyət ocağı binası əks olunmuşdu. Bu binanın üzərində ingiliscə "Sasunlu David" sözü həkk edilmişdi. O, şəkli göstərərək dedi: "Görün bu ... ermənilər haraya gedib çıxıb, xalqımızı ticarətdə aldadaraq milyonlar toplayıb, görün harada lövbər salıblar. Bir neçə yüz ildən sonra deyəcəklər ki, bura bizim torpaq olub. Xalqımızın tarixini yazıb nişanə qoymaq indiki nəslin borcudur".

Kürətrafı tuqay meşələrini qorumaq, onu bərpa etmək dedikdə, ovalıqda 800 kilometrə yaxın uzunluğu olan Kür çayı ətrafında bir neçə min hektar meşəni qoruyub saxlamaq nəzərdə tutulurdu. Qarşıya ülvi bir məqsəd qoyulmuşdu. Kür çayı hövzəsi 5 milyon nəfərə yaxın azərbayçanlı yaşayan ərazini əhatə edir, onun təsərrüfat strukturunun taleyini müəyyənləşdirir.

Təəssüf ki, bəzi rayon rəhbərləri Həsən müəllimin həyəcan təbilinin səsinə biganə qaldılar. Bir "ulduz", vəzifə naminə Kürətrafı meşələrin baltalanmasına rəvac verdilər. "Drujba" mişarını meşələrin dostuna yox, düşməninə çevirdilər. İndi Yuxarı Qarabağda Azərbaycan meşələrini baltalayan daşnaklarla Kürətrafı meşələri baltalayanlar arasında o qədər də fərq görünmür. Hər ikisi eyni dərəcədə Azərbaycan təbiətinə, Azərbaycan xalqına təcavüz edənlər, zərbə vuranlardır. Həsən Əlirza oğlu hesab edirdi ki, cəmiyyət təbiətin istehlakçısından öncə onun istehsalçısı olmalı, daim təbii sərvətlərin artırılması qayğısına qalmalıdır. Bərpa olunmayan təbii sərvətlərdən qənaətlə istifadə etmək və onları bərpa edib çoxaltmaq da bir o qədər vacib və əhəmiyyətlidir.

İndi respublikamızın meşə fondu ümumi ərazinin təqribən 9-10 faizi qədərdir. Əgər hər bir rayonda ildə bircə hektar meşə qırılsa və bu sahədə bərpa işləri görülməsə, elə bir vaxt gəlib çatar ki, respublikamız susuz əraziyə, qayalıqlara çevrilər, böyük Afrika səhrasını andırardı. Məhz buna görə də Həsən Əlirza oğlu təbii sərvətlərin bərpasına dair nəzəri məsələləri işləyib hazırlamaqla yanaşı, bu məsələlərin əməli surətdə icrası ilə də yaxından məşğul olmuşdur. Siyəzən-Quba yolu ilə gedən hər bir kəs yolun qərb tərəfində, təpələrin vaxtilə boş olan sahələrində adamın gözünü oxşayan şam meşələrini görüb heyran olmaya bilməz. Lakin az adama məlumdur ki, bu meşə sahələri Həsən Əlirza oğlunun şəxsi təşəbbüsü, sxemi və iştirakı ilə salınıb. Burada eninə açılan terraslarla cərgələrdən birində şam ağacı, digər cərgədə isə badam ağacları əkilib. Bu sahələrə çəkilən xərc çoxdan ödənilib. Əgər hər 10 kvadratmetrdə bir ədəd ağac bitib möhkəmlənərsə, bir hektar sahədə ən azı 500 ədəd bar verən badam ağacı qalmış olar. Əgər hər bir badam ağacından ildə bircə kiloqram da olsa badam məhsulu yığılarsa, bu 500 kiloqram badam edər. Buraya hələ şam ağaclarının dəyərini, cərgələr arasından yığılan otun qiymətini daxil etmirik. Quraq regionlarda terras üsulu ilə meşə salınmasının əhəmiyyəti və səmərəliliyi əməli işdə öz yaxşı nəticəsini verir. Bu təcrübə genişləndirilməlidir.

Tovuz şəhərinin girəcəyində, Tovuz çayının hər iki sahilində salınmış şam meşələri də Həsən Əlirza oğlunun təşəbbüsü, məsləhəti ilə həyata keçirilmişdir. İsmayıllı, Balakən, Zaqatala zonalarında qoz ağacı plantasiyalarını, Eldar şamı sahələrinin genişləndirilməsini və s. də buraya əlavə etmək olar.

Əməli fəaliyyəti ilə yaxından tanış olan, əsərlərini oxuyan, çıxışlarını dinləyən hər bir kəs Həsən Əlirza oğlunun simasında doğma vətəndaş, xalqını hədsiz məhəbbətlə sevən, onu layiqincə təmsil edən böyük şəxsiyyəti, fədakar insanı görürdü.

Həsən Əlirza oğlu bütün ömrünü elmə həsr etmişdir. O, doğma xalqına, Azərbaycanımıza sədaqətlə xidmət edən dərin zəkalı alim, müdrik ağsaqqal idi.

Məhəmməd peyğəmbərin aşağıdakı kəlamı Həsən Əlirza oğlu üçün həmişə dan ulduzu, istiqamətverici ideya rolunu oynamışdır: "Elm köməksizlikdə yoldaşımız, xoşbəxtliyə tərəf yolgöstərənimiz, dostlar arasında zinətimiz, düşmənlər arasında isə silahımızdır". Həsən Əlirza oğlunun təşəbbüsü və tövsiyəsinə əsasən respublikamızda sənaye tədarükü üçün yüksək zülal maddəsi olan türpək əkini sahələri genişləndirilmişdir. Bu hesabla mal-qaranın yem bazasının möhkəmləndirilməsi istiqamətində zəngin yaşıl kütlə alınması süd istehsalının artmasını təmin edən əsas bazaya çevrildi.

Respublikamızda təbii qoruqların yaradılmasının böyük əhəmiyyətini təbliğ etmək və yeni qoruqlar yaratmaq Həsən Əlirza oğlunun həyatının əsas qayələrindən biri idi. Onun məsləhəti və bilavasitə iştirakı ilə respublikamızda qoruqların və yasaqlıqların şəbəkəsi genişləndirilmiş, hər bir zonada onun təbii zənginliklərini səciyyələndirən qoruqlar və yasaqlıqlar təşkil olunmuşdur. Qızılağac, Hirkan, Zaqatala və Göy göl qoruqlarından sonra bir-birinin ardınca İlisu, İsmayıllı, Pirqulu, Bəsitçay, Türyançay, Şirvan, Ağ göl, Qobustan, Qara göl qoruqları, 18 yasaqlıq təşkil olundu. Bu qoruqların ümumi sahəsi 196 min hektar təşkil edir ki, bu da respublika ərazisinin vur-tut 2,29 faizi qədərdir. Azdır, çox azdır. Lakin bu qoruq və yasaqlıqların təşkilinin nə qədər maneələrlə qarşılaşdığını yalnız onu təşkil edənlər bilirlər.

Respublikamızdakı qoruqlarda aparılan elmi-tədqiqat işlərinə bilavasitə Həsən Əlirza oğlu rəhbərlik edir, istiqamət verirdi. Ümumiyyətlə, meşəçi kadrların hazırlanması, ixtisaslarının artırılması istiqamətində onun fəaliyyəti hədsizdir.

Məlumdur ki, meşə təsərrüfatı xalq təsərrüfatının mühüm sahələrindən biridir. Bu mürəkkəb sahəni bacarıqlı mütəxəssis olmadan idarə etmək çox çətindir. Lakin vaxtilə respublikada bu sahə ikinci dərəcəli hesab edilmiş, Meşəçilik İnstitutu meşəsi olmayan Bərdə rayonuna köçürülmüş, 1954-cü ildə isə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun meşəçilik fakültəsinin ləğv edilməsi haqqında heç bir əsası olmayan qərar çıxarılmışdı.

Beləliklə, 25 ildən artıq bir müddətdə respublikamızda meşəçi mütəxəssislərin hazırlanması dayandırılmışdı. Bu boşluğu doldurmaq üçün Həsən Əlirza oğlunun yardımı ilə Meşə Təsərrüfatı Nazirliyi 1980-ci ildə Novoçerkassk Meşəçilik İnstitutunda respublikamız üçün meşəçi kadrlar hazırlanması məsələsini həll edə bildi. İldə 15-20 nəfər hazırlanması kadr qıtlığının aradan qaldırılmasına imkan yaratdı. Leninqrad Meşə-Texniki Akademiyasında da respublikamız üçün kadr hazırlanması təşkil olundu.

80-ci illərdə keçmiş SSRİ-də atom elektrik stansiyalarının tikintisinin geniş planı tərtib olunub həyata keçirilirdi. Zaqafqaziyada ilk AES Ermənistanda — Eçmiadzin və Hoktemberyan rayonları sərhədində tikilən Metsamor AES oldu. Belə bir stansiyanın Gürcüstanda da tikilməsi nəzərdə tutulmuşdu. Stansiya İori (Qabırra) çayı üzərində Mingəçevir su qovşağından bir neçə kilometr məsafədə tikilməli idi. Hələ o dövrdə, AES-lərin tikintisinə böyük əhəmiyyət verilən vaxtlar Həsən Əliyev bu planın reallaşması əleyhinə çıxdı. Bir çox təbiətsevərlərlə birgə sənəd üçün imza toplanmasına imkan vermədi. Həsən Əlirza oğlu bunu onunla əsaslandırdı ki, Metsamor AES Araz çayının qolu olan Qarasu üzərində tikilir. Əgər

stansiyada texniki bir nasazlıq baş verərsə, radioaktiv elementlər Araz çayı vasitəsilə Xəzər dənizinə axıb Naxçıvan Muxtar Respublikasını, habelə çayətrafı rayonları, o cümlədən Bakını təhlükə altında qoyar.

Gürcüstan AES-dən də bu cür təhlükə gözlənilir. Bu stansiyanın tullantıları Mingəçevir gölünə, oradan da Kür çayı vasitəsilə Azərbaycanın ikinci yarısına axaraq oranı məhv edər. Gürcüstan AES-ın seysmik zonada yerləşməsi bu təhlükəni daha da artırır. Həsən Əlirza oğlunun uzaqgörənliyi, qəti etirazı və əsaslı arqumentləri sayəsində iki ildən artıq müddətdə olan çəkişmələrə son qoyuldu. Gürcüstan AES-in tikintisi plandan çıxarıldı. Lakin bundan sonra Moskva daha təhlükəli bir plan irəli sürdü. Əgər Gürcüstanda tikilməsinə icazə vermirsinizsə, onda bu stansiya Azərbaycanda tikilməlidir, çünki Zaqafqaziyada elektrik enerjisinə böyük ehtiyac duyulur. Bu ehtiyac aradan qaldırılmazsa, bölgədə sənayenin, ümumiyyətlə, xalq təsərrüfatının inkişafı dayanar.

İlk variantda bu stansiyanı Salyan rayonunda, Şirvan dövlət qoruğu ərazisində tikmək nəzərdə tutulmuşdu. Yenidən Həsən Əlirza oğlunun etiraz səsi ucaldı. Əgər Gürcüstanın və Ermənistanın elektrik enerjisinə ehtiyacları ödənmirsə, Metsamor AES-in gücü artırılsın, Gürcüstanda olan çayların enerji ehtiyatlarını işə salsınlar. Azərbaycandan Ermənistana gedən və Hrazdan istilik elektrik stansiyasında yandırılan təbii qazın və mazutun verilməsi dayandırılsın. Bu hesaba Mingəçevir və Əli Bayramlı DRES-lərin gücü artırılsın. Beləliklə, hər üç respublika öz imkanı daxilində elektrik enerjisi ilə təmin edilə bilər.

Şirvan dövlət qoruğunda tikinti baş tutmadıqdan sonra ikinci bir variant ortaya atıldı. Bu dəfə Ağdaş kəndi yaxınlığında, Əli Bayramlı şəhəri ilə bitişik sahədə stansiya üçün yer seçilməsi təklifi irəli sürüldü. Bu təklif də etirazla qarşılandı. Mütəxəssislərin əksəriyyəti sənədə imza atmaqdan imtina etdi. Bütün bunlara baxmayaraq, Azərbaycan SSR Nazirlər Soveti Azərbaycanda AES tikilməsi haqqında qərar qəbul etdi. Necə deyərlər, şənbə bazardan əvvəl gəldi. Çernobıl AES-də qəza baş verdi, SSRİ dağıldı, Azərbaycanda AES tikintisi dayandırıldı. Azərbaycanda AES tikintisinin təşəbbüskarı milliyyətcə erməni olan Petrosyans idi. İndi dərk etmək olur ki, onun bu canfəşanlığı nəyə görə imiş?!

Mən Həsən Əlirza oğlunu belə — vətənpərvər, xalqının dərdini yüngülləşdirmək üçün həyatını fəda etməyə hazır olan, təbiətin qorunması arxasında mənsub olduğu xalqın daha firavan həyatının təminatını görən, təbiətə qarşı təcavüzü cəmiyyətə qarşı təcavüz kimi qiymətləndirən böyük bir şəxsiyyət kimi tanıyıram.

Bu qısa düşüncələr vasitəsilə Həsən Əlirza oğlunun ideyalarını öz fi-

kirlərimlə çulğalaşdıraraq, oxucuların mühakiməsinə verir, onun böyük məqsədlərinin təbliğini özümə borc bilirəm. Tarixi xalq yaradır. Onu ziyalıları qələmə alır. Əgər bu tarix alimlər tərəfindən qələmə alınıb gələcək nəslə çatdırılmazsa, insan öz soykökünü, onun fədakar övladlarını unudar. Soykökünə sadiqlik isə xalqa sadiqlikdir.

QAFAR CƏLİLOV
*Biologiya elmləri namizədi*

## XOŞ NİYYƏTLİ İNSAN

Həsən müəllimlə yaxından tanışlığım və əməkdaşlığım əsasən, onun Azərbaycan Təbiəti Mühafizə Cəmiyyəti Mərkəzi Şurası Rəyasət Heyətinə başçılıq etdiyi dövrdən başlamışdır. Əməkdaşlıq etdiyim dövrdə Həsən müəllimin sərəncamına əsasən Zaqatala, Hirkan, Qarayazı, Türyançay, Pirqulu və digər dövlət qoruqlarının təsərrüfat fəaliyyətinin, flora və faunasının mühafizəsinin vəziyyəti, qoruq rejiminə təsiri, mövcud meşələrin mühafizəsi, bərpası, meşələrdə baş verən qanunsuzluqların aşkar olunması üzrə dövlət səviyyəli yoxlamalar aparılması, təbiətin, təbii sərvətlərin qorunması və əlaqədar vətəndaşların şikayətlərinin araşdırılmasında iştirak etmişəm.

Həsən müəllim təbiəti, təbii sərvətləri sevən, onlara qayğı göstərən, onların gələcək nəsillərə saxlanması sahəsində qarşıya qoyulan problemlərin həllinə çalışan bir şəxsiyyət idi. O, yaxşıya yaman, yamana yaxşı deməyi sevməzdi. Hər şeyi olduğu kimi görmək istəyirdi. Yaxşı-yaman məfhumlarında, bir qayda olaraq, yaxşını üstün tutar, onu yaddan çıxarmaz, yamanı isə unutmağa cəhd edərdi. Haqlını haqsızdan, güclünü zəifdən məharətlə seçməyi bacarar, haqlıya meydan verər, haqsızın qarşısına sipər çəkərdi, haqqı, ədaləti üstün tutardı. O, gözəl yaddaşa və hafizəyə malik idi. Elə ilk görüşdən qarşıdakı şəxsin daxili dünyasını, istək və arzusunu duyar, hiss edər və haqqında dürüst fikir söyləyə bilərdi. Ona görə təbiətin, təbii sərvətlərin mühafizəsi, baş vermiş qanunsuzluqlar sahəsində eşitdiklərini, xəbərlərin kimlər tərəfindən verildiyini, sadəcə olaraq götür-qoy edər və məsələnin araşdırılmasının zəruri olub-olmaması, araşdırıcıların vəzifəsi, şəxsiyyəti barədə fikirləşər və müəyyən qərara gələrdi. O, hər hansı məsələnin həlli üçün seçdiyi şəxslərə inanar və bu məsələ ilə əlaqədar onlarla şəxsən görüşməz və xüsusi tapşırıqlar verməzdi.

Sadəcə olaraq, müəyyən rayonda, obyektdə baş verən qanunsuzluğu nəzərə çatdırar və yoxlamada hansı mütəxəssislərin iştirak edəcəyi barədə göstəriş verərdi.

1979-cu ilin ilk payız günlərindən biri idi. Azərbaycan EA Botanika İnstitutu meşəşünaslıq şöbəsində baş elmi işçi vəzifəsində işləyirdim. Şöbənin əməkdaşlarından biri iş otağıma daxil olub, Həsən Əliyevin məni çağırdığını söylədi. Doğrusu, qulağıma inanmadım və bu sözü zarafat saydım, onun məni tanımadığını bildirdim. O isə direktorun məni gözlədiyini təkrar etdi. Həsən müəllim qısa və aydın tərzdə: "Çox mürəkkəb meşə qırıntısı faktını yerində yoxlamaq üçün komissiya yaradılıb, hazırlaş, bu axşam və ya sabah tezdən Meşə Təsərrüfatı İstehsalat Birliyinin nümayəndəsi ilə birlikdə Cəlilabad rayonuna gedəcəksən. Ezamiyyə məsələsi direktorunuzla həll edilib. Rayon partiya komitəsi ilə əlaqə saxlayın, onlardan nümayəndə götürün, ehtiyatlı olun" — dedi. Məhz bu andan sonra mənə aydın oldu ki, o, məni yaxşı tanıyırmış.

Yoxlama rəsmi sənədlər əsasında, üç təşkilatın nümayəndəsi və şikayətçilərin iştirakı ilə Cəlilabad meşə təsərrüfatında aparılırdı. Burada özbaşına aparılan qırıntı sahələri müəyyənləşdirilməli, əldə edilən oduncaq ehtiyatı dəqiqləşdirilməli, nəzəri cəhətdən əsaslandırılmamış və bu vaxta qədər heç yerdə tətbiq edilməmiş, lakin ərazidə geniş həyata keçirilən "Galada qırma" üsulu faktı (əgər vardısa) yerində aşkar olunmalı idi. Bu üsul həqiqətən dünyada məlum deyildi. Deməli, kəsilən ağacın izi görünməsin deyə, əvvəlcə onun kök boğazının ətrafı qazılıb torpaqdan təmizlənir, ağac yıxıldıqdan və oradan götürüldükdən sonra həmin çala yenidən torpaqla doldurulur. Belə olduqda ağacın izi itir, onlar bir daha vegetativ yolla təbii bərpa olunmadan məhrum edilir. Görünür, təbiətin, təbii sərvətlərin carçısı Həsən müəllimi də narahat edən əsas məsələ meşələrimizdə geniş miqyasda tətbiq olunan özbaşına "Çalada qırma" üsulu və gələcəkdə baş verə biləcək acı nəticələrin qarşısını almaq imiş. Bu özbaşınalıq, əsasən, Cəlilabad, Astara — Lənkəran qrup rayonlarında baş verirdi.

Arzu edərdim ki, hər kəs təbii sərvətləri Həsən müəllim kimi ürəkdən sevsin, ona biganə qalmasın, nadanlara qarşı barışmaz, inadkar olsun.

Həsən müəllim respublika ərazisindəki bitki növlərinin dəqiqləşdirilməsinə səy göstərər, onların yabanı yayıldığı arealların müəyyənləşdirilməsinə yüksək qiymət verər, müasir vəziyyəti, mühafizəsi ilə çox maraqlanardı. Bununla yanaşı o, dəqiq olmayan məlumatları, həqiqəti aşkar etmək üçün yollar axtaran, onun üzə çıxmasına çalışan təmkinli və səbrli şəxsiyyət idi.

Həsən müəllim gənc nəslə havadarlıq edən, zamanın tələblərinə uy-

ğun məsləhətlər verən insan idi. 1974-cü ilin iyul ayının son günlərində bir dostumun elmlər doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiəsində iştirak edirdik. Müdafiə Azərbaycan EA-nın iclas salonunda gedirdi. Müdafiə Şurasının sədri Həsən müəllim idi. Müzakirənin qızğın və mübahisəli keçməsi sədrin xoşuna gəldi və o: "Hər hansı məsələnin sorğu-suallı keçməsi onun güzgüsüdür" — dedi. Müdafiə sona çatdıqdan sonra sədr şura üzvlərinə və iştirak edənlərin hamısına təşəkkürünü bildirdi və onlarla vidalaşdı. Mən də, dostlarım da Həsən müəllimlə xeyli vaxt idi ki, görüşməmişdik. Salonun çıxış qapısının yanında onu gözlədik. Bizə elə gəldi ki, o, fikir vermədən keçib gedəcəkdir. Lakin belə olmadı. Bərabərimizə çatanda dayandı, bizimlə mehribancasına görüşdü. Elmi işimizin nə yerdə olduğunu soruşdu və əlavə etdi: "Nə qədər ki, sağ-salamatam, çalışın işinizi qurtarın, gətirin baxaq, məsləhət verək, kömək edək, sizin də belə şərəfli gününüzü görək, təbrik edək, elmdə, həyatda yeni-yeni uğurlar arzulayaq". Kaş onun səmimi sözləri, arzuları, xeyirxah əməlləri müəyyən adamlara da örnək olaydı.

Həsən müəllim, Sizin səmimi və qayğı ilə dolu sözləriniz yaddaşlardan silinməyəcək, adınız həyatda həmişə xoş istəklə anılacaqdır.

HABİL HAQVERDİYEV
*Coğrafiya elmləri namizədi*

## ÖMÜRLƏRDƏ YAŞAYAN İNSAN

Mən Həsən müəllimi 1967-ci ildən Coğrafiya İnstitutunda işə başladığım vaxtdan tanıyırdım. O, başqa işlərlə yanaşı, elmin astanasına yenicə qədəm qoyan, onun dərinliklərinə bələd olmağa çalışan gənc aspirantlarla vaxtaşırı söhbətlər edər, onların elmi problemləri və ailə ehtiyacları ilə maraqlanardı.

İş elə gətirdi ki, aspiranturanı qurtaran kimi, 1974-cü ildə institutun ümumi iclasında akademik B.Budaqovun təklifi ilə yerli həmkarlar komitəsinin sədri vəzifəsinə seçildim. O vaxtdan institutun direktoru akademik Həsən Əliyev və direktor müavini professor Budaq Budaqovla birgə həyatımın ən məsuliyyətli və həm də maraqlı anlarını yaşamağa başladım.

Həsən müəllim çox qayğıkeş adam idi. Öz işçilərinə əlindən gələn köməkliyi əsirgəməzdi. 1978-ci ilin əvvəllərində o, bir dəfə məni yanına çağırıb institutda mənzilə ehtiyacı olan əməkdaşlar haqqında təcili arayış

hazırlayıb verməyi tapşırdı. Səhərisi gün mən mənzil növbəsinə dayanmış təxminən 20 əməkdaşımızın mənzil şəraiti haqqında geniş arayış hazırlayıb ona təqdim etdim. Mənzil məsələsinin müsbət həll olunması o vaxtlar da çətin idi. Həsən müəllim böyük maneələrə rast gəldi, çox çalışdı, zəhmət çəkdi, lakin istədiyinə nail oldu.

Həsən müəllim həqiqəti üzə deməkdən, xüsusən də vəzifə sahiblərini tənqid etməkdən çəkinməzdi.

Bir dəfə o vaxtlar Bakı Şəhər Sovetinin sədri işləyən A.Məmmədov və 26 Bakı komissarı RİK-in sədri A.Quliyevlə onun belə bir söhbətinin iştirakçısı oldum: "Siz mənzilləri tanış-bilişlərə hədiyyə kimi bağışlayırsınız, ancaq mən hələ mənzil nə olduğunu bilməyən, başı üstə damı olmayan, tələbə-fəhlə yataqxanasında zillət çəkən kasıb-kusub balaları olan alimlərə bir qarış "yuva" vermək üçün çalışıram". Bu yolla 1979-1981-ci illərdə Həsən Əliyevin bilavasitə ağır zəhməti, prinsipiallığı nəticəsində Coğrafiya İnstitutunun əməkdaşları üçün Bakı Şəhər Sovetinin "boşaldılmış" fondundan 10-a yaxın mənzil verildi.

İnsan dünyaya gəlir, boya-başa çatır, yaşayır və əl tutmaqla başqalarının da yaşamasına köməklik göstərir. Tarix sübut etmişdir ki, başqalarına əl tutanların, dayaq olanların bu dünyada ömrü uzun olur. Bax, Həsən Əliyev də belə insanlardan idi.

Həsən Əliyev direktor olduğu müddətdə Coğrafiya İnstitutunda ictimai işlərdə işləmişəm. Mən ondan yalnız və yalnız saflıq, qayğıkeşlik və bir də vətənpərvərlik görmüşəm.

Bir dəfə BDU-nun sabiq rektoru, mərhum prof. F. Bağırzadə bizim instituta, Həsən müəllimin görüşünə gəlmişdi. O, mənim yanımda Faiq müəllimə el ağsaqqalı kimi universitetdə baş verən mənfi hallarla əlaqədar iradını bildirdi və dəyərli tövsiyələr verdi. Dedi ki, eşidirəm, universitetdə bəziləri öz şəxsi mənafeyi haqqında düşünür, lakin onlar bilmirlər ki, Azərbaycanın gələcəyi olan gənclərin təmiz əqidələrinə qara ləkə salmaqla bütövlükdə Azərbaycan xalqının milli mənəviyyatına böyük ziyan vurmuş olurlar.

O, hər gün gördüyü işlərin qısa xülasəsini öz gündəliyində yazardı. Bu gündəliyi ümumi həyatının "Ömür səhifəsi" hesab edər və hamımıza bu cür işləməyi və bu cür yaşamağı məsləhət görərdi. Həsən müəllim hər il 9 May qələbə bayramını veteranlarla birgə çox təntənəli şəraitdə qeyd edərdi. O, böyük zövqlə geyinər və dövlət mükafatlarının hamısını — orden və medallarını səliqə ilə sinəsinə taxardı. Onda Həsən müəllim çox müdrik və əzəmətli görünərdi. Hiss olunurdu ki, o, keçmişinə, ötən günlərə hörmətlə yanaşır. Mərasim təntənəsində çıxış edər, müharibənin dəh-

şətlərindən danışar, sonra isə Azərbaycan xalqının xoş gələcəyi naminə hamının ürəklə işləməsini arzulardı. Lakin Həsən müəllim qələbə bayramı günlərində müharibə iştirakçılarının sıralarının seyrəldiyini gördükdə təəssüflənər, həyatın vəfasızlığını duyurmuş kimi qəhərlənərdi.

Azərbaycanın hər yerindən Həsən müəllimin yanına məsləhətə gələrdilər, gələnlərin çoxusu köməksiz kənd adamları olardı. Akademik onları hörmət və qayğı ilə yola salar və imkan daxilində əl tutardı.

Həsən müəllim təkcə özü üçün yaşamırdı. O, imkansızın dayağı, tərəfsizin tərəfi, haqqın müdafiəçisi, xüsusən də yaradıcı gənclərin pənahı idi.

VAHİB RƏSULOV
*Kənd təsərrüfatı elmləri namizədi*

# QAYĞIKEŞ İNSAN

1965-ci ildə Elmi-Tədqiqat Eroziya Bölməsində kiçik elmi işçi işləyirdim və yenicə aspiranturaya daxil olmuşdum. Bölmənin müdiri professor Kazım Ələkbərov mənə elmi rəhbər kimi Həsən müəllimi məsləhət gördü və tapşırdı ki, onunla görüşüb razılığını alım. Mən bir az tərəddüdlə, bir az da çəkinə-çəkinə Akademiyaya, onun işlədiyi Torpaqşünaslıq və Aqrokimya İnstitutunun meşə torpaqları laboratoriyasına getdim. İlk baxışdan zəhmli görünən Həsən müəllim özünəməxsus mənalı, inam yaradan mehriban təbəssümü ilə çaşğınlığıma son qoydu. İlk söhbətimiz xeyli çəkdi və o, mənə təklif etdi ki, elmi mövzumu Quba-Xaçmaz massivinin Xəzərsahili qumlarının öyrənilməsinə həsr edim. Bir qədər tərəddüd etdiyimi görüb məni ürəkləndirməyə çalışdı: "Sən abşeronlusan, sahillərə yaxşı bələdsən. Bir halda ki, o sahillər az öyrənilib, işini elə onları öyrənməyə həsr etsən, pis olmaz". Beləliklə, 1965-ci ilin əvvəllərində başlayan şəxsi tanışlıq və ünsiyyət Həsən müəllimin ömrünün sonlarınadək davam etdi.

1965-ci ilin yaz-yay aylarında ilk çöl ekspedisiyasını başa vurub Bakıya qayıtdım. Nə isə mənə elə gəldi ki, sahil zonasından elmi iş yazıb, dissertasiya müdafiə etmək mümkün deyil. Fikrimi elmi rəhbər kimi Həsən müəllimə bildirdim. O, yenə də mülayim, mehriban təbəssümlə düzgün fikirdə olmadığımı qeyd etdi. Mənə məsləhət gördü ki, Moskvaya gedib kitabxanalarda, institutlarda mövcud ədəbiyyat materialları ilə yaxından tanış olum. Elə də etdim. Artıq Bakıya qayıdanda məndə inam yaranmışdı ki, Həsən müəllim öz təkidində haqlıdır, bu elmi mövzunu dissertasiya ki-

mi uğurla işləmək olar. Yenidən görüşdüyüm vaxt o, ilkin elmi məsləhətlərini verdi, elmi işimin plan-proqramını tam dəqiqləşdirib mənə bundan sonra inamla işləməyi məsləhət gördü.

1972-ci ilin əvvəllərində namizədlik işimin təsdiqini alan kimi Həsən müəllimin görüşünə getdim. O vaxtlar Həsən müəllim EA-nın Coğrafiya İnstitutunda direktor işləyirdi. O, məni səmimiyyətlə qarşıladı, təsdiqimi aldığımı biləndə ürəkdən təbrik etdi. Söhbət əsnasında mənim gələcək planlarımla maraqlandı və təklif etdi ki, gəlib Coğrafiya İnstitutunda işləyim. Mən Həsən müəllimə minnətdarlığımı bildirdim və onu da dedim ki, mənim layihə işlərindən xoşum gəlir və istəyirəm Layihə İnstitutuna gedib o işlərlə məşğul olum. Həsən müəllim fikrimi bəyəndi, yenə həmişəki kimi xoş təbəssümlə gülümsəyib mənə xeyir-dua verdi.

1983-cü ilin əvvəllərində mən yenidən elmi-tədqiqat işinə qayıtmağı qərara aldım. Fikrim Coğrafiya İnstitutunda, Həsən müəllimin yanında işləmək idi. Lakin bu istəyimi ona çatdırmağa tərəddüd edirdim.

1983-cü ildən ömrünün axırına kimi Həsən müəllimlə yaxından ünsiyyətdə oldum. Yadımdadır, onunla birlikdə apardığımız elmi işlə bağlı rayonlarda təcrübə sahələri seçmək lazım idi və bunda çətinlik çəkdiyimi ona bildirdim. Artıq Həsən müəllim yaşa dolmuşdu, həddən artıq elmi və ictimai işlərlə məşğul olurdu. Bununla belə, vaxt tapıb mənimlə rayona getdi, ərazilərin seçilməsində, işin təşkilində mənə böyükköməklik göstərdi. Birgə çöl işlərimiz zamanı mən onun cavanlıq həvəsi ilə piyada yol getməsinə, təbiətə vurğunluğuna həsəd aparırdım. O, fotoaparatla təbiət mənzərələrini böyük məhəbbətlə çəkir və bundan hədsiz zövq alırdı. Mənə elə gəlirdi ki, həmin anlarda Həsən müəllim yaşının 80-dən keçməsini tamam unudurdu. Bir dəfə o, maşından düşüb yamacla qalxmağa başladı. Xızı ətrafında yeni əmələ gələn meşələri lentə almaq istəyirdi. Mən başa düşürdüm ki, bu iş onun üçün bir qədər çətindir və təklif etdim ki, yamacla qalxıb meşələri mən lentə alım. O, razı olmadı və yamaca qalxaraq uzun-uzadı o yerlərin şəkillərini çəkdi, buranın 40-50 il bundan əvvəlki vəziyyətini, torpaq örtüyünün müxtəlif istiqamətli dəyişkənliyinin elmi izahını verdi. Keçmişdə bu ərazilərin torpaq örtüyündə apardığı tədqiqatları yad etdi, hətta hansı nömrəli torpaq kəsimini harada qoyduğunu iti yaddaşı ilə xatırladı. Ümumiyyətlə, Həsən müəllimin hər bir gəncin həsəd apara biləcəyi qədər möhkəm yaddaşı vardı.

Həsən müəllim öz yetirmələrinə və ümumiyyətlə, gənclərə qarşı çox həssas idi. Onlara həm elmi işlərində, həm də həyat, məişət məsələlərində qarşıya çıxan çətinliklərdə böyük insanpərvərlik və alicənablıqla yardım göstərməyə çalışardı.

1987-ci ildə Aşqabad şəhərində keçmiş SSRİ Elmlər Akademiyası Biosfer Problemləri Şurasının Türkmənistan SSR EA ilə birlikdə keçirdikləri səyyar sessiyada Həsən müəllimlə bərabər mən də iştirak edirdim. İstər sessiyada, istərsə də başqa elmi institutlarda o, Azərbaycanda təbiətşünaslıq, torpaqşünaslıq və təbiəti mühafizəyə dair çıxışlarında, məruzələrində, bir qayda olaraq, həmişə özü ilə gəzdirdiyi qurğu vasitəsilə vaxtilə çəkdiyi və Azərbaycan təbiətinin təkrarsızlığını əks etdirən rəngli slaydları nümayiş etdirməklə dinləyicilərində dərin maraq doğrururdu. Sessiya vaxtı SSRİ-nin müxtəlif respublikalarından gəlmiş görkəmli alimlər Həsən müəllimə çox hörmətlə yanaşır, onun fikri ilə hesablaşırdılar. Belə görüşlərdə o, həmişə məni öz yetirməsi kimi təqdim edirdi. Bəzən mənim sıxıldığımı hiss edəndə deyirdi ki, heç vaxt özünü başqalarının yanında kiçik göstərmə, diribaş və gözüaçıq ol.

Bu cəfakeş alimlə olan son görüşlərimdən biri ilə öz təəssüratlarımı tamamlamaq istərdim.

1991-ci ilin payız ayları idi. Həsən müəllim artıq yaşı və səhhəti ilə əlaqədar direktor vəzifəsindən çıxmışdı. İnstituta az-az gəlirdi. Bir gün mənimlə keçmiş aspirantı Səyyaf Xəlilova zəng vurub onu arayıb-axtarmadığımıza görə gileyləndi və bizimlə işi olduğunu bildirdi. Biz Həsən müəllimgilə getdik. Səhhətindən giley-güzar etdi, bir az da yaddaşının zəiflədiyindən şikayətləndi. Söhbət əsnasında bizə çatdırdı ki, deyəsən, qocalmışam. Bütün ömrüm boyu tədqiq etdiyim Böyük Qafqaz dağlarının torpaqlarına dair əsərimin ikinci cildini tamamlamışam. Gözlərim zəiflədiyinə görə bəzi xırda məsələlərin həll edilməsində çətinlik çəkirəm. Sonra o, monoqrafiyanın əlyazmasını bizə verib lazımi tapşırıqlarını söylədi. Həsən müəllimin başqa tələbələri ilə birlikdə qısa vaxtda əsərin üzərində işləyib geri qaytardıq. Çox sevindi və bir az da doluxsundu. Ayrılanda monoqrafiyaya işarə edərək dedi: — "Sizə bu qalacaq".

Doğrudan da, bu gün Həsən müəllimi səmimi-qəlbdən xatırlayarkən, ilk növbədə, onun insani əməlləri və bizə qoyub getdiyi qiymətli əsərləri nəzərimizdə canlanır. İstər onun yetirmələri olan bizlər, istərsə də elmi ictimaiyyət Həsən müəllimin yazıb bizə irs qoyduğu və bu günə kimi işıq üzü görməmiş əsərlərini, o cümlədən "Şimal-Şərqi Azərbaycanın düzən meşə torpaqları və sahil qumları, onların perspektiv istifadəsi" əsərini çap etdirə bilsək, onun əziz xatirəsinə ən böyük ehtiramımızı göstərmiş olarıq.

Onu da deyim ki, Həsən müəllimin "Böyük Qafqazın torpaqları" əsərinin birinci cildi 1987-ci ildə çap edilmişdi. Lakin həmin əsərin ikinci cildi çap olunmamış qalırdı. H.Əliyev dünyasını dəyişdikdən sonra B.Ə.Budaqov onun sanballı əsərinin ikinci cildinin çapı ilə ciddi məşğul oldu. Bu ba-

rədə Budaq müəllim Azərbaycan EA prezidentinə müraciət etdi. Akademik E.Y.Salayev bu məqsəd üçün Akademiyanın pulu olmadığını bildirdi. B.Ə.Budaqovun sponsor tapmaq səyi 1994-cü ildə öz bəhrəsini verdi. Həmin il onun redaktəsi altında və Haçı Xudaverdi Şükürovun sponsorluğu ilə H.Əliyevin 20 cap vərəqi həçmində "Böyük Qafqazın torpaqları" (ikinçi çild) adlı əsəri yüksək poliqrafik səviyyədə çap edildi. Bu, akademikin xatirəsinə ən sanballı elmi töhfələrdən biri idi. Əsərin işıq üzü görməsi ilə Həsən müəllimin ruhu bir daha elm dünyasına bağlandı.

GÜMRAH MUSALI
*Kənd təsərrüfatı elmləri namizədi*

## HƏSƏN MÜƏLLİMİN QOVAĞI

Azərbaycanın görkəmli alimi Həsən Əliyev təmasda olduğu adamların hamısının xatirində mütləq yaddaqalan bir iz qoymuşdur. O, təbiətsevər alim olmaqdan başqa həm də mehriban bir insan idi. Onu tanıyanlar bu qayğıkeş insana sadəcə olaraq "Həsən müəllim" deyə müraciət edirdilər.

Mən 1978-ci ildə Azərbaycan EA Coğrafiya İnstitutunun Pirqulu təcrübə stansiyasında mühəndis işləyirdim və vaxtaşırı onunla təmasda olurdum. İş elə gətirdi ki, 1979-cu ilin payızında Coğrafiya İnstitutunda imtahan verib aspiranturanın gündüz şöbəsinə daxil oldum. Lakin ailə vəziyyətim gündüz şöbəsində oxumağa imkan vermədi. Elə bu vaxt mən Pirqulu Dövlət Qoruğuna elmi işlər üzrə direktor müavini vəzifəsinə dəvət olundum.

Üç çətinlik qarşısında qalmışdım: aspiranturanın qiyabi şöbəsində oxumaq üçün Dövlət Plan Komitəsindən əlavə yer alınmalıydı. Coğrafiya İnstitutundan işdən çıxmalı və Pirqulu Dövlət Qoruğunda işləmək üçün Akademiyanın razılığını almalı idim. Kömək üçün Həsən müəllimə müraciət etməli oldum. Yadımdadır, Həsən müəllim məni diqqətlə dinlədikdən sonra qoruğa işə keçməyimin səbəbini soruşdu. Mən açıq bildirdim ki, ailəliyəm, Bakıya gəlmək imkanım yoxdur (mən Pirquluda yaşayırdım), həm də aspiranturada oxuyacağım müddətdə alacağım təqaüdlə ailəni dolandıra bilməyəcəyəm. Qoruqda isə nisbətən yüksək maaş almalı idim. Qoruq işinə vurğunluğumu da onun diqqətinə çatdırdım. Həsən müəllim söhbətimin səmimiliyinə inandı. O, çətin də olsa, aspiranturanın qiyabi şöbəsinə əlavə bir yer ala bildi, qoruğa göndərişlə işə keçməyimi həll etdi və beləliklə, 1980-cı ildə mən Coğrafiya İnstitutunda qiyabi olaraq təd-

qiqat işi apara-apara Pirqulu Dövlət Qoruğunda elmi işlər üzrə direktor müavini işləməyə başladım. Sonralar Həsən müəllimin elmi rəhbərliyi və köməkliyi ilə dissertasiya yazıb elmi dərəcə aldım.

Bu əməksevər insan Pirqulu qoruğuna tez-tez gələrdi. O, yaxını, doğması kimi mənim elmi axtarışlarımla, qoruqda görülən işlərlə maraqlanardı. Əslində qoruq 1968-ci ildə bilavasitə onun təşəbbüsü və əməyi ilə yaradılmışdı. Qoruqda elə bir yer yox idi ki, Həsən müəllim oranın fotoşəklini çəkməsin. Bizi də təbiət mənzərələrini çəkməyə həvəsləndirərdi. Deyərdi ki, bu şəkillərin hər biri təbiət tarixinin şahididir.

Nə vaxtsa İssık-Kul sahilindən gətirdiyi bir qovaq şitilini Pirqulu qoruğunun idarə binasının qabağında əkdirmişdi. Qovaq bizim iqlimə çətin uyğunlaşsa da bitmişdi. Hamı ona "Həsən müəllimin qovağı" deyərdi. Hər dəfə mənimlə görüşəndə qovağını soruşardı. Özü də ildə bir neçə dəfə onun şəklini çəkərdi. Həsən müəllimin qovağı bu gün də qoruğun giriş qapısında bu mehriban insanın yadigarı kimi gedib-gələnləri salamlayır.

Həsən müəllim dərin olduğu qədər də sadə və qayğıkeş idi. Adamı vəzifəsi ilə deyil, işi, mərifəti ilə dəyərləndirərdi. Hansı il olduğu yadımda deyil, ançaq onu bilirəm ki, Firuz Mustafayev Şamaxıda katib işləyirdi. Katiblərin yerə-göyə sığmayan vaxtı idi. İsti yay günlərinin birində Həsən müəllim qoruğa gəlmişdi. Qoruğun o zamankı direktoru Əli ilə mən Həsən müəllimlə birlikdə gəzə-gəzə gəlib Pirqulunun hündür bir yerində durduq, ətrafı seyr edə-edə təbiəti mühafizədən danışmağa başladıq. Elə bu dəm cözlənilmədən Firuz Mustafayevin bizə yaxınlaşdığını gördük. Yəqin ki, Həsən müəllimin burada olduğunu xəbərçiləri ona çatdırmış, o da fürsətdən istifadə edib onunla məxsusi görüşməyə gəlmişdi.

Biz bir az kənara çəkildik. Katib Həsən müəllimlə görüşdükdən sonra əlini bizə tərəf tuşlayıb, müqqəddiməsiz-filansız dedi: — Həsən müəllim, niyə bu "juliklərlə" gəzirsiniz? (Firuz Mustafayevin mədəniyyətdən uzaq kobud rəftarı Şamaxıda dastan olmuşdu). Həsən müəllim tutuldu, katibi başdan-ayağa süzüb dedi: — Firuz, səndən heç gözləməzdim. Bunlar mənim tələbələrimdir, özü də çox xeyirxah işlə, rayonunuzda təbiətin keşiyini çəkmək işi ilə məşğul olurlar.

Firuz səhvini başa düşsə də, üzrxahlıq etmədi, fikrinə ayrı məna verməyə çalışdı: — Yox, mən o mənada demirəm. Yəni demək istəyirəm ki, xəbər verəydiniz buradasınız, biz də tədarük görərdik.

Həsən müəllim səsinin tonundakı incikliyi gizlətmədi: — Sən bu təbiət keşikçiləri üçün yaxşı iş şəraiti yarat, özlərini də juliklikdən çıxart, onda deyim, əhsən, yoxsa...

Bəli, Həsən müəllim üçün təbiət, təbiətə qayğı, zəhmət, zəhmət adam-

larına diqqət dünyada çox şeydən üstün idi. İndi hər dəfə Həsən müəllimin qovağı ilə rastlaşdıqca o müdrik insanı xatırlayıb, rəhmət diləyirəm.

QURBAN BAYRAMOV
*Tarix elmləri doktoru*

## XX ƏSRİN GÖRKƏMLİ ALİMİ VƏ VƏTƏNDAŞI

Azərbaycan tarixi bir çox görkəmli alimlər yetişdirmişdir. XX əsrin dünya şöhrətli alimlərindən biri də Həsən Əlirza oğlu Əliyevdir. İyirmi beş monoqrafiyanın, 600-dən çox elmi əsərin müəllifi olmaq qeyri-adi bir yaradıcılıq güzgüsüdür. Həsən Əliyevi fərqləndirən ən mühüm cəhət elmə gətirdiyi çox mühüm yeniliklərlə yanaşı, bu uğurları əməli olaraq xalqının, vətəninin mənafeyinə yönəltməyə çalışması, onun tətbiqi yollarını göstərməsidir. Qısa desək, alimin dəyərli fəaliyyəti əsasən ikili xarakter daşımışdır: elmi kəşflər və onların təbiətdə, həyatda, insanların və cəmiyyətin mənafeyi naminə tətbiqi. Birincidə o, görkəmli alim kimi tanınırsa, ikincidə bu alimliyə onun böyük vətəndaşlığı, ziyalılığı əlavə edilir.

Mən nə coğrafiyaçı, nə də təbiətşünas-torpaqşünasam. İxtisasca tarixçiyəm. Mərhum akademiklə çoxdan tanışam. Dəfələrlə elmi fəaliyyətinə, respublikamızda elmi nəticələrin xalq təsərrüfatında tətbiqinə yönəldilməsinin əhəmiyyətinə, bu sahədə qarşıya çıxan çətinliklərə dair söhbətlərini dinləmişəm. Hər söhbətində onun böyük vətəndaş mövqeyi, xalqa yaxın olan ziyalılığı məni valeh edirdi. Məndə həqiqətən belə bir fikir yaranırdı ki, alim olmaq hələ azdır, vətəni, xalqı sevmək, bütün fəaliyyətini bir vətəndaş, xalqın dərdinə qalan ziyalı kimi bu istiqamətə yönəltmək lazımdır. Məhz bu keyfiyyətlər Həsən Əliyevə xas idi.

Görkəmli torpaqşünas alimin elmin bu sahəsinə vurğunluğundan irəli gələn düşüncələri təbiətin mühafizəsi üzrə də cəfakeş-qayğıkeş fəaliyyətinə səbəb olmuşdu. Nəticədə Həsən Əliyev tərəfindən Azərbaycanda Təbiəti Mühafizə Cəmiyyəti yaradılmış, qoruqlar təşkil edilmişdi.

Həsən Əliyevin məşğul olduğu elm sahəsi həyatın, yaşayışın əsası olan torpaq, ona həyat verən su, havadır. Akademiki bu üç ünsürün taleyi ciddi düşündürürdü. "İnsan üçün torpaqdan kənar təbiət anlayışı yoxdur", "Hər şeyi su ilə yuyurlar, bəs su çirklənəndə onu nə ilə yuyurlar?".

Torpaq korlanır, keyfiyyətini itirir, su çirklənir, hava çirklənir, heyvanat aləmi tükənir, meşələr sıradan çıxır, Azərbaycanın nadir ağaclarının, heyvanat aləminin kökü kəsilir və i.a. Bütün bunlar vətənpərvər insanı ciddi narahat edir. Bir coğrafiyaçı kimi Azərbaycanı qarış-qarış gəzən H.Əliyev hər yerdə belə təzadlarla qarşılaşır, həyəcan keçirir.

Bəs nə etməli? Xalqına, respublikasına necə xidmət etməli? — sualları nəhayət onun "Həyəcan təbili" əsərini meydana gətirir. "Həyəcan təbili" müəllifin ürək yanğısı, harayıdır. Öz əhəmiyyətinə görə həm müasirlərinə, həm də sonrakı nəsillərə təbiətə təcavüzün qarşısının alınması yolunda vətəndaşlıq-ziyalılıq andıdır. Monoqrafiyada qoyulan məsələlər vətənini, xalqını, təbiətini sevən hər bir kəs üçün istər ziyalı olsun, istər fəhlə, kəndli, istərsə məktəbli, hamıya aiddir. Müəllif bunu belə ifadə edir. "Əlimə qələm alarkən torpağın tədqiqindən başladım. Bu sahədə yazdığım kitablarımın da, məqalələrimin də oxucuları yalnız torpağı tədqiq edənlər və becərənlər oldu. Bəs torpağın dərdi? Torpağın dərdi çoxdur. Onu da düşünmək, görmək və hiss etmək lazımdır. Torpaq dilə gəlib şikayətləndi. Kimdən? Özünün "süd verib bəslədiyi" insanlardan, sinəsinə yara vuranlardan, gözlərinə zəhər tozu üfürənlərdən. Mən isə torpağın övladlarından birisi kimi haray saldım, dövrü mətbuatda məqalələrlə çıxış etdim, dedim ki, qoy səsimi hamı eşitsin. Kitabın adını da naşir dostlarım qoydular: "Həyəcan təbili". Dedilər: "Həyəcan təbili"ni haradan asaq ki, hamı eşitsin. Dostlarımdan biri dedi: — "Həyəcan təbili"ni insanların qulağının dibindən asmaq lazımdır".

Antey gücü torpaqda, torpaqla əlaqədə görünür. Akademik Həsən Əliyev də elmi fəaliyyətini torpağın öyrənilməsinə və onun mühafizəsinə, qorunmasına həsr etmişdir. "Həyəcan təbili"ndə qeyd edilən belə bir acınacaqlı vəziyyət qayğıkeş alimi ciddi narahat edirdi: "Yalnız Kür-Araz ovalığında 130 min hektardan çox torpaq sahəsi yararsız hala düşmüşdür. Eroziya nəticəsində Azərbaycan torpaqları ildə 1200 min ton kalium, 5-8 min ton fosfor və 82 min ton azot itirir, 100 min illər ərzində əmələ gəlmiş torpaq qısa müddətdə eroziya prosesi ilə yuyulub aparılır". Bütünlüklə respublika ərazisinin 35 faizindən çoxu yararsız hala düşüb.

Alimin müşahidələrinin nəticəsi, təbii ki, narahatçılığına və harayına səəb olmuşdur.

Bir dəfə Budaq Budaqov və mən Qalaaltında istirahətdə olan Həsən müəllimə baş çəkməyə getmişdik. O, bizə məsləhət gördü ki, dağ ətəyindəki meşələri seyr edək. Meşədən, ağaclardan, onların əhəmiyyətindən xeyli danışdı. Eyni zamanda, meşələrin qorunmamasından, onların qırılmasından ciddii narahat olduğunu qeyd etdi. Az sonra alimin həmin fikir-

lərini "Həyəcan təbili"ndə oxudum. O, meşəni "Həyat mənbəyi, yaşıl ciyər" adlandırır. "Həyəcan təbili"ndə meşələrin əhəmiyyətini xalq deyimləri ilə əsaslandırır, onu özünün həyat fəlsəfəsi hesab edir: "Meşə sudur, su məhsuldur, məhsul isə həyatdır". "Meşəni — Yer kürəsinin bu kəmərini bircə an təsəvvür etməsək, demək, bəşər yoxdur. Yaşıllığa ölçüsüz-biçisiz hücum insana qarşı yönəldilmiş ən ağır müharibədir".

Azərbaycan meşələrinin vəziyyətini dərindən öyrənən Həsən müəllim bir vətəndaş, əsl ziyalı kimi həyəcana gəlir. Kitabda göstərilir ki, Bərdə rayonunda 1945-ci ildə meşə ilə örtülü sahə 94 faiz idisə, 1965-ci ildə bu, 32 faizə enib. Tuqay meşələri sıradan çıxmaq, Kürqırağı meşələrinin 70 faizi öz əhəmiyyətini itirmək üzrədir və s. Bəs meşələrin belə acınacaqlı vəziyyətə düşməsinin səbəbi nə idi? Müəllif əsas səbəblərdən birini qazın olmaması ilə izah edir. Bu məsələyə xüsusi diqqət yetirən vətəndaş-alim özünün ciddi narazılığını bildirir. Necə olur ki, Azərbaycanın Kəlbəcər ərazisindən Cermuxa qaz kəməri çəkilir və ora qazla təmin edilir? İndi də bu kəməri çəkən rəhbərlər yenidən Cermuxdan İstisuya qaz kəməri çəkməyi xahiş edir, icazə istəyirlər? Haqlı olaraq alim bunun səbəbini təsərrüfatlara "başçılıq edən" rəhbərlərin başsızlığında görür. Bununla da Həsən müəllim hər bir məqamda rəhbər vəzifədə işləyənləri vətəndaşlıq mövqeyi tutmağa çağırır.

Həsən müəllim yaşıllaşdırma sahəsində hər hansı bir uğurlu addımı alqışlayır və onu sevinclə qarşılayır. Əsərdə xüsusi minnətdarlıqla qeyd edilir: "Əgər 70-ci ildə şəhərdə (Bakıda — Q.B.) adambaşına 6,5 kvadratmetr yaşıl sahə düşürdüsə, 75-ci ildə bu göstərici 17,5 kvadratmetrə çatdırılmışdır. İndi Bakıda hər nəfərə 22 kvadratmetr yaşıllıq düşür". Fərəhlə qeyd etmək lazımdır ki, bu dövr alimin qardaşı möhtərəm Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 70-80-cı illərə təsadüf edir.

Xalq şairi Səməd Vurğun əvvəllər Muğan çöllərini təsvir edərək öz sevincini "Gör necə yaraşır Muğana ceyran" misrası ilə ifadə edirdisə, xalqın böyük oğlu akademik Həsən Əliyev Muğanda ceyran sürülərinin azalmasından kədərlənir. Öz-özünə sual verir: nə üçün ADR meşələrində maral, cüyür, qaban, dağ keçisi sürü ilə gəzdiyi halda, bizim meşələrdə bunlar barmaqla sayılsın? Lap bu yaxınlaradək Qarabağ, Mil, Muğan və Şirvan düzənliklərində addımbaşı ceyran sürülərinə rast gəlmək olardı. Bəs onlar indi niyə görünmürlər? Həsən müəllim bütün bunlarla barışmaq istəmir və haray salır: "Hanı dadlı meyvələrimiz?" "Hanı sənin ceyranların, Ceyrançölüm?", "Təbiəti sevmək və onun sərvətlərindən istifadə etmək ümumxalq işidir" — çağırışları ilə hamımızı ayağa qaldırmağa çalışır.

Ümumiyyətlə, Həsən Əliyevin "Həyəcan təbili" ən müqəddəs bir məqsədə — təbiətə, insana xidmət etməyə çağırış təbilidir.

Mən Həsən müəllimi 1965-ci ildən tanıyıram. Azərbaycan EA Tarix İnstitutunda elmi işçi işləyirdim. Namizədlik dissertasiyasını müdafiə etmişdim. Coğrafiya İnstitutunda Budaq müəllimin yanına getmişdim. O məni Həsən müəllimə təqdim etdi və müdafiə etdiyimi bildirdi. Həsən müəllim məni ürəkdən təbrik etdi və hansı problemlə məşğul olduğumla maraqlandı, tədqiq etdiyim dövrə dair xeyli sual verdi. Budaq müəllimə tapşırdı ki, Qurban bizim instituta gələndə həmişə mənim yanıma gətir. Sonralar Coğrafiya İnstitutuna gedəndə, vaxt olanda, onunla görüşürdük. Mənə dəyərli tövsiyələr verirdi. Heç vaxt onları unutmaram. Bir dəfə ailə vəziyyətimlə, mənzil şəraitimlə maraqlandı. Mən ona dedim ki, 5 nəfər ailə üzvümlə birotaqlı mənzildə yaşayıram. Həsən müəllim telefon dəstəyini qaldırıb BDU-nun rektoruna və Oktyabr rayon Partiya Komitəsinin birinci katibinə zəng vuraraq dedi ki, sizin işçinizin — Universitet Partiya komitəsi katibinin mənzil şəraiti çətindir. O öz nüfuzuna sığışdırıb sizə heç nə demir. Əlbəttə, o, etik cəhətdən düzgün hərəkət edir, lakin siz onun qayğısına qalmalısınız. Sonra Ali Sovetin blankında Oktyabr rayon Partiya Komitəsinin adına xüsusi məktub yazıb göndərdi. Bu, Həsən müəllimin bir deputat kimi insanlara qayğısından irəli gəlirdi.

Yay aylarında Zaqulba pansionatında görüşürdük. Bağım olmadığından hər il yayda ora gedirdim. Mən 9-cu, Həsən müəllim isə 10-cu korpusda yaşayırdı. Axşamüstü məni çağırtdırar, dəniz kənarında gəzərdik. Cox maraqlı, yaddaqalan söhbətlər edərdi.

Hər söhbətində təbiətə, Xəzərə sevgisindən danışırdı. Deyirdi ki, mən bura yalnız dincəlmək üçün yox, dənizi seyr etmək üçün gəlirəm. Bizim dəniz çox gözəldir. Mən ona baxdıqca ilham alıram. Çalış, uşaqların da təbiəti sevsinlər, ondan zövq alsınlar.

Bizim Zaqulbadakı dənizkənarı söhbətlərimiz 1988-ci ilədək davam etdi. 1988-ci ildə Zaqulbada Həsən Əliyevə qarşı törədilən bir hadisə heç yadımdan çıxmır. Oğlum Məmməd Həsən müəllimi, o da oğlumu çox istəyirdi. Bir gün mən axşam işdən qayıdanda oğlum həyətdə məni çox həyəcanlı halda qarşıladı. İlk sözü bu oldu ki, Həsən əmi gəlmişdi, geri qayıtdı. Onun qaldığı otağın qapısına qıfıl vurublar, bir kəs tapılmadı ki, açarları ona versin. Mənimlə görüşüb getdi və dedi ki, atana de, narahat olmasın. Məlum oldu ki, bu o vaxtlar Azərbaycana yenicə hakimiyyətə göndərilmiş üzdəniraq rəhbər Vəzirovun düşmənçilik münasibətinin nəticəsiymiş. Onu də deyim ki, bizim ailəyə də avqust ayına yollayış vermədilər, yarımçıq geri qayıtdıq.

Azərbaycan tarixində görkəmli ictimai-siyasi və dövlət xadimi, böyük alim, akademik kimi xüsusi mövqeyi olan Həsən Əliyevi fərqləndirən bir

də odur ki, o, alimlər içərisində əsl alim, ziyalılar içərisində əsl ziyalı idi. Onun elmi, həyəcanı hamıya aid idi. Alimdən tutmuş məktəbliyə, fəhlədən tutmuş sıravi kəndliyə qədər hər kəs Həsən Əliyev həyəcanı, harayı ilə ayağa qalxmalı, o həyəcandan nəticə çıxarmalıdır. Nə qədər Azərbaycan var, nə qədər Azərbaycan ab-havası, ekologiyası var, Həsən Əliyev də var və yaşayacaqdır.

FİRDOVSİ ƏLİYEV
*Kənd təsərrüfatı elmləri namizədi*

## O, ELƏ BİR ŞƏXSİYYƏTDİR Kİ...

Anadan olmasının 95 illiyini böyük məhəbbətlə qeyd etdiyimiz mərhum akademik Həsən Əliyev torpaqşünaslıq, ekologiya, botanika, biocoğrafiya, meşəçilik, meliorasiya, aqrokimya, bitkiçilik kimi elm sahələrinə dəyərli töhfələr vermişdir. Onun çoxsahəli elmi fəaliyyətinin ana xəttini, şah damarını isə təbiəti mühafizə təşkil edir. Ölkəmizdə təbiəti mühafizənin təşəkkülü və inkişafı məhz onun adı ilə bağlıdır. Azərbaycan ekologiya elminin banisi məhz Həsən Əliyevdir.

Mənim H.Əliyevin rəhbər olduğu institututda işlədiyim dövr alimin ömrünün son illərinə təsadüf edir. O, mənim yaddaşımda sadəlik, təvazökarlıq, səmimiyyət, qayğıkeşlik, xeyirxahlıq, etibarlılıq, düzlük, halallıq... nümunəsi kimi qalmışdır. Ağsaqqallıq timsalı olan bu nurlu insanla təmasda olmağın, onun hikmətli söhbətlərinə qulaq asmağın özü bir məktəb idi.

Onunla ünsiyyətdə olduğum bir anı xatırlamaqdan böyük məmnunluq duyuram.

1986-cı ilin dekabr ayı idi. Azərbaycan Elmlər Akademiyasının hazırda H.Əliyevin adını daşıyan Coğrafiya İnstitutunun təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə şöbəsinə əyani aspiranturaya daxil olmuşdum. Dissertasiya işimlə bağlı mövzu seçmək üçün Həsən müəllimin qəbuluna getdim. Məni çox mehriban qarşıladı. Aspiranturaya girməyim münasibətilə təbrik etdi, ailə vəziyyətimlə maraqlandı. Söhbət zamanı Lerik rayonundan olduğumu biləndə mənə olan marağı bir az da artdı. Həsən müəllimin təşəbbüsü və yaxından iştirakı ilə bizim rayonun ayrı-ayrı təsərrüfatlarında üzüm, Zuvand çökəkliyində isə badam bağları salınmışdı. Məni xeyli sorğu-suala tutdu. Həm üzüm, həm də badam bağlarından

əldə edilən məhsulun ailələrin dolanışığına kömək olduğunu eşidəndə sevincini gizlətmədi. Həmin bağların ağır zəhmət bahasına başa gəldiyindən danışdı. Rayonumuzun uzunömürlü ahılları ilə görüşlərindən məhəbbətlə söz açdı. Onun söhbətinə qulaq açdıqca hiss edirdim ki, doğulub boya-başa çatdığım rayonu akademik kimi yaxşı tanımıram. Həsən müəllim kəndimizin yanından keçən çayın adını soruşanda adını düz deyə bilmədim o gülümsədi, nəvazişlə mənə baxıb əlavə etdi:

— Görürsən, oğlum, sən hələ öz rayonunuzu yaxşı tanımırsan. Lənkəran zonasının adamları nə qədər uzunömürlü və mehribandırlarsa, təbiəti də bir o qədər gözəldir, zəngindir, sirli-soraqlıdır. Unutma ki, hələ keçən əsrin ortalarında Avropa alimləri belə, bu diyarın təbiətinə maraq göstərmiş, onu öyrənməyə cəhd etmişlər. Burada geniş tədqiqat işləri aparılsa da, hələ öyrənilesi, araşdırılası problemlər çoxdur. Bax, bu gündən sonra bu elmin yolçularından biri də sənsən. Torpaqşünasın əsas axtarış işləri çöllərdə keçir. Çölə gedəndə qalmağa yerin, sənə həyan duran yoldaşın olmalıdır. Buna görə də istəyirəm elə tədqiqat işini Lənkəran zonasından götürəsən.

Beləliklə, akademikin məsləhəti ilə "Lənkəran subtropik vilayətinin relikt meşə torpaqları və onların mühafizəsi" dissertasiya işimin mövzusu oldu. Mövzunun əsas hissəsini torpaq proseslərinin dinamikası təşkil etdiyinə görə, bütün ilboyu tədqiqat aparır, hər dəfə çölə gələndə Həsən müəllimin söylədiklərinin həyatiliyini hər an hiss edirdim.

1987-ci ilin iyununda məni hərbi xidmətə çağırdılar. Çox çalışdım ki, namizədlik imtahanlarını verib sonra ordu sıralarına gedim, ancaq heç cür alınmadı. Həsən müəllimlə görüşdüm, vəziyyəti danışdım. O məni çox diqqətlə dinlədi, sonra fikrini bildirdi:

— Oğlum, əsgərliyə getmək sənə lazımdır. Dünyagörüşün artar, həyatın bərkindən-boşundan çıxarsan. Ən böyük qazancınsa o olar ki, rus dilini öyrənərsən. Bu gün rus dilini bilməyən alim sanballı bir tədqiqat işi yaza bilməz. O ki qaldı sənin imtahan məsələnə, narahat olma, çıxış yolu taparıq.

O, hərbi hissə komandirinin adına məktub hazırladı (qulluq edəcəyim hərbi hissənin ünvanını öyrənə bilmişdim). Hərbi andı qəbul etdiyim günün səhəri komandirin icazəsi ilə Bakıya gəlib imtahanları uğurla verdim.

Mən sevdiyim, ürəkdən bağlandığım bir elm sahəsini seçmişəm və bundan qürur duyuram. Səfərinə çıxdığım bu uzun yolun başlanğıcında mənə xeyir-dua verən Həsən müəllim kimi nurlu bir insan olmuşdur. Həsən müəllim elə bir şəxsiyyətdir ki, onun başqalarına örnək ola biləcək in-

sani keyfiyyətlərindən saatlarla danışmaq mümmkündür.

Həsən müəllim özü boyda bir ürək idi; bu ürəkdə Azərbaycan adlı məmləkətə və bu məmləkətin insanlarına böyük məhəbbət vardı. O, Azərbaycanımızın daşından, torpağından, dağlarından, çaylarından, yarımsəhralarından söhbət açanda sevinər, gözləri gülərdi. Həsən müəllim Azərbaycan təbiətini göz bəbəyi kimi qoruyar və hamını bu xeyirxah işdə iştirak etməyə çağırardı.

Həyatda Həsən müəllimin ən böyük arzusu və amalı bugünkü təbiətimizi gələcək nəsillərə bütün zənginliyi ilə çatdırmaq idi. Onun bu istiqamətdə gördüyü işlər Azərbaycan elmində və respublikamızın təbiətində dərin iz buraxmışdır.

MAHMUD XƏLİLOV
*Coğrafiya elmləri doktoru*

# AKADEMİK - MEŞƏÇİ

Akademik Həsən Əliyev təbiəti mühafizə üzrə yazdığı əsərlərində meşəyə xüsusi diqqət yetirmişdir. Respublikamızda meşələrin vəziyyəti, myhəfizəsi və bərpası məsələləri daim onu düşündürmüşdür. 1949-52-ci illərdə Azərbaycan EA Botanika İnstitutunun direktoru olarkən onun səyi nəticəsində səkkiz cildlik "Azərbaycan florası" kitabı nəşr edilmişdir. Sonralar Həsən müəllim Azərbaycan EA Torpaqşünaslıq və Aqrokimya İnstitutunda işləyərkən orada meşə torpaqları şöbəsi yaratmış və ömrünün sonunadək meşələrin və meşə torpaqlarının öyrənilməsi ilə məşğul olmuşdur.

H.Əliyev respublikanın müxtəlif regionlarında ayrı-ayrı ağac cinslərinin yayılması qanunauyğunluqlarına və əhəmiyyətinə diqqət yetirmiş, həm stasionar, həm də marşrut tədqiqatlarında müxtəlif meşə tiplərinin torpaqla əlaqəsi və təsirini aşkara çıxarmışdır. İnsanın sistemsiz təsərrüfat fəaliyyəti, dağ və düzən meşələrinin tədricən sıradan çıxması, relikt və endemik ağac növlərinin tükənmək təhlükəsi onu daim narahat etmişdir.

Akademik H.Əliyevin elmi-təşkilati fəaliyyəti nəticəsində 1955-ci ildə Azərbaycan EA Rəyasət Heyəti nəzdində Təbiəti Mühafizə üzrə Komisiya, 1963-cü ildəç isə Respublika Təbiəti Mühafizə Cəmiyyəti yaradılmışdır. Onun uzun illər rəhbərlik etdiyi bu cəmiyyətin üzvləri meşələrin mü-

hafizəsi üzrə mühüm tədbirlər həyata keçirmişlər. Məsələn, H.Əliyevin təşəbbüsü ilə Dəvəçi, Şamaxı, Zəngilan və Zuvand zonasının arid meşəbitmə şəraitində püstə, badam, saqqızağacı, Eldar şamı, iydəyarpaq armud və sərv ağacından ibarət meşə-bağlar salınmışdır. Hazırda bu bağlar bol badam məhsulu verir.

Həsən Əliyevin təşəbbüsü ilə Qarayazı tuqay meşəsi qoruğunu və Böyük Qafqazın cənub yamacının şərq hissəsində meşələri qorumaq məqsədilə Pirqulu dövlət meşə qoruğu yaradılmışdır.

Həsən müəllimlə ilk tanışlığım 196-ci ilin noyabrına təsadüf edir. O vaxt mən Bərdə Meşəçilik İnstitutunda işləyirdim. Bakıya qayıtmağı apzulayır, iş axtarırdım. Mənə məsləhət gördülər ki, EA Coğrafiya İnstitutunun direktoru Həsən Əliyevə müraciət edim. Elə də etdim. Akademiklə öz laboratoriyasında görüşdük, fikrimi ona söylədim.

Həsən müəllimin respublikanın bütün regionlardakı meşələr haqqında məlumatı var idi. Mən oun məsləhəti ilə Minkəndçayın sol terrasında yerli ağaclar arasında, bu rayon üçün xas olmayan sıx innab kollarını qeydə aldım. Yerli camaat burada türk əsgərlərinin qəbri olduğunu və vaxtı ilə türklərin ənənəsinə görə qəbrin yanında innab kolu basdırdıqlarını söylədi.

1969-cu ildə Həsən Əliyev tuqay meşələrinin acınacaqlı vəziyyətdə olduğunu və orada elmi-tədqiqat aparılmasının zərurətini qeyd etdi. Apardığımız üç illik elmi tədqiqatların nəticəsində Kürqırağı tuqay meşələri tədqiq edilmiş, mövcud meşə-bərpa işləri təklif olunmuşdur. Kürqırağı tuqay meşələrinin irimiqyaslı xəritəsi tərtib olunmuş, meşələrin mühafizə və bərpası üzrə elmi əsasda tədbirlər sistemi hazırlanmışdır.

Akademik Həsən Əliyevin rəhbərliyi altında sonralar respublikamızın dağlıq və dağətəyi regionlarında (Böyük Qafqaz, Kiçik Qafqaz, Talış) apardığımız tədqiqatlar nəticəsində əsas edifaktor ağac cinslərinin şaquli və üfiqi sərhədləri və ekoloji arealları, onların yaratdığı fitosenoz və populyasiyaların yayılması qanunauyğunluqları müəyyənləşdirilmiş, meşələrin, həmçinin meşənin yuxarı sərhədinin antropogen dinamikası, insan fəaliyyəti nəticəsində meşə ekosistemlərinin dəyişilmə istiqamətləri üzrə əsaslı elmi nəticələr əldə edilmişdir. Apardığımız son tədqiqatlar nəticəsində respublikanın ayrı-ayrı dağ, dağətəyi və düzən regionlarının müxtəlif təbii zonalarında hələ az-çox ilkin (təbii) vəziyyətini sazlamış meşə obyektləri aşkar edilmiş, onların mühafizəsi üçün yeni qoruqların və yasaqlıqların təşkili üzrə təkliflər işlənib hazırlanmışdır.

Akademik Həsən Əliyevlə apardığımız elmi tədqiqatlar nəticəsində biz "Azərbaycanın Kürqırağı tuqay meşələri", "Meşənin taleyi insanın öz əlin-

dədir", "Təbiətin yaşıl libası" və "Yaşıl sərvətin keşiyində" adlı monoqrafiyalar və məqalələr çap etdirdik.

Həsən müəllim olduqca qayğıkeş bir insan idi. Mən oğluma toy edəndə Həsən müəllim işə çıxmırdı, xəstələnmişdi. Sonra o, toya gələ bilmədiyinə təəssüf etdiyini bildirdi və mənə təkidlə hədiyyə olaraq pul verib kövrək səslə dedi: "Heyf ki, anası bu günü görmədi, taleyi belə imiş".

Həsən müəllim çox sadə insan olduğu üçün onun iş otağına çəkinmədən, ürəkli girərdim. Sanki direktorla yox, dostumla görüşürdüm. Fikrimi ona sərbəst çatdırır, ürəyimi açırdım.

Akademik Həsən Əliyevin meşəçilik üzrə dəyərli elmi-tədqiqat işlərindən indiki və gələcək nəsil də bəhrələnməli, meşələrin mühafizəsi və bərpası işində onlardan istifadə etməlidir.

# MÜNDƏRİCAT

Ön söz əvəzi *(Budaq Budaqov)* ... 3
Elin oğlu *(Budaq Budaqov)* ... 5
Böyük alim, böyük insan *(Məmməd Araz)* ... 10
Vətənpərvər alim *(Asəf Nadirov)* ... 14
Həyəcan təbili çalan vətəndaş-alim *(Bəxtiyar Vahabzadə)* ... 19
O kitab yazılmayacaq *(Hidayət)* ... 21
Vətəndaş-alim *(Qulu Xəlilli)* ... 25
Təbiət vurğunu, alim, vətəndaş *(Nəbi Xəzri)* ... 35
Yüksək vətəndaşlıq mövqeyi *(Cəlal Allahverdiyev)* ... 41
Cəmiyyətdə yeri görünən adam *(Nəriman Həsənzadə)* ... 43
Xeyirxah insan *(Ələşrəf Məmmədov)* ... 47
Elmə həsr edilmiş həyat *(Əsgər Əyyubov)* ... 51
Hər şeyi su ilə yuyurlar *(İmran Cəfərzadə)* ... 54
Əsrlərlə yaşı olacaq bir ömür *(Eyyub Qurbanov)* ... 58
Məktəbimizin böyük dostu *(Zahid Şöyübov)* ... 61
Şöhrətli alim *(Əhməd Xaspoladov)* ... 65
Tanınmış elm xadimi, gözəl insan *(Abbas Səmədov)* ... 70
Narahat bir ömrün səhifələrindən *(Zahid Əhmədov)* ... 73
Mənalı ömrün bir anı *(Barat Cəfərli)* ... 80
Görkəmli bioloq *(Vahid Hacıyev)* ... 81
Vətəni sevəndə *(Qərib Məmmədov)* ... 85
Təbiət vurğunu *(Zeynal Mövsumov)* ... 88
Nağıllardakı kimi... *(Səyyaf Xəlilov)* ... 91
Böyük alim, qayğıkeş insan *(Xəlil Mustafayev)* ... 99
Azərbaycan təbiətinin təbliğatçısı *(Şövqi Göyçaylı)* ... 100
Ana təbiətə övlad qayğısı *(Sirus)* ... 102

Müdrik təbiətşünas və böyük vətəndaş *(Şahvələd Xəlilov)* ........ 109
Zəngəzur elinin yetirməsi *(Həbib Həsənov)* ........ 111
Xoş niyyətli insan *(Qafar Cəlilov)* ........ 116
Ömürlərdə yaşayan insan *(Habil Haqverdiyev)* ........ 118
Qayğıkeş insan *(Vahib Rəsulov)* ........ 120
Həsən müəllimin qovağı *(Gümrah Musalı)* ........ 123
XX əsrin görkəmli alimi və vətəndaşı *(Qurban Bayramov)* ........ 125
O elə bir şəxsiyyətdir ki... *(Firdovsi Əliyev)* ........ 129
Akademik-meşəçi *(Mahmud Xəlilov)* ........ 131

**ELİN OĞLU**
**Akademik H.Ə.Əliyev haqqında xatirələr**
*(İkinci nəşri)*

| | |
|---|---|
| **Bədii və texniki redaktoru** | RAFAEL FAİLOĞLU |
| **Korrektoru** | ASYA SADIXOVA |
| **Kompüter operatorları** | ALİDƏ ZEYNALOVA |
| | ANAR MƏMMƏDOV |
| | ŞÖVKƏT ƏLƏKBƏROVA |
| **Çapa məsul** | ƏSƏD İSMAYILOV |
| **«İSMAYIL» NPM-in direktoru** | VƏSİMƏ İSMAYILQIZI |

Yığılmağa verilmişdir: 10.10.2002
Çapa imzalanmışdır: 28.11.2002
Kağız formatı: 60x84 $^1/_{16}$
Həcmi: 8,5 çap vərəqi
Tiraj: 500

© «İSMAYIL» Nəşriyyat-Poliqrafiya Müəssisəsi
Lisenziya AB № 022062

Ünvanımız: S.Əsgərova 85
Tel./Faks: 97 34 73
E-mail: ismayil_npm@graphic-designer.com • ismayil_npm@mail.ru